HƏBİBƏ ALLAHVERDİYEVA

# NAXÇIVAN

## MÖVZUSU RƏNGKARLIQ VƏ QRAFİKADA



HƏBİBƏ ALLAHVERDİYEVA NAXÇIVAN MÖVZUSU RƏNGKARLIQ VƏ QRAFİKADA

**HƏBİBƏ ALLAHVERDİYEVA**

# NAXÇIVAN MÖVZUSU RƏNGKARLIQ VƏ QRAFİKADA

*Monoqrafiya Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 oktyabr 2020-ci il tarixli iclasının (protokol № 03), Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının 31 yanvar 2025-ci il tarixli iclasının (protokol № 07) qərarı ilə çapa tövsiyə edilmişdir.*

**Naxçıvan-2025**

**Elmi məsləhətçi:** **İsmayıl Hacıyev**
*AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi*

**Elmi redaktor:** **Kubra Əliyeva**
*Sənətşünaslıq elmləri doktoru, professor*

**Rəyçilər:** **Əbülfəz Quliyev**
*AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim*

**Hüseynqulu Əliyev**
*Xalq rəssamı, professor*

**Əli Qəhrəmanov**
*Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

*Monoqrafiyada Naxçıvan mövzulu rəsm əsərləri – onun təbiəti, tarixi və mədəniyyəti, eləcə də tarixi şəxsiyyətləri, etnoqrafiyasının təsvir olunduğu rəngkarlıq və qrafika nümunələri, janr, forma, məzmun müxtəlifliyi, estetik səciyyələri əsasında tədqiq edilmiş, çağdaş sənətşünaslıq elminin estetik prinsipləri ilə ortaya qoyulmuşdur. Əsər sənətşünaslar, rəssamlar, təsviri incəsənətin tədrisi ilə məşğul olan pedaqoqlar və bu sahədə təhsilalanlar üçün nəzərdə tutulub.*

**Həbibə Allahverdiyeva, Naxçıvan mövzusu rəngkarlıq və qrafikada.** *Naxçıvan-2025, "Əcəmi" nəşriyyatı, 280 səh.*

4700000000
053-2025

**© "Əcəmi" 2025**

**DOI: https://doi.org/10.36719/0851/2025**



**“Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Möminə xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkdiyim çox gözəl şəkillərim vardı”**

**Ümummilli lider HEYDƏR ƏLİYEV**

**“Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyəti, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır”**



**“Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir… Ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar. Burada yaşıllıq azdır, bu diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik… qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi, insanlar da məğrurdurlar”**

**Ümummilli lider HEYDƏR ƏLİYEV**

# ÖN SÖZ

## Təsviri sənətdə doğma diyarın elmi təzahürləri

Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərlinin vətənində yaşayıb-yaradan Həbibə Allahverdiyeva artıq ölkəmizdə və ondan kənarda da təsviri sənətin yeni nəslini təmsil edən bənzərsiz rəssam kimi qəbul olunur. Həbibənin rəsm əsərlərində lirik-romantik təsvirlər və nikbin rənglər vasitəsilə həyatın və insanın fərqli bədii görkəmi canlandırılır. Zəriflik və lirizm Həbibə Allahverdiyevanın fərdi üslubunun səciyyəvi xüsusiyyətləri kimi çıxış edir. O, hazırkı mərhələdə Azərbaycan təsviri sənətində həm də realist cizgilərə malik olan lirik-romantik üslubun ən aparıcı simalarından biridir. Həbibə Allahverdiyeva əsasən lirik-romantik rəsmlər çəkməyə üstünlük versə də, onun təsvir-lərində Bəhruz Kəngərli sənətindən yaradıcı istifadə əsasında realist cizgilərdən də bacarıqla istifadə olunur. Bəhruz Kəngərli sənətinə xas olan sadə kompozisiya əsasında dərin realist məzmunu əks etdirmək xüsusiyyəti Həbibə Allahverdiyevanın rəsmlərində sadəliklə romantik-realist cizgilərin sintezi əsasında novatorluqla davam etdirilir. Həbibənin lirik-romantik üslubda çəkilmiş rəsmlərinin mütləq əksəriyyətində aydın qavranılan sadəliklə realist cizgilər onun təqdim etmək istədiyi fikrin ifadəsində açar funksiyasını yerinə yetirir. Beləliklə, Həbibə Allahverdiyeva müa-sir təsviri sənətlə lirik ovqata malik romantik-realist üslubun tanınmış nümayəndələrindən biridir. Sənətdə öz yolunu müəyyən etmək, həmin istiqamətdə yaratdığı orijinal rəsm əsərləri ilə fərdi üslubunu təsdiq etməyə nail olmaq Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın ən mühüm uğurudur. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin tələbəsi ikən çəkdiyi rəsm əsərlərindən başlayaraq keçən iyirmi ilə yaxın dövr ərzində

yaratdığı zəngin rəsm qalereyası zəriflik və lirikadan, romantik-realist çalarlardan yoğrulmuş qiymətli sənət xəzinəsinə çevrilmişdir.

Həbibə Allahverdiyevanın bir mühüm uğuru da onun dünya və Azərbaycan təsviri sənətinin çoxəsrlik ənənələrini, görkəmli rəssamların həyatı və yaradıcılığını daim öyrənməyə maraq göstərməsi, təsviri sənətdə baş verən prosesləri izləməsi ilə bağlıdır. Bu, onun sənətdə getdiyi yolun özünəməxsusluqlarını dərindən mənimsəməsinə, kənar təsirlərdən uzaqda durmasına, sənətini daim təkmilləşdirərək inkişaf etdirməsinə şərait yaradır. Mütaliəyə, öyrənməyə marağı onu həm də təsviri sənətin tədqiq edilib araşdırılması işinə də təşviq etmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyevanın “Naxçıvan mövzusu rəngkarlıq və qrafikada” mövzusunda üzərində çalışdığı monoqrafiya bu mövzuda yazılmış ilk elmi-tədqiqat işidir. Təsviri sənətdə olduğu kimi, elmi-tədqiqat işində də Həbibə Allahverdiyevanın mövzuya dərin marağı, böyük zəhməti, ayrı-ayrı məsələləri fərqli mövqedən təhlil etmək qabiliyyəti özünü göstərir. Rəssam kimi təsviri sənətin sirlərinə də-rindən bələd olması onun tədqiqata cəlb etdiyi rəsm əsərlərinin təkcə mövzusu və ideyasını deyil, həm də sənətkarlıq xüsusiy-yətlərini də görməsinə və göstərməsinə imkan açır. Müasir dövrdə Azərbaycan təsviri sənətində Naxçıvan mövzunun əsas yaradıcılarından biri olması Həbibə Allahverdiyevaya bu ecazkar diyarın ayrı-ayrı mənzərələrinin rəsm əsərlərinə çevrilmələrinin müxtəlif texnologiyalarını müəyyən edib, elmi cəhətdən obyektiv şəkildə qiymətləndirmək şansı yaradır. Ona görə də Həbibə Allahverdiyevanın rəsm əsərlərində olduğu kimi, araşdırmalarında da mövzuya fərqli mövqedən yanaşmaqla elmi özünəməxsus qiymət vermək tərzi diqqəti cəlb edir. Bəzi məqamlarda isə onun müxtəlif rəssamların əsərləri haqqındakı fikirləri tədqiqat obyekti olan mövzuda nəyi və necə çəkmək haqqında bələdçi xarakterli

mülahizələrinin meydana çıxması ilə nəticələnir. Mövzuya dərindən bələd olmağın təzahürü olan bu xüsusiyyət mövcud reallıqların qiymətləndirilməsi ilə bərabər, həm də həmin istiqamətdəki fəaliyyətin daha da inkişaf etdirilməsinə xidmət edir.

Təqdim olunan monoqrafiyada dahi Bəhruz Kəngərli sənətindən rəssamlığın sonrakı bütün inkişafının möhkəm bünövrəsi və bələdçisi kimi söz açılır. Həbibə Allahverdiyeva ilk növbədə Naxçıvanda yaşayıb-yaradan realist rəssamların yaradıcılığında doğma diyar mövzusunun təhlil edilməsi yolu ilə bu sahədəki yeni ənənələri elmi şəkildə nəzərdən keçirmişdir. Bununla belə Həbibə Allahverdiyeva Azərbaycan təsviri sənətində romantik-realist üslubda yaradılmış Naxçıvan mənzərələrinin təhlili vasitəsilə realist çalarlara malik romantik sənətin mahiyyətinin açılmasını şərtləndirir. Fikrimizcə, lirik-romantik təsviri sənətin realist təzahürlərinin araşdırılıb qiymətləndirilməsi Həbibə Allahverdiyevanın sənətdə olduğu kimi, elm sahəsindəki də özünəməxsus yeniliyidir.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva sənətşünaslıqda ilk dəfə olaraq “Xarici ölkə rəssamlarının yaradıcılığında Naxçıvan mövzusu”, kino sənətində və teatr rəssamlığında Naxçıvan mövzusunun bədii həlli məsələlərini tədqiqata cəlb etmiş, sistemli tədqiqat aparmaqla ümumiləşdirilmiş elmi təsəvvür yaratmağa nail olmuşdur.

Bütövlükdə Həbibə Allahverdiyevanın “Naxçıvan mövzusu rəngkarlıq və qrafikada” adlı monoqrafiyası Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim və həmişəcavan diyarın obrazının təsviri sənətdə canlandırılmasının mənalandırılmasının tam və bütöv elmi mənzərəsini yaratmağa uğurla xidmət edir. Bu elmi əsər Azərbaycan və dünya rəngkarlığı və qrafikasında Naxçıvan mövzusunda çəkilmiş təsviri sənət nümunələrinin elmi qalereyasıdır.

"Naxçıvan mövzusu rəngkarlıq və qrafikada" monoqrafiyası Həbibə Allahverdiyevanın fırçası ilə olduğu kimi, elmi araşdırmaları ilə də doğma diyarın vəsf olunmasına və təqdim edilməsinə yüksək səviyyə və məsuliyyətlə xidmət etməsinin mühüm bir göstəricisidir. Arzu edirəm ki, Həbibə müəllimənin kitabı apardığı elmi araşdırmalarda əhatə etdiyi istiqamətlər üzrə seçilmiş rəsm əsərləri ilə bir yerdə çap olunsun. Bu, dünya təsviri sənətində və Azərbaycan rəssamlığında Naxçıvan mövzusunu daha əyani şəkildə təqdim edən orijinal bir albom – monoqrafiya ola bilər.

Eyni zamanda, Həbibə Allahverdiyevanın elmi əsəri təsviri sənətdə Vətən mövzusuna bu cazibədar kitabın müəllifi olan istedadlı rəssamın elmi töhfəsi kimi də mühüm əhəmiyyətə malikdir. Bu, təsviri sənətdə doğma torpağın tədqiq edilməsinin maraqlı bir modelidir. Hesab edirik ki, təqdim olunan monoqrafik tədqiqat rəngkarlıqda Vətənimizin digər bölgələrinin, məsələn Qarabağ, Abşeron, Xəzər mövzularının da sənətşünaslıq baxımından tədqiq edilib öyrənilməsinə meydan açacaqdır.

Bənzərsiz sənətinə və yüksək mənəvi dəyərlərinə həmişə ehtiram bəslədiyim, təsviri sənətdə fərqli bir sima kimi özünü təsdiq edəcəyinə inandığım Həbibə Allahverdiyevaya rəngkarlıq yollarında və elmi araşdırmalarında uğurlar arzulayıram.

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın prezidenti, akademik**

*13 dekabr 2020-ci il*

# Naxçıvan mövzusu rəngkarlıq və qrafikada



Rəssam: Həbibə Allahverdiyeva (səh.3; 4; 9)

# GİRİŞ



Azərbaycan eləcə də onun ayrılmaz və zəngin hissəsi olan Naxçıvan dünyanın ən qədim və zəngin tarixə, mədəniyyətə malik gözəl guşələrindən biridir. Qədim Nuh yurdu olan Naxçıvan torpağında yerləşən tarixi abidələr – Gəmiqaya, Kültəpə abidələri, qayaüstü təsvirlər və s. bu yerləri özünə məskən seçmiş insanların hələ uzaq keçmişlərdə coşqun həyat və yaradıcılıq prosesi keçdiyinin göstəricisidir. Azərbaycan torpağının gözəlliyi, rəngarəngliyi, iqlimi, təbii sərvətlərlə zəngin olması xalqın bədii təfəkkür və yaradıcılığına da təsirsiz ötüşməmişdir. Onun incəsənəti təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

İncəsənətin böyük bir sahəsini tutan təsviri sənətin rəngkarlıq və qrafika sahəsində Naxçıvan təbiət təsvirlərinə, qədim

tarixi özündə əks etdirən memarlıq abidələrinə çox tez-tez rast gəlinir. Bu mövzuda çəkilmiş hər bir əsər müxtəlif janrlarda çəkilmişdir. Lakin bu daha çox mənzərə və tematik tablo janrı ilə öz ifadəsini tapır.

Azərbaycan təsviri incəsənətinin tarixinə nəzər saldıqda hər bir janrın müstəqil mövqe tutduğu zamanadək nə qədər qədim və uzun bir inkişaf yolu keçdiyinin şahidi oluruq. Rəssamlığın ən geniş yayılmış janrlardan olan mənzərə janrının ilkin kökləri qaya təsvirlərində, müxtəlif məmulatlar üzərində, keramika nümunələri üzərində çəkilmiş təsvirlərdə dekorativ formada və kompozisiya daxilində öz əksini tapır. Məhz qayalar üzərində iz salmış bu təsvirlərlə Naxçıvanın neçə-neçə min illər öncə mövcudluğu, qədim mədəniyyətə, adət-ənənələrə malik olduğu açıq şəkildə özünü göstərir. Naxçıvan haqqında ilk "söz" təsvirlər vasitəsilə onu "dilə gətirən" adlarını çəkdiyimiz qədim tarixi-mədəniyyət abidələri, qədim incəsənət nümunələri üzərindəki rəsmlər, stilzə olunmuş naxışlardır. "Xalqımızın tarixi etnoqrafiyası və arxeologiyası üçün mühüm əhəmiyyətə malik olan, bəşər tarixinin ilkin təkamül çağlarından xəbər verən Gəmiqaya abidəsi qədim insanların dini, ideoloji, mifoloji, siyasi görüşlərini əks etdirən qayaüstü rəsmlər toplusudur. Süjet və kompozisiyası ilə fərqlənən bu rəsmlərin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə həsr olunub" [95].

Azərbaycan milli təsviri sənətinin realizmə qədər geniş dövrünü miniatür təsvirlər tutur. Bu təsvirlər gələcək dövrlərdə hər bir janrın yaranmasına, realist üslubda müstəqil mövqe tutmasına yol açmışdır.

Mənzərə janrı təsviri incəsənətin böyük bir sahəsini tutur. Mənzərə janrında təbiət təsvirləri müstəqil təsvir mənbəyinə çevirilir. Mənzərə janrında çəkilmiş əsərlər tamaşaçı tərəfindən duyulan, qavranılan, onun incə duyğularına oxşayan, qəlbində lirik, hüznlü, xoş, yaxud məhzun hisslər oyadır. Şəxsi hiss və həyəcana əsaslanan rəssamın yaratdığı rənglərin təfsilatı ilə verdiyi təbiətin gözəllikləri insanın bədii hissiyatını tərbiyyə edən, bu hissiyatı saflaşdırıb kamilləşdirən və inkişaf etdirən başlıca mənbəyə çevrir. Naxçıvan təbiətinin gözəllyinə biganə olmaq qeyri-mümkündür. Mövzu etibari ilə mənzərələr müxtəlif və rəngarəng olur. Buraya şəhər görünüşləri, sənaye ocaqları kimi insan əli ilə dəyişdirilmiş guşələrin və öz ibtidai vəziyyətini mühafizə edən təbiət motivlərini, təbiətdəki iqlim təbəddülatını təsvirini verən tablolar daxildir. Xarici ölkə rəssamları, eləcə də yerli rəssamlar öz əsərlərində Naxçıvanın ən adi və tipik mənzərələrini, səfalı kənd təbiətini, meşələri, çayları, çəmənləri, abidələrini, əhalinin əsas məşğuliy-yətini, adət-ənənələrini və s. əks etdirmişlər. Belə əsərlər Naxçıvanın təbiət gözəllikləri, Naxçıvanın qədim tarixi haqqında, ictimai, mədəni mühiti, etnoqrafiyası, zəngin mədəniyyəti haqqında geniş təsəvvürün yaranması, o cümlədən Naxçıvanı "Nəqşicahan"a çevirən abidələrin dünya sferasında yaxından tanıdılması, öyrənilməsi, təbliğ olunması baxımından böyük əhəmiyyətə malikdir.

Naxçıvan mövzulu elə əsərlər də var ki, onu tam olaraq mənzərə janrına aid etmək mümkün olmur. Orada təbiət motivləri olsa da əsər tematik tablo janrına, məişət janrına, tarixi janra aid etmək daha yerinə düşür.

Mənzərə, tematik tablo, natürmort, portret janrı müstəqil janr kimi realizmin banisi, peşəkar rəssamlıq təhsili görmüş rəssam B.Kəngərlinin yaradıcılığında rast gəlinir. Naxçıvan mövzulu rəngkarlıq və qarafika nümunələri Azərbaycan təsviri incəsə-nətində B.Kəngərli yaradıcılığında mənzərə janrı, tematik tablo janrı və natürmort janrında mühüm yer tutur. Azərbaycanın müxtəlif bölgələrində yaşamış, yaradıcılıq fəaliyyəti göstərmiş rəssamların yaradıcılığında tarixin müxtəlif dövrlərində siyasi münaqişələr, siyasi oyunlar nəticəsində ayrı düşmış, tarixin çətin sınaqlarından keçmiş bu qədim diyara həsr olunmuş mövzular geniş yer almışdır. B.Kəngərlidən sonra da bu ənənə davam etdirilmiş, Naxçıvanın qədim tarixini, gözəl təbiətini, tarixi-mədəniyyət abidələrini Azərbaycanın görkəmli rəssamları öz əsərlərində bədii ifadələrlə əks etdirmişlər.

Eyni zamanda bütün dövrlərdə Naxçıvanın diqqət çəkən tarixi-memarlıq abidələri, mənzərələri, mədəniyyət nümunələri, etnoqrafiyası, şəxsiyyətlərinin təsviri də xarici ölkə rəssamlarının əsərlərində – miniatür nümunələrdə, realist və müxtəlif üslublarda fərqli texnikalarla hər bir janrın bədii ifadə xüsusiyyətlərilə yer almışdır.

# I FƏSİL

# XARİCİ ÖLKƏ RƏSSAMLARININ YARADICILIĞINDA NAXÇIVAN MÖVZUSU



## I.1. Xarici ölkə rəssamlarının yaradıcılığında Naxçıvan təbiəti, tarixi və mədəniyyəti miniatür və realizm işığında

Tarixən xalqımızın yaratdığı maddi-mədəniyyət nümunələri xarici ölkə səyyahları, tacirləri və sənət adamları tərə-findən çox maraqla qarşılanıb. Eləcə də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın tarixi, təbiəti və mədəniyyəti xarici ölkə səyyahlarının, elm adamlarının diqqətini cəlb edib və müxtəlif dövrlərdə tədqiq olunub. Eyni zamanda tədqiqat müddətində onlar tərəfindən bu qədim diyarın təsvirləri çəkilmişdir. Müxtəlif dövrlərdə Naxçıvanın qədim tarixi-memarlıq abidələri, müxtəlif mənzərələri, mədəniyyət nümunələri, etnoqrafiyası, şəxsiyyətlərinin bədii təsviri xarici ölkə rəssamlarının yaradıcılığında rəngkarlıq və qrafika janrında yer almışdır.

Belə əsərlər eyni zamanda çəkilən dövrün tarixinə güzgü tutaraq tarixi hadisələri, mühiti özündə əks etdirir. Məhz tarixin bədii əksini dekorativ formada ifadə tapdığı, Naxçıvan adına ilkin olaraq rast gəlinən miniatür əsəri nümunə göstərmək olar. Türk miniatür sənətinin mahir ustası, tarixçi və riyaziyyatçı Matrakçı Nasuhun (1480-1564) yaradıcılığında Naxçıvan tarixinə yer vermiş, Sultan Süleyman Qanuninin Naxçıvana yürüşünü təsvir edən miniatür əsəri yaratmışdır (şəkil 1). Rəssam “Sultan Süleyman Naxçıvanda Osmanlı ordusunun başında. 1554-cü ilin

yayında" əsərini 1561-ci ildə Osmanlı imperiyasının ilk saray tarixçisi, 60000 beytdən ibarət "Şahnamə Ali Osman"ın müəllifi olan Fətullah Arif Çələbinin fars şeiri ilə kompozisiya vəhdətində yaratmışdır. İstanbul şəhərində dünyanın ən böyük saray-muzey komplekslərindən biri olan Osmanlı sultanlarının iqamətgahı olmuş Topqapı sarayında saxlanılan bu miniatür Süleymannamədə yer alır. Süleymannamə Fətullah Arif Çələbi tərəfindən yazılmış "Şahnamə-yi Əl-i Osman"ın (Osman Evinin Şahnaməsi) beşinci cildidir. Bu, Süleymanın 1520-ci ildən 1555-ci ilə qədər hökmdar kimi hakimiyyətinin ilk 35 ilinin hesabatıdır.



Şəkil 1. Matrakçı Nasuh. "Sultan Süleyman Naxçıvanda Osmanlı ordusunun başında. 1554-cü ilin yayında"

Əlyazmanın ölçüsü 25,4 x 37 santimetrdir və 617 vərəqdən ibarətdir. Əsərdə çəhrayı, qəhvəyi, mavi və yaşıl da daxil olmaqla, seçilən rənglər bir-birini tamamlamış, maraqlı kompozisiyada ümumiləşdirilmişdir. Miniatür nümunədə təbiət motivlərinin, at və insan təsvirlərində dekorativlikdən doğan incəlik diqqəti cəlb edir. Bəhs olunan əsərdən başqa qədim diyarın təsvirləri indiyə dək məlum olan məlumatlara əsasən realist üslubda yaradılmışdır.

Əvvəlki tədqiqatlara əsasən Naxçıvanın qədim abidələrinin realist təsviri ilk olaraq alim, yazıçı, arxeoloq, tarixçi Frederik Debua de Monperenin yaradıcılığında rast gəlindiyini demək mümkün idisə, sonrakı araşdırmalar bunu təkzib edir.



Şəkil 2. Ulyam Ouseley "Naxçıvan qalıntıları"

Bu tədqiqatlara əsasən Möminə xatun türbəsinin 1812-ci ildəki təsviri bunun Monpereden daha əvvələ getdiyini deməyə əsas verir. Tədqiqatçı Yunis Xəlilovun yazdığı məqaləyə əsasən bu rəsm Ulyam Ouseley tərəfindən çəkilib. “1823-cü ildə britaniyalı şərqşünas Ulyam Ouseleyin (William Ouseley) Londonda çap edilmiş “Şərqin müxtəlif ölkələrinə, xüsusilə də İrana səfərlər” (“Travels in various countries of the east; more particularly Persia”) adlı kitabına müraciət edək. Həmin kitabdan aydın olur ki, Ulyam Ouseleyin 1812-ci ildə səyahəti zamanı Naxçıvanda da olmuş və həmin il Möminə xatun türbəsinin rəsmini çəkmişdir. Buradan birmənalı şəkildə aydın olur ki, bu gün adı çəkilən türbənin ilk rəsminin Dyubua de Monpere tərəfindən təsvir edilməsi haqqındakı fikir həqiqətə uyğun deyil. Çünki yeni aşkara çıxardığımız fakt sübut edir ki, türbənin rəsmi Monperedən xeyli əvvəl, 1812-ci ildə Ulyam Ouseley tərəfindən çəkilib” [30]. Ulyam Ouseleyin çəkdiyi qrafik əsərdə Möminə xatun türbəsinin təsviri digər rəssamlardan fərqli formada əks olunub. “Naxçıvan qalıntıları” adı ilə çəkilən bu rəsmdə qoşaminarəli baştağ arxa planda təsvir olunmuşdur (şəkil 2). Türbənin ətrafında uçmuş divar görüntüsü, ön planda isə Cümə məscidinin qalıqları realist üslubda dəqiq cizgilərlə verilmişdir.

XIX əsrin əvvəllərində Naxçıvan təsviri tarixi janrda da yer almışdır. Tarixi-siyasi mövzulu rəsm əsəri məhşur rus batalist rəssamı Vladimir İvanoviç Maşkovun (1792-1839) yaradıcılığında “Persiya qalası Abbasabadın 7 iyul 1827-ci ildə təhvil verilməsi” adlı əsəridir (şəkil 3). Tarixin bəzi dövrlərində Azərbaycanın tarixi-coğrafi əraziləri, tarixi abidələrinin adları, onlar haqqında bəzi məlumatlar səhv verildiyi kimi əsərin adındakı Persiya sözü də

düzgün yazılmamışdır. Abbasabad qalası Naxçıvan şəhəri yaxınlığında Abbas Mirzə tərəfindən 1809-1810-cu illərdə tikdirilmiş hərbi istehkam tipli qala olmuşdur. Bu mövzuda tarix üzrə fəlsəfə doktoru Musa Rəhim oğlu Quliyev "Görkəmli sərkərdə I Ehsan xan Kəngərli-Naxçıvanski hərbi rəssam, akademik Maşkovun rəsm əsərində" adlı məqaləsində geniş təhlil aparmışdır. O, Platon Zubovun "1800-1834-cü illərdə Qafqaz ölkələrində rus döyüşçülərinin hünərləri" (II tom, SPB.1836) adlı kitabına əsasən rəsm əsərdə təsvir olunmuş tarixi obrazlar haqqında belə qənaətə gəlmişdir:




Şəkil 3. Vladimir İvanoviç Maşkov. "Persiya qalası Abbasabadın 7 iyul 1827-ci ildə təhvil verilməsi"

"P.Zubovun bu tarixi qeydləri V.Maşkovun çəkdiyi rəsm əsərindəki şəxslərin kimliyini aydınlaşdırmağa imkan verir. Ağ atın üstündə qraf İ.Paskeviç dayanmışdır. Məhəmmədemin xan ona təzim edərək Abbasabad qalasının açarını təqdim edir.

Yanında iki starşinası var. Ondan sonra onun bayraqdarı döyüş bayrağını təhvil vermək üçün gətirir. Bir az aralıda I Ehsan xan atının yüyənindən tutaraq dayanmışdır. Onun süvari döyüşçü qamətini rəssam dəqiqliklə təsvir etmişdir. Atın belində bəzəkli xalça görünür. Ondan xeyli arxada Naxçıvan Kəngərlilərinin batalyonu döyüş bayraqları ilə dayanmışdır" [100]. Bəhs olunan rəsm əsəri



Şəkil 4. Frederik Debua de Monpere. "Möminə xatun türbəsi"

Naxçıvan xanlığında yerləşən Abbasabad qalasının və həmin qalada Naxçıvan Kəngərli batalyonunun komandiri olan I Ehsan xanın obrazının, eləcə də tarixi hadisələrin təsvirinin realist ifadəsi tarixilik və bədiilik baxımından böyük əhəmiyyət kəsb edir.

Naxçıvan abidələrinin realist təsvirin F.D.Monperenin yaradıcılığında rast gəlinir. Fransız naturalisti, alim, yazıçı, arxeloq, tarixçi Frederik Debua de Monpere 1833-1834-cü illərdə Qafqazda olmuşdur. 1834-cü ildə Naxçıvanda olan isveçrəli alim Nuh türbəsini və Möminə xatun türbəsinin rəsmini çəkmişdir. Sonralar bu səyahətin yekunu kimi "Qafqaz ətrafına səyahət" adlı altı cildlik kitab, atlas və illüstrasiyalar nəşr edilmişdir. Fransız mənşəli naturalistin Nuh türbəsinin qalıqları, Möminə xatun türbəsinin realist rəsmi "Qafqaz səfərinə dair atlas" illüstrasiyaları arasında yer almışdır.



Şəkil 5. Frederik Debua de Monpere “Nuh türbəsi”

Çox dəqiq realist formada çəkilmiş “Möminə xatun türbəsi” kompozisiyası tarixilik, etnoqrafiklik, bədiilik baxımından dəyərlidir (şəkil 4). Əsərin “arxa fonunda geniş səma, uzaqdan Ağrı dağın görüntüsü və balaca evlər verilmişdir. Ön planda Möminə xatun türbəsi, qoşaminarəli baştağın fonunda insan fiqurları təsvir olunmuşdur” [87, s.53]. Bunlardan ön planda verilmiş yarımçıq tikili, eləcə də türbənin yaxınlığında söhbət edən insanlar, onların geyim forması diqqəti cəlb edir.

Monperenin “Nuh türbəsi” əsərində uzaqdan göünən Əshabi-Kəhf dağı və Naxçıvanın simvoluna çevrilən İlan dağ, ön planda isə Nuh türbəsinin yarıuçuq görüntüsü verilmişdir (şəkil 5). Türbənin yanında təsvir olunan insan fiquru kompozisiyanı daha da baxımlı etmişdir.



Şəkil 6. Çarles Henry Fairland “Gülüstan türbəsi”

Gürcüstanlı qrafik Dyusterdikin "Naxçıvan görüntüsü" adlı litoqrafiyasında Frederik Debua de Monperenin "Möminə xatun türbəsi" əsərindən bir az fərqli variantı təsvir olunmuşdur. Abidələrin kompozisiya quruluşu eyni olsa da əsərin ön planında verilmiş bir neçə insan fiquru fərqli formada işlənmişdir. Naxçıvanın mədəniyyət incilərindən olan digər bir türbənin təsviri başqa bir mənbədə rast gəlinir. Bu Britaniya hökumətinin əmri ilə həyata keçirilən tədqiqatdan bəhs edən İngilis generalı və kəşfiyyatçısı Chesneyin (Francis Ravdon) "Dəclə və Fərat çaylarının tədqiqi üçün ekspedisiyası" adlı 1835,1836,1837-ci illəri əhatə edən 1850-ci ildə Londonda nəşr edilən kitabdır ki, burada Gülüstan türbəsinin təsviri yer alır (şəkil 6).



Şəkil 7. Barbant. "Naxçıvan. Möminə xatun türbəsi"

Təsvir maraqlı kompozisiya, dərin perspektivanın düzgün ifadəsilə çəkilmişdir. Qrafik əsərdə uzaqdan görünən Gülüstan

qayaları fonunda Gülüstan türbəsi təsvir olunmuşdur. Türbənin yanında təsvir olunan üç nəfər atlının türbəyə toxunaraq maraqla baxıb müzakirə etdikləri aydın şəkildə əks olunub. İncə cizgilərlə verilmiş atlı təsvirinin ekspedisiya üzvləri olduğunu təxmin etmək olar.



Şəkil 8. H.Klerqet. “Naxçıvanda Atabəy kümbəzi”

Kitabda dərc olunmuş rəsmin kənarında “Fairland lith” sözləri yazılmışdır. “lith”, “litoqravür” sözünün qısaldılmış

yazılışıdır. İki böyük kəşfiyyat ekspedisiyasında və iki hərbi kompaniyada iştirak edən Britaniya Kral Donanmasının zabiti Fitzjamesin çəkdiyi rəsmlər haqqında yazılmış bir mənbədə deyilir ki, "Fərat ekspedisiyası zamanı bəzi zabitlər (Çesni, Fitzjames, Estkort, Kokbern, A. Staunton) ətrafı və qarşılaşdıqları insanların rəsmlərini çəkdilər. Ekspedisiyanın komandiri Frensis Ravdon Çesni 1868-ci ildə öz hesabatını dərc edərkən, litoqraflar Day Haghe tərəfindən, bəziləri C.H(Charles Henry) Fairland tərəfindən hazırlanmışdır. Kitabda dərc edilmiş 45 rəsmdən 13-ü Fitzjames tərəfindən çəkilmişdir" [113]. Buna əsasən təsvirin litoqrafiya nümunəsi olduğu və Çarles Henry Fairland tərəfindən çəkildiyini ehtimal etmək olar.

Bundan əlavə kitabda Naxçıvana aid başqa təsvirə rastlanmasa da memarlıq incilərindən sayılan körpü haqqında bu qeydlər yer almışdır: "Şairlərin tərənnüm etdiyi bu çay artıq daha geniş istifadəyə uyğun gəlmir. Şah Abbas dövründə Təbrizdən təxminən 60 mil şimalda Araz çayı üzərində gözəl memarlıq nümunəsi olan daş körpü inşa edilmişdir. Körpünün hər biri yeddi tağdan ibarət ikinci bir hissəsi mövcuddur" [113].

Barbantın 1876-cı ildə taxta üzərində cızılmış "Naxçıvan. Möminə xatun türbəsi" adlı qravürü kompozisiya baxımında maraq doğuran əsərlərdəndir. Tarixi abidənin fonundakı təsvirlər xarici səyyahların Naxçıvana səfərini əks etdirir (şəkil 7).

Digər bir mənbədə Naxçıvan abidələrinin dəqiq cizgilərlə çəkilmiş realist təsvirləri maraq doğurur. Jane Dieulafoy müəllifi olduğu gündəlik əsaslı "La Perse, la Chaldée et la Susiane" 1887-ci ilə aid kitabında Əcəmi memarlıq məktəbinin gözəl nümunələri olan Yüsif Küseyr oğlu türbəsi, Möminə xatun türbəsi və Cümə



Şəkil 9. Lankelot. "Naxçıvanda türbə və minarənin qalıqları"




Şəkil 10. H.Klerqet. "Naxçıvanda uçmuş məscid"

məscidinin realist təsviri yer almışdır. Bəhs olunan bu abidələr H.Klerqet və Lankelot tərəfindən çəkilmişdir. Naxçıvanda olan səyyah tərəfindən Atabəy kümbəzi belə təsvir olunmuşdur: "Tikinti tağlı qəbirüstü sərdabə üzərində dayanır; piramidal formada olan dam kərpiclə örtülmüşdür; abidənin frizləri və üzləri Cüma məscidindəki kimi kufi yazıları ilə bəzədilmişdir; lakin naxışlar daha sadə şəkildə, yeknəsək rəngli kərpiclərin mozaikasında icra edilmişdir" [92, s.27].

H.Klerqetin çəkdiyi Yüsif Küseyr oğlu türbəsinin təsviri olan "Naxçıvanda Atabəy kümbəz" (şəkil 8) əsərində türbənin damı üstündə leylək yuvasını da göstərmişdir. "Damın başında leylək yuvası var, deyəsən, hər il bu gözəl quşlar yumurta qoymağa

və inkubasiya üçün gəlirlər. Balaların doğulması və ya böyüməsi dörd-beş ay çəkir və sonra ata yuvasını tərk edir, valideynlər isə qaranquş kimi daimi olaraq, eyni abidənin zirvəsində yuvanı yeniləmək üçün hər il qayıdırlar.” [92, s.27].




Şəkil 11. D.Lancelot. “Naxçıvanda dağılmış məscid”

Kitabda yazılan tarixi məlumatlardan bəzi hissələr həqiqəti əks etdirməsə də, orada verilən qravür təsvirlər, bu qədim

memarlıq incilərinin o dövrkü real vəziyyətini aydın əks etdirir. Lankelot. “Naxçıvanda türbə və minarənin qalıqları” adlı əsəri də bu baxımda əhəmiyyətlidir (şəkil 9).



Şəkil 12. Etienne Ronjat “Culfa bazarı”

Səyahət gündəliyi əsasında Eduard Şarton tərəfindən yazılmış “Le Tour de Monde” – “Dünya səyahəti” kitabının 1891-ci ilə aid nəşrində isə Naxçıvan torpağına aid maraqlı rəsimlərə rast gəlinir. Burada Naxçıvan, Ordubad və Culfaya aid tarixi yerlərin, mədəniyyət nümunələrinin, təbiət mənzərələrinin realist təsviri maraq doğurur. D. Lancelotun çəkdiyi “Naxçıvanda dağılmış məscid” adlı əsər günümüzə qədər gəlib çatmayan Cümə məscidinin fotosu əsasında çəkilmişdir (şəkil 11).

Qravür Əcəmi memarlıq məktəbinin nümunəsinin XIX əsrə aid olan formasının realist görnüşünü əks etdirir. Bu qravür Jane Dieulafoyun kitabında verilən XIX əsrin 80-ci illərində H.Klerqet tərəfindən çəkilən təsvirdən fərqlidir (şəkil 10). H.Klerqetin çəkdiyi əsər məscidin uçmuş hissənin görünüşünü əks etdirirsə, D.Lancelotun qrafik əsərində onun digər tərəfdən olan görünüşü təsvir olunmuşdur.



Şəkil 13.A. Ferdinandus. "Culfada küçə"

Naxçıvanın qədim bölgələrindən olan Culfa şəhərini əhatə edən tarixi yerlərə səyahət etmiş rəssamlar bu tarixi, gözəlliyi, qədim mədəniyyəti öz yaradıcılıqlarında əks etdirmişlər.

Culfanın tarixi yerlərini səyahət müddətində naturadan və ya fotoşəkillər əsasında rəsm edən xarici ölkə rəssamları A. Ferdinandus, E. Ronjatın, D. Lancelotun, A.Parisin, Barbantın, T.Taylorun qravüralarında, İ.P.Şeblik akvarellə çəkdiyi əsərlərində bu tarixin qədim izlərini, təbiət lövhələrini əks etdirmişdilər.




Şəkil 14. T.Tayler. “Culfa şəhərinin ümumi bir görünüşü”

Barbant tərəfində çəkilmiş “Oyulmuş qoç fiquru”, D. Lancelotun “Culfa nekropolunun ümumi görünüşü”, A.Parisin “Sürülər Araz çayını keçirlər”, T.Taylorun “Araz yolu”, “Araz keçidləri”, E.Ronjatın “Culfa bazarı”, A. Ferdinandusun “Culfada küçə” adlı qravürləri XIX əsr Culfanın ümumi görünüşünün, tarixi abidələrinin, təbiətinin, mədəniyyətinin qrafik əksidir. Culfaya həsr olunmuş “Culfa bazarı” adlı qrafik əsər Dieulafoyun çəkdiyi

foto əsasında işlənmişdir (şəkil 12). Əsər fransız rəssam Etienne Ronjat tərəfindən (1822-1912) qrafik üsulla işləmişdir. Bir neçə fiqurdan ibarət sujetli kompozisiyada bazarın ab-havası realist üslubda, dəqiq qrafik cizgilərlə öz əksini tapmışdır. Əsərdə müxtəlif əmək fəaliyyəti ilə məşğul olan insanların həm geyim xüsusiyyətlərinə, həm də obrazların xarakterinə görə bir-birindən fərqlənməsi onu maraqlı etmişdir.




Şəkil 15.T.Taylor. “Araz yolu”

Digər əsər – “Culfada küçə” adlı qrafik nümunə sanki həmin mənzərənin davamı kimi bir-birilə səsləşir. Culfaya həsr olunmuş bu rəsm A. Ferdinandusun qrafik əsəridir (şəkil 13). Bu əsər də Dieulafoyun çəkdiyi fotoşəkil əsasında yaradılmışdır. Əsərdə etnoqrafik xüsusiyyətlər, əhalinin həyat tərzi, tam aydınlığı ilə əks olunub. Hər iki əsər ifadə vasitələrinin düzgün həlli – kompozisiya bitkinliyi, işıq-kölgə, perspektiva, fiqurların dinamikliyi, təbiiliyi baxımından yaddaqalandır.

Küçənin perspektivası, mərkəzdə mənzil başına gedən yolçunun, uşaqların, kənarda dayanmış qəssabın və onun ətrafındakı obrazların xarakterik həlli maraqlı və yaddaqalandır. Çəkilmiş əsərlər həm də tarixi, etnoqrafik əhəmiyyətə malikdir. Hər iki əsər “Le Tour de Monde” (1883) kitabında verilmişdir.

Səyahət gündəliyi əsasında Eduard Şarton tərəfindən yazılmış “Le Tour de Monde” – “Dünya səyahəti” kitabında verilmiş digər bir təsvir isə “Culfa şəhərinin ümumi bir görünüşü” əsəridir (şəkil 14). Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvanın Culfa şəhərinin XIX əsr görünüşünü rəssam-qrafik T.Tayler təsvir etmişdir.

“Dünya səyahəti” kitabının 1891-ci ilə aid nəşrində isə Naxçıvan torpağına aid başqa maraqlı rəsmlərə də rast gəlinir. Burada Naxçıvan və Ordubada aid görünüşlərin təsviri ilə yanaşı Culfaya aid tarixi yerlərin, mədəniyyət nümunələrinin, təbiət mənzərələrinin realist təsviri maraq doğurur.

D. Lancelotun çəkdiyi “Culfa nekropolunun ümumi görünüşü”, A.Parisin “Sürülər Araz çayını keçirlər”, T.Taylorun bir fotoşəkildən çəkdiyi “Araz yolu”, “Araz keçidləri” və s. bu kimi qrafik əsərləri qədim Culfanın realist təsvirinin bariz

nümunələridir. "Dünya səyahəti" kitabının 1891-ci ildən bəhs edən hissəsi ermənipərəst dildə yazılmış, tarix təhrif olunmuş şəkildə verilmişdir. Lakin kitabda istifadə olunan qrafik rəsmlər Culfa şəhərinin XIX əsrə aid ümumi təsvirini, xalqımıza məxsus qədim tarixini, mədəniyyətini açıq şəkildə əks etdirməsi baxımından maraq doğurur.



Şəkil 16. D. Lancelot. "Culfa nekropolunun ümumi görünüşü"

"İndiki Culfa kəndi nəhəng bir qayanın ətəyində salınıb. Xarabalıqlarla örtülmüş qırmızı qumdaşı təpəsi vadini qoruyan qədim qala. O Əlincə çay və Arazın qovuşduğu yerdə, 5 verst şimal-qərbdə yerləşir. Əlincə çay eynilə Araz hündür divarlara bənzər qırmızı qumdaşının arasında axır. Onların qovuşduğu yerin yaxınlığında Taru dağı (Darı dağı) yüksəlir, orada məşhur

dəyirmandaşı karxanaları var və Naxçıvan daşı adı ilə satılır” [91, s.278].

Araz çayının, Əlincəqalası və İlan dağın və s. tarixi-coğrafi yerlərin gözəlliyi, əzəmətinin sözlü təsviri bu yurdun təbiətinin əsrarəngizliyini göstərən məqamdır. “Əlincə kəndindən sonra Araz çayı gözümüzdən itir, lakin sağda böyük qara bazalt zirvəsi var, “İlanlı dağ”, yaxud “İlan dağ”. O qədər qəribə formadadır ki, necə olduğunu görmək maraqlıdır” [91, s.278].

Culfaya aid təsvirlərin bir hissəsi Araz çayının müxtəlif görünüşlərindən ibarətdir. Bu təsvirlər A.Parisin “Sürülər Araz çayını keçirlər”, T.Taylorun “Araz yolu”, “Araz keçidləri” adlı əsərlərdə öz əksini tapıb (şəkil 15). Əsərlər coğrafi məkanların təsviri baxımından, eləcə də bədii-estetik məziyyətlər baxımından yaddaqalandır. Fotoşəkildən çəkilmiş qrafik əsərlərdə dərin perspektiva diqqəti cəlb edir.

Bu kitabda Culfa nekropolu və daş qoç fiqurların təsvirləri də qravür əsərlərlə öz əksini tapıb. Rəssam-qrafiklər tərəfində işlənmiş bu təsvirlərdə bu torpaqların qədin türk-oğuz elinin qədim mədəniyyətindən xəbər verir. Qədim türkçülüyü özündə əks etdirən qoç fiqurları, onların üzərindəki təsvirlər, naxışlar aydın şəkildə təsvir olunub. Barbant tərəfində “Oyulmuş qoç fiquru” (şəkil 17) və D.Lancelot tərəfindən isə “Culfa nekropolunun ümumi görünüşü” adlı qravür əsərləri də bir fotoşəkil əsasında işlənmişdir. Çəkilmiş rəsmlərdən daş oyma sənət nümunələri olan qədim türkçülükdə, eləcə də Qaraqoyunlu və Ağqoyunlu dövləti zamanında igidliyi, qəhrəmanlığı simvolizə edən bu abidələr haqqında belə yazılmışdır: “...müəyyən sayda məzar daşlarının arasında olan qoç heyvan formasında stellər xüsusilə diqqət çəkir.

Bu sonuncu kateqoriya abidələr haqqında alleqorik səhnələri təmsil edən formalar görünür və hətta üzərində yazılar da var, lakin xaç yoxdur, nə də başqa xristian simvolu" [91, s.276].



Şəkil 17. Barbant. "Oyulmuş qoç fiquru"

Yazılmış sözlər qədim türk mədəniyyətini özündə əks etdirən, tarixin şahidləri olan bu abidələrin mənsubiyyətini bir daha təsdiq etmiş olur.

D. Lancelotun "Culfa nekropolunun ümumi görünüşü" adlı qrafik əsəri sənətkarlıq və tarixilik baxımında əhəmiyyətlidir (şəkil 16). Əsərdə geniş bir ərazini əhatə edən bir-birinə yaxın şəkildə yerləşən, bəziləri uçurulub-dağıdılmış, üzəri oyma üsulu ilə işlənmiş məzar daşlarından ibarət nekropol əks olunub. Daş oyma sənətinin nümunələrindən ibarət nekropol "...o qədər genişdir ki,

onun stelləri hündür və bir-birinə yaxın olması, onu kiçik daşlaşmış meşəyə bənzədir” [91, s.276].

Naxçıvan haqqında digər bir mənbədən Paul Müller-Simonisin 1888 və 1889-cu illərdə iki alim dost Müller-Simonis və Henri Hyvernatın Qafqaza, Kiçik Asiyaya və Şimali Mesopotamiyaya səyahətini əhatə edən “Qafqazdan Fars körfəzinə: Ermənistan, Kürdüstan və Mesopotamiyaya” (1897) adlı kitabında rast gəlinir. 392 səhifəlik kitabın 52-ci səhifəsindən başlayaraq 10 səhifədə Naxçıvan şəhərinin, Culfanın təsviri və s. yer alıb. Kitabda bəzi məqamlar tarixi faktlar həqiqəti əks etdirməsə də, daha çox “ermənipərəst dildə” yazılsa da abidələr və dini mərasimlər haqqında yazılan bəzi məqamlar maraq doğurur: “Naxçıvan Araz vadisinin ən qədim şəhərlərindən biridir...Potolemey onu Naruana adı ilə qeyd edir... Xanlar qalasından bir qədər aralıda Nuhun məzarını göstərirlər. Ancaq daşıdığı ad, şübhəsiz, baxımsız görünüşünü əsaslandırmır. Şəhər çox gözəldir;... Səyyah Şardin 1672-ci ildə Naxçıvandan keçəndə şəhər xarabalıqlardan təzəcə qalxmışdı.” Qeyd edək ki, fransız zərgər, səyyah Jan Batist Şarden (Con Şarden) (1643-1713) səyahət zamanı Naxçıvanda olmuş “Ser Con Şarden səyahətləri” kitabında bu qədim şəhər haqqında bəzi qeydlər etmişdir.

Paul Müller-Simonisin “Qafqazdan Fars körfəzinə: Ermənistan, Kürdüstan və Mesopotamiyaya” (1897) adlı kitabında Rəhim xanın sarayının təsviri belə qeyd olunur: “Beləliklə, Xan sarayına gəldik. Artıq yarısı uçub-dağılmış səkkizguşəli qüllə fars memarlığına aid (Naxçıvan memarlıq məktəbinin nümunəsi – A.H) maraqlı bir abidə təqdim edir. Hər tərəfin ortasını kaşı işi ilə bəzədilmiş taxça tutur. Qüllənin yuxarı ucunda çox gözəl

formalarda kaşı ilə kufi yazısı olan friz var (Friz, memarlıq nümunəsini bəzəyən, qabarıq formada işlənmiş üfüqi lent şəklindəki dekorativ kompozisiyadır – A.H). Qüllənin hər küncündə eyni növ ornamentlər var. Yan tərəfdə iki minarə ilə əhatə olunmuş eyvan da diqqətəlayiqdir. Biz hələ bu abidəyə heyran olarkən dostumuz Hyvernat Rəhim Xanla tanış ola bildi. Rəhim Xan qədim Naxçıvan xanlarının nəslindəndir...” [114, s.56].



Şəkil 18. “Naxçıvandan görünən Kiçik və Böyük Ağrıdağ”

Kitabın 56-cı səhifəsində isə Ağrıdağın Naxçıvandan görünüşü təsvir edilmişdir. “Naxçıvandan görünən Ararat (Ağrıdağ– A.H) özünü ən zərif fiqurlar sırasında təqdim edir. Kiçik konus tamamilə böyüyə qarşı uzanır, beləliklə, tək, nazik, əzəmətli dağ zirvəsini görə bilərsiniz” [114, s.56].

Culfada dağıdılmış körpü haqqında da qeydlər öz əksini tapır: “Rusiya sərhəd zastavasının beş verst şimal-qərbində yerləşən Əski-Culfa Şah Abbas tərəfindən dağıdıldı; xarabalıqlarından çox maraqlı olduğu bilinir. Köhnə Culfadakı körpü çox gözəl idi; Tikintisi avqusta aid edilən bu körpünü, bəlkə

də xalq arasında haqlı olaraq adlanan Köhnə Culfada yerləşdi. Körpü bütün böyük Asiya fatehlərini gördü. Teymur qoşunları keçdi, daha sonra Böyük Abbas onu məhv etdi”[114, s.59]



Şəkil.19. J.B.Obernetter. Fotoqravür, kollotip.
“Naxçıvan. “İmam Əli mərasimi”

Səyyahların Naxçıvanda olduğu zaman Hicri tarixinin “Məhərrəm ayına” təsadüf etdiyindən kitabda daha çox İslam dini mərasimlərindən olan Aşura gününün geniş təsviri verilmişdir: “Bu səhər faytonçu dərhal bizə şad xəbər verdi: vaqonumuzun oxu xarab oldu. Məhz bu faktın sayəsində İmam-Əlinin böyük yürüşündə iştirak edə bildik... Toplantının keçirilməsində məqsəd geniş yayılmış şiə məzhəbinin ən çox hörmət etdiyi iki kişinin: Həsən və Hüseynin şəhadətini qeyd etməkdir. Bu mənzərənin

dəhşətini sözlə ifadə etmək olmaz. Ərazidəki hər bir kənd növbə ilə meydanın ətrafında hərəkət edir. "Şəhidlər" uzun ağ paltar geyinirlər; başı təzə qırxılıb. Sol əlləri ilə bir zəncir meydana gətirirlər, boş sağ əllərində isə üzlərinə doğru dönmüş uclu qılınc tuturlar. Onlar bu qılınclarla öz kəllələrini kəsib qışqırırdılar: "Vah Hüseyn, Şah Hüseyn! Hüseyn, Həsən!" Bu, dəhşətli mənzərədir. Qan həqiqətən də axınlarla axır və üzləri belə örtür ki, ağız çox geniş açılanda dişlərin ağından başqa heç nə görünməsin. Mənzərə dəhşətlidir və izləyicinin bu dəhşətli tamaşanı izləməyə davam etmək üçün bütün gücünü toplaması zəruridir. Yürüşdə getdikcə fanatizm güclənir və dərilərini ən dəhşətli şəkildə kəsirlər ki, qan onların ağ paltarlarına və yerə axsın, orada olanlar tərəfindən əsl ehtiramla qarşılanır... Mübaliğəsiz sizi əmin edə bilərəm ki, onun xatirəsi uzun müddət məni kabus kimi təqib etdi… Rusiya hökuməti bu toplantıları qadağan etməyə çalışsa da, buna nail ola bilmədi" [114, s.58].

Kitabda bu dini mərasimi sözlü təsvirdən başqa, fotoqravür nümunəsi də yer almışdır (şəkil 19) Qrafik nümunə J. B.Obernetter tərəfindən hazırlanmışdır. Fotoqravürda dini mərasim Möminə xatun türbəsi fonunda təsvir edilmişdir.

XIX-XX əsrdə tədqiqatçıların, səyyahların, rəssamların Naxçıvana etdiyi çoxsaylı səfərləri zamanı onlar həm də müxtəlif bölgələrlə yanaşı Ordubadda da olmuş, etüdlər etmiş, müxtəlif qrafik rəsmlər çəkmişdilər. Xarici ölkə rəssamları Ordubadın tarixi yerlərini səyahət müddətində naturadan və ya fotoşəkillər əsasında qravüralarında, akvarellə çəkdiyi əsərlərində bu tarixin qədim izlərini, təbiət lövhələrini əks etdirmişdilər.

Ordubadın təbiətini, əhalisini, məişətini, etnoqrafiyasını əks etdirən əsərlərdən Gotorbenin "Ordubadın böyük mədrəsəsinin interyeri", Bocherin "Malik İbrahim oğlunun ibadətgahı", Slomunun "Ordubadın köhnə məhəlləsi" (şəkil 21), D. Lancelotun "Əylisin görünüşü", "Ordubaddan bir görünüş", İ.P.Şeblikinin "Ordubadın bir guşəsi", "Pir Eyvazı" və başqa əsərlər maraqlı və yaddaqalan qrafik nümunələrdir.



Şəkil 20.Gotorbe. "Ordubadın böyük mədrəsəsinin interyeri"

Səyahət gündəliyi əsasında Eduard Şarton tərəfindən yazılmış "Le Tour de Monde" – "Dünya səyahəti" kitabının 1891-ci ilə aid nəşrində Naxçıvan torpağına aid maraqlı rəsimlərə rast gəlinir. Burada Naxçıvanın qədim bölgəsi olan Ordubada aid tarixi yerlərin, mədəniyyət nümunələrinin, təbiət mənzərələrinin realist təsviri maraq doğurur. Kitabda verilən təsvirlərdən ikisi tarixi-

memarlıq nümunəsinin – Ordubad mədrəsəsi və Malik İbrahim pirinin təsviridir. Digər əsərlər isə Ordubadın müxtəlif bölgələrinin ümumi görünüşü, təbiət təsviridir.



Şəkil 21. Slomun. "Ordubadın köhnə məhəlləsi"

"Dünya səyahəti" kitabında yer alan təsvirlərdən olan Gotorbenin tərəfindən çəkilmiş "Ordubadın böyük mədrəsəsinin interyeri" adlı maraqlı qrafik nümunələrdən biridir (şəkil 20). "Ordubad mədrəsəsi – Ordubad şəhərinin tarixi mərkəzində yerləşən XVIII əsrə aid tarixi mədrəsə binasıdır" [93]. "1714-cü ilə, Səfəvi hökmdarı Şah Sultan Hüseynin hakimiyyəti dövrünə aid olunan Ordubad mədrəsəsi zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir" [33].



Şəkil 22. Bocher. “Malik İbrahim oğlunun ibadətgahı” (qravür)

Digər İslam ölkələrində də olduğu kimi Ordubadda Cümə məscidinin yaxınlığında yerləşən mədrəsə binası maraqlı memarlıq quruluşuna malik olmuşdur. “Mədrəsə bir sıra binalardan ibarətdir. Bunlar böyük düzbucaqlı həyətin ortasındakı hovuzun ətrafında yerləşir” [91,s.263]. Rəsm əsərində mədrəsənin dördbucaqlı formasında olan daxili quruluşa malik olması, kiçik otaqların baştağlarla ayrılmış eyvanları, həyətin ortasında yerləşən hovuz, təsvir olunmuş insan fiqurları və s. əsərin maraqlı kompozisiyasına dəlalət edir. Gotorbenin “Ordubadın böyük mədrəsəsinin interyeri” əsəri foto əsasında işlənmişdir. Xatirə xarakterli kitabda yazıldığı kimi səyahətdə olarkən onların mədrəsə ilə tanışlığı zamanı orada təhsil alan tələbələrin gələn qonaqları maraqla izləmələri fotoşəkildə, o cümlədən bu foto əsasında çəkilən rəsmdə də əks olunub.

Ordubad tarixinə, mədəniyyətinə aid digər bir əsər isə “Malik İbrahim oğlunun ibadətgahı” əsəridir (şəkil 22). Qravür əsər rəssam Bocher tərəfindən fotoşəkil əsasında çəkilmişdir. Tünd rəngli dağların fonunda açıq tonların təzadlı görünüşü əsərə maraqlı bir görünüş qazandırmışdır. Əsərdə məzarlar arasından ibadətgaha gedən yol, kənarda dayanmış insanlar kompozisiyaya daha bitkin şəkil qazandırmışdır. Əsərin repreduksiyasının yer aldığı kitabda qeyd olunmuşdur ki, “...yuxarıda məzarılığın əhatəsində ibadətgah yerləşir, Müqəddəs Malik İbrahim oğlunun ibadətgahı. Bu məzar gətirilən qurbanlar, Məkkədən, Həcc ziyarətindən və Kərbəla, müqəddəs torpaqlardan gətirilən daşlar, o cümlədən çoxsaylı təsbehlərlə örtülmüşdür” [91, s.264]. Xalq arasında deyilənlərə görə bu qəbir Kərbəlada şəhid olmuş imam Hüseynin qisas hərəkatının rəhbəri olmuş İbrahim Əjdərin oğlu

Malik İbrahimin qəbridir. “Dini ədəbiyyatdan məlumdur ki, İbrahim Əjdər həlak olduqdan sonra övladları təqib olunmuş, bu səbəbdən də didərgin düşmüş, bəziləri Azərbaycana gələrək orada məskən salmış, oğlanlarından Malik Ordubadda, Malik Əjdər isə Laçın rayonunun Cicimli kəndində dəfn edilmişdir. Cicimli kənd qəbiristanlığında erməni işğalınadək salamat qalan və XI-XII əsrlərə aid edilən Malik Əjdər türbəsi bölgənin məşhur ziyarətgahlarından biri idi” [94].



Vue d'Akoulis. — Dessin de D. Lancelot, d'après une photographie.

Şəkil 23. D. Lancelot. “Əylisin görünüşü”

D.Lancelotun “Əylisin görünüşü” adlı qrafik əsərində dağların fonunda ümumi kənd mənzərəsinin realist təsviri verilmişdir (şəkil 23). “Əylisin qədim sakinləri buranı “Ağ Ulus”

adlandırmışlar. “Ağ” sözü bu gün də dilimizdə qalan rəng mənasında izah oluna bilər. “Ulus” sözünün isə hələ qədim türk mənbələrində şəhər mənasında işlənməsi hamıya məlumdur” [37.s.94]. “Ağ ulu su” adı kimi də mənalandırılan bu şəhər “Dünya səyahəti” kitabında bol sulu, abad şəhər olmasından da bəhs olunur. Əsərdə müasir evləri ilə diqqətçəkən kənd mənzərəsi çayın kənarında təsvir olunmuşdur.



Şəkil 24. D. Lancelot. “Ordubaddan bir görünüş”

Kitabda bu qədim torpağın çinarlarının təsviri həm rəng, həm də sözlü təsviri yer almışdır. D.Lancelotun Ordubada aid digər bir əsəri “Ordubaddan bir görünüş” adlı əsərində mərkəzdə çinar təsviri verilmişdir (şəkil 24). “Ordubadın çinarları möhtəşəmdir. Onlardan biri, bölgədə məşhur olan geniş bir meydanın ortasında

yüksəlir. Onun gövdəsinin ətrafı 13 metr ölçüdədir. İçi boşdur və yarpaqlı budaqlarının kölgə saldığı bir ayaqqabıçı dükanını ehtiva edir” [91, s.262]. Yaxud, kitabın 260 səhifəsində yazıldığı kimi “Ordubad, min bulaq və nəhəng çinarlar şəhəri!”.



Şəkil 25. Krakov. “Ordubaddan gənc qadın” (qravür)

Bəhs olunan kitabda etnoqrafik xüsusiyyətlər də öz əksini tapmışdır. Belə ki, Krakovun “Ordubaddan gənc tatar qadın” adlı qravür əsəri diqqətçəkən qrafik nümunələrdəndir. Əsərin adı səhvən “Ordubaddan olan gənc tatar qadın” yazılmışdır. Lakin

məlumdur ki, o dövrkü bir çox mənbələrdə səhv olaraq azərbaycanlılar "tatar" adlandırılırdı.


Şəkil 26. İvan Şeblıkin. "Pir Eyvaz"

Ordubad təsvirləri rus tarixçi, arxeoloq İvan Pavloviç Şeblikinin (1884-1947) əsərlərində də rast gəlinir. İ.Şeblıkinin "...tarix-memarlıq abidələrinin qiymətləndirilməsi məqsədilə 1928-ci ildə Bakıya dəvət edilir. Burada bir sıra elmi tədqiqat müəssisələrində, muzeylərdə olur. Eyni zamanda bəzi bölgələrdə aparılan arxeoloji qazıntılarda, bərpa işlərində yaxından iştirak edir və şəxsi müşahidələri əsasında onların rəsmlərini, eskizlərini

yaradır. İ.Şeblıkinin həmin rəsm və eskizləri ölkəmizin müxtəlif guşələrində çəkilib" [107]. Rəssamlıq istedadı olan tarixçi, arxeoloq qara rəngli qrafik təsvirlərindən başqa qrafikanın akvarel texnikası ilə çəkilmiş maraqlı əsərləri vardır. İvan Şeblik Ordubada aid əsərlərində "Ordubadın bir guşəsi" (şəkil 28), "Vənənd kəndində qoç abidələri" (1935), "Pir Eyvazı" (şəkil 26), "Ordubadda küçə" (şəkil 27) adlı əsərlərindən başqa "Ordubadda Cümə məscidi" (şəkil 29), "Ordubad" (şəkil 30) əsərlərini akvarellə işləmişdir. "Rəssam "Pir Eyvazı" əsərini 1934-cü ildə yaratmışdır. Əsərdə təsvir edilən Eyvaz türbəsi – Ordubad rayonunda yerləşən tarix-memarlıq abidəsidir" [87, s.54].



Şəkil 27. İvan Şeblıkin. "Ordubadda küçə"

"İ.Şeblıkinin "Pir Eyvaz" rəsmi də (NTAM, SF № 211, 32x43,5 sm) maraq doğurur. Bu türbə şəhərin cənub hissəsində qəbiristanlığın yanında yerləşirdi. Rəvayətə görə, Eyvaz Bektaşi

sufi təriqətinin şeyxlərindən biri olmuş və XVI əsrdə yaşamışdır. Təəssüf ki, abidə Sovet hakimiyyəti illərində dağıdılmışdır" [12].



Şəkil 28. İvan Şeblıkin. "Ordubadın bir guşəsi"

"Pir Eyvaz qəbiristanlığı bu qəbirin xatirəsinə keçirilən dəfn mərasimləri hesabına yaranmışdır. XVI əsrə aiddir. 20 yüzilliyin 80-cı illərində dağıdılmışdır" [62, s.90]. Rəsmdə bu qədim abidə qəbiristanlığın yaxınlığında, ağacların fonunda qara

cizgilərlə təsvir olunmuşdur. “Əsər düzgün perspektiva, işıq-kölgə, gözəl kompozisiya quruluşu ilə diqqəti cəlb edir” [87,s.54]. Ümumiyyətlə dərin perspektiv görünüş onun əsərlərinin xarakterik xüsusiyyətlərindəndir.



Şəkil 29. İvan Şeblıkin. “Ordubadda Cümə məscidi”

“Ordubadın bir guşəsi” rəsmində (NTAM, SF №211, 32x43,5 sm, kağız, qrafika) köhnə şəhərin kiçik küçələrindən biri təsvir edilmişdir. Rəssam müdafiə divarlarının əzəmətini, giriş qapıları portalının monumentallığını göstərə bilmişdir. Bənzər süjetə “Ordubadda küçə” rəsmində də (NTAM, SF №430, 32x44 sm, kağız, tuş) rast gəlinir” [12].

İstər İvan Şeblikin əsərlərində, yaxud ondan əvvəlki xarici ölkə rəssamlarının yaradıcılığında yer almış Naxçıvanın və onun qədim şəhərlərindən olan Ordubadın qədim tarixi yerlərinin, tarixi-memarlıq abidələrinin, mədəniyyət nümunələrinin təsvir olunduğu bu əsərlər realist üslubda yaradılmışdır.



Şəkil 30. İvan Şeblıkin. “Ordubad”

Çəkilən rəsmlərdə də əks olunduğu kimi Ordubad qədim tarixə, qədim mədəniyyətə malik gözəl şəhərlərdəndir. Əbəs yerə deyil ki, Ümumilli lider Heydər Əliyev bu qədim diyarı Azərbaycanın incisi hesab edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunduğu ildə bu qədim torpaq haqqında da sərəncam imzalamışdır. 21 fevral 2024-cü ildə

imzalanmış "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında sərəncam qədim tarixə, mədəniyyətə göstərilən qayğı və diqqətin təcəssümü idi.

İvan Pavloviç Şeblikin Ordubadın qədim tarixi-memarlıq abidələrinin təsviri ilə yanaşı Naxçıvanın digər qədim və maraqlı güşələrini də rəsm etmişdir.



Şəkil 31. İvan Pavloviç Şeblikin. "Ata-baba türbəsi"

İ.Şeblıkin "Ata-baba türbəsi" (şəkil 31), "Qarabağlar türbəsi" əsərini akvarellə çəkilmişdir. Rəssamın 1937-ci ildə çəkdiyi "Ata-baba türbəsi" əsərində isti rənglər üstünlük təşkil edir. Əsərdə Küseyr oğlu türbəsinin və qədim Şahab məhəlləsinin köhnə hasar divarları təsvir olunmuşdur.



Şəkil 32. İvan Pavloviç Şeblikin. "Naxçıvanda"

"İ.Şeblikinin "Naxçıvanda kromlex" şəklində daşların səpələndiyi sahə təsvir olunmuşdur. Kromlex, bir qayda olaraq, Son Daş və ya Erkən Tunc dövrünə aid olan, işlənmiş və ya işlənməmiş, üfiqi şəkildə yerə pərçim edilmiş uzunsöv iri-iri daşların əmələ gətirdiyi bu və ya digər kompozisiyalı qədim qurğudur" [12].



Şəkil 33. İvan Pavloviç Şeblikin. “Qədim Naxçıvanın bir guşəsi”

Daşların bu formada düzəldilməsi ayinlər, astronomik yozumlara xidmət edir. Ümumiyyətlə rəssamın təsvir etdiyi kromlex bir daha bu ərazilərin, yaşayış məskənlərinin qədimliyni sübut edir. Rəssamın digər bir əsərində nəhəng qaya parçasının əzəmətli təsvirini görürük. Bu “Siklopik abidə. Naxçıvan” adlı rəsmidir (şəkil 34). “Azərbaycanda arxeloji abidələrinin bənzərsiz növlərindən biri də siklopik qurğulardır. Bu ara məhsulu (sement, gəc və sairə) işlədilmədən nəhəng daş parçalarından tikilmiş qurğudur. Belə qurğular (əsasən müdafiə və kult təyinatlı) Enolit dövrü (e.ə. III minillik), daha çox hissəsi isə Son Tunc və Erkən Dəmir əsrinə (e.ə. II minillik-I minilliyin əvvəli) şamil edilir.



Şəkil 34. İvan Pavloviç Şeblikin. “Siklopik abidə. Naxçıvan”

İ.Şeblikinin tuşla çəkilmiş “Siklopik abidə. Naxçıvan” əsərində (NTAM, SF № 387,32x42 sm) dağın zirvəsində yük-sələn belə qurğularda birinin təsviri verilmişdir” [12].

İ.Şeblikin yaradıcılığında Naxçıvandan çox gözəl görünən Ağrı dağı təsviri rəng və kompozisiya baxımından maraqlıdır. Hər zaman zirvəsi qarlı olan Ağrı dağ və onun ətəyindəki yamaclar, ucsuz-bucaqsız düzənliklərin rəng və quruluş perspektivasının

düzgünlüyü, işıq-kölgə qanunları yerli-yerində verilməsi və digər ifadə vasitələrinin realist həlli ilə yadda qalır (şəkil 35).



Şəkil 35. İvan Pavloviç Şeblikin. “Ağrı dağı”

Əsərdə düzənlikdəki daş və qaya parçaları, ön tərəfdə daşların arasında görünən balaca otlar əsərə təbii, əlvan kolorit gətirmişdir. “İ.Şeblıkinin bu silsiləsində özündə Naxçıvan tarixini yaşadan digər əsərlər də mövcuddur. Bunların sırasında “Naxçıvanda XV əsr xanəgahı” (1935), “Naxçıvanda karvansaranın qalıqları” (1935), “Qazançı kəndi” (1936), “Qazançı kəndində körpü” (1937) və “Nuhun qəbri” (1930-cu illər) qrafik lövhələrinin adını çəkmək olar” [107]. İ.Şeblıkinin yaratdığı əsərlər sırasında Culfaya aid olan “Naxçıvanda XV əsr xanəgahı”

(1935), "Qazançı kəndi" (1936), "Qazançı kəndində körpü" (1937) qrafik lövhələrin adını çəkmək olar.



Şəkil 36. İvan Pavloviç Şeblıkin. "Qazançı kəndində körpü"

"Qazançı kəndində körpü" adlı əsəri İ.Şeblikin 1937-ci ildə akvarel texnikası ilə soyuq tonların estetik harmoniyası ilə ifadə etmişdir (şəkil 36). Su və akvarel boyaların şəffaf vəhdətindən yaranmış xoş görünüşü onun digər əsərlərində də görmək mümkündür. Bu əsərdə daha çox "alla prima" texnikasının xüsusiyyətləri diqqəti cəlb edir. "Yəni əsər mərhələ-mərhələ, bir neçə günə deyil, birbaşa, boyası qurumadan" qısa müddətdə işlənib" [4,s.150]. Rənglərdəki bütövlük, rənglərin bir-birinə axıcı sintezi, xoş ifadə bu əsərləri daha baxımlı etmişdir. İ.Şeblıkinin bu əsərləri texnikasına, rəng tonlarına görə digərlərində fərqlənir. Burada incə nüanslara diqqət yetirməklə bərabər kompozisiya

bütövlüyü rənglərin ümumi ahəngi ilə verilmişdir. Rənglərdəki bütövlük, rənglərin bir-birinə axıcı sintezi, xoş ifadə bu əsərləri daha baxımlı etmişdir. İ.Şeblikinin 1937-ci ildə akvarel texnikası ilə soyuq tonların estetik harmoniyası ilə ifadə etdiyi "Qazançı kəndində körpü" əsərdə su və akvarel boyaların şəffaf vəhdətindən yaranmış xoş görünüşü onun digər əsərlərində də görmək mümkündür.




Şəkil 37. "Nəiminin məqbərəsi"

Həmin dövrlərdə Culfaya həsr edilən başqa əsərlər də var ki, bunlardan biri də XII əsrin sonu – XIII əsrin əvvəllərinə aid edilən Əlincə qalasının yaxınlığında yerləşən orta əsrlərə aid tarixi memarlıq kompleksinin təsviridir (şəkil 37). Qrafik təsvir Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır. "Nəiminin məqbərəsi" adlı qrafik əsərin üzərində "06. XII.39" tarixi yazılmışdır.

İvan Pavloviç Şeblikin Qarabağlar türbəsini müxtəlif variantlarda akvarellə işləmişdir. Bir əsərində rəssam bu türbəni yaşıl ağacların əhatəsində vermişdirsə, digər əsərlərində payız aylarında qoşaminarə ilə birlikdə təsvir etmişdir.




Şəkil 38. İvan Pavloviç Şeblıkin. “Qarabağlar türbəsi”

Dörd fərqli formada, fərqli texnika ilə çəkilmiş bu rəsmlərdə türbənin memarlıq quruluşu, təbiət motivləri realist təsvir xüsusiyyətləri ilə estetik həllini tapmışdır. Mavi koloritli “Qarabağlar türbəsi” əsərini İvan Pavloviç Şeblikin 1935-ci ildə yaratmışdır. Əsərdə Qarabağlar türbəsinin üst hissəsi uçuq şəkildə təsvir olunmuşdur.

İ.Şeblıkinin “Qarabağlar türbəsi” yay fəslində, türbənin qoşa minarə ilə birgə təsvir olunmuş soyuq fəsillərdə çəkilməsi hiss

olunan digər bir variantı da “alla prima” texnikası ilə çəkilmişdir (şəkil 39).



Şəkil 39. İvan Pavloviç Şeblıkin. “Qarabağlar türbəsi”

Rəssamımın Qarabağlar türbəsinə aid digər təsvir isə Şeblıkinin 1943-cü ildə çap olunmuş “Nizami dövrünün Azərbaycan memarlığının abidələri (materiallar)” adlı kitabının üz

qabığında yer almışdır (şəkil 40). Bu təsvirdə qoşaminarə ilə birgə Qarabağlar türbəsi tuş, pero vasitəsi ilə təsvir olunmuşdur.



Şəkil 40. İvan Pavloviç Şeblıkin. “Qarabağlar türbəsi”

“1930-40-cı illərdə yerli və Azərbaycana dəvət olunmuş bir çox rusiyalı rəssam, etnoqraf, memar və arxeoloqlar abidələrin araşdırılması və bərpa işlərinin aparılması üçün çəkdikləri rəsmlər, eskizlər ölkəmizin bir çox bölgələrində, o cümlədən Naxçıvanda, Qarabağda yerləşən Orta əsr abidələrinin tədqiqi və bərpası işində əvəzsiz mənbədir” [107].

Naxçıvan abidələrinin təsviri digər bir əsərdə “Şair Nizami Gəncəvi ilə memar Əcəminin görüşü” adlı tematik kompozisiyada öz əksini tapmışdır (şəkil 41). Əsərdə Naxçıvanın tarixi abidələrinin təsviri fon xarakteri daşıyır. Memar Əcəmi Əbubəkr oğlunun memarlıq incilərindən olan XII əsr abidəsi Cümə məscidi, Mö-münə xatun türbəsi, İbn Küseyr oğlu türbəsi və başqa abidələr göstərilmişdir. Ön planda isə dahi Azərbaycan şairi Nizami Gəncəvi ilə abidələrin müəllifi memar Əcəminin müsahibəsi təsvir

olunmuşdur. 1979-cu ildə isə V.F.Qolovanov yağlı boya ilə 149 x 119 sm ölçüsündə işləmişdir. Əsər hal-hazırda Naxçıvan Dövlət Rəsm Qalereyasında sərgilənir. Əsərin eyni kompozisiyada, lakin fərqli üslub və koloritdə naxçıvanlı rəssam Rafael Qədimov da yaratmışdır. Naxçıvannın tarixi-mədəni abidələrinə həsr olunmuş realist üslublu hər bir əsər, çəkilmiş rəsmlər, eskizlər bədii-estetik xüsusiyyətləri ilə yaddaqalandır.



Şəkil 41.V.F.Qolovanov. "Şair Nizami Gəncəvi ilə memar Əcəminin görüşü"

Realist rəssamlar tərəfindən çəkilmiş tarixi əks etdirən, həmin dövr mühiti, mədəniyyəti haqqında aydın təssəvür yaradan

belə rəsm nümunələri də özlüyündə tarixi sənəd rolunu oynamaqla, Naxçıvanın qədim bölgələrinin orta əsr abidələrinin tədqiq olunması üçün şərait yaradır və onun müəyyən vaxtlarda restavrasiyası üçün əhəmiyyətli rol oynayır. Eyni zamanda belə əsərlər təsvir olunmuş abidələrin tarixi-mədəniyyət abidələrini əbədiləşdirərək, tarixi boyu yaşamasına, təbliğ olunmasına imkan yaradır.

## I.2.Müasir dövr dünya rəssamlarının yaradıcılığında Naxçıvan janr və üslub müxtəlifliyi aspektində

Müasir dövrdə xarici ölkə rəssamları yaradıcılıqlarında Naxçıvanın təbiətinə, tarixi abidələrinə, incəsənət nümunələrinə, etnoqrafiyasına həsr olunmuş mövzulara geniş yer vermişlər. Xarici ölkələrlə əlaqələrin genişlənməsi, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi, Naxçıvanın da bu kimi tədbirlərə – rəsm sərgilərinə, elmi və mədəni tədbirlərə, festivallara ev sahibliyi etməsi buna zəmin yaratmışdır.

Müasir dövrdə "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı sosial-iqtisadi və mədəni inkişafla paralel aparılmış və ən yüksək nailiyyətlər qazanılmışdır. Regionların sosial-iqtisadi inkişafı çərçivəsində bölgədə böyük infrastruktur layihələr həyata keçirilmiş, Naxçıvan isə ölkəmizin mühim ictimai, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdir" [24, s.26].

Müasir dövrdə xarici ölkə rəssamları Naxçıvana həsr etdikləri əsərlərinin əksəriyyətini müxtəlif illərdə Naxçıvanda keçirilən beynəlxalq rəsm festivalı zamanı çəkmişdilər. Naxçıvan Muxtar Respublikasında 2012-ci, 2014-cü, 2016-cı, 2018-ci, 2021-ci, 2023-cü illərdə keçirilən "Naxçıvan Bəşəriyyətin beşiyi"

beynəlxalq rəsm festivalında iştirak edən rəssamların yaratdığı əsərlərdə Naxçıvan motivlərinə, təbiət mənzərələrinə üstünlük vermişdilər. Onlar qədim şəhərin tarixi və mədəniyyəti ilə əyani tanış olaraq öz əsərlərində o təsvirləri əks etdirmişdilər.




Şəkil 42. Ayfer Uz. “Sivilizasiya”

Naxçıvan Muxtar Respublikasında beynəlxalq rəsm festivalı ilk dəfə 2012-ci ildə keçirilmişdir. Xarici ölkədən dəvət olunmuş iştirakçılardan Türkiyə Respublikasından Ayfer Uz, Nubariyə Uz, Hüseyn Özgür Sarp, Nilufər İnaltonq, Filippin Respublikasından fotoqraf, foto-minipulyator Maykl Vinsent

Manalo iştirak etmişdir. Naxçıvanın həm qədim, həm də müasir görünüşünü öz əsərlərində canlandırmışdılar. Bunlardan Türkiyədən olan rəssamlardan Ayfer Uzün (1968) "Sivilizasiya", Nurbiyə Uzün (1973) "Ritm", Hüseyn Özgür Sarpın (1969) "Qızıl qoç", Nilufer İnaltonqun (1957), "Haçadağ", Maykl Vinsent Manalonun "Turist" əsəri maraqlı qarşılanmışdır. Onlar müxtəlif texnikalarla 60 x 80 ölçüdə kətan üzərində ilə Naxçıvanın tarixi abidələrini, təbiət motivlərini fərqli kompozisiyalarla əks etdirmişlər.



Şəkil 43. Nurbiyə Uz. "Ritm"

2012-ci ildə Naxçıvanda beynəlxalq rəsm festivalına qatılan Türkiyənin Takarya Universitetinin müəllimi Ayfer Uz

“Sivilizasiya” kompozisiyası ideya-məna yükü baxımından diqqəti cəlb edir (şəkil 42).

Sarı, qırmızı rənglərin üstünlük təşkil etdiyi kompozisiyada ilk qədim qayaüstü rəsmlərdən olan Gəmiqaya rəsmləri, kompozisiyanın mərkəzdə isə Xudafərin körpüsü verilmişdir. Müasir texnikalarla, təsvir vasitələrinin vəhdəti ilə yaradılan kompozisiyalı əsərdə sivilizasiyanın təməlinin Naxçıvandan başladığı qədim yolu bədii ifadə dili ilə nəql etmişdir.



Şəkil 44. Nilufer İnaltong. “Haçadağ”

Ayfer Uzün bacısı Nurbiyə Uzün (1973) çəkdiyi “Ritm” adlı əsəri mənzərə janrında işləsə də realist formalarla, stilzə olunmuş fiqurların vəhdəti harmonik təsvirli kompozisiya xarakteri daşıyır (şəkil 43). Sadə kompozisiyalı, iki rəngin müxtəlif çalarından istifadə olunan bu əsər dərin məna ifadə edir.

Kompozisiya iki hissəyə ayrılır: İlan dağ və ondan yuxarı hissədə təsvir olunmuş atlar.

Əsərdən sanki təsvir olunmuş atların ayaq səsləri eşidilir. Sadəlik və dinamikliyi vəhdəti ilə çəkilən at təsvirlərindəki ritm Naxçıvanın qəhrəmanlıq tarıxini yada salır. Bundan əlavə əsər qədim tarixdən gələcəyə doğru irəliləməyi özündə əks etdirir.

Müxtəlif dövrlərdə Naxçıvana səyahət edən türkiyəli rəssam Nilufer İnaltongun (1957) yaradıcılığında Naxçıvanın təbiət təsvirlərinə tez-tez rast gəlinir. O, 2012-ci ildə keçirilən festivalda "Haçadağ" əsərini özünəməxsus texnika ilə əlvan boyalarla işləmişdir (şəkil 44).



Şəkil 45. Hüseyn Özgür Sarp. "Qızıl qoç"

Festivalda iştirak edən türkiyəli rəssam Hüseyn Özgür Sarp "Qızıl qoç" əsəri ilə Naxçıvanın qədim tarixinə, mədəniyyətinə nəzər salmışdır. İstifadə etdiyi rəng koloriti, baxış bucağı kompozisiyanın fərqli biçiminə, əsərin yaddaqalan olmasına dəlalət edir (şəkil 45).



Şəkil 46. Səyid Əyyami. "Cənubdan görüntü"

Naxçıvan Muxtar Respublikasında 2014-cü ildə keçirilən II "Naxçıvan-Bəşəriyyətin beşiyi" beynəlxalq rəsm festivalında

Türkiyə Respublikasından Nilufer İnaltonqun (1957), Hülya Sezginin (1958), Gürcüstan Respublikasından Gia Markozaşvilinin (1949), Kaxa Xinvelinin (1962), Rusiyadan Yulya Suxavetskayanın (1953) Qazaxıstan Respublikasından Esenqali Sadirbayevinin (1965) İran İslam Respublikasından Cəlaləddin Piraninin (1968), Səyid Əyyaminin (1978) yaratdığı əsərlər Naxçıvana həsr olunmuşdur.

Hülya Sezginin “Naxçıvanqala”, Gia Markozaşvilinin “Naxçıvan dağları”, Kaxa Xinvelinin “Əli və Nino”, Yulya Suxavetskayanın “Dağlar yağışdan sonra”, Naxçıvan dağlarını əks etdirən 2 ədəd “Naxçıvandan xatirə” əsəri, Esenqali Sadirbayevinin “Naxçıvan dəyərləri”, Cəlaləddin Piraninin “Naxçıvanqala”, Səyid Əyyaminin “Qədimlik”, “Cənubdan İlanlı dağ” əsərləri 60 x 80 sm ölçüdə kətan üzərində yağlı boya ilə çəkilmiş Naxçıvanın qədim və müasir görnüşünü, təbiətini, mədəniyyət nümunələrinin estetik həllini özündə əks etdirir.



Şəkil 47. Hülya Sezgin. “Naxçıvanqala”

Türkiyəli rəssam Hülya Sezginin (1958) yaradıcılığında da Naxçıvana həsr olunmuş bir neçə mövzu yer alır. Onun "Haça dağ", "Naxçıvanqala", "Naxçıvanda mən də varam" əsərləri buna nümünədir. 2014-cü ildə yağlıboya ilə çəkdiyi "Naxçıvanqala" əsərində şəhərin qala divarlarını, ön planda isə 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə yaradılmış, 2014-cü ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilmiş "Naxçıvanqala" Tarixi-Memarlıq Muzey Kompleksinin realist təsviri əks olunmuşdur (şəkil 47).



Şəkil 48.Səyid Əyyami. "Qədimlik"

“Naxçıvanqala” Tarixi-Memarlıq Muzey Kompleksinin realist təsvirini İran İslam Respublikasından olan Cəlaləddin Piraninin yaradıcılığında da rast gəlirik. İran İslam Respublikasından olan Səyid Əyyaminin iki əsərində Naxçıvan təbiəti və mədəniyyəti əks olunub. Naxçıvan təbiətinin əks olunduğu əsər yağlı boya ilə realist üslubda çəkdiyi “Cənubdan İlanlı dağ” əsəridir.

Bu əsərindən fərqli olaraq digər əsəri – “Qədimlik” tablosu fərqli texnika və üslubla işlənib. İki daş qoc fiquru qırmızı rəngdə, qaranlıq fonda, lakin günəş təsviri ilə verilmişdir. Ərdəbil şəhərindən olan Səyid Əyyaminin bu kompozisiyasında tünd qara rəngi mastix aləti ilə cızaraq zərif bir tərzdə mübarizə simvollu qılınc təsviri çox da diqqət çəkməyən tərzdə işləmişdir. Rəssamın simvolik kodlarla dərin fikir ifadə edən bu tablosu onun digər realist mənzərələrində rəng və üslub baxımından çox fərqlənir.



Şəkil 49. Yulya Suxavetskaya. “Dağlar yağışdan sonra”

Rusiyadan Yulya Suxavetskaya 2014-cü ildə Naxçıvanda olarkən təəssüratlarını kətan üzərində yağlı boya ilə üç ədəd əsəri vasitəsilə ifadə etmişdir. Mənzərə janrında çəkilmiş əsərlərin hər üçü Naxçıvan dağlarının rənglərlə ifadə tapmış poetik əksidir.

Lakin onun 60 x 80 sm ölçüsündə kətan üzərində yağlıboya ilə yaratdığı “Dağlar yağışdan sonra” əsərində İlandağ mən-zərəsi və memarlıq nümunəsi yer alır (şəkil 49). Yulya Suxavetskaya bu əsərində “XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş”, 2010-cu ildə bərpasına başlanılan Naxçıvanqalanı öz əsərin ön planında təsvir etməsi mənzərəyə əlavə kompozisiya bitkinliyi və yeni rəng ahəngi qatmışdır.



Şəkil 50.Esenqali Sadirbayevin “Naxçıvan dəyərləri”

Rəssam qalanın və Nuh türbəsinin üstündən, horizontal baxışla mənzərəni yaratmışdır. Onun bu əsərindən əlavə 2 ədəd “Naxçıvandan xatirə” adlı mənzərəsidə texnika və üslub baxımından maraqlıdır. Kiçik ölçülü – 20 x 20 sm kətan üzərində çəkilmiş mənzərənin birində İlan dağ, digərində Əshabi-Kəhf və Nəhəcir dağlarının yağlı boya ilə təsviri yer almışdır. Hər iki əsər etüd xarakterlidir.

Qazaxıstanlı rəssam Esenqali Sadirbayevin yaradıcılığında bu mövzuya fərqli janr və üslub aspektindən yanaşmışdır. Çoxfiqurlu kompozisiyalı natürmortda həm də mənzərə elementinə rast gəlinir. 2014-cü ildə çəkilmiş Naxçıvan qədim mədəniyyətinə həsr olunan “Naxçıvan dəyərləri” əsərinin arxa fonunda İlandağ təsvir olunmuşdur. İlandağın yan tərəfində açıq tonlu rəng harmonyası gələcəyə perspektivlənmiş sonsuzluq təsviri kimi hiss olunur (şəkil 50).



Şəkil 51.Nilufer İnaltong. “Əlincə qalası”

Dağın təsviri ornamentlərlə zərif keçid formasında verilmişdir. İncə rəng lirizmi ilə verilmiş bu harmoniya, səma mavisindən tablonun mərkəzinə doğru “süzülən” ornamentlər xalça ilə tamamlanır. Həmin xalçanın üzərindəki qədim keramika nümunələri, milli musiqi aləti sazın və tablonun aşağı hissədə isə üstü zəngin ornamentlərlə işlənmiş xurcunun təsviri özlüyündə böyük ideya – məna yükü daşıyır. Naxçıvanda tarixin və mədəniyyətin, incəsənətin sivilzasiyasının nə qədər qədim dövrlərə dayandığını və gələcəyə doğru inkişaf etdiyini forma və rəng dili ilə ifadə etmişdir.

Türkiyəli rəssamlardan Nilufer İnaltongun yaradıcılığında özünəməxsus rəssamlıq texnikası, rəng duyumu ilə Naxçıvan mövzulu yeni bir əsərə imza atmış qədim tarixi qəhrəmanlığın daş şahidi Əlincə qalasını təsvir etmişdir. Onun yaratdığı “Əlincə qalası” (şəkil 51), “İlan dağ”, “Möminə xatun türbəsi” əsərlərində rəssamın Naxçıvanın təbiətinə, mədəniyyətinə olan sevgisi, vurğunluğu hiss olunur.

Xarici ölkə rəssamlarının 2016-cı ildə “Naxçıvan-Bəşəriyyətin beşiyi” III Beynəlxalq Rəsm Festivalında iştirakı ilə bu qədim torpaqda bu mövzuya həsr olunmuş çoxsaylı əsərlərin yaradılmasına imkan yaratmışdır. Müxtəlif üslüb və texnikalarla yaradılan əsərlərdə bu mövzuya fərqli aspektdən olan baxışı, duyumu, bu qədim torpaqla təmasdan yaranan hiss və həyəcanı ortaya qoydu. Festivalda iştirak edənlərdən Türkiyə Respublikasından Nevin Aytəkinin (1959) “İnsanlığın gəmisi Naxçıvanda”, Hülya Sezginin (1958) “Haça dağ”, Minə Sarmış Çaylakın (1970) “Oyanış”, İran İslam Respublikasından Vədut

Müəzzinzadənin (1960) "Günəşli gün", Cəlaləddin Piraninin (1968) "Naxçıvanqala", Ruqayyə Pəhləvinin (1972) "Əzəmətli dağ", Gürcüstandan Mamuka Tsekladzenin (1960) "Dağlar mahnısı", Lia Şvelidzenin (1959) "Naxçıvana gələn gəlin", Rusiyadan Dağıstandan Patimat Huseynovanın (1972) "Təfsir", Qazaxıstandan Rufina Şaripovanın (1987) "Naxçıvanın ecazkar dağları" adlı əsərlərində Naxçıvan qədim və müasirliyin vəhdəti kimi təsvir olunmuşdur.

Yuxarıda sadalanan əsərlərin adlarından da göründüyü kimi çəkilən tarixi mövzulu kompozisiyalı əsərlərdə Nuh əfsanəsi də mühüm yer tutur. Tarixi-mifoloji janrda Nevin Aytəkinin (1959) "İnsanlığın gəmisi Naxçıvanda" əsəri texnika və kompozisiya baxımından maraqlıdır (şəkil 52).



Şəkil 52. Nevin Aytəkin. "İnsanlığın gəmisi Naxçıvanda"

Dekorativ səpkidə işlənmiş bu əsərin mərkəzində İlandağ təsviri verilmişdir. İlandağ təsvirindən aşağıda "vav" sözü, (ərəb dilində Allaha and içmək mənasını ifadə edən) Nuh peyğəmbərin gəmisinin simvolik və estetik ifadəsi əks olunmuşdur. Onun içərisindən ucalan yaradılışı, yaşamı simvolizə edən lalə təsviri kompozisiya bitkinliyi ilə vermişdir. Ebru üzərində çəkilmiş bu kompozisiya ideya-məzmunu aydın və səlisdir.

Əcnəbi rəssamların yaradıcılığında Naxçıvan mövzulu əsərlər silsiləsinə 2018-ci ildə rast gəlnir.



Şəkil 53.Birsen Çeken. "Nəiminin məqbərəsi"

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən Ümummilli liderimiz anadan olmasının 95-ci ildönümü muxtar respublikada silsilə tədbirlərlə qeyd olunur. Tədbirlər Planına uyğun olaraq 21-24 may tarixlərində Naxçıvan şəhərində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan-bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı keçirilib" [108].

2018-ci ildə “İslam mədəniyyətinin paytaxtı olan Naxçıvan şəhərində keçirilən “festivalda Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Ukrayna, Rusiya, Finlandiya, Sloveniya, Misir, Oman və Polşadan 35 rəssam, eləcə də ölkəmizdən 28 rəssam iştirak edib” [109]. Naxçıvana həsr olunmuş əsərlərdən türkiyəli rəssamlar Birsen Çeken Yıldırımın “Qarabağlar türbəsi”, Basri Ərdəmin “Araz sahili” və Hülya Sezginin “Güllər içində Naxçıvan”, rusiyalı rəssam Diana Arslanovanın “Xəyal dünyası”, Polşadan Katya Sokolova Zizakın “Haçadağ” əsəri maraqla qarşılanmışdır.

“Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr edilmiş “Naxçıvan – bəşəriyyətin beşiyi” V Beynəlxalq Rəsm Festivalında 42 tanınmış rəssam iştirak etmişdr” [110]. Bu festivala qatılmış rəssamlar əsərlərini daha çox bu qədim torpağa həsr etmişdilər.

Festival zamanı Naxçıvana həsr olunan əsərlərdən Ayşen Canın “Duzdan mağarası”, Hülya Sezginin “Naxçıvanda mən də varam”, Mehmet Sağ “Canım Naxçıvan”, Aslı Özen “Əməkçi Naxçıvan qadınları”, Birsen Çeken Yıldırımın “Nəiminin məqbərəsi” (şəkil 53), Gültekin Akınginin “Möminə Xatun türbəsi”, Nilgün Çevikin “Firuzəyi rəng”, Emine Kasapın “Naxçıvanda başlamış həyat”, Hakan Sarıhanın “Nuh ilə yenidən başlanğıc”, Sena Sengirin “Naxçıvan” və s. əsərlərində bu mövzu müxtəlif üslub və texnikalarla dərin ideya-mənalı, maraqlı kompozisiyalarla ifadə həllini tapmişdır.



Şəkil 54. Ayşən Can. “Duzdağ mağarası”

Özbəkistanın Daşkənt şəhərində anadan olmuş Nafisa Gilmanovanın “Naxçıvan böyük ipəkyolu üzərində” adlı əsəri isə tarixi janrda yaradılmış maraqlı kompozisiyalardandır. Rəssam bu festivalda iştirakı üçün yaratdığı 60x100 sm ölçülü, mürəkkəb kompozisiyalı əsərində Dədə Qorqud məskəni olan Naxçıvan müxtəlif simvolik detalların dili ilə saflığın, təmizliyin, sülhsevərliyin, azadlığın bərqərar olduğu, qədim tarixin, zəngin mədəniyyətin beşiyi kimi göstərilmişdir. İki rəngin – qara və ağ

rənglərin üstünlük təşkil etdiyi bu kompozisiyanın ideyası həm predmetlərin, həm də rənglərin dili ilə ifadə olunmuşdur.

Türkiyədən qatılmış Ankara Hacı Bayram Vəli Universitetinin professoru Birsen Çeken Yıldırımın "Nəiminin məqbərəsi" əsərində adı çəkilən Naxçıvan abidəsi fərqli kompozisiya biçimi ilə təsvir olunub.

Bu üslubda çəkilmiş digər bir əsər onun 2018-ci ildə çəkdiyi və hazırda Qarabağlar Türbə Kompleksində nümayış etdirilən "Qarabağlar türbəsi" əsəridir. Hər iki əsərin kompozisiya quruluşu eynidir. Əsərlərdə tarixi abidələr kompozisiyanın mərkəzi hissədə, dairənin içərisində, mavi rəngin üstünlük təşkil etdiyi və qəhvəyi, mavi, yaşıl rənglərin harmonik ifadəsilə yaradılmışdır. Hər iki əsər eyni kompozisiya ilə fəlsəfi ideyaları özündə əks etdirir.

Türkiyəli rəssam Ayşən Canın 2021-ci ildə çəkdiyi "Duzdağ mağarası" adlı əsəri bu mövzunun fərqli üslub dili ilə ifadəsi diqqətçəkəndir (şəkil 54).

Soyuq rənglərlə, qabarıq fakturanın ahəngi ilə yaradılmış tabloda sanki duzdağın Naxçıvan tarixi qədər qədim tarixə malik olmasını açıb göstərir. Soyuq rəng tonu duz kristalları üzərində bərq vuran rəngləri, parıltını xarakterizə edir. Kompozisiyada duzdağın müasir quruluşu yerüstü və yeraltı (mağara) hissəsinin yanaşı təsvirini, orada çalışan insanları isə silüet formasında göstərmişdir. Təsvir olunmuş quşlar isə əsərə dinamika bəxş etmişdir. Naxçıvan Duzdağının estetik əksi uzaqdan oval formalarının yumuşaq ritmik təkrarı, torpağın sarı, qızılı, rənglərlə, duz kristallarının ağlı, bozlu, mavili soyuq rənglərin bir-biri ilə təzadı kompozisiyanı maraqlı etmişdir.

Əsərdəki rənglərə baxanda Akademik İsa Həbibəylinin “Duzdağ odası” şeirində “Duz çaylar DuzdağAtanın alın təridir, DuzdağAnanın ağarmış hörüklərdir” kimi ifadələr yada düşür.



Şəkil 55. Necati Seydi Ferahoğlu. “Naxçıvandan görünüş”

“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən 2023-cü il 29-31 may tarixlərində Naxçıvan şəhərində Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Naxçıvan bəşəriy-yətin beşiyi” VI Beynəlxalq Rəsm Festivalı keçirilmişdir. “Əcəmi Seyrəngahı” Mədəniyyət və İstirahət Parkında təşkil olunan

festivalda doqquz ölkədən gəlmiş rəssamlar iştirak etmişdir [68, s.2].



Şəkil 56.Yuliya Suxovetskaya. "Açıq Səma Altında Muzey"

Festivalda çəkilən əsərlər mövzu etibarı ilə Naxçıvanı ifadə edirdi. Türkiyəli rəssam Birsen Çeken Yıldırım, Mehmed Sağ, Necati Seydi Ferahoğlu, Gülay Birben, Mine Sarmış Çaylak, Nilgün Çevik, Gürcüstandan Mamuka Tsekladze, Lia Şvelidze, Lela Geleişvili, Rusiyadan Yuliya Suxovetskaya, Alfia Sargin, Qazaxıstandan Kulyaş Turabayeva, Özbəkistandan Nafisa

Gilmanova yaratdıqları əsərlərdə Naxçıvan təbiətini, abidələrini bədii ifadə vasitələrilə əks etdirmişlər.

Əsərlər Naxçıvana səyahət zamanı və ya fotolar vasitəsilə yaratmışdır. Türkiyəli rəssam Birsen Çeken Yıldırımın iki ölkə – Azərbaycan və Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətini, mənəvi dəyərlərini ifadə edən “Dostluq” əsəri, Mehmed Sağın “Kutsallarımız”, Necati Seydi Ferahoğlunun İlandağ təsvirli “Naxçıvandan görünüm”, Gülay Birbenin “Arazı keçərkən”, Mine Sarmış Çaylakın “Hamımız eyni gəmidəyik”, Nilgün Çevikin “Nuh tufanı” əsərləri fərqli kompozisiya biçimi, üslub, texnika müxtəlifliyi ilə Naxçıvan torpağına aid düşüncələrin bədii təsvirini ortaya qoymuşlar.

Digər ölkələrdən isə Gürcüstandan Mamuka Tsekladzenin Azərbaycanı iki hissəyə ayırmış, həsrət rənglərinin ifadəsilə “Araz çayı” əsəri, Lia Şvelidzenin “Naxçıvan gözəli”, Lela Geleişvilinin yaratdığı Möminə xatun türbəsinin yaxınlığından Açıq Səma Altında Muzeyin görünüşünü əks etdirdiyi “Naxçıvan əsəri”, Rusiyadan Yuliya Suxovetskayanın Açıq Səma Altında Muzeyin təsviri, Alfia Sarginin “Naxçıvan Tatarıstan gülləri”, Qazaxstandan Kulyaş Turabayevanın “Nuhun gəmisi”, Özbəkistandan Nafisa Gilmanovanın “Möminə xatun ziyarəti” əsərləri həm realist üslubu ilə yanaşı, həm də ifadə müxtəlifliyi ilə diqqət çəkəndir.

Nilgün Çevikin yaradıcılığında ebru boyalarının xüsusi texnikası ilə işlədiyi əsərlər geniş yer tutur. Naxçıvan Rəssamlar Birliyinin üzvü olan Nilgün Çevik iki əsərini Naxçıvana həsr etmişdir.



Şəkil 57. Nilgün Çevik. "Nuh tufanı"

Hər iki əsəri – "Möminə xatun türbəsi" və "Nuh tufanı" (şəkil 57) əsərləri ebru üzərində yaradılmışdır. "Möminə xatun türbəsi" əsəri Naxçıvanda Möminə xatun türbəsində nümayiş etdirilir. Əsərlər texnika və kolorit baxımından maraqlı və seçiləndir.

Xarici ölkə rəssamlarının əsərlərində yer alan Naxçıvan daha çox tarixi-memarlıq abidələrimizin bədii əksi, təbiət təsvirləri və Naxçıvanın qədim tarixi, mədəniyyəti və müasir görünüşüdür. Əvvəlki dövrlərdən fərqli olaraq müasir dövrdə

yaradılan Naxçıvan mövzulu rəsm əsərlərinin bədii ifadə dili təkcə realist yanaşma ilə deyil, həm də müxtəlif üslublarla öz əksini tapır.

Mövzu, kompozisiyada isə daha çox Naxçıvanın həm qədim, həm də müasir inkişafının bədii, estetik ifadəsi hər bir janrda fərqli texnikalarda həllinə nail olunmuşdur.

Əcnəbi rəssamlarının əsərlərində geniş yer alan Naxçıvan daha çox tarixi-memarlıq abidələrimizin bədii əksi, təbiət təsvirləri və Naxçıvanın qədim tarixi, mədəniyyəti və müasir görünüşüdür. Verilən tarixi məqamlarda Nuh əfsanəsi, Naxçıvan abidələri də mühüm yer tutur ki, bu əsərlər həm bir-birindən fərqli müasir üslub xüsusiyyətləri və tarixilik baxımından diqqətəlayiqdir. Naxçıvan təsvirlərinin xarici ölkə rəssamlarının əsərlə-rində yer alması, qədim torpağın öyrənilməsi, tanıdılması, təbliği baxımından da böyük əhəmiyyət daşıyır.

# II FƏSİL

# NAXÇIVANLI RƏSSAMLARIN YARADICILIĞININ JANR VƏ ÜSLUB MÜXTƏLİFLİYİNDƏ DOĞMA DİYAR



## II 1.Bəhruz bəy Kəngərli yaradıcılığında Naxçıvan əsas mövzu kimi

Ümummilli lider Heydər Əliyev Bəhruz bəy Kəngərli haqqında demişdir. "Bəhruz Kəngərli nadir istedada malik bir insandır. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır". Bəhruz bəy Kəngərli Azərbaycan təsviri incəsənət tarixində ilk rəssamdır ki, bütün janrlarda – natürmort, portret, tematik tablo, mənzərə janrı sahəsində ardıcıl olaraq işləmiş, bu janrın realist istiqamətdə inkişaf etməsi üçün yorulmadan çalışmışdır. Bir sözlə Azərbaycan təsviri sənətində realizmin banisi, rəssamlıq təhsili görmüş ilk peşəkar rəssam Bəhruz bəy Kəngərli yaradıcılığında bütün janrları müstəqil bir janr səviyyəsinə qaldırmışdır.

İstedadlı sənət fədaisi Bəhruz Şirəli bəy oğlu Kəngərli (1892-1922) qısa – 30 illik ömür yolu keçmiş, lakin, həyatını sənətə, torpağının, doğma yurdunun tərənnümünə, xalqının gələcəyinə həsr edən bir ziyalı, görkəmli şəxsiyyət kimi adını təsviri sənət tarixinə həkk etmişdir. Ziyalı ailədə doğulub, böyümüş Bəhruz bəy Kəngərli ilk təhsilini də elə orada, Naxçıvanda mollaxanada almışdır. Rəssamlığa xüsusi qabiliyyəti, həvəsi olan Bəhruzun xəstələnməsi səbəbindən təhsilində, sənət fəaliyyətində çətinlik yaransa da atası bu sahədə ona dəstək göstərmişdir. İstər rus dilini öyrənməsinə, rəssamlıq sahəsində fəaliyyətinə böyük kömək edən atası onun professonal rəssamlıq təhsili alması baxımından da əlindən gələni əsirgəməmiş, sənətin sirlərinə daha yaxından bələd olması üçün Bəhruzu Tiflis şəhərinə yola salmışdır. Çətinliklərə – maddi və xəstəliyinə görə məhdud fiziki imknına

baxmayan B.Kəngərli təhsil illərində (1910-1915) çox sevdiyi sənətini həm nəzəri, həm də praktik cəhətdən öyrənmiş, onun bədii-texniki vərdişlərinə dərindən yiyələnmiş, təcrübi xüsusiyyətlərini öyrənmiş və eyni zamanda Avropada yaranmış müxtəlif üslub və cərəyanlar ilə, dövrün məhşur dünya rəssamlarının yaradıcılıqları ilə yaxından tanış olmuşdur.

Yaradıcılığının ilk illərində Cəlil Məmmədquluzadənin rəhbərlik etdiyi "Molla Nəsrəddin" jurnalı üçün karikaturalar çəkən rəssamın fəaliyyətinin sonrakı inkişaf mərhələsini mənzərə, portret, tematik tablo janrlarında realist üslublu əsərlər təşkil etmişdir.



Şəkil 1. Bəhruz bəy Kəngərli 1."Nuhun qəbri". 2."Came məscidi"

Hələ 1914-cü ilin iyununda Bəhruz bəy Kəngərli Naxçıvanda ilk fərdi sərgisini keçirməyə nail olmuşdur. Onun realist üslubda yaratdığı əsərlərdən ibarət olan bu sərgisi naxçıvanlılar tərəfindən həvəslə qarşılanmış və böyük marağa səbəb olmuşdur. Rəssamlıq təhsilini başa vurduqdan sonra o, Naxçıvana qayıtmış, ömrünün axırınadək burada yaşamış,

Azərbaycan təsviri sənətinin inkişafında əvəzsiz fəaliyyət göstərmişdir.

B.Kəngərlinin yaradıcılığı mövzunun məzmunluğu, əhatəliliyi, lirik-estetik bədii məziyyətlərinin ifadəsi, vətənpərvərlik və humanizm ideyalarının təbliğı ilə seçilir. Milli təsviri sənət tarixində realizm cərəyanında təməl olaraq əsasını qoyduğu bütün janrların – mənzərə, portret, natürmort, tarixi, teatr-dekorasiya və s. janrların professional bədii həlli Bəhruz bəy Kəngərlinin adı ilə bağlıdır.

Rəssam portret, çoxfiqurlu kompozisiya, natürmort janrında çoxlu sayda əsərlər yaratsa da onun yaradıcılığında geniş yeri Naxçıvan abidələri, Naxçıvan təbiəti tutmuşdur. Rəssamın yaradıcılığında mənzərələrin sayca çox olması təsdiq edir ki, Kəngərli təbiət vurğunu olmuşdur.

Rəssamın mənzərə janrında yaratdığı əsərlər təkcə təbiət lövhəsinin gözəlliyinin ifadəsi kimi yox, həm də milli təsviri sənətdə tarixin canlı əksi kimi xarakterizə olunur. Onun mənzərə janrında qədim yurdun tarixi yerlərinin gözəlliyini, realist mənzərəsini yaradığı əsərlərinə "Şəlalə", "Dağlıq mənzərə", "İlanlı dağ ay işığında", "Günəş batarkən", "Ağrı dağ", "Köhnə qala", "Əliabad kəndində darvaza", "Yamxana kəndinə gedən yol", "Payız", "Bahar", "Möminə xatun türbəsi", "Əshabi-Kəhf dağı", "Nuhun qəbri", "Cümə məscidi" və s. əsərlərini nümunə göstərmək olar (şəkil 1). Qədim Nuh torpağının tarixi abidələrinin realist təsvirlərini rəssam xüsusi həvəslə "Naxçıvan yadigarı" adlı albomlarda rəsm etmişdir. Rəssamın ərsəyə gətirdiyi bu albomu böyük ürəklə insanlara hədiyyə verməsi sənət aləmində təqdirəlayiq hal olaraq yüksək qiymətləndirilir.

Bəhruz hələ məktəb illərindən başlayaraq, rəssamlıq sənətinin müxtəlif texniki vasitlərindən və üsullarından bacarıqla istifadə edirdi. Onun yağlı boyalarla işlədiyi şəkillərin çoxu etüd xarakterli kiçik mənzərələrdir. Rəssamın bədii irsindən görünür ki, o, akvarel boya texnikasını yağlı boyalardan üstün tutmuş və əsərlərinin çox hissəsini akvarellə işləmişdir.

Kəngərli realist üslub əsasında təhsil alan və qabaqcıl rus rəssamlarının əsərlərindən öyrənən istedadlı bir sənətkar olmuşdur. Rəssam klassik mənzərə ustalarının əsərlərini böyük bir həvəslə öyrənmişdir. O, Şişkinin, Vasilevin, Savrasovun, Levitanın, Polenovun mənzərələrinə xas olan ehtirası dərindən hiss etmiş, öz mənzərələrində təbiətin gözəlliklərini açmağa səy göstərmişdir.

B.Kəngərli Naxçıvan təbiətini çox sevmiş, bütün qəlbi ilə onun gözəlliklərini dərindən hiss etmiş və bu duyğularını tablolarında göstərməyi yaxşı bacarmışdır. Doğma Naxçıvanın rəngarəng təbiətindən təsirlənərək dolğun boyalarla əks etdirdiyi “Dağ”, “Meşə”, “Yaz sabahı”, “Qürub” və s. mənzərələri Vətənini ehtirasla sevən bir sənətkar olduğunu göstərir.

Bəhruz bir qayda olaraq mənzərələrin kiçik ölçüdə çəkmişdir. Real təsvir vasitələri ilə yaratdığı yağlı boya, akvarel boya əsərləri ölçülərinin kiçikliyidən asılı olmayaraq, bitkin mənzərə əsərindən alınan təəssüratla eynilik daşıyır. Rəssamın təbiətdən aldığı hisslər ötəri olmamış, rast gəldiyi ani dəyişiklərə biganə qalmamışdır. Təbiətin hər bir vəziyyətində bir dərin məna görmüş, hər bir dəyişikliyi dərin bir məhəbbətlə uyğun koloritdə ifadə etmişdir.

Rəssamın mənzərələrinə baxarkən, onun yaradıcılığı üçün əhəmiyyətli olan, onun müşahidə qabiliyyətini artıran bir

xüsusiyyətə rast gəlmək olur. O, təbiətdə müşahidə etdiyi eyni mən-zərəni bir neçə dəfə çəkir və hər dəfə gördüyü və hiss etdiyi dəyişikliyi doğru təsvir etməyə çalışır.

Məsələn o, "İlan dağ" mənzərəsini bir neçə dəfə, həm də günün müxtəlif vaxtlarında çəkmişdir. Etüdlərin birində sübh çağı günəş şüalarının ətrafa yenicə yayılmağa başladığı vaxt təsvir olunmuşdur. İlan dağ isə siluet şəklidə təsvir olunmuşdur.




Şəkil 2. Bəhruz bəy Kəngərli. 1. "Mömінə xatun türbəsi"
2. "İmamzadə"

Dağın təsvirində günəş işığı verilməsə də havada xəfif bir qızartı sakit bir hüzr təsiri bağışayır. Lakin sakit rənglərin fonunda həyati, nikbin bir canlılıq hiss olunur. Bundan əlavə eyni

mənzərənin başqa bir zamanda çəkildiyinə rast gəlinir. İkinci mənzərə günəşin qurub vaxtında çəkilmişdir.

Bu mənzərədə dağın təsviri ətrafa çökən tutqun rəngin təsirində verilmişdir. Havada və dağda istifadə olunan rənglər axşam günəş batışından doğan gözəlliyin təsirini tamaşaçıya çatdıra bilmişdir.

Akvarel boyalarla çəkilmiş üçüncü "İlan dağ" mənzərəsi– əsərdəki kolorit rəngarəng olmasa da, təsvir öz sadə və gözəlliyi ilə seçilir. Mənzərədə dağın ay işığında gümüşü rəngə boyanması, ətrafa yayılan füsunkar gözəllik təsirli və realist boyalarla verilmişdir.

Onun "Payız mənzərəsi. Əshabi-Kəhf dağı" (1921), "Yamxana kəndinə gedən yol" (1921), "Naxçıvanda şəlalə" (1921), "İlandağ ay işığında" (1921) və s. əsərlərində həm də impressionist ruhu hiss olunur.

Naxçıvanın özünəməxsus koloriti, bitki örtüyü, uca dağların əzəməti, geniş üfiqlər, qədim abidələri Bəhruz fırçasının nəzmə çəkdiyi mövzulardır. Bəhruz bəy Kəngərlinin akvarel boyalarla işlədiyi mənzərələrinin bir qismini Naxçıvan şəhərindəki ayrı-ayrı memarlıq abidələrinin və ya şəhərin ümumi görünüşünün təsvirinə həsr etmişdir.

Qədim Naxçıvanda və onun ətraf kəndlərində hələ orta əsrlərdə qırmızı və yaxud əlvan kərpicdən tikilmiş bir sıra qədim abidələr həm özlərinin tarixi və bədii əhəmiyyətinə, həm də müəyyən orijinal xüsusiyyətlərinə görə rəssamın diqqətini cəlb etməyə bilməzdi.

Bəhruz bəy Kəngərli doğma Vətənin qədim abidələrini xüsusi ilə sevmişdir. Təsadüfi deyil ki, o, Naxçıvan ərazisində və

ətraf kəndlərdə olan qədim abidələrin şəkillərini dəfələrlə çəkmiş, sonradan həmin təsvirləri “Naxçıvan yadigarı” albomuna da daxil etmişdir. Çəkdiyi bir neçə şəkildən görünür ki, rəssam Naxçıvanın ən gözəl abidələrindən biri olan Möminə xatun türbəsini müxtəlif variantlarda bir neçə dəfə çəkmişdir (şəkil 2).

Yerli əhali arasında “Atabəylər məqbərəsi” adlanan bu abidənin gözəl, həm də mürəkkəb ornamentləri Bəhruzun diqqətini cəlb etmişdir. Etüdlərdən birində o, “Atabəylər məqbərəsi”ni uzaqdan təsvir etsə də, onu mühitlə əlaqədə göstərə bilmişdir. Abidənin divarlarına kölgə düşmüşdü, təkcə bir üzü günəş şüalarından işıq alır. Buna baxmayaraq abidənin silueti doğru, həcmi isə inandırıcı verilmişdir.

Rəssamın başqa bir əsərində uçub-dağıdılmış bir ev görünür. Şəkildə verilmiş isti rənglər, günəşin isti şüalarından qovrulmuş torpaq, qırmızı rəngdə verilmiş kərpic divarlar insanın diqqətini cəlb edir. Ətrafda təsvir olunmuş kollar tünd yaşıl rəng almışdır. Mənzərədə verilmiş bu sadə təsvirdə yanmış çöllərdə, uçub-dağılmış qədim divarın təsvirində qədim şəhərin erməni hərbi dəstələri tərəfindən törədilən vəşiliklərin dəhişətli izləridir. Onun düşmənlərin yerli əhaliyə qarşı törətdiyi insanlığa sığmayan vəhşi əməlləri təkcə portretlərində deyil, məhz bu kimi neçə-neçə əsərlərində də açıq şəkildə göstərmişdir. “Naxçıvan. Minarəsi zədələnmiş məscid” (1920), “Naxçıvanda xarabalıq” (1921), “Eylabat kəndində dağıdılmış darvaza” (1921), “Dağıdılmış ev” və s. bu səpkidən olan əsərlərdir. Elə buna görədir ki, Bəhruz bəy Kəngərlinin əsərləri “tarixi sənəd” adlandırılıb. Onun təsvir etdiyi mənzərələr öz dövründən bu zamanadək çəkib saxladığı mirasdır. Belə əsərlərində “Nuh məzarı” (1921), “Naxçıvanda Nuhun qəbri”

(1919), “Came məscidi” (1920), “Yusif Küseyr türbəsi” (1920), “Köhnə qala” (1921), “Türbə” (1919), “Mənzərə. Naxçıvanda məscid” (1919), “Məscid kompleksi” (1920), “Naxçıvanda qala” (1921), “İmamzadə” (1919) və s. mənzərələrində o dövrkü Naxçıvanın görnüşünü, hətta, tarixi hadisələrin nəticəsi olaraq göstərmişdir.

B.Kəngərlinin özündən sonra qoyub getdiyi yaradıcılığının böyük hissəsini tutan gözəl mənzərələri Azərbaycan təsviri incəsənətinin bu günkü inkişaf mərhələsində bir çox cəhətdən özündən sonrakı rəssamlar üçün bir örnəkdir.

Bəhruz bəy Kəngərlinin yaradıcılıq irsi Ulu öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, 2002-ci ildə onun ölkə səviyyəsində 110 illiyinin qeyd olunması, Bəhruz Kəngərli Muzeyinin yaradılması və onun 18 iyun tarixində açılışında rəssam haqqında böyük fikirlər söyləməsi bunun bariz nümunəsidir. Bu gün Muxtar Respublikada parkın, sərgi salonunun rəssamın adını daşıması onun bədii irsinə olan dövlət qayğısından xəbər verir.

## II.2.Bəhruz Kəngərlidən sonra naxçıvanlı rəssamların yaradıcılığında realist ənənələrin inkişafı. Naxçıvan mövzusu mənzərə və teamatik tabo janrında (1920-1950)

Üslub bəhs olunan dövrün hər hansı məktəblərdə yaranan fərdi və ümumi olan yaradıcılıq istiqamətidir. Müəyyən bir üslub haqqında əsərin obrazlı quruluşundan, rəssamın yaradıcılıq ənənələrinə, onun həyata və mühitə olan münasibətindən bilmək olar.

Hər hansı rəssamlıq üslubu – müəyyən sosial-tarixi əsasda yaranan və müəyyən dünyagörüşülə bağlı olan sistemdir. Bu sistem ideya-bədii konsepsiyanın obrazı və onların təcəssümünün vasitəsidir. Təsviri sənət əsərlərinin üslub xüsusiyyətləri bəhs olunan hər hansı əsərin məzmun, forma və ifadə vasitələrində təcəssüm tapır.

Milli təsviri incəsənətə realist üslubu gətirmiş Bəhruz bəy Kəngərlidən sonra bu üslub ənənələri digər rəssamlar tərəfindən davam etdirilmişdir. Naxçıvanlı rəssamlardan Türkiyədə yaşayıb-yaradan rəssamlar olub ki, onlar da məhz realist üslubda əsərlər yaratmışdırlar. Onlardan İbrahim Səfi və Əkbər Kazımbəyovun adını çəkmək yerinə düşər ki, onların yaradıcılığında mənzərə, tematik tablo, natürmort və s. janrlar vasitəsilə Naxçıvan təbiətini, mədəniyyətini, adət-ənənələrini əks etdirmişlər.

İbrahim Səfi (1898-1983) Baş Noraşen (İndiki Cəlilkənd) kəndində ilk təhsilinə başlamış, məktəbi bitirdikdən sonra İrəvan Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir. 1913-cü ildə Moskva Rəssamlıq Akademiyasının hazırlıq şöbəsinə qəbul olan rəssam, müəyyən səbəblərdən burada təhsilini dayandırmışdır. İbrahim Səfi Birinci Dünya Müharibəsindən bitdikdən sonra Türkiyəyə gedərək İstanbul Gözəl Sənətlər Akademiyasına daxil olmuşdur. O, 1923-cü ildə akademiyanı bitirərək, rəssamlıq fəaliyyətini burada davam etdirmişdir. Bədii yaradıcılığa erkən başlayan rəssam müxtəlif ölkələrdə 100 fərdi sərgi keçirmişdir. Təsviri sənətdə baş verən müxtəlif cərəyanlara, sənət üslublarına dərindən bələd olsa da yaradıcılığında realizm cərəyanını üstün tutmuş rəssam, bu ənənələrini yaradıcılığı boyu davam etdirmişdir. Onun palitrasının əlvan və zənginliyi məhz doğma Azərbaycan torpağındakı milli rənglərdən

yaranmasındadır. Rəssamın tablolarında xalçalarımızın naxışlarındakı al-əlvan rənglərin harmoniyası duyulur. Milli kolorit bu palitranın əlvan, canlı və inandırıcı görünməsinin bəlkə də əsas şərtidir. Lakin rəssam bu rəngləri təbiətdən realist formada verməklə kifayətlənməmiş, onların hər birinə sirli ahəng vermiş, lirik ecazkarlıq qatmışdır. Məhz bunun nəticəsidir ki, onun tablolarında rənglər sanki dilə gələrək insanla danışır, daşıdıqları fəlsəfi və romantik mahiyyəti ifadə edirlər.





Şəkil 3. İbrahim Səfi. 1.Mənzərə 2. "Naxçıvan mənzərəsi"

Bütün bunlar rəssamın Naxçıvanda yaşadığı zamanlarda, ömrünün uşaq və gənclik yaşlarında təmiz yaddaşına xoş duyğularla həkk olmuş Vətən gözəllikləri, doğulub boya-başa çatdığı Naxçıvanın, Şərur rayonunun təbiət mənzərələrinin lirik ahəngi ilə bağlıdır. Onun bir neçə mənzərə və kompozisiyasında fon olaraq göstərdiyi təbiət lövhələrində Naxçıvanın simvoluna çevirilən İlan dağ təsvirini realist üslub xüsusiyyətləri ilə əks etdirmişdir. Digər bir mənzərəsində isə forma və rəng olaraq sanki Əshabi-Kəhf dağının uzaqdan görünüşü təsvir edilmişdir (şəkil 3).

Vətəndən uzaqda yaşamış realist rəssamlardan biri də Əkbər Kazımbəyov (1884-1972) olmuşdur. O, 1884-cü ildə Şərurda anadan olmuşdur. Əkbər Kazımbəyov 1907-ci ildə İrəvan şəhərində gimnaziyanı bitirmiş, ali təhsilini isə Moskva Universitetinin hüquq fakültəsində almışdır. Lakin rəssamlığa olan güclü həvəs və rəssam olmaq arzusu onu rahat qoymamışdır. Beləliklə, o, 1911-1915-ci illərdə Moskva Rəssamlıq Akademiyasında rəsm bölümündə təhsil almışdır. Birinci Dünya Müharibəsi zamanı Zaqafqaziyada döyüşən ordu ilə Türkiyəyə getmişdir. Əkbər Kazımbəyov sonrakı dövrlərdə rəssamlıq fəaliyyətinə başlamış, ömrünün son illərini rəsmə həsr etmişdir. Onun bu dövrlərdə müxtəlif janrlarda yaratdığı əsərlərdən ibarət sərgisi keçirilmişdir. Müxtəlif portret, mənzərə, natürmort və çoxfiqurlu kompozisiyaları əhatə edən sərgi 1986-cı ildə – onun vəfatından on dörd il sonra oğlu Nuri Muğan tərəfindən İstanbul Pamük Bank Suadiye Sənət Qaleryasında təşkil olunmuşdur. Əkbər Kazımbəyovun böyük ilhamla ərsəyə gətirdiyi tabloları Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, Türkiyədəki muzeylərdə və şəxsi kolleksiyalarda qorunur. Mənzərə janrında yaratdığı tablolarda əsasən qeyd olunur ki, "Rəssamın əsərlərində zaman və məkan çərçivəli akademik bir üslub hakimdir. Doğru əsasa bağlı realist düşüncəsində rəssam, əsərlərində öz daxili dünyasını böyük ustalıqla ifadə etmişdir" [58].

Zaman keçdikcə Naxçıvanda yaşayıb-yaradan rəssamların yaradıcılığında hər bir janrda olduğu kimi mənzərə janrının, tematik tablo janrı, məişət janrı, tarixi janr, portret və başqa janrların inkişafı yolunda uğurlu addımlar atılırdı. Bədii təsvir vasitələrinin köməyi ilə mənzərələrdə, tematik tablo janrında və

digər janrlarda təcəssüm tapmış əsərlər realist üslubda əks etdirilmişdir. Bəhruz bəy Kəngərlinin bədii irsini, rəngkarlıq ənənələrini öz yaradıcılığında əks etdirməyə çalışan rəssamlar çəkdikləri əsərlərdə təsvir obyektinin real şəkildə, natural formada olduğu kimi yaratmağa cəhd etmələri aydın şəkildə görünür. Əsərlərdə yaradılan təsvirin ümumiləşdirilmiş və ya sintez olunmuş formada deyil, realist üslubda əks olunması təsviri daha canlı və təbii təsir bağışlamasına zəmin yaratmışdır.

Naxçıvan mövzulu əsərlərdən söhbət gedərkən Bəhruz bəy Kəngərlinin yaradıcılığına xas realizm ruhu tematik tablolarında əks olunan Şamil Qazıyevin (1908-1980) yaradıcılığını yada salmaya bilmərik.

1934-1948-ci illərdə Naxçıvanda fəaliyyət göstərən, yaradıcılığında Naxçıvan şəhərinin müxtəlif yerlərini, mənzərələrini, tarixi və mədəniyyətini öz əsərlərində realist üslub xüsusiyyətləri ilə əks etdirən rəssamlarından biri də Şamil Qazıyevdir. "Şamil Həsən oğlu Qazıyev 1908-ci il mart ayının 30-da Azərbaycanın qədim şəhərlərindən olan İrəvanda anadan olmuşdur. İrəvan Quberniyası və Naxçıvan qəzasında maarif və mədəniyyətin inkişafında Ş.Qazıyevin atası Həsən Xəlil oğlu Qazıyevin böyük xidmətləri olmuşdur. O, Naxçıvan qəzasının müxtəlif kəndlərində, o cümlədən şəhərin özündə müəllimlik etmiş, sonralar ermənilərin təzyiqi nəticəsində işdən azad edilmişdir" [3, s.42]. İşini itirən Həsən Qazıyev 1921-ci ildə ailəsi ilə bərabər köçüb, Naxçıvan şəhərinə yerləşmişdir. Burada fəaliyyətə başlayan maarifpərvər ziyalı Naxçıvanda xüsusilə təhsil sahəsində fəallıq göstərərək müxtəlif tədbirlərinin həyata keçirilməsində yaxından iştirak etmiş, yeni pedaqoji kadrların

hazırlanıb, cəmiyyətə təqdim olunmasında böyük zəhməti olmuşdur. Belə bir ziyalı ailədə tərbiyyə alan Şamil Qazıyev də kiçik yaşlarında təhsilə, sənətə, xüsusilə rəssamlığa böyük həvəs göstərmişdir. Hətta onun dövrünün müasiri olan Bəhruz Kəngərli ilə yaxından tanışlığının olması müxtəlif yazılı mənbələrdən məlumdur. Şamil Qazıyevin rəssamlıq sənəti seçməsində də B.Kəngərlinin səbəb olması onun xatirələrində qeyd olunmuşdur.

Naxçıvan teatrında 1920-ci ildən 1935-ci ilədək direktor vəzifəsində olmuş Əli Xəlilovun "Naxçıvan teatrının tarixi" kitabında tanınmış teatr rəssamı Adil Qazıyevin teatrın yanında rəssamlıq studiyası təşkil edib, ora istedadlı gəncləri cəlb etməsi qeyd olunmuşdur ki, bu gənclərdən gələcəyin görkəmli şəxsiyyətlərinə çevirilən Hüseyn Əliyev, Nağı Nağıyev, İdris Səlimov, Mirzə Əkbərov kimi şəxslər arasında Şamil Qazıyevin də adı çəkilmişdir. O, Naxçıvan Pedaqoji Texnikumunda oxusa da rəssamlığa olan sönməz həvəsi onun bu təhsilini yarımçıq qoymasına səbəb olur. Sonra Bakı Rəssamlıq Məktəbinin "Teatr tərtibatı" şöbəsinə qəbul olaraq təhsilə başlayan Şamil Qazıyev 1929-cu ildə buranı uğurla bitirmişdir. Təhsil illərində fəallıq göstərmiş Ş.Qazıyev hətta tətil günlərində də sənət fəaliyyətindən qalmamış: həmin zamanları düzgün dəyərləndirmişdir. Bu vaxtlarda Naxçıvanda olan gənc rəssam teatr tamaşalarına gedir, hər bir tamaşanı izləyərək burada gələcəyin teatr rəssamı kimi müəyyən təcrübələr qazanırdı. Naxçıvan teatrı ilə sıx əməkdaşlıq edən Ş.Qazıyev xatirələrində qeyd etmişdir ki, "bir dəfə teatrın direktoru Əli Xəlilovun tapşırığı ilə (söhbət 1927-ci ildən gedir) böyük pərdə üzərində dənizi əks etdirdim. Mənim bu işim Əli Xəlilovun və Səməd Mövləvinin çox xoşuna gəldi" [41].

Tələbəlik illəri Azərbaycanın realist teatr-dekorasiya sənətinin təməl daşlarını inşa edənlərdən olan Rüstəm Mustafayevlə, tanınmış rəssam Qəzənfər Xaliqovla, H.Səlimxanovla və başqa böyük sənətkarlarla birgə keçən gənc rəssam Bakı Rəssamlıq Məktəbində rəssamlıq sənəti sahəsində dərin bilik və bacarıqlara yiyələnir. Ş.Qazıyev təhsilini başa vurduqdan sonra Naxçıvana qayıdır və Naxçıvan Pedaqoji Texnikumunda pedaqoji fəaliyyətə başlayır. Burada rəsm müəllimi işləyən rəssam sonralar, 1932-ci ildə Bakıya qayıdır və Ə.Əzimzadənin tövsiyəsi ilə "Kommunist" qəzetində rəssam vəzifəsində işləyir.





Şəkil4. Şamil Qazıyev. 1. "İnqilabaqədərki Naxçıvan"  2. "Naxçıvanqala"

"O, 1934-cü ildə yenidən Naxçıvana qayıdır və "Şərq qapısı" qəzetində, eyni zamanda Naxçıvan Dövlət Dram Teatrında baş rəssam vəzifəsində çalışır. Şamil Qazıyev həm də 1940-1941-ci illərdə Naxçıvanda fəaliyyət göstərən Rəssamlıq Məktəbinin direktoru olmuşdur" [3, s.43]. 1948-ci ildə Şamil Qazıyev təkrar Bakıya dönmüş, otuz ildən çox "Azərbaycan gəncləri" qəzetində rəssam işləmiş və ömrünün sonuna qədər (1980-cı il) burada yaşamışdır. Rəssamın övladlarından Əməkdar rəssam Arif

Qazıyev, heykəltəraş Vaqif Qazıyev, nəvələri Samir, Mədinə, İlahə rəssamın bədii irsinin davamçılarındandır. Ş.Qazıyevin yaradıcılığında geniş bir sahəni əsasən teatr-dekorasiya sənəti təşkil etsə də o, bütün janrlarda, xüsusilə mənzərə və məişət janrlarında bir-birindən maraqlı tablolar yaratmışdı. Onun mənzərələrindən müxtəlif dövrlərdə çəkdiyi "Şəlalə", "Əlincə qalası", "Naxçıvanqala", "Sahil", "Qızlar bulağı", "Aylı gecə", "Dağlar silsiləsi", "Tək ağac", "Uçurdulmuş məscid", "İnqilabaqədərki Naxçıvan" əsərləri daha çox diqqətəlayiqdir (şəkil 4; 5).





Şəkil 5. Şamil Qazıyev 1."Biçin" 2. "Örtülü bazar"

Rəssamın tematik tablo janrına aid əsərlərində Naxçıvanın XX əsr məişət həyatını realist üslubla, çoxfiqurlu kompozisiyalarla ifadə etmişdir. Bunlardan "Dəyirman", "Naxçıvan hamamı", "Küçə dəlləyi", "Naxçıvanda köhnə həyət", "Örtülü bazar" və s. əsərlərində fiqurların dinamikliyi, mühitin təbii, real ifadəsi, etnoqrafik xüsusiyyətlərin dolğun ifadəsi ilə yaddaqalandır. Onun Naxçıvan Dövlət Tarix Muzeyində saxlanan "Köhnə qala" əsəri sənətkarlıq və tarixilik baxımından böyük əhəmiyyət kəsb edən

əsərlərindəndir. 1977-ci ildə çəkdiyi bu əsərdə uzaqdan təsvir olunmuş şəhər qalası, İmamzadə kompleksi, şəhər qəbiristanlığı gözəl kompozisiya biçimində verilmişdir. İmamzadənin yanından, qalanın aşağı tərəfindən keçən yolda göstərilmiş yüklü dəvələr, sağ tərəfdə tünd yaşıl rəngi ilə diqqəti cəlb edən nalbənd ağacı və digər detallar, istifadə olunmuş rəng koloriti o dövrkü Naxçıvan haqqında dərin təsəvvür yaradır. Digər tematik çoxfiqurlu kompozisiyalarında rəssam naxçıvanlıların məişət həyatını, onların əmək fəaliyyətini realist tərzdə ifadə etmişdir.

Realizm ənənələrini qədim Naxçıvan torpağının yetirdiyi Adil Qaziyevdən, Şamil Qaziyevdən başqa digər rəssamların da yaradıcılığında görmək olar. Belə sənətkarlardan biri də yaratdığı əsərlərlə Azərbaycan rəngkarlığında öz adına həkk etmiş əməkdar rəssam Əyyub Müseyib oğlu Hüseynovdur (1916-1998). Əyyub Hüseynov 1916-cı ildə Naxçıvanda Noraşen (indiki Kəngərli) rayonunun Xok kəndində doğulmuşdur. Təhsilini doğulduğu kəntdə alan Ə.Hüseynov balaca vaxtlarından şəkil çəkməyi çox sevmiş, fərqli baxışları, fərqli duyumları ilə öz yaşıdlarından seçilmişdir. Onun daxili aləmindəki yaradıcılıq sevgisi onu 1933-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna gətirib çıxarmış, burada görkəmli rəssamlardan sənətin sirlərini öyrənmişdir. 1935-ci ildə texnikumu uğurla başa vurduqdan sonra gənc rəssam Tbilisi Rəssamlıq Akademiyasına qəbul olmuş və 1941-ci ildə təhsilini müvəffəqiyyətlə bitirib Naxçıvana qayıtmışdır. Bu sənətin sirrlərinə yaxından bələd olan rəssam yeni-yeni rəngkarlıq nümunələri yaratmaqla bərabər Naxçıvan teatrında rəssam vəzifəsində çalışmışdır. Əyyub Hüseynov 1948-ci ildə Bakıya qayıdaraq həmin ildən Ə.Əzimzadə adına Azərbaycan

Dövlət Rəssamlıq Məktəbində müəllim kimi fəaliyyət göstərmiş, 1956-1965-ci illərdə isə məktəbin direktoru vəzifəsini daşımışdır.

Geniş yaradıcılıq diapazonuna malik rəssamın yaradıcılığında Azərbaycanın qədim tarixinə, böyük şəxsiyyətlərinə, xalqı-mızın adət-ənənələrinə, gözəl təbiətinə həsr etdiyi mövzular mühüm yer tutur. Rəssamın əsərlərində ilk növbədə diqqəti cəlb edən işıq və kölgələrin yerində və düzgün istifadəsi, soyuq və isti rənglərin hormoniyası təsvirlərin daha canlı görünməsinə dəlalət edir.



Şəkil 6. Əyyub Hüseynov. “Doğma yurdum”

Əyyub Hüseynovun xarici ölkələrə səfəri zamanı müxtəlif xalqların yaşayışı, müxtəlif mədəniyyətlərin, fərqli adət-ənənə-lərin, şəhər mənzərələrinin təsvirlərindən ibarət bir-birindən

maraqlı əsərlər yaratmışdır. Onun müxtəlif illərdə Fransa, Ruminya, İtaliya, Macarıstan, Rusiya, Avstrya və başqa ölkələrdə yaratdığı "Moskva ətrafı", "Venesiya", "Parisdə küçə", "Tiblisi" və s. əsərləri kolorit və kompozisiya baxımından maraq doğurur.

Əyyub Hüseynovun yaratdığı tablolardan onun necə bir vətənpərvər, xalqını sevən bir ziyalı olduğu hiss olunur. Rəssamın yaradıcılığının geniş bir hissəsi həm də səhnəqrafiya tutur. Ə.Hüseynov 1942-ci ildən başlayaraq 1949-cu ilədək Naxçıvan teatrında səhnəyə qoyulan 27 tamaşanın ideya məzmununa uyğun maraqlı tərtibatlar hazırlamışdır.



Şəkil 7. Əyyub Hüseynov. "Möminə xatun məqbərəsinin layihəsinin müzakirəsi"

O, “Pəri cadu”, “Qızıl gül"”, “Məşədi İbad”, “Xırs quldurbasan” (rəssam Ş.Qaziyevlə birgə), “Əlli yaşında cavan”, “Məhəbbət gülü” və s. tamaşalara tərtibat vermişdir.

Onun Naxçıvan təbiətinə həsr etdiyi mənzərələri özünəməxsus işləmə texnikasına, istifadə etdiyi rəng qammasına görə daha cəzbedici və gözəl görünür. Bu əsərlər içərisində onun “Doğma yurdum” (şəkil 6), “Naxçıvan duz mədənində” (şəkil 8), “Yaylaqda axşam çağı”, “Çobanlar”, “Şahbuz”, “Neft daşları”, “Günorta”, “Araz vadisində”, “Dərd”, “Sərhəddə” adlı əsərləri xüsusi ilə maraqlıdır.



Şəkil 8. Əyyub Hüseynov. “Naxçıvan duz mədənində”

Rəssamın Naxçıvan mövzulu tematik kompozisiyalarından 195 x 145 sm ölçülü “Möminə xatun məqbərəsinin layihəsinin müzakirəsi” əsəri kompozisiya biçimi, obrazların bədii həlli, rəng

koloriti, tarixilik baxımından maraqlı olan əsərlərindəndir (şəkil 7). Naxçıvan Dövlət Tarix Muzeyində saxlanan bu əsərin ön planında Möminə xatun məqbərəsinin memarı Əcəmi Əbubəkr oğlu təsvir olunmuşdur. Qarşı tərəfdə İbn Küseyr oğlu və Möminə xatun məqbərəsinin maket təsviri, çəkilmiş eskiz və çertyojlar müzakirənin mövzusundan xəbər verir. Atabəylər dövlətinin qurucusu Atabəy Eldəniz və saray əyanlarının təsviri və ən əsası əsərdə duyulan müzakirənin də hörmət və səmimi bir ab-havanın verilməsi daha təsirlidi. Dövrün təsviri, obraz ifadəliliyi, dinamika, geyim və interyerin düzgün həlli o dövr haqqında tamaşaçıda geniş təəssürat yaradır. Onun "Möminə xatun məqbərəsinin layihəsinin müzakirəsi" əsərindən başqa "Naxçıvan duz mədənində", "Naxçıvan günorta çağı", "Şahbuz çayının mənzərəsi", "Araz vadisində", "Doğma yurdum" adlı əsərlərində Naxçıvan təbiəti, tarixi, məişəti realist boyalarla əks olunmuşdur.

Bütün qüvvəsi, səyi və istedadı ilə Vətənin, xalqın tarixinin, mədəniyyətinin, təhsilinin və incəsənətinin tərəqqisinə sərf edən rəssam 1998-ci ilin aprel ayının 17-də bu dünyadan köçsə də onun bədii yaradıcılıq irsi qorunur və özündən sonrakı rəssamlar tərəfindən davam etdirilir. Rəssamın yaratdığı əsərlər müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda saxlanılır. "Onun yaradıcılığı hər zaman diqqət mərkəzində olmuşdur. Belə ki, xalqın tərəqqisi yolunda, milli kadrların yetişməsində, təsviri incəsənətin inkişafında böyük xidmətləri olan Ə.Hüseynov 1980-cı ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülmüşdür" [3, s.52]. 2006-cı ildə rəssamın 90 illik yubileyinə həsr olunmuş sərgisi keçirilmişdir. 2016-cı ildə isə onun 100 illik yubileyi qeyd olunmuş, Azərbaycan Milli İncəsənət

Muzeyində “...təxminən 60 illik yaradıcılıq məhsulu olan 55-dək boyakarlıq və qrafika əsərləri nümayiş olunmuşdur” [103]. Əyyub Hüseynov özündən sonra qoyduğu böyük yaradıcılıq irsi onun tələbələri, ardıcılları tərəfindən davam etdirilir.

Naxçıvanda yaşayıb-yaratmış rəssamlardan biri də rəssam Əyyub Səfərovdur. Əyyub Səfərov 1917-cı ildə Şərur rayonunun Muğanlı kəndində dünyaya göz açmışdır. İlk təhsilini doğma kəndində alan Ə. Səfərov hələ kiçik yaşlarından rəsm sənətinə böyük maraq göstərmişdir. Bu maraq və güclü həvəs onu Bakı Rəssamlıq Məktəbinə gətirmişdir. O, 1933-1938-ci ildə rəssamlıq təhsilini başa vurur və 1945-ci ildə rəssamlıq təhsilini davam etdirmək üçün Moskva Rəssamlıq İnstitutuna gəlir. 1950-ci ildə təhsilini başa vuran rəssam Naxçıvanı unutmamış, yaradıcılığında Naxçıvan təbiətinə xüsusi yer vermişdir. Rəssamın 1948-ci ildə yaratdığı “Tək ağac”, “Ərik bağı”, “Ağrı dağı”, 1949-cu ildə “Araz çayı”, 1950-ci ildə “Oğlanqala”, “Arpaçay”, “Köhnə Naxçıvan”, “Arpaçay” və s tablolarında Naxçıvanın gözəl təbiətinin realist təsvirini görmək olur.

Ümumiyyətlə, bütün bu dövrlərdə yaradılan əsərlərin bədii xüsusiyyətlərinə nəzər saldıqda görünür ki, Azərbaycanın realist rəssamı Bəhruz Kəngərlinin yaradıcılığındakı realizm ənənələri özündən sonrakı rəssamların yaradıcılığında davam etmiş, eləcə də onların Naxçıvana həsr olunmuş əsərlərində də realist üslub hakim olmuşdur. Yaradıcılığında mənzərə, tematik tablo janrı əsas yer tutan Naxçıvan rəssamları bütün dövrlərdə realist ənənələrə sadiq qalmış, bu ənənəni öz yaradıcılığında davam etdirərək, qədim diyarın həmin dövrdəki tarixi, mədəni, ictimai mühitini aydın şəkildə ifadə etmişdilər.

## II.3. Naxçıvan rəssamlarının üslub müxtəlifliyində doğma yurdun təbiəti, tarixi-memarlıq abidələri və portret obrazları. Naxçıvan qədim və müasirliyin vəhdətində

Naxçıvan rəngkarlığına nəzər saldıqda təsviri incəsənətin bir çox sahəsində olduğu kimi rəngkarlıqda da müxtəlif üslub və texnikalarla təsvir ifadəsi olmuşdur. Bu rəngkarlığın natürmort, mənzərə, portret, tematik şəkil janrlarında çəkilmiş əsərlərin rəng və bədii həllində özünü qabarıq göstərir.

60-cı illərin sonudan başlayaraq 80-cı illərin əvvəllərində Naxçıvanda yaşayıb-yaratmış rəssamların yaradıcılığında fərqli bir rəngin, fərqli bədii təsvir dilinə, fərqli üslub texnikasına rastlanır. Naxçıvan rəssamlığında özünəməxsus iz qoymuş sənətkarlardan Hüseyn Əliyev, Babək Abuzərli, Rəcəb Rəcəbov, Abuzər Qardaşbəyov, Nəriman Əliyev, Əbülfəz Cabbarov, Aydın Rəcəbov və başqalarının yaradıcılığında müxtəlif ifadə üslubunda əks olunmuş Naxçıvan təbiət gözəlliklərinin, abidələrinin təsvirinə tez-tez rast gəlinir.

Babək Abuzərli (1944-2000) Naxçıvan şəhərində 1944-cü ildə mart ayının 23-də ziyalı ailəsində anadan olub. Rəssamlıq təhsilini Ə.Əzimzadə adına Bakı Rəssamlıq Texnikomunda alan rəssam, 1961-ci ildə təhsilini bitirdikdən sonra Naxçıvana qayıdıb.

1970-ci ildə SSRİ Rəssamlar Birliyinin və Azərbaycan Rəssamlar Birliyinin üzvü olub. Yaradıcılığında Naxçıvan mövzusuna geniş yer verən rəssam Babək Abuzərlinin əsərləri "Ulduz", "Ədəbiyyat və İncəsənət", "Bakı" jrnalında nəşr edilib. Onların içərisində "Qızlar bulağı", "Bağda" əsərləri Naxçıvan lövhələrini əks etdirən əsərlərdəndir.




Şəkil 9. Babək Abuzərli 1. "İlan dağ" 2."Sirab dağları"

1989-cu ildən ömrünün sonuna qədər – 2000-ci ilədək Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sədri olmuş rəssamın yaradıcılığında mənzərə janrı əsas yer tutub. Naxçıvanın gözəl təbiətini yağlı boyalarla kətan üzərində əks etdirib. Onun "Sirab dağları", "Şahbuz dağları", "Kənd mənzərəsi", "İlan dağ" və s. əsərlərində əlvan rəng yaxmaları ilə özünəməxsus tərzdə əks olunub (şəkil 10).

Elə rəssamlar var ki, onların yaradıcılığında lirik əhval-ruhiyyə üstünlük təşkil edir. Bu da hər hansı bir janrda çəkilmiş əsərlərə düşündürücü, fəlsəfi məzmunlu estetik görünüş qazandırır. Mənzərə janrında təbiət və gözəllik anlayışlarının sintezi ilə yoğrulduğunda əsər obrazlaşdırılmış ilham qaynağını əmələ gətirir, insanda dərin əhval-ruhiyyə yaradır.





Şəkil 10. Babək Abuzərli 1. “Şahbuz dağları”
2. “Kənd mənzərəsi”

Belə tablolarda təbiət gözəlliklərini rəssam lirik boyalarla duyduğu kimi təsvir edir. Naxçıvanda yaşayıb-yaradan rəssamların yaradıcılıqlarında mənzərə janrında lirik-romantik üslubda çəkilmiş əsərlərə tez-tez rast gəlinir.

Yaradıcılığında mənzərə janrına geniş yer vermiş belə rəssamlardan biri də Məmmədəli İsmayılovdur (1933-2010). O, 1933-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. M.İsmayılovun güclü rəssamlıq qabiliyyəti onu Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsil almasına səbəb olub. Əsasən qədim yurd yerinin əsrarəngiz təbiət mənzərələrini kətana rənglərlə nəqş edən rəssam eyni zamanda bu torpağın zəngin nemətlərini, tarixə şahid abidələrini, yeni inkişafını, quruculuq prosesini də yaradıcılığında əks etdirmişdir.



Şəkil 11. Məmmədəli İsmayılov 1.Payız 2.“Əlincə qalası”

Onun “Sirab gölü”, “Vayxır”, “Yuva”, “Qoruq”, “Payız”, “Şum”, “Bahar”, “Əlincə qalası” (şəkil 11), “Haça dağ” adlı mənzərələrində və başqa əsərlərində təsvir dili, ifadə texnikası, rəng əlvanlığına görə dahi sənətkar Səttar Bəhlulzadənin yaradıcılıq irsini xatırladır. Bunu Xalq rəssamının bədii irsini davam etdirilməsi kimi xarakterizə edib, estaveti müsbət qiymətləndirmək olar. Lakin bununla belə Məmmədəli İsmayılovun yaratdığı rəngkarlıq nümunələri özünəməxsus ifadə dili, lirik ruh ahəngi, istifadə etdiyi isti kolorit, işıq-kölgənin harmoniyası və kompozisiya quruluşu ilə fərqlənir.

Onun yaradıcılığında Naxçıvan mövzusu geniş yer almışdır. Tarixi-memarlıq abidələrinin təsviri bunun bariz nümunəsidir. Rəssamın kətan üzərində yağlı boyalarla yaratdığı “Qarabağlar türbəsi” rəng fakturası, koloriti və kompozisiya quruluşu baxımından maraqlıdır. Ümumiyyətlə, yaradıcılığında geniş yer verdiyi isti rəng tonları – qızılı, sarı, qəhvəyi rəng tonları onun bu “Qarabağlar türbəsi” adlı tablosunda daha qabarıq vurğulanıb.



Şəkil 12. Məmmədəli İsmayılov. "Həsrət"

Əsərdə Qarabağlar türbəsinin qarşısında Qoşaminarə türbəsinin təsviri verilmişdir. Tablonun ilk planda təsvir olunmuş ağaclar və abidənin önündən sonsuzluğa uzanan yollar kompozisiya quruluşuna əlavə rəng qataraq yeni ruh bəxş etmişdir. Yaradıcılığına xas olan nikbinlik notları, əlvan rəng lirizmi bu əsərində də daha çox hiss olunur. ""Qədim Naxçıvan" tablosunu yaradarkən, rəssam fırçasının bütün gücündən istifadə etmiş və böyük məhəbbətlə qədim Azərbaycan torpağının epik obrazını yaratmışdır. M.İsmayılovun dünyada baş verənlərə ciddi münasibəti, həmişə insanlarla bir yerdə olmaq istəyi, müəllif sevincinə, kədərinə şərik olmaq istəyi, ona mənzərə janrından başqa erməni qəsbkarlarına qarşı yönəlmiş siyasi mövzulu tablolar da çəkməyə vadar etmişdir" [61, s.53].



Şəkil 13. Məmmədəli İsmayılov. "Torpaq ətri"

Rəssamın yaradıcılığında "Qanlı torpaq", "Vəhşilərin əməli" və başqa əsərləri bu qəbildəndir. Onun vətənpərvərlik mövzusunda, o taylı-bu taylı Azərbaycan üçün həsr etdiyi "Həsrət" tablosu (şəkil 12), əməksevərliyi təbliğ edən "Babaların yolu ilə" əsəri, gənclik duyğularını, hisslərini, arzularını özündə əks etdirən "Bahar" və s. tablolarında böyük fəlsəfi ideya yatır.

İnsan yaşlandıqca doğulduğu torpağı, uşaqlıq xatirələrini, gənclik illərini tez-tez xatırlayır, həmin illərə qayıtmaq istəyir. Məmmədəli İsmayılov Bakıda yaşadığı zaman bəlkə də Naxçıvanda olduğu illərin xatirələrini yaşayaraq çoxsaylı maraqlı əsərlərə imza ata bilmişdi. Lakin onun sonuncu əsəri – "Torpaq ətri" insanı daha çox düşündürür, insanı uzaqlara aparır (şəkil 13).

Rəssam sanki bunun son əsər olduğunu hiss edibmiş. Əsər elə bil ömrünün son günlərinin üsyanı idi. Bəlkə də təsvir etdiyi doğma torpaq – düzənlər, dağlar onun keçdiyi həyatın çeşməçeşliyindən xəbər verirdi. Əsərdəki kəskin rəng çalarlarının təlatümü, isti və soyuq rənglərin bir-biri ilə savaşı hiss olunur. Digər əsərlərindəki kimi sakit, xoş lirika hiss olunmurdu. İşləmə texnikasında da sərtlik hiss olunur. Qalın və güclü rəng yaxmalarında sanki gənclik enerjisi hiss olunur. Lakin əsərin sol tərəfində bu mübarizədən fərqli olaraq bir sakitlik hökm sürür. Sonsuzluq... Günəşin qürubu təsvir olunub. Sanki bu qürubda, bu sonsuzluğun sakit çalarında doğma torpaqdan – düzənlərdən təpələrdən, dağlardan göz işlədikcə uzanan, qüruba, sonsuzluğa qovuşan rəssam ömrü təsvir olunub. Təpələrin sinəsində çiskin yatıb. Çiskindən aşağıda, uzaqda bir-birindən aralı iki tənha ağac təsvir olunub. Ön planda isə qollu-budaqlı üç ağac. Ağacların da rəngi qürubun rənginə uyğun olaraq qaraya çalan yaşıl rəngdə idi. Bu əsər digər əsərlərindəki kimi al-əlvan deyildi, burda rəngarənglik hökm sürmürdü...

Atasının xatirəsini hər zaman əziz tutan, onun əsərlərini, ona aid bütün materialları xüsusi qayğı ilə qoruyub saxlayan rəssamın oğlu Sədi İsmayılov atası İsmayılov Məmmədəli haqqında bildirdi ki, “Atam narahat idi, sanki son anları olduğunu hiss edirdi. Həmin əsəri istədi (“Torpaq ətri”). Gətirdik. Uzun-uzadı baxdı”. Doğma torpağa, sonsuzluğa uzanan həmin yollara sonuncu dəfə baxdı. Naxçıvan təbiətinin nəğməkarı olan sənətkar 2010-cu ildə Bakı şəhərində gözlərini əbədi olaraq yumdu... bu dünyadan, sənətsevərlərdən cismən ayrıldı. Tanınmış rəssamın ölkəmizdə, eləcə də ölkəmizdən kənarda keçirilən sərgilərdə

mütəmadi iştirak etmişdir. Onun Rusiya, Türkiyə, İran İslam Respublikasında keçirılən sərgilərdə iştirak etmişdir. 1990-cı ildə Bakı şəhərində fərdi sərgisi keçirilmiş, sərgidə nümayış olunan 100-dən çox əsəri tamaşaçıların marağına, rəğbətinə səbəb olmuşdur. Rəssamın sonuncu rəsm sərgisi isə 2007-ci ildə Bakı şəhərində Vəcihə Səmədova adına sərgi salonunda keçirilmişdir.



Şəkil 14. Yuran Məmmədov. "Qarabağlar türbəsi orta əsrlərdə"

Məmmədəli İsmayılovun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Belə ki, o, Əməkdar rəssam fəxri adına layiq görülmüşdür. 2019-cu ildə rəssamın Naxçıvan Dövlət Rəsm Qalareyasında rəssamın xatirə sərgisi keçirilmişdir. Rəssamın xatirəsi hər zaman hörmətlə anılıb, bədii irsi özündən sonrakı rəssamlar üçün örnək olub, rəssamın yaradıcılığı müasir dövrümüzdə də araşdırılır və öyrənilir.

Fərqli üslub xüsusiyyətlərini tanınmış rəssam Yuran Məmmədovun da (1934-1984) yaradıcılığında izləmək olur.

Onu başqa rəssamlardan fərqləndirən özünəməxsus texnikası və rəng koloritidir. Yaratdığı əsərlərdə mükəmməl kompozisiyası, təsvir etdiyi hər bir detalın forma və rəng ifadəsilə yadda qalan, Naxçıvanda yaşayıb-yaradan rəssamlarından biri olan Məmmədov Yuran Əli oğlu 1934-cü il aprel ayının 15-də Naxçıvan şəhərində dünyaya göz açmışdır. O, kiçik yaşlarından Naxçıvan təbiətinin vurğunu olmuş, gözəlliklərini dərindən hiss edib, bu füsunkar mənzərələri rəsmlərində rənglərin, cizgilərin dili ilə canlandırmağa çalışmışdır. Məhz bu sənətə olan tükənməz həvəs onu Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə gətirib çıxarmışdır.

"O, 1955-ci ildə bu məktəbi bitirib, orada pedoqoji və yaradıcı fəalliyyət göstərmişdir. Sonra rəssam Leninqrad (indiki Sakt-Peterburq) İ.Y.Repin adına Rəssamlıq Akademiyasına üz tutur. Beş il professor Viktor Mixayloviç Oreşnikovun sinifində rəssamlıq sənətinin sirlərinə dərindən yiyələnir. Yuran Məmmədov Akademiyanı 1960-cı ildə bitirmiş, bir müddət orada yaşayıb-yaratmışdır" [3, s.75]. Onun "Lenfilm" studiyasında, A.S.Puşkin adına Akademik Dram Teatrında baş rəssamın assistenti olub. Qədim sənət, mədəniyyət beşiyi olan böyük şəhərdə təhsil alması, rəssamlıq fəaliyyəti göstərməsi onun yaradıcılığına ümumi dünyagörüşünə müsbət mənada təsirsiz ötüşməmişdir. Lakin bütün bunlara baxmayaraq onda olan torpaq, xalq sevgisi onu tezliklə Azərbaycana gəlməsinə səbəb olub. O, bundan sonra ömrünün axırına qədər Naxçıvanda yaşayıb-yaratmışdır. 1970-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü olan rəssamın dəzgah boyakarlığında

müxtəlif mövzulu tematik kompozisiyaları üstünlük təşkil etmişdir. Bunla yanaşı rəssamın yaradıcılığında portret, mənzərə janrına da çox tez-tez rast gəlinir. Y.Məmmədovun rəngkarlıq nümunələrindən "Mənim anam", "Bizim ailə", "Vətən uğrunda" əsərləri maraqlıdır. Y.Məmmədovun yaradıcılığının böyük əksəriyyətini teatr rəngkarlığı təşkil edir. Milli və xarici dramaturgiyaya xas olan neçə-neçə əsərlərə səhnə tərtibatı hazırlamışdır. "Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, Azərbaycanın müxtəlif teatrlarında tamaşaya qoyulan eyni əsərlər Yuran Məmmədovun tərtibatında tamam başqa görüntü və təsir gücünə malik idi. O, fırça ilə işləsə də ruhən ədəbiyyat adamı idi. Bu qabiliyyət də onun həssaslığından, duyumlu olmasından irəli gəlirdi" [44]. Tablolarında rast gəldiyimiz rəng harmoniyasını onun tamaşalara verdiyi tərtibat işində də görmək mümkündür. Onun tərtibat verdiyi tamaşalarda əsərin ideya fəlsəfəsinin və bədii xüsusiyyətlərinin rənglərlə olan ifadəsi pərdə açılanda səhnənin bədii tərtibatının bitkin ifadəsilə, konkretliyi ilə diqqəti cəlb edir. Teatrda tamaşanın ideya-bədii üslubunu açan, dramaturqun və quruluşçu rejissorun ideyasını aydınlaşdıran, səhnənin mükəmməl kompozisiyasını tapan və onun detallarda, rənglərdə ifadəsinə nail olan mükəmməl tərtibatlarla Y.Məmmədov uzun müddət yaddaşlardan silinməmişdir. 18 ilə yaxın fəaliyyət göstərdiyi Naxçıvan teatrında səhnəyə qoyulmuş tamaşalardan Raymond Kauqverın "Ağır cəza", Cəfər Cabbarlının "Solğun çiçəklər", "Oqtay Eloğlu", Ramiz Heydərin "Bahar qız", Süleyman Sani Axundovun "Laçın yuvası", "Eşq və intiqam", İslam Səfərlinin "Yol ayrıcında", Əliyar Yusiflinin "Oğurlanmış məhəbbət", Ramiq Nağıyevin "Üfüqlər qızaranda", Əziz Nesinin "Tros canavarı",

Şıxəli Qurbanovun "Sevindik qız axtarır", Mirzə Fətəli Axundovun "Hacı Qara", Sergey Mixalkovun "Vəhşilər" ("Sahildə məhəbbət"), Altay Məmmədovun "Həmyerlilər", İ.Səfərlinin "Göz həkimi", Nəcəf bəy Vəzirovun "Hacı Qənbər", Ə.Yusiflinin "Vicdan əzabı" əsərinə bir-birindən maraqlı səhnə tərtibatını vermişdir.



Şəkil. 15. Yuran Məmmədov. "Nəiminin məqbərəsi"

Y.Məmmədovun əsərlərində dərin və aydın məzmun vardır. Daim müasirliyə, yeni sənət axtarışlarına meyl etməsini onun fərqli üslub texnikası ilə yaratdığı əsərlərindən də görmək mümkündür. Lakonik axtarışlara meyl edən rəssamın yaratdığı

Naxçıvan mənzərələri hər zaman tamaşaçıların rəğbətini qazanmışdır.

Onun "Naxçıvanda bahar", "Haçadağ", "Şahbuz mənzərələri", "Əlincə qalası", "Vayxır kəndi", "Araz", "Batabat" və. s adlı mənzərələri mövzu rəng və kompozisiya baxımından diqqətəlayıqdir (şək. 9, 10). Rəssamın Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanan "Nəiminin məqbərəsi" adlı əsəri rəng, kompozisiya baxımından maraqlı və yaddaqalandır.



Şəkil 16.Yuran Məmmədov. "Bahar"

Kətan üzərində yağlı boyalarla soyuq və isti rənglərin harmoniyasından yaradılmış bu tabloda türbəni həmin dövrdəki realist təsvirinin özünəməxsus bədii, estetik təsviri verilmişdir. Naxçıvan rəssamları içərisində əsasən öz rəng koloritindəki

əlvanlıq, daha çox isti rənglərin harmoniyası ilə səciyyəvi yaradıcılıq xüsusiyyətləri ilə fərqlənən sənətkar, hər yeni əsər üçün yeni bir forma, rəng və ifadə novatorluğu üçün axtarışda olmuşdur. Çox sevdiyi Naxçıvanın təbiətində əks olunan isti rənglərin – qırmızı, sarı, narıncı rəng tonlarının, rəng əlvanlığının harmonyasından, estetik zövq alan rəssamın ərsəyə gətirdiyi tabloları özünəməxsus gözəlliyi ilə hər zaman seçilmişdir.





Şəkil 17. Yuran Məmmədov. 1. "Axşam" 2. "Bahar"

Yaradıcılığında Naxçıvan mövzusunun üstünlük təşkil etdiyi, ərsəyə gətirdiyi əsərlərində yeni kompozisiya quruluşu və rəng, texnika üslubu ilə seçilən və doğma yurdun təbiət təsvirlərinə geniş yer verən rəssamlardan biri də Sabir Firudin oğlu Qədimovdur (1937-1985). O, 1937-ci ildə Naxçıvan şəhərində doğulmuşdur. 1966-cı ildə Moskva şəhərində Xalq Universitetini bitirmişdir. 1968-cı ildə SSRİ Rəssamlar İttifaqına üzv olan

S.Qədimov bir-birindən gözəl əsərləri ilə tamaşçıların diqqətini cəlb etmişdir. Hər zaman özünəməxsus yaradıcılıq texnikası ilə seçilən rəssama fəaliyyətinin nəticəsi olaraq 1970-ci ildə Naxçıvan MR Əməkdar İncəsənət Xadimi fəxri adı verilmişdir. Sabir Qədimov Bakıda, Moskvada və bir çox ölkələrdə keçirilən sərgilərdə iştirak etmişdir. Öz əsərləri ilə sənətsevərlərin yaddaşlarından silinməyən rəssamın yaradıcılığının bir hissəsini mənzərələr, portretlər, kompozisiyalar tuturdu.





Şəkil 18. Sabir Qədimov. 1. "Əlincə qalası" 2. "Araz SES"

Onun əmək mövzusunda çəkdiyi tematik şəkillərdən "Mexanizatorlar", "Qızıl payız", "Araz SES" əsərləri yığcam kompozisiya quruluşu, portretlərindən isə "Bacımın portreti", "Kəndli qız", "Səkinə", "Xədicə" adlı əsərləri xarakterlərin açılması, rəng hormoniyası baxımından maraqlıdır.

Yaradıcılığının geniş sahəsini tutan mənzərə janrında yaratdığı əsərlərdən "Payız", "Araz bu gün", "Bahar", "Batabat", "Köhnə ağac", "Axşam" əsərləri üslub rəngarəngliyi, bəzi əsərlərində impressionizm xüsusiyyətləri ilə yaddaqalandır. Üslub və texnika müxtəlifliyi ilə yaratdığı Naxçıvan abidələrindən isə

“Qarabağlar türbəsi”, “Köhnə qala”, “Gülüstan türbəsi”, “Nehrəmdə imamzadə”, “Əlincə qalası” kimi əsərlərdə qədim tarixin möhtəşəm memarlıq incilərini realist formada vermiş olsa da onları özünəməxsus tərzdə işləmiş, bununla da milli mədəniyyətimizi zənginləşdirmişdir. Rəssamın bir çox muzeylərdə sərgilənən əsərləri Naxçıvanın qədim tarixinə, mədəniyyətinə işıq tutur. Onun Ordubad şəhərində yerləşən Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin eksponatlarından yağlı boyalarla kətan üzərində çəkdiyi “Gəmiqaya”, “Gilan orta əsrlərdə” və s. əsərləri tarixi və bədii nöqteyi-nəzərdən maraqlı və yaddaqalandır.




Şəkil 19. Sabir Qədimov. 1.“Şahbuz dağları”
2. “Əshabi-Kəhf dağı”

Sabir Qədimovun qardaşı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi Arif Qədimovun da (1940-2020) yaradıcılığında daha çox qrafika sahəsində Naxçıvan təbiəti, memarlıq abidələri, tanınmış şəxsiyyətlərinin portretləri yer almışdır. Onun “Cümə məscidi”, “Şahab məhəlləsi”, “Yüsif

Küseyr oğlu türbəsi", portretlərdən "Hüseyn Cavid", "Cəmşid xan Naxçıvanskinin portreti" buna nümunədir.

Yaradıcılığında texnika müxtəlifliyi ilə qədim diyarın mövzusuna həsr olunmuş əsərlərin yer aldığı naxçıvanlı rəssamlardan biri də Mir Cəlil Seyidovdur (1948-2009). O, 1948-ci ildə Naxçıvanda anadan olmuşdur. 1972-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məктəbini, 1979-cu ildə Leninqradda (indiкi Sanкt Peterburq) V.İ.Muxina adına Deкorativ Sənətlər Aкademiyasını bitirib doğma Naxçıvana qayıdır. Özünəməxsus dəsti-xətti, sənət aləmində təkrarsız yolu olan Mir Cəlil Seyidov yaratdığı mənzərələrdə – "Sahil", "İlandağ", "Əshabi-kəhf dağı" və s. əsərlərində vətənpərvərlik, bəşərilik və doğma diyara bağlılıq özünü daha qabarıq göstərir.




Şəkil 20. Sabir Qədimov. 1. "Bahar" 2. "Gəmiqaya"

M.C.Seyidov 1998-ci ildən Türkiyədə fəaliyyət göstərmişdir. Ankara, Antalya, İzmir, İstanbul şəhərlərində fərdi sərgilər keçirmişdir. Onun yaradıcılığına xas olan rəng çalarları, daha çox isə sarı, qızılı rəngin hormoniyası ilə incə işıq-kölgə

keçidləri, xəfif rəng yaxmaları onun yaratdığı əsərlərin səciyyəvi cəhətləridir.

Yaratdığı əsərlər içərisində Naxçıvan mənzərələrinin üstünlük təşkil etdiyi rəssamlardan biri də Nəriman Əliyevdir (1948-2002). Nəriman Əliyevin yaradıcılığına diqqət etdikdə bu əsərlərin işləmə texnikası və rəng koloritinə görə bir-birindən fərqləndiyi müşahidə olunur. Hər bir rəssamın yaradıcılığında hiss olunan bu dəyişiklik Nəriman Əliyevin yaradıcılıq xəttində qabarıq görünür. Əsərlərində sərt üslub xüsusiyyətləri, bəzən də modernizm, bəzi əsərlərində impessionalizm xüsusiyyətləri aydın nəzərə çarpır. Bəzi əsərlərində qara, ağır rəng koloriti incə, əlvan rənglərlə, bəzi əsərlərindəki incə rəng cizgiləri ümumi rəng bütövlüyü ilə əvəz olunur.




Şəkil 21. Nəriman Əliyev 1.“Naxçıvanda İmamzadə türbəsi” 2.“Naxçıvan dağları”

Onun mənzərələrində Naxçıvan təbiətinin təsvirini rəng zənginliyi ilə xarakterizə etmək olar. Rəssam Naxçıvanı, istər şəhər mənzərələrini, istərsə də kənd və təbiət mənzərələrini, eləcə də

tarixi-memarlıq abidələrini yaşadığı dövrdə gördüyü kimi, realist formada təsvir etmişdir.

Onun yaradıcılığında yer alan "Gülüstan türbəsi", "Naxçıvanda İmamzadə türbəsi", "Əlincə qalası", "Möminə xatun türbəsi" adlı tarixi-memarlıq abidələrinin bədii əksi müxtəlif təsvir üsulları ilə yaradılmışdır. Onun "Yol", "Dağlar" adlı mənzərə əsərləri rəssam duyğularından yoğrulmuş gözəlliyi bu texnika ilə əks etdirmişdir. Səttar Bəhlulzadənin zəngin rəng düzümlərinin incə lirikasına bənzər texnikada olan "Ot biçini", "Göl", "Naxçıvan dağları", "Naxçıvan bağları" və s. adlı mənzərələri rəssamın yaradıcılığında texnika baxımından ayrı bir qola ayrılır.




Şəkil 22. Nəriman Əliyev. 1.Əlincə qalası 2. Möminə xatun türbəsi

Nəriman Əliyevin kənd mənzərəsi janrında olan "Ot biçini" adlı əsərində ilk olaraq doğma yurdun dağ və düzən təsvirləri diqqət çəksə də bundan başqa orada ümumi olaraq kənd həyatının geniş mənzərəsi müşahidə olunur. Ot biçimindən sonra ot tayalarının maşınlara yüklənməsi, texnikaların təsviri, uzaqda isə ot yığanlara

kömək edən qadınların işdən sonrakı istirahəti əsərə müsbət enerji, dinamika bəxş edib. Təbiətə və əməyə məhəbbət hisslərilə yoğrulmuş əsər birlik, zəhmətkeşlik, yardımsevərlik kimi tərbiyəvi mahiyyətə malik amilləri özündə birləşdirib. "Naxçıvan dağları", "Göl", "Naxçıvan bağları" əsərində olduğu kimi rəssamın bu əsəri də incə rəng izlərinin zəngin yığını ilə lirik ifadə tapmışdır.

Üslub xüsusiyyətlərinin müxtəliflik izini onun natürmortlarında da izləmək mümkündür. Naxçıvan təbiət gözəlliyini, zənginliyini, maddi-mədəniyyət nümunələrinin estetik təcəssümünə onun "Xalça ilə natürmort", "Rəssamlıq ləvazimatları ilə natürmort", "Çərçivələrlə natürmort", "Çiçəklərlə natürmort", "Lalələrlə natürmort", "Meyvələrlə natürmort" və başqa əsərlərində üslub müxtəlifliyi aydın şəkildə görünür. Daha çox sərt üslub xüsusiyyətlərinin ön plana keçdiyi natürmortları əsasən rəssamlıq materiallarından ibarət olan kompozisiyalarıdır.

Məhşur post-impressionist rəssamı Vinsent van Qoq demişdir: "Rəsmlər rəssamların ruhlarından törəyən həyatlarına sahibdir"[106]. Nəriman Əliyevin ruhunu, enerjisini, istedadını əks etdirən tabloları rəng koloritinin əlvanlığı, incə lirizmi ilə seçilir. Onun mənzərə və natürmort janrında çox vaxt impressonalizm, "sərt üslub", kubizm və s. kimi müxtəlif üslublardan qaynaqlanaraq, onun ahəngi ilə yaratdığı əsərlərdə rəssamın ətraf aləmə olan müşahidələrinin real yanaşmasını ortaya qoyur. Belə real müşahidələrlə o, ruhları duyğulandıran müxtəlif üslublu real mənzərələr, natürmortlar yaratmağa nail olmuşdur.

Nəriman Əliyevin yaradıcılığında Naxçıvan mövzulu əsərlər digər janrlarla müqayisədə daha çox rast gəlinən mənzərə janrında, ikinci yerdə isə natürmort janrında yaradılmış əsərlər

durur. Daha çox Naxçıvan təbiətini və tarixi abidələrini təsvirini, gözəlliyinin bu janr vasitəsilə ifadə etmişdir. Mənzərə janrında imressionalizmin, bəzi mənzərələrində isə bundan tam əks olan "sərt üslub"un xüsusiyyətlərini daşıyır. Natürmort janrında yaratdığı rəngkarlıq nümunələri öz estetik gözəlliyi ilə yanaşı, doğma yurdun qədim tarixini, mədəniyyətini, təbii nemətlərini özündə əks etdirir.



Şəkil 23.Qədirulla Bağırov. "Bizim dağlar"

Natürmort janrında çəkilən əsərlərində qara rəngin digər rənglərlə kəskin təzadı, rənglərin uyğun ahəngi kubizmin xüsusiyyətləri ilə ahəng təşkil edir. Rəssamın natürmortlarında sərt üslub xüsusiyyətləri, kubizm, bəzən də modernizm, mənzərələrində isə daha çox impessionalizm xüsusiyyətləri və pastoz texnikası səciyyəvidir. Natürmortlarında qara rəngin "hökmlü"

ağırlığı isti və soyuq rənglərlə ümumi rəng koloritində bütövləşir. Bəzi mənzərə və natürmortları isə rəng zənginliyi, pastoz fakturada əks olunmuş isti rənglərin – sarı, narıncı, qırmızı və digər rənglərin bir-birini ilə harmoniyası, xromatik rənglərin qara rəngli kölgələrlə yaranan güclü təzadı ilə xarakterikdir.



Şəkil 24. Qədirulla Bağırov. "Əshabi-Kəhf. İnsan qayalar"

Özünəməxsus yaradıcılıq texnikası ilə seçilən rəssam Bağırov Qədirulla Əbülhəsən oğlu (1949-2013)15 avqust 1949-cu ildə Şahbuz rayonunun Nursu kəndində anadan olmuşdur. 1968-ci

ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini bitirmişdir. Naxçıvan Rəssamlar Birliyinin yaradıcılarından biri olan Q.Bağırovun indiyədək Çexiya, Rusiya, Özbəkistan və digər ölkələrdə əsərləri sərgilənib. O, 1982-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv seçilib.

Yaradıcılığında yağlı boya ilə çəkilmiş peyzaj nümunələri, natürmortlar daha çox diqqəti cəlb edir. Rəssamın muxtar respublikanın təbiəti və tarixi abidələri, xüsusilə, “Bizim dağlar”, “Əshabi-Kəhf. İnsan qayalar”, “Aza körpüsü”, “Batabat mənzərəsi” kimi rəsm əsərləri rəssamın fırçasında daha orijinal təsir bağışlayır.

“Əshabi-Kəhf. İnsan qayalar” əsəri kompozisiya və ideyanın həlli baxımından digər əsərlərindən daha yaddaqalandır. Qədrulla Bağırovun yaradıcılığında yer tutan bu mövzu realist üslubda görünsə də diqqət etdikdə hər bir qayaların insan formasında olduğunu görmək mümkündür. Rəssam dağları, insanların təsvirini realist üslubda versə də “Əshabi-Kəhf” rəvayətində bəhs olunanları da müxtəlif forma elemetlərilə, incə işıq-kölgə keçidlərilə nəql etmişdir.

Rəvayətdə qeyd olunduğu kimi Dağ Yunisin zülmündən xilas olmaq üçün Əsabi-Kəhf dağına sığınan gənclər burada yuxuya gedir. Oyandıqdan sonra şəhərdə hər şeyin dəyişdiyini görür, “309 il mağarada yatdıqlarına inanır və bunu Allahın möcüzəsi hesab edirlər. Mağara sahibləri Allaha yalvarırlar ki, onları Allahın dərgahına qovuşdursun və əbədi dünyaya aparsın. Allah da onların arzularını yerinə yetirir. Beləliklə, mağaranın girişində, sol tərəfdə “Yeddi kimsənə” deyilən yerdə qeybə çəkilmişlər” [111]. Rəssam məhz bu rəvayəti əsərində qayaların forması ilə simvolizə etmişdir. Əsərin ön planında isə ziyarətə

gələnlərin aydın təsviri verilmişdir. “Yeddi kimsənə” deyilən yerdə insanların ziyarət etdiyi aydın görünür. Orada bir neçə nəfərin niyyət edib “daş yapışdırma”sı, dua etməsi aydın təsvir olunub. Əsərin digər tərəfində yaşıllıq göstərilmişdir. Rəssam bu rənglərin ifadəsi ilə insanların ümidgahına çevirilmiş bu ziyarətgahın “Cənnət bağı”nı təsvir etməyə çalışıb. “XX yüzilliyin 50-60 illərində burada çoxlu ağac və kollar olsa da, aradan keçən illər ərzində hamısı məhv olmuşdur” Qeyd etmək olar ki, indiki dövrdə artıq tamamilə quru bir sahəyə çevirilən bu yer haqqında AMEA-nın müxbir üzvi mərhum Hacı Qadir Qədirzadə yazmışdır ki, “Cənnət bağı” əslində “Cənnət babı” – yəni, Cənnət qapısı kimi işlənmiş, zaman keçdikcə “Cənnət babı” “Cənnət bağı” kimi adlanmışdır” [42, s.39]. Qədrulla Bağırovun “İnsan qayalar” adlı əsəri mövzuya simvolik amilləri qatması ilə ona tarixi, ideoloji və fəlsəfi ovqat bəxş etmişdir.

Fərqli yaradıcılıq üslubu ilə yaradılmış doğma yurdun təsvirlərindən danışarkən Xalq Rəssamı, professor Hüseynqulu Əli oğlu Əliyevin (1947) adını xüsusən qeyd etmək lazımdır. Naxçıvanda yaşayıb-yaradan rəssam sərt üslubda yaratdığı gözəl rəng kaloritinə məxsus rəngkarlıq əsərləri, möhtəşəm heykəltaraşlıq abidələri və yaddaqalan tamaşa eskizləri ilə təsviri incəsənətdə özünəməxsus yer tutmuşdur. “Sərt üslub” xüsusiyyətlərini yaradıcılığında hər zaman daşıyan naxçıvanlı rəssam Hüseynqulu Əliyev də doğma yurdun müxtəlif mövzulu təsvirlərini uyğun janrlarda ifadə etmişdir. İstər tematik kompozisiyalarında, istərsə də mənzərə və natürmortlarında bu mövzu aktual olmuşdur. H.Əliyev 03 fevral 1949-cu ildə qədim tarixi ilə seçilən Ordubad rayonunun Bist kəndində dünyaya

gəlmişdir. Orta məktəbi bitirdikdən sonra 1971-ci ildə Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbində qəbul olmuş, 1975-ci ildə təhsilini başa vurub, Naxçıvana qayıtmış, sonra Rəssamlar İttifaqının bədii fond müdiri vəzifəsini daşımışdır. Hüseynqulu Əliyev ali təhsilini davam etdirmək üçün 1977-ci ildə Mirzəağa Əliyev adına İncəsənət İnstitutuna qəbul olmuşdur. O, rəssamlıq təhsili aldığı illərdə Azərbaycanın tanınmış rəssamlarından, sənətşünaslarından – əvəzolunmaz rəngkarı Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, istedadlı heykəltaraş Tokay Məmmədovdan, al-əlvan rəngli gözəl ornamentləri ilə seçilən xalça rəssamı Lətif Kərimovdan böyük sənətşünas Kərim Kərimovdan dərs almış, bu sənətin sirlərini öyrənərək, rəssamlığın həm də nəzəri, həm də praktik bilik və bacarıqlarına yiyələnmişdir. Bütün bunlar öz növbəsində onun gələcək yaradıcılıq fəaliyyətinə böyük təsirini göstərmişdir. Oxuduğu müddətdə yaratdığı əsərlərlə Respublikada, eləcə də xarici ölkələrdə keçirilən sərgi və müsabiqələrdə iştirak etmişdir. Bununla yanaşı H.Əliyev təhsil aldığı müddətdə (1977-1982-ci illər) "Sevil" kino-teatrında baş rəssam kimi fəaliyyət göstərmişdir. Buradakı fəaliyyət gələcəyin teatr rəssamının yaradıcılığına təsirsiz ötüşməmiş, onun üçün böyük təcrübə olmuşdur. İnstitutu bitirdikdən sonra H.Əliyev Naxçıvana qayıdır və burada öz yaradıcılığını davam etdirir. O, 1982-ci ildə Naxçıvan Dövlət Rəsm Qalareyasında fond müdiri, 1989-cu ildən isə indiki Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında baş rəssam vəzifəsində çalışmışdır.

H.Əliyev 1986-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvi olmuşdur. Rəssamın öz yaradıcılığı ilə təsviri incəsənətimizin inkişafındakı göstərdiyi fəaliyyəti dövlət tərəfindən yüksək

qiymətləndirilib. Belə ki, rəssam 1988-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, 1999-cu ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı, 2002-ci ildə Xalq Rəssamı fəxri adları ilə təltif olunmuşdur.

Naxçıvanlı rəssam 2000-2011-ci illərdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri vəzifəsini icra etmişdir. Sədrlik etdiyi bu 11il müddətində bir-birindən maraqlı əsərlərdən ibarət qarışıq və fərdi sərgilər təşkil etmiş, naxçıvanlı rəssamların respublikada və ölkədən kənarda keçirilən müxtəlif sərgi və müsabiqələrdə əsərləri ilə iştirakını təmin etmişdir.

Xalq rəssamı H.Əliyev eləcə də yeni gənc rəssam kadrlarının yetişməsində də əvəzsiz rolu olmuşdur. Belə ki O, 2003-cü ildə H.Əliyev Naxçıvan Dövlət Universitetinin "İncəsənət" fakültəsinin "Təsviri incəsənət" kafedrasında müəllim, 2004-cü ildən isə kafedra müdiri vəzifəsində işləmiş, Naxçıvan Dövlət Universitetinin dosenti, professoru kimi fəaliyyət göstərmişdir.

Tələbə vaxtlarından başlıyaraq Azərbaycandan başqa bir çox xarici ölkələrdə – Ukraynanın Kiyev, Xarkov şəhərlərində, Moskvada, Tiflisdə, sonralar isə Türkiyənin Ankara, Bursa, İstanbul, Qars, İqdır şəhərlərində, İranın Xoy, Mahadan, Urmiya, Təbriz şəhərlərində, eləcə də Türkmənistanda keçirilən sərgilərdə iştirak etmişdir. Rəssam dəzgah rəngkarlığı, eləcə də qrafika sahəsindəki bütün janrlara müraciət etdiyinin görmək mümkündür. Xalq rəssamı H.Əliyevin rəngkarlıq və qrafika sahəsində natürmort, mənzərə, portret və tematik şəkil janrında əvəzolunmaz əsərlər yaratmışdır. Portret və mənzərələri digər janrlarda çəkilmiş əsərlərdən sayca üstünlük təşkil edir. Onun özünəməxsus rəng

koloriti, üslub xüsusiyyəti ilə seçilən rəngkarlıq nümunələri realist üslubda çəkilmişdir. Lakin, onun abstrakt üslubda çəkilmiş kompozisiyalarının da ideya, forma və rəng baxımından da özünəməxsus yanaşması vardır.

Onun portretlərindən "Zərifə xanım Əliyeva", "Mənim Leylam", "Avtoportret", "Qardaşımın portreti", "Mənim dostlarım", "Bahar", "Rəssam Telman Abdinovun portreti", mənzərələrindən "Ordubad gölü", "Naxçıvan dağları", "İlan dağ", "Payız", kompozisiyalarından "Toy", "Yaranış", "Soyqırım", "Çağırış" və s. əsərləri, natürmortlarından "Yasəmənlər", "İnsan gözəlliyi incəsənətdə", "Çiçəklər" və s. əsərləri rəng, forma, kompozisiya, faktura və eləcədə ideyanın bədii həlli baxımından maraqlı və yaddaqalandır. Rəssamın maraqlı kompozisiyalı, dərin satirik gülüş doğuran və ideyanın konkret həllini özündə əks etdirən karikaturaları onun qrafika janrında yaratdığı gözəl nümunələrdəndir.

Xalq rəssamı H.Əliyev həm də görkəmli tişə ustasıdır. Onun monumental heykəltəraşlıq nümunələri Muxtar Respublikanın müxtəlif yerlərini, Türkiyə Respublikasında ictimai binaları bəzəyir. Onun "Koroğlu" atlı heykəli (1988), "B.Kəngərli"nin məzarüstü abidəsi (1983), "Ana" abidəsi (1990), "Diskatan" abidəsi (2002), "Şəhidlər abidəsi (Şərur şəhərində, Zeynəddin, Vənənd və Nehrəm kəndlərində), "Atatürk" kompozisiyalı qoralyefi (Türkiyə, İqdır şəhəri) işləmə texnikasna, obrazın mürəkkəb psixologiyasının verilməsi, mənəvi aləminin açılması, dinamikliyi və güclü plastikasına görə nəzəri cəlb edir.

H.Əliyevin yaradıcılıq inciləri həm də muzeylərdə, şəxsi kolleksiyalarda sərgilənir, qorunub saxlanılır. Onun heykəltəraşlıq

nümunələrindən Naxçıvan Dövlət Ədəbiyyat Muzeyində rəssamın "Cəlil Məmmədquluzadə və Hüseyn Cavid", "M.T.Sidqinin", "Məmmədağa Şaxtaxtlı", "Xəlilr Rza Ulutürk", "Y.V.Çəmənzəminli", "A.İldırım", "S.Mumtaz", "Ə.Cavad", "M.Ə.Rəsulzadə", "Ə.Əzimzadə", "N.Hikmət", "M.Araz", "Şair Almas İldırım dünyası", "M.Cəfər", "A.Zamanov", "Ə.Şərif adlı yağlı boya ilə kətan üzərində çəkdiyi rəngkarlıq əsərləri, Naxçıvan Dövlət Milli Dram Teatırında tamaşaya qoyulan C.Məmmədquluzadənin "Ölülər" əsərinə çəkilmiş tamaşa eskizləri, Qonçabəyimin şerlərinə çəkdiyi illüstrasiyalar", Cəlil Məmmədquluzadənin "Ölülər "əsərinə işlədiyi illüstrasiyalar, "Molla Nəsrəddin obrazı", "C.Məmmədquluzadə və M.Ə.Sabir", "Qurbanəli bəy", "Saqqallı uşaq", "Konsulun arvadı" adlı heykəltəraşlıq nümunələri maraqlıdır. Naxçıvanda C.Məmmədquluzadənin ev muzeyində ədibin "Danabaş kəndinin əhvalatı", "Usta Zeynal", "Qurbanəli bəy", "Poçt qutusu" əsərlərinə aid illüstrasiyaları, "Həmidə Məmmədquluzadə", "Ənvər Məmmədquluzadə", "Ənvər, Midhət və Cəlil Məmmdquluzadə", "C.Məmmədquluzadənin portreti", "Məmməd Səid Ordubadi", "M.Ə.Sabir", "Ə.Əzimzadə" adlı yağlı boyalarla işlədiyi portretləri, gipsdən hazırladığı Cəlil Məmmədquluzadənin büstü, Nehrəmdə Cəlil Məmmədquluzadənin ev muzeyində onun həyatı və yaradıcılığına dair hey-kəltaraşlıq və qrafika nümunələri, əsərlərinə çəkilmiş illüstrasiyaları saxlanılır. Hüseyn Cavidin ev muzeyində isə "Köhnə Bakı" adlı yağlı boya ilə işlədiyi əsəri, "H.Cavidin baralyefi", qrafika janrında işlədiyi "Köhnə Bakı" adlı böyük ölçülü əsərini, H.Cavidin "Şeyx Sənan" əsərinə aid tamaşa eskizlərini görmək olar. Rəssamın Naxçıvan Dövlət Tarix

Muzeyində "Əcəmi Əbubəkir oğlu Naxçıvani"in, "Heydər Əliyev"in büstü, "Gülüstan türbəsi", "Kırna məscidi", "İmamzadə kompleksi", "Möminə xatun məqbərəsi", "Yusif Küseyir oğlu türbəsi" adlı əsərləri saxlanılır.

Naxçıvan Muxtar Respublikası Nazirlər kabinetində Ümummilli liderimiz H.Əliyevin qoralyefinini, Naxçıvanda Cəmşid Naxçıvanskinin ev muzeyində Naxçıvan xanlığı dövrünə aid işlədiyi kompozisiya xüsusi ilə maraqlıdır.



Şəkil 25. Hüseynqulu Əliyev "Kənd mənzərəsi"

Hüseynqulu Əliyevin yaradıcılığının bir hissəsini də teatr tamaşalarına verdiyi bədii tərtibatlar tutur. Ümummilli liderimiz Heydər Əliyev teatr sənəti haqqında demişdir: "Teatr müqəddəs yerdir, tərbiyə ocağıdır. Orada çalışan insanlar fədakardılar,

fədaidilər...” məhz Naxçıvan Dövlət Milli Dram Teatırında baş rəssam vəzifəsində çalışmış H.Əliyev də belə sənət fədailərindəndir. Bunu onun bütün yaradıcılığında, eləcə də tamaşa tərtibatlarında görmək mümkündür. Bu da onun sənətinə olan vurğunluğundan, sevgisindən irəli gəlir.

“Teatrın uğurlu alınan tamaşası mükəmməl səhnə tərtibatından başlayır. H.Əliyev tərtibat verdiyi tamaşalarda tək bir detal, sadə forma və rənglərin dili ilə əsərin ideyasını yığcam və mənalı şəkildə tamaşaçıya çatdırmışdır. Bunu da öz növbəsində onun istedadının, dünyagörüşünün, təcrübəsinin, zövqünün, sənətə olan sevgisinin nəticəsi kimi qiymətləndirmək olar” [3, s.118].

Onun “sərt üslub”dan qaynaqlanaraq özünəməxsus dəst-xətti mənzərə janrında çəkdiyi əsərlərdə də özünü göstərib. Rəssamın müşahidələrinə real yanaşması, “sərt üslub” xüsusiyyətlərinin bədii ümumiləşdirmələr ilə gözəl mənzərələr yaratmağa şərait yaratmışdır. Onun Naxçıvan mövzulu mənzərə əsərləri rəssamın özünəxas qalın rəng yaxmaları ilə yaratdığı fərqli fakturada, lakonik dillə təqdim etdiyi real həyat həqiqətləri, təbiət lövhələri tamaşaçı qəlbinə yol tapacaq formada ifadə olunmuşdur.

Rəssamın yaratdığı müxtəlif səpkili mənzərə əsərlərində əks olunan Naxçıvan təbiətində günün, fəsillərin dəyişkənliyi, dağların möhtəşəmliyi, bağların füsunkarlığı, çayların coşğunluğu elə ustalıqla ifadə olunub ki, onların qarşısında istər-istəməz duyğulanırsan. “Payız” (şəkil 27), “Günorta”, “Babaların yolu” (şəkil 26), “Göy göl”, “Meşə” əsərləri zəngin rəngarəngliyi, milli dəyərləri bədii dillə özündə ifadə edən rəngkarlıq nümunələridir.

Rəssamın Hüseyn Cavidin ev muzeyində nümayiş olunan, 2000-ci ildə yaratdığı “Köhnə Naxçıvan” adlı şəhər mənzərəsində

isə Naxçıvanın orta əsr dövrlərindəki görünüşü təsvir olunmuşdur. Onun əsərləri fərqli rəng çalarlarını özündə əks etdirən Naxçıvan torpağının, təbiətinin tanınması və tanıdılması, gözəlliyinin duyulmasına yönündədir. Tamaşaçı bu tablolarda bir qayda olaraq təbiət gözəlliklərinə rəssamın daxili dünyasından doğan bədii əlavənin, gerçəkliklərin, başqalarının da adi gözlə görə bilmədiklərinin ifadəsinə şahid olur.



Şəkil 26. Hüseynqulu Əliyev. "Babaların yolu"

Rəssamın mənzərələrində Naxçıvanın sərt olduğu qədər də xoş və lirik olan təbiətinə xas olaraq müxtəlif ifadə çalarları ilə bu torpağın qədim yurd yerlərinin, bölgələrinin, kəndlərinin

özünəməxsus təbiət gözəlliklərinin, Naxçıvan abidələrinin tarixə şahidlik etmək gücünün, işartısı uca qayalarda yaşanan əzəməti və möhtəşəmliyinin, göllərin, çayların rəngdən-rəngə düşən ləpələrinin ruhu duyulur.

H.Əliyevin yaradıcılığının müstəqillik illərindən əvvəllərə nəzər saldıqda müasir dövründən fərqli olaraq bu illərdə onun yaratdığı əsərlərin koloritində qəhvəyi, sarı, narıncı rənglərin müxtəlif çalarlarının bolluğu hiss olunur.





Şəkil 27. Hüseynqulu Əliyev. 1.“Ordubad gölü” 2.“Payız”

Onun “Kənd mənzərəsi” də bu kimi əsərlərə aiddir. Rəssamın “Kənd mənzərəsi” əsərində İlan dağ payız fəslində təsvir olunmuşdur (şəkil 25). Əsərdə mərkəzdə İlan dağ, ətəyində yerləşən kəndin uzaqdan görünən evləri, ön planda atlı gənclərin təsviri verilmişdir. Əsərdə doğma yurdun qədimlilik, iqliminə məxsus sərtlik, onun rənglərində, iş üslubunda, kompozisiyasında, eləcə də əsərə dinamika bəxş edən çaparların obrazlarının təsvirində aydın görünür. Bununla yanaşı mənzərədə payız fəslinin

səssizliyi hiss olunur. Əsərdə payız fəslinin hüzünlüyünün fonunda ifadə tapmış dinamika əsərə canlılıq gətirir.

“Özündən əvvəlki rəssamların İlandağı təsvir edən rəsmlərindən fərqli olaraq “Kənd mənzərəsi” adlı əsərində Xalq rəssamı bir nüansı da xüsusi qeyd etmişdi: bu yerlərin ucqar dağ kəndi olmasına baxmayaraq, təsvir olunan elektrik və kommunikasiya xətləri abad kənd görünüşündən xəbər verir. Belə təsvir ifadəsinə “Babaların yolu”, “Köhnə qala” əsərində də rast gəlinir. “Heydər məscidi” adlı mənzərədə də kompozisiyanın mərkəzində yerləşən məscidin təzəliyi Naxçıvan səmasında təyyarənin uçuşu ilə rəssam muxtar respublikanın daima və sürətlə inkişafda olması fikrini ifadə etmişdir” [78, s.28].

Rəssamın Naxçıvan abidələrindən “Gülüstan türbəsi”, “Kırna məscidi”, “İmamzadə kompleksi”, “Möminə xatun məqbərəsi”, “Yusif ibn Küseyir türbəsi” kimi əsərləri bu torpağın tarixə şahidlik edən möhtəşəm tikililərinin gözəlliyini, qədim mədəniyyətini, memarlıq xüsusiyyətlərini göstərən əsərlərindəndir. “Sərt üslub” xüsusiyyətlərinin izini onun “Haça dağ”, “Göy göl”, “Ordubad gölü”, “Meşə” əsərində də izləyirik. Bu mənzərələrdə dağların möhtəşəmliyi fırçanın kətan üzərində saldığı kəskin izlərdən, rənglərin güclü təzadlarından, detalların xırdalamadan “bütöv” təsvirindən təsirlənməmək mümkün deyil.

Onun mənzərələrində at təsviri geniş yer tutur. Onun “Köhnə qala”, “Babaların yolu”, “Göy göl”, “Ordubad gölü”, “Meşə”, “Haça dağ” mənzərələrində bu özünü aydın şəkildə göstərir. Rəssam mənzərələrində Naxçıvan bağlarına xas olan bolluq, bərəkəti və gözəlliyi ifadə edə bilmişdir. Onun “Ərik

budağı" adlı əsəri kompozisiya və rəng baxımdan bu zənginliyi özündə ifadə edir.



Şəkil 28. Abuzər Qardaşbəyov. "İmamzadə"

Müxtəlif üslub xüsusiyyətləri ilə yadda qalan Qardaşbəyov Abuzər Hacı oğlu (1941-1990) yaradıcılığında müraciət etdiyi mövzularla doğma torpağa olan bağlılığı, təbiət gözəlliyinə olan məhəbbəti, qədim tarixinə, mədəniyyətinə olan heyranlığı özünü açıq-aydın göstərmişdir.

Azərbaycan Rəssamlar İttifaqının sədri olmuş (1976-1987) A.Qardaşbəyovun "Cümə məscidi", "Köhnə bazar", "İmamzadə", "Qazançı körpüsü", "Yüsüf Küseyr oğlunun türbəsi", "Möminə

xatun türbəsi", "Şəhər görüntüləri" əsərləri bunun bariz nümunəsidir. Rəssamın "İmamzadə" əsəri kompozisiya, rəng həllinə, işıq-kölgə kontrastına və üslub texnikasına görə yaddaqalandır. Burada ağ rəngin ustalıqla istifadəsi əsərə sakit ab-hava bəxş etmişdir. Ümumiyyətlə, rəssamın əsərlərində işıq-kölgənin kontrastı, qara və ağ rəngin ahəngi yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən sayılır.

Yaradıcılığının əsas qayəsini mənzərə və tematik kompozisiyalı əsərlər çoxluq təşkil edən və müasir rəssamlıq üslubu – abstraksionizm üslubun daha qabarıq yer aldığı rəssamlardan Məmmədəli Ələkbərov (1954-2020) 1954-cü ildə Babək rayonunun Qahab kəndində anadan olmuşdur. 1961-1971-ci illərdə Qahab kəndində orta məktəbi bitirdikdən sonra Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində təhsilinə başlamışdır. 1972-1974-cü illərdə hərbi xidmətdə olsa da yenidən təhsilini davam etdirib və buranı 1977-ci ildə bitirdikdən sonra Stroqomov adına Ali Bədii Sənaye Məktəbində təhsil almışdır (1980-1985).

M.Ələkbərov təhsilini başa vurduqdan sonra həm Azərbaycanda, həm də xarici ölkələrdə keçirilən müxtəlif sərgilərdə iştirak etmişdir. O, 1987-ci ildən başlayaraq İtaliya, Cənubi Koreya, Moskva, Almaniya, Türkiyənin müxtəlif şəhərlərində keçirilən sərgilərdə öz əsərlərini nümayiş etdirmişdir. Naxçıvan MR Əməkdar rəssamı M.Ələkbərovun yaradıcılığında daim izlənən mücərrədlik onun əsərlərinin böyük hissəsini əhatə edir. Lakin onun mücərrədçiliyində qarışıq fikirlər deyil, rəssam duyğularından qaynaqlanan rəng, forma və cizgilərlə birlikdə tamaşaçının diqqətini cəlb edir.



Şəkil 29. Məmmədəli Ələkbərov. "Mələklərin hədiyyəsi"

Əslində məzmunu rəng və cizgilərin məcmusunda ifadə olunan belə lövhələr tamaşaçının düşünməsinə geniş meydan açan əsərlərdir. Belə ki, Məmmədəli Ələkbərov süjetli tablolarında tamaşaçını düşündürməyə sövq edirsə, Naxçıvan təbiətinin ovsunlayıcı sehrindən, Bəhruz rənglərinin təravətindən və digər neçə-neçə mənəvi qaynaqdan qida alan mənzərələrində bunun əksinə olaraq daha çox tamaşaçıda müəyyən duyğular oyadır. Rəssamın mənzərə janrında yaratdığı əsərləri bu baxımdan kifayət qədər realist səpkidədir. Onun yaradıcılığında Naxçıvan təbiətinin çoxsaylı mənzərələri fərqli, yeni və gözoxşayandır. Bu da rəssamın həmin gözəllikləri canlı olaraq naturadan müxtəlif etüdlər etməsi, o yerlərin möhtəşəmliyini bütün rəngarəngliyi ilə göstərə

bilməsidir. Rəssamın çəkdiyi mənzərələrdə hər hansı bir yerin müxtəlif fəsillərdə fərqli rakurslarda təqdim etməsi həmin motivləri bədii-psixoloji tutumda görməyə və dəyərləndirməyə imkan vermişdir. Bu mənada onun onsuz da rəng zənginliyi ilə məhşur olan Naxçıvan dağlarına, Ordubadın bar libaslı meyvə bağlarına, ətrafında gözəl, rəngarəng çiçəkləri olan Batabat gölünə, qədim və möhtəşəmliyi ilə seçilən tarixi və memarlıq abidələri və s. təsvir etdiyi həmin motivlərin gözoxşayanlığını təmin etmişdir. Məmmədəli Ələkbərovun mənzərələrində sadəcə təbiətdəki rənglərin real təsvirinə yox, əksinə, öz təxəyyülü ilə obraz səviyyəsinə qaldırmışdır. M.Ələkbərovun "Əshabi-Kəhf dağı", "Payız", "İlan dağ", "Etüd" və s. neçə-neçə mənzərələrində rəssam hər kəsin gördüyü yerlərdə gözəlliklə bərabər, həm də ilk baxışda çox da gözə çarpmayan, gözəl görünməyən müəyyən yerlərn həmin bu qeyri-adi məziyyətlərini tamaşaçılara çatdırmağa cəhd etmişdir. Onun təbiət təsvirlərindəki yaradıcılıq xüsusiyyətləri mənzərə janrının bədii-estetik tutumuna yeni və özünəməxsus formalar bəxş etməsinin göstəricisidir. Tematik kompozisiyalarından isə Naxçıvanın görkəmli ədibi, romantizmin banisi H.Cavidin həyat və yaradıcılıq yoluna həsr etdiyi "Mələklərin hədiyyəsi" əsəri ideya-fəlsəfi tutumu ilə diqqətəlayiqdir (şəkil 29).

Əsərlərində dekorativlik xüsusiyyətləri ilə daha çox seçilən rəssam Əli Səfərovun yaratdığı mənzərələr üslub müxtəlifliyi baxımından maraqlıdır. Onun yaratdığı mənzərələrdə əlvan rənglərin harmoniyası, dekorativ formaların üstünlük təşkil etməsi diqqətçəkəndir.

Əli Səfərov 1954-ci ildə 01iyulda Naxçıvanda doğulmuşdur. 1962-1972-ci illərdə Ü.Hacıbəyov adına orta məktəbində oxuduğu illərdən öz rəssamlıq qabiliyyəti ilə seçilmişdir. Onda rəssamlığa olan böyük həvəsi və sevgisi və bu sənətin sirrlərinə dərindən yiyələnmək istəyi onu 1974-cü ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirib çıxarmışdır. Bədii tərtibatçılıq ixtisası üzrə təhsil alan Ə.Səfərov buranı bitirdikdən sonra təyinatı üzrə Naxçıvan şəhər Babək rayonu İctimai İaşə İdarəsində, Naxçıvan Şüşə Qablar və Alüminium qablar zavodunda tərtibatçı rəssam kimi çalışsa da, 1983-cü ildə Azərbaycan əməkdar artisti Vəli Babayevin təklifi ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrına gələrək bir çox tamaşaların tərtibatını hazırlamışdır. Əli Səfərov Naxçıvan Dövlət Milli Dram Teatrında çalışdığı müddətdə 17 sayda səhnə əsərinə bədii tərtibat vermişdir. 1989-cu ildə Naxçıvan Dövlət Kukla Teatrında işə dəvət olunan Ə.Səfərov burada əvvəl quruluşçu rəssam vəzifəsinə, qısa müddətdə isə baş rəssam vəzifəsinə təyin olunur. Onun tamaşalarda istifadə etdiyi əlvan rənglərlə, uşaq dünyagörüşünə, psixologiyasına uyğun, özünəməxsus texnikası ilə verdiyi mükəmməl tərtibatla uzun müddət yaddaşlardan silinməmişdir. Əli Səfərovu burada fəaliyyət göstərdiyi müddətdə 30-a dək tamaşaya səhnə quruluşu və kukla eskizləri vermişdir. T.Ağayevanın “Cırtdanın kələyi”, Ə.Qasımovun “Tülkü həccə gedir”, K.Ağayevanın “Göyçək Fatma”, “Tıq-tıq xanım”, “Məlik Məmməd”, “Sirli sözlər”, Aybəniz Ağaqızının “Qaraca qız”, Y.Şvartsın “Qırmızı papaq”, M.Seyidzadənin “Büllur qəsr” və s. tamaşalara balacaların qəlbinə yol tapan, onların bədi zövqünün, estetik dünyagörüşünün

formalaşmasında müsbət rolu olan bir-birindən maraqlı, rəngarəng tamaşa tərtibatları hazırlamışdır.

Rəssamın dəzgah rəngkarlığında yaratdığı əsərləri də diqqətəlayiqdir. Onun fərqli üslubda, dekorativ tərzdə işlədiyi rəngkarlıq və qrafika janrında yaratdığı əsərlərində Şərq rəssamlıq ənənələrini, miniatür sənəti ilə müasir rəssamlığın bir növ sintezini görmək olar. Əli Səfərov rəssamlığın müxtəlif janrlarına müraciət etmişdir. Belə ki, o, daha çox xalqının tarixi keçmişinin istər qədim ənənələrini, məişətini, istərsə də tarixi qəhrəmanlıq obrazlarını, Azərbaycanın ədəbiyyatında, mədəni, iqtisadi və siyasi inkişafında mühüm rolu olan dahi şəxsiyyətlərini obrazını, onların fəaliyyətini rəssamın yaratdığı kompozisiyalarında və portretlərində, ölkəmizin müasir görünüşünü və gözəlliklərini onun mənzərələrində görmək olar. Onun qrafika, yağlı boya texnikası ilə çəkdiyi əsərlərdən "Hüseyn Cavid dünyası", "Ata yurdu", "Əcəmi Naxçıvaninin sənət əsərləri", "Məmmədhüseyn Şəhriyar", "Natürmort", "Dağ çayı", "Mənim diyarım", "Novruz zarafatı", "Novruz natürmortu", "20 yanvar" və sair əsərləri öz lirizmi, obrazlılığı, kompozisiya qurluşunun incəliyi, ideyanın bədii estetik ifadəsilə seçilir.

Rəssamın əl işləri, rəsm əsərləri, tamaşalar üçün hazırladığı maketləri Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyində, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin ev muzeylərində, Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Muzeyində olan eksponatlar arasında yer tapır.

Onun əsərləri həm də Azərbaycanın və xarici ölkələrin müxtəlif yerlərində – Bakı, Gəncə, Moskva, Urmiya, Ərzincan,

İzmir, Trabzon, İqdır, kimi şəhərlərində təşkil olunan sərgilərdə iştirak etmiş, tamaşaçı rəğbəti qazanmışdır.



Şəkil 30. Əli Səfərov. "Müqəddəs ziyarətgah"

Əli Səfərov 1994-cü ildə Azərbaycan Teatr Xadimləri İttifaqının, 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. Rəssamın yaradıcılığı dövlət tərəfindən də yüksək qiymətləndirilmiş, Naxçıvan Muxtar Respublikasının Əməkdar Rəssamı fəxri adı verilmişdir.

Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əli Səfərov da yaradıcılığında Naxçıvan mövzusuna çox müraciət etmişdir. Onun yaradıcılığında "Müqəddəs ziyarətgah" əsəri fərqli bir rəng koloriti ilə ifadə olunmuşdur (şəkil 30). Qızılı, sarı,

qəhvəyi tonlarla soyuq rəng tonlarının ahəngi onun özünəməxsus işləmə texnikası ilə maraqlı bir görünüş yaratmışdır. Rəssamların, fotoqrafların daha çox obyekt seçdikləri bir istiqamətin – ziyarətgahın “damcıxana” ya qalxan hissəsinin təsvirində insan fiqurlarının verilməsi əsərə dinamika bəxş etməklə bərabər, həm qayaların möhtəşəmliyinin, ucalığının miqyas göstəricisi, bundan əlavə tarixi dövrü, adətləri özündə əks etdirir. “Damcıxana”dan ziyarətgahın aşağı hissəsinin perspektiv görünüşü əsəri daha baxımlı etmişdir.






Şəkil 31. Əli Səfərov. “İşıqlı Naxçıvan gecəsi”
2.“Naxçıvan silsiləsi”

Əli Səfərov yaradıcılığında Naxçıvan təbiəti ilə yanaşı onun müasir şəhər mənzərələrini yaradan rəssamlardandır. Rəssamın teatr-dekorasiya sahəsindəki fəaliyyətinin dekorativlik izi onun

dəzgah boyakarlığına da siyarət etmişdır. Bəzi əsərlərində yer alan dekorativlik ona fərqli bir üslub qazandırmışdır. Hər fəslə aid əsərlərində Naxçıvanın əsrarəngiz gözəlliklərini, rəngarəngliyini dolğun boyalarla əks etdirmişdir. “Qanlıgöl yaylağı”, “Əlincə qalası”, “İlan dağ”, “Xan Araz”, “İşıqlı Naxçıvan gecəsi”, “Naxçıvan silsiləsi” və s. çoxlu sayda əsərlərin müəllifi bütün fəsillərə aid etüdlərində Naxçıvanın əsrarəngiz gözəlliklərini, rəngarəngliyini dolğun boyalarla əks etdirmişdir.



Şəkil 32. Səyyad Bayramov. Naxçıvan dağları

Fərqli ifadə dili ilə yaratdığı əsərləri içərisində Naxçıvan mövzusunun geniş yer aldığı rəssamlardan biri də Səyyad Bayramovdur. "Səyyad Bayramov 03 noyabr 1958-ci ildə Şahbuz rayonunun Keçili kəndində doğulmuşdur. O, orta təhsilini 1976-cı ildə Keçili kənd orta məktəbində başa vurduqdan sonra güclü rəssamlıq həvəsi və istedadı bu sənətin sirlərini daha dərindən öyrənmək üçün onu 1979-cu ildə Əzim Əzimzadə adına rəssamlıq məktəbinə gətirmişdir" [3, s.105]. S.Bayramov burada "Bədii tərtibat" fakültəsində təhsil alaraq, orada fəaliyyət göstərən rəssamlardan, sənətşünaslardan rəssamlığın sirlərinə dərindən bələd olmuşdur. O, 1983-cü ildə bu fakültənin məzunu olmuş və Naxçıvana qayıdaraq burada fəaliyyət göstərmiş, bir-birindən maraqlı rəngkarlıq və qrafika nümunələri yaratmışdır.

S.Bayamov 1987-ci ildən başlayaraq C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrrında rəssam vəzifəsində çalışır, müxtəlif üslub və texnikalara müraciət edərək yerli və xarici ölkə dramaturqlarının əsərlərinə yaddaqalan səhnə tərtibatları hazırlamışdır.

Rəssamın fərdi yaradıcılığı, teatrda rəssamlıq fəaliyyəti yüksək qiymətləndirilmiş, ona 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür. Səyyad Bayramov yaradıcılığında qrafika və rəngkarlığın bütün janrlarına müraciət etmiş, portret, mənzərə, natürmort, tematik tablo janrında bədii ifadə zənginliyini özündə əks etdirən çoxsaylı tablolar yaratmışdır. Səyyad Bayramovun yaratdığı portretlərdən "Ümummilli lider H.Əliyevin portreti", "Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimovun portreti" və s. əsərləri obraz

ifadəliliyi, xarakterin realist həlli baxımından özünəməxsus və yaddaqalandır.

Onun yaradıcılığında tematik tablo janrına aid olan “Ana fəryadı”, “Soyqırım” adlı əsərlərində əsərin ideya məzmunu ön planda daha qabarıq, mükəmməl şəkildə verilmişdir ki, bu da öz növbəsində əsəri daha baxımlı və ideyasını başa düşülən edir. Natürmortlarından “Mis qablarla natürmort”, “Güllər”, “Yarpaqlarla natürmort”, “Yasəmənlər” əsərləri bədii estetik gözəlliyi ilə yanaşı, Naxçıvan təbiətinin gözəlliyini, tarix və mədəniyyətinin qədimliyini, nemət zənginliyinin ifadəsi baxımından da diqqətəlayıqdir. Rəssamın yaradıcılığının bir hissəsini təşkil edən mənzərə janrında yaratdığı “Aza körpüsü”, “Yusif Küseyr oğlu türbəsi”, “Qarabağlar türbəsi”, “Leyləklər” adlı əsəri öz kompozisiyasına, rəng koloritinə görə özünəməxsusdur. Naxçıvan abidə-lərinin təsvirində qədimlik, möhkəmlik daha dolğun boyalarla öz əksini tapmışdır.



Şəkil 33. Əbülfəz Axundov. “Haça dağ”

Fransız rəssamı Anri Matiss demişdir: "Xoşbəxt o kəsdir ki, təmiz və açıq bir ürəklə oxuya bilir. Hər yerdə – göydə, yerdə, ağaclarda belə sevinc tapmağı bacarır. Müğənninin səsi olduğu kimi, rəssamın da rəngi hiss etmək qabiliyyəti olmalıdır". Belə bir fəlsəfi mənalarla seçilmiş rənglərin fərqli ahəngi Əbülfəz Axundovun yaradıcılığında izlənilir.

Müasir dövr rəssamlığında realizmlə yanaşı müxtəlif təsvir üsullarından istifadə etməklə, fərqli yaradıcılıq texnikaları ilə fəlsəfi mənasının dərin qatlarına enərək onu tamaşaçıların diqqətinə çatdıran, müasir tələblərə cavab verən əsərlər üstünlük təşkil edir. Belə bir üslub xüsusiyyətlərini öz yaradıcılığı ilə təsviri incəsənətimizə yeni nəfəs gətirən, onların daha təsirli, daha cəlbedici olmasına səbəb olan özünəməxsus texnikası, ifadə üslubu ilə yaddaqalan teatr rəssam kimi fəaliyyət göstərmiş, Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundovun yaradıcılığında da görmək mümkündür.

"Axundov Əbülfəz Marlen oğlu (1961-2019) 1961-ci il mart ayının 11-də Naxçıvan şəhərində anadan olmuşdur. Rəssamlığa olan güclü həvəs, qabiliyyət onu 1977-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə gətirir. Burada rəssamlıq sənətinin sirlərini dərindən öyrənın gənc rəssam 1981-ci ildə təhsilini bitirib müstəqil yaradıcılığa başlayır. Ə.Axundov 1982-ci ildən SSRİ Gənc Rəssamlar Birliyinin, 1984-cü ilə isə Rəssamlar İttifaqının üzvü olmuşdur. 2004-cü ildə Naxçıvan MR əməkdar rəssamı adına layiq görülmüşdür. Yaradıcılığında qrafika və rəngkarlığın müxtəlif janırlarına müraciət etmişdir" [3, s.103]. Rəssamın digər rəssamlardan fərqlənən yaradıcılıq texnikası, kompozisiya quruluşu, bədii ifadə vastələrinin zənginliyi,

özünəməxsus rəng koloriti ilə qrafika və rəngkarlıq sahəsində yaratdığı mənzərələr, tematik tablolar, portretlər rəssamın bu sənətdə öz yerini tapdığını təsdiq edir. Teatr rəssamlığında özünəməxsus izi olan, müasir üslublara müraciət edərək yaratdığı obrazlı səhnə quruluşu ilə seçilən Naxçıvan MR əməkdar rəssamı Əbülfəz Axundov Naxçıvan teatrında 1987-ci ildə fəaliyyət göstərməyə başlasa da buradakı əsas yaradıcılığı müstəqillik illərinə təsadüf etmişdir. Bu illər ərzində o, çoxlu sayda teatr tamaşasına bir-birindən maraqlı mükəmməl bədii tərtibat vermişdir. 1991-ci ildə Əsgər Əsgərovun rejissorluğu ilə teatr səhnəsinə çıxarılan Rafiq Səməndərovun "Şəhidlər", 1992-ci ildə rejissor Kamran Quliyevin səhnələşdirdiyi, C.Məmmədquluzadənin "Anamın kitabı", Anarın "Sizi deyib gəlmişəm", 1995-ci ildə Rövşən Hüseynovun rejissorluğu ilə Həsən Elsevərin "Canlı eksponatlar" tamaşasına və başqa neçə-neçə səhnə əsərlərinə yaddaqalan tərtibatlar vermişdir.



Şəkil 34. Elman Cəfərov. "Novruz"

Onun yaradıcılığında geniş yer tutan mənzərə janrında yaratdığı əsərlərdən "Haça dağ", "Qürub", "Günəbaxan", "Qış mənzərəsi", "Əshabi-Kəhf" adlı mənzərələrində rənglərin fərqli dildə verilmiş ahəngini görürük.



Şəkil 35. Elman Cəfərov. "Hüseyn Cavid"

Naxçıvan təbiətinin, tarixi-memarlıq abidələrinin, görkəmli şəxsiyyətlərinin, adət-ənənələrinin bədii ifadəsini naxçıvanlı heykəltaraş rəssam Elman Cəfərovun (1951) yaradıcılığında izləmək mümkündür. Onun Novruz bayramına həsr etdiyi "Novruz" əsərində milli bayramın təsviri ilə yanaşı Naxçıvanın simvolu sayılan Möminə xatun türbəsini kompozisiyanın mərkəzində verməklə rəngkarlıq nümunəsinə yeni bir ideya fəlsəfi tutumlu xoş ahəng bəxş etmişdir. Onun "Novruz" əsəri ifadə rəngarəngliyi baxımından maraqlıdır. Rəssam eyni zamanda Azərbaycanın qəhrəmanlıq tarixinə adlarını həkk etmiş, mübarizə meydanında şücaət göstərmiş igid oğulların, tanınmış ədiblərin, sənət insanlarının obrazlarını tematik kompozisiyalarla

əks etdirmişdir. Onun qarafika janrında çəkdiyi “Hüseyn Cavid” əsəri bu zəmindəndir.
Mirmehdi Mirhəşim oğlu Seyidovun (1961-1988) yaradıcılığında müxtəlif üslub boyaları ilə Naxçıvan təsvirlərinə tez-tez rastlanır. Onun doğma torpağa bağlılığını yaratdığı “Palıd ağacı”, “Fərhad evi,”, “Ordubad”, “Qarabağlar türbəsi”, “Nəhəcir”, “Əshabi-Kəhf” və s. əsərlərindən izləmək mümüköndür.



Şəkil 36. Mirmehdi Seyidov “Batabat gölü”

Rəssamın “Batabat gölü” adlı əsəri realist rəngkarlığın gözəl nümunələrindəndir. “Daim yaradıcılıq axtarışlarında olan rəssamın bizə gəlib çatan əsərləri içərisində realizm üslubu ilə yanaşı sürrealizm üslubunda çəkdiyi əsərlər də yaradıcılıq baxımından mühim əhəmiyyət kəsb edir” [70, s.144].

Naxçıvan mövzulu əsərlərdə üslub müxtəlifliyinin başqa bir izi olan lirik-romantik ahəng daha çox Telman Abdinovun əsərlərində üstünlük təşkil edir.



Şəkil 37. Telman Abdinov. "Naxçıvan abidələri"

Telman Manaf oğlu Abdinov 1 iyun 1954-cü ildə Şahbuz rayonunun qədim və gözəl güşələrindən olan Külüs kəndində anadan olmuşdur. Hələ kiçik yaşlarından rəssamlıq sənətinə maraq göstərən T.Abdinov, bu sənətin sirlərini dərindən öyrənmək üçün Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə üz tutur. Orada təhsil aldığı illərdə (1972-1978) əsərləri ilə respublika səviyyəli müxtəlif sərgilərdə iştirak etmişdir. Hələ təhsil alarkən öz yaratdığı əsərlərlə müəllimlərinin diqqətini cəlb etmişdir. Onun müxtəlif

kompozisiyalı qobelen əsərləri əfsanəvi xalça rəssamı Lətif Kərimovun diqqətindən yayınmamış, onlar haqqında yüksək fikir bildirmişdir.

Sənət aləminə yenicə qədəm qoyan T.Abdinovun əsərləri 1975-ci ildə rəssamın indiki Səttar Bəhlulzadə adına sərgi salonunda təşkil olunmuş sərgidə Azərbaycanın böyük rəngkarı Toğrul Nərimanbəyovun marağına səbəb olmuş və bu əsər haqqında gözəl fikirlər söyləmişdir. 1988-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü olan T.Abdinov Rəssamlıq təhsilinə başladığı zamandan bu günə yaratdığı bir-birindən gözəl əsərlərlə müxtəlif yerli və beynəlxalq sərgilərdə iştirak etmişdir. Onun 1985-ci, 1989-cu ildə Moskvada, 1988-ci ildə Yekaterinburqda, 1989-cu ildə Praqada, 1991-ci, 1992-ci, 1993-cü illərdə Sank Peterburqda, 1995-ci, 2012-ci ildə İstanbulda, 2005-ci ildə Fransada təşkil olunmuş qarışıq sərgilərdə öz əsərlərini nümayiş etdirmişdir. Bundan əlavə rəssamın 1995-ci ildə Ərzurum və Qarsda, 1997-ci ildə Ankara və Bodrumda, 2002-ci, 2004-cü, 2014-cü ildə Naxçıvanda, 2015-ci ildə Bakıda fərdi sərgisi keçirilmişdir.

Telman Abdinovun yaradıcılığı dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, rəssam 2002-ci ildə "Azərbaycan Respublikasının Əməkdar Rəssamı fəxri adına layiq görülmüşdür" [102].

Rəssam qrafika və rəngkarlığın müxtəlif janrına müraciət etmişdir. Onun özünəməxsus rəssamlıq texnikası ilə yaratdığı xarakterik portretləri, insanda lirik hisslər doğuran, Azərbaycannın zəngin nemətlərini, məişətini özündə əks etdirən natürmortları, müəyyən fəlsəfi fikiri əks etdirən müxtəlif mövzulu tematik tabloları hər zaman tamaşaçıda böyük maraq yaratmışdır. Lakin

rəssamın qəlbində əsrarəngiz duyğular yaradan ecazkar təbiət mənzərələri onun yaradıcılığında da əks olunmuşdur. O, gördüyü hər bir sadə təbiət mənzərəsində bir gözəllik axtarıb. Məhz bu gözəlliklərin sehri rəssamı rəngləri hiss etdiyi kimi, özünəməxsus tərzdə kətana köçürməyə vadar edib.

Hər bir insan rənglərin sehrinə düşür, ondan təsirlənir və bu onun həyatında olduqca mühüm rol oynayır. Telman Abdinov özünəməxsus koloritli mənzərələrində sanki insan nağıl aləminə düşür. Rəssam mənzərələrinin demək olar ki, çox hissəsini yağlı boya ilə kətan üzərində işləyib. T.Abdinovun mənzərə janrında çəkdiyi əsərlərin timsalında Naxçıvan təbiətinin zənginliyinə və füsunkarlığına əmin olmaq mümkündür. "İlandağ", "Batabat", "Qoca heyva ağacı", "Haça dağ", "Darı dağı", "Naxçıvan abidələri" (şəkil 37), "Əlincə qalası" (şəkil 38) və s. tabloları bunların təsdiqidir. İlin və günün ən müxtəlif çağlarında müxtəlif təbiət motivlərinə diqqət yetirən rəssam, özünəməxsus rəng duyumu ilə çox vaxt gözümüzdə adiləşən guşələrin yaddaqalan bədii tutum almasına nail olmuşdur.

Rəssamın 2005-ci ildə yaratdığı "Darı dağı" əsərində Naxçıvanda Culfa ərazisində yerləşən Darı dağı, ön planda isə bir çox xəstəliklərə dərman olan Şəfa bulağının təsviri verilmişdir. Bu mənzərədə dağın rənginə uyğun isti rəng koloriti, payız fəslində təsvir olunmuş sarılı-qırmzılı ağacların rəngi ilə uyğunlaşdırmış, səmadakı bənövşəyi rənglə dağın kölgəli tərəfləri harmoniya təşkil etmişdir. Bu rəng effektləri əsərdə xüsusi bir tamlıq, gözəllik bəxş etmişdir.

Telman Abdinov Naxçıvanın simvoluna çevrilən İlan dağı (Haça dağı) müxtəlif dövrlərdə, müxtəlif görünüşlərdə təsvir

etmişdir. 2000-ci ildə çəkdiyi mənzərədə dağı ətrafındakı kəndlərin birinin fonunda təsvir etmişdir. Bu mənzərə günün səhər vaxtı, yaz fəslində çəkilmişdir. Əsərdə verilmiş rənglərdən baharın təravəti hiss olunur. Bundan əlavə 2008-ci ildə çəkdiyi "Haça dağ" mənzərəsi isə payız fəslinə təsadüf edir. Ön fonda yol kənarında sarı, qırmızı, narıncı kollar təsvir olunmuşdur. Əsərdə hüzünlü bir ab-hava duyulur.


Şəkil 38. Telman Abdinov. "Əlincə qalası"

Rəssam 2012-ci ildə iki ədəd İlan dağ mənzərəsi işləmişdir. Əvvəlkilərdən fərqli olaraq bu əsərlərdə soyuq tonların daha çox üstünlük təşkil etdiyini görmək olur. Lakin hər iki əsər eyni ildə işlənsə də işlənmə texnikasına və kompozisiya quruluşuna görə fərqlidir. Böyük ölçüdə çəkilmiş bu əsərlərin birinın üslub

texnikası Azərbaycanın böyük mənzərə ustası, dahi Səttarın rəng koloriti və onun işləmə texnikasını xatırladır. Bu daha çox arxa planda dağların təsvirində özünü göstərir. İkinci mənzərədə İlan dağ uzaqda deyil, daha yaxında və böyük formada gölün fonunda təsvir olunmuşdur. Bu əsərdə buludların təsviri mənzərəni daha baxımlı etmişdir. Dağın üzərindəki buludların kölgəsinin verilməsi onların daha qabarıq və mənzərənin daha canlı və təbii görünməsinə səbəb olur.

T.Abdinovun İlan dağ mənzərələri haqqında görkəmli sənətşünas Ziyadxan Əliyev demişdir: "...onun başqalarından fərqlənən İlandağ ünvanlı tablolarında dərin müşahidə qabiliyyətinə malik insanın gerçəkliyə baxışının çox özünə-məxsus ifadəsini görmək mümkündür. Demək olar ki, hər bir fəsildə bu möhtəşəm dağa münasibət bildirən rəssam İlan dağı əhatələyən özünəməxsus landşaftın fəsildən-fəsilə dəyişən, rənga-rəng don geyən görkəmini bilavasitə onun qürur doğurucu möhtəşəmliyi ilə əlaqələndirə bilmişdir. Odur ki, onlar sayca çox olsalar da, hər biri özümlü ovqat daşıyıcısı kimi qəbul olunur, uzun müddət yaddan çıxmır" [72, s.3].

Əməkdar rəssam T.Abdinovun yaradıcılığında Şahbuzun səfalı və gözəl guşələrindən olan Batabatın təsvirinə onun bir neçə mənzərələrində rast gəlirik. Onun Batabat gölündə yerləşən Üzən adanı təsvir etdiyi mənzərə bahar fəslində təsvir olunmuşdur. Uzaqdan görünən dağların üzərində qar təsvir olunmuşdur ki, bu da həmin yerin iqlim xüsusiyyətinin göstəricisidir. Ön planda verilmiş Batabat təbiətinə məxsus çiçəklərin təsviri, təravət və əlvanlıq insanda xoş əhval yaradır.

Onun 2012-ci ildə yaratdığı "Əlincə qalası" adlı əsərində güclü işıq-kölgə nüansları maraqlıdır. Təbii olaraq ön planda Əlincə qalası, uzaqda isə soyuq rəng tonlarında – mavi və bənövşəyi koloritin açıq tonlarında isə İlan dağ təsvir olunmuşdur. Tabloda mübarizlik, əyilməzlik simvoluna çevrilmiş Əlincə qalası və uzaqda görünən İlan dağ təsvir olunmuşdur.

Əsərdə perspektiva məsələləri də diqqəti cəlb edir. İlan dağın soyuq rənglərlə və ümumi formada verilməsi onun nə qədər uzaqda yerləşməsinin göstəricisidir. Rəssamın kətan üzərində yağlı boya ilə, 96 x 86 sm ölçüsündə işlədiyi bu mənzərədə batmaqda olan günəşin dağların üzərində yartdığı zərif rəng təzadları insanda xoş hislər yaradır. Burada isti və soyuq rəngin təzadından yaranan gözəllik dağların daha da qabarıq və əzəmətli görünməsinə səbəb olmuşdur. Əlincə qalasının günəş işığından yara-nan qızılı, sarı, bənövşəyi rəng çaları əsərə xüsusi bir gözəllik, aydınlıq, xoş bir ruh bəxş etmişdir. Ətrafda təsvir edilmiş ağac və kolların rəngində isə dağlarda fərqli olaraq ağır rəng tonlarına üstünlük vermişdir. Əsərdə əlvan, soyuq və isti tonların, tünd və açıq rənglərin təzadından doğan gözəl bir harmonya insanı valeh edir. T.Abdinovun "Payız motivi", "Yaz mənzərəsi", "Açıq səma", "Qürub mənzərəsi", "Meşədə", "Açıq səma", "Qış" və s. adlı mənzərələri rəng və kompozisiya baxımından bitkin olan və insana lirik ovqat bəxş edən əsərlərdəndir.

Məhşur "...fransız rəssamı Şarden demişdir: "Şəkili rənglərlə deyil, hisslərlə çəkirlər" [23, s.6]. T.Abdinovun yaratdığı əsərlərdə onun ruhunu, hisslərini duymaq mümkündür. Rəssamın hər bir dağın, gölün, çayın gözəlliyinə olduğu kimi, müxtəlif ağaclara, çiçəklərə və s. özünəməxsus bədii münasibəti var. Onun

yaradıcılığında istər natürmortlarında, istərsə də mənzərələrində heyva təsvirinə çox rast gəlinir.




Şəkil 39. Telman Abdinov 1."Heyva ağacı". 2."Qoca heyva ağacı"

Onun Naxçıvan bağlarının zənginliyini, gözəlliyini özündə əks etdirən "Heyva ağacı" əsərində (2004) yaz fəslində çiçək açmış heyva ağacının füsunkar bir təsvirini görürük (şəkil 38). Mavi, yaşıl, göy rəngli bir fonda o qədər də böyük olmayan, ağ rəngli çiçəklərlə əhatə olunmuş və bir-birinə tərəf əyilmiş iki heyva ağacı lirik boyalarla bitkin kompozisiyada verilmişdir. Digər bir əsərində "Qoca heyva ağacı" əsərində (2011) isə böyük gövdələri olan, budaqları heyva meyvəsinin ağırlığından aşağıya əyilmiş uca heyva ağacını görürük. Səmaya yüksəlmiş ağacın meyvələrdən aşağıda göstərilmiş qurumuş budaqları ağacın yaşlılığından xəbər verir. Rəssam sanki hər iki əsərdə ağacın təsvirini insan həyatı ilə eyniləşdirir. Birinci mənzərədə bir-birinə tərəf əyilmiş ağaclar sanki iki insanın həyatının bahar çağı, təravətli, gənclik sevgisini

yaşayır. Digər mənzərədə isə ömrün payız çağı, bar verən, artıq yaşlılıq zamanını xatırladır. İdeyaya uyğun boyaların hormoniyası ilə rəssamın hətta sadə təbiət mənzərəsində də insanı yaşam və həyat haqqında düşünməyə vadar edir. Məhz rəssam fırçasının da qüdrəti budur – gözəllik və ideyanın vəhdəti.

İncə müşahidə qabiliyyətinə malik olan rəssam müşahidə etdiyi gözəlliklərə yaradıcı münasibəti başqa bir əsərində də diqqəti cəlb edir. Onun "İlğım" əsərində rənglərlə yaratdığı bədii tamaşaçını duyğulandırmaq gücündə olduğunu görmək mümkündür. Rəssamın rənglərin ahəngi ilə yaratdığı bu əsər tamaşaçıları düşünməyə vadar edən yeni bir bədii-estetik məziyyətlə tanış oluruq.

Bütün bunlar onu deməyə əsas verir ki, rəssamın böyük sevgi ilə yaratdığı mənzərələri səmimi və yaddaqalandır. Xalq rəssamı, professor Hüseynqulu Əliyev T.Abdinov yaradıcılığı haqqında demişdir: "Azərbaycan təsviri sənətində özünəməxsus yeri olan Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov "Naxçıvan Rəssamlıq Məktəbinin" davamçılarından olub, onun bu günkü inkişafında böyük xidmətlər göstərir. Xalq sənət nümunələri və təbiəti (xüsusən Naxçıvan təbiətini) dərindən öyrənən istedadlı rəssam rəngkarlıq və tətbiqi sənət əsərlərini ustalıqla sərgilərdə nümayiş etdirir. Bütövlük, obrazın daxili xarakteri, materiallıq, siluet cazibəsi, aydın rəng tonları Telman Abdinovun portret, mənzərə, natürmort və mövzulu əsərlərinin əsasını təşkil edir" [72, s.31]. Telman Abdinov tamaşçıları üçün rəngarəng mövzulu əsərləri yenə də işləməklə davam edir. Onun tamaşacıları rəssamın ecazkar sənəti ilə rənglərin sehrinə düşür, həyata bu rənglərin gözü ilə baxır.



Şəkil 40. Rəsul Xəlilov. "Kəndimiz"

Daha çox akvarel texnikası rənglərin ecazkar harmoniyasının ahəngindən yaratdığı Naxçıvan mövzulu əsərlərlə yaddaşlardan silinməyən Rəsul Xəlil oğlu Xəlilov (1953-2017) 1953-cü il iyulun 20-də Şahbuz rayonunun Külüs kəndində dünyaya göz açmışdır. Rəssam 1973-1980-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. 1984-cü ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü olan rəssam elə həmin ildən ömrünün sonuna qədər Şahbuz rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəsm dərnəyinin rəhbəri işləyib.

Yaşadığı yerlərin lirik təsvirini onun akvarel əsərlərində görmək mümkündür. "Kəndimiz", "Payız", "Naxçıvan" əsəri bu-

na yaxşı nümünədir. Rəssamın yaradıcılığında akvarel texnikasının "allaprima"nın gözəl nümunələrini yaratmışdır.




Şəkil 41. Əlövsət Allahverdiyev. Naxçıvan MR-95

Yaradıcılığında qrafika sahasinə geniş yer verən rəssam Allahverdiyev Əlövsət Ərrəhman oğlu Naxçıvanın qədim və müasirliyini özündə əks etdirən maraqlı əsərlər ərsəyə gətirmişdir. Bunlardan Naxçıvan Muxtar Respublikasının 95-illik yubileyinə həsr olunmuş plakat əsərlərləri ideya, kompozisiya baxımından maraqlıdır.

Həyat gerçəkliyi, təbiət rəssamları ilhama gətirən tükənməz və gözəllik mənbəyidir. Dahi Leonardo da Vinçinin dediyi kimi, "səxavətli təbiət elə yaranıb ki, bütün dünyada təqlidəlayiq nə istəsən tapa bilərsə" Yaxud görkəmli Fransız rəssamı E.Delakrua buna bənzər fikri belə ifadə etmişdir: "Rəngkarlıq həyatın özüdür.

Rəngkarlıqda təbiət insanın ruhu qarşısında vasitəsiz, pərdəsiz, şərtsiz təzahür edir" [23, s.7]. Məhz doğma yurdun təbiətinin bədii əksini də öz fərqli dəstixətti, gözəl rəng qammaları ilə seçilən naxçıvanlı rəssam Rafael Qədimov əsərlərində rast gəlinir.

Rafael Qədimov 1969-cu ildə Naxçıvan şəhərində anadan olub. İlk təhsilini 1976-cı ildə 3 saylı orta məktəbdə alıb. Hələ uşaqlıq yaşlarından rəssamlığa həvəs göstərən R.Qədimovun ilk sənət müəllimi atası Sabir Qədimov olmuşdur. Naxçıvan MR Əməkdar İncəsənət xadimi Sabir Firudin oğlu Qədimov (1937-1985) oğluna rəssamlığın sirlərini öyrədir. İçindəki istedad, rənglərdən, gözəllikdən duyduğu hisslər, bir sözlə, rəssamlığa olan güclü həvəs və öyrənmək eşqi onu 1984-cü ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə gətirir. Bu məktəbdə oxuduğu müd-dətdə tanınmış sənət ustalarından, o cümlədən Hafiz Məmmədovdan rəssamlıq dərsi almışdır. R.Qədimov 1988-ci ildə texnikumu bitirdikdən sonra hərbi xidmətdə olub. 1990-cı ildə Naxçıvana qayıdan R.Qədimov burada rəssamlıq fəaliyyətinə başlayıb. 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilib. Rəssam bir-birindən dəyərli əsərləri ilə müxtəlif yerli və beynəlxalq sərgilərdə iştirak edir. Artıq uzun illərdir ki, Naxçıvan Dövlət Kukla Teatrında quruluşçu rəssam vəzifəsində çalışan rəssam, bir-birindən maraqlı tamaşalara tərtibat verir, yaddaqalan obrazlar yaradır.

Yaradıcılığının çox hissəsini natürmort, portret və sujetli tematik tablolar tutur. Lakin bununla yanaşı onun mənzərə janrında çəkdiyi əsərlər də az deyil. Doğma torpağın rəngarəngliyinin sehrinə düşən, ondan ilham alan rəssamın duyğuları özünəməxsus rənglərlə kətan üzərində işlədiyi gözəl əsərlərə çevrilir. Yaratdığı

təbiət lövhələri rəngkarlıq sənətin məhz bu janrına da yeni nəfəs və ruh gətirmişdir. Naxçıvanın bənzərsiz təbiəti onun fırçası ilə kətan üzərində canlandıqca sanki insan yeni bir möcüzə ilə qarşılaşır. Bu əsərlərə baxdıqda hər daşında qədim tarix yatan, hər guşəsində bir gözəllik duyulan, heç bir torpaqda rast gəlinməyən rənglərdən ibarət bələd olduğu yurd yerlərinin əzəmətinə, gözəlliyinə vurulur. Naxçıvanın tarixi və memarlıq abidələrinin təsvirini "Möminə xatun türbəsi", "Qala", "Nəiminin türbəsi" və s. tablolarında görmək olar. Rəssamın 2016-cı ildə "Naxçıvan–bəşəriyyətin beşiyi-III" adlı beynəlxalq rəsm festivalı zamanı çəkdiyi "Qala" əsəri öz təbii və canlılığı ilə seçilir. Əsərdə güclü işıq-kölgə nüansları, perispektiva qanunlarının düzgün ifadəsi diqqəti cəlb edir. Mübarizlik simvolu olan Əlincə qalasının bu əsərdəki təsvirində onun möhtəşəmliyi istifadə olunan rənglərdə, forma və kompozisiya quruluşuna görə aydın ifadə olunmuşdur.

Rəssam təbiət və insanda təzahür edən maraqlı məqamları görür, orda baş verən qeyri-adi gözəllik və zərifliyi müşahidə edir. Gözəllik anlayışını hissiyyatı ilə daha yaxşı dərk edir, bunu boyaların dili ilə ifadə edir. O, kompozisiya nöqteyi-nəzərindən çoxsaylı təbiət gözəlliklərini real təsvir edərkən Naxçıvan torpağının zəngin gözəlliklərini tabloya köçürmüşdür. Rəssamın "Tək ağac", "Buludlar", "İlan dağ", "Naxçıvan mənzərəsi", "Batabat" və s. əsərlərində təsvir etdiyi hər bir təbiət lövhələri kompozisiya cəhətdən zərif koloritli ahənglərlə zəngindir. Seçdiyi hər bir rakurs tamaşaçının qarşısında tamamilə fərdi, təkrarsız gözəllik yaradır.

Rafael Qədimov yaradıcılığında geniş ifadə üslublarına rast gəlirik. O, realist rəssamdır. O, müxtəlif vasitələrlə təbiəti

təkrarlamağa çalışır, lakin bu heç də kortəbii yamsılama deyildir. Belə ifadə üslublarını onun İlan dağ təsvir olunmuş bir neçə tablosunda rast gəlinir. İlan dağın ətəyinə buludların kölgə saldığı kontrast rənglərin ifadəsilə yaddaqalan "Buludlar" əsəri tamamilə başqa bir üslubda çəkilmişdir.



Şəkil 42. Rafael Qədimov. "Naxçıvan mənzərəsi"

O, bu əsərində boyakarlığın ifadə vasitələrinin bütün toplusundan, xüsusilə də kolorist imkanlardan məharətlə istifadə edib, əsərdə çox yüksək dekorativ ifadəliyə nail olub. Zəngin koloritli bu əsərə baxdıqda sanki insan özünü nağıl dünyasında hiss edir. Mənzərədə buludların forması, rəngi, dağın üzərindəki kölgəsi çox təbii formada verilmişdir. Payız fəslində təsvir edilmiş bu mənzərədə isti rənglərin dekorativ forma ilə ahəngi xoş hisslər yaradır.

Digər "İlan dağ" əsərini isə rəssam günəşin batışı anında təsvir etmişdir. Yuxarıda bəhs etdiyimiz tabloda dekorativlik əsas cəhət idisə, bu əsər real təsvir boyaları ilə işlənmişdir. Bu əsərdə qırmızı, narıncı rəngin müxtəlif çalarlarında ibarət olan dağ füsunkar bir görünüşdə təqdim olunmuşdur.





Şəkil 43. Rafael Qədimov 1."Etüd" 2. "Tək ağac"

R.Qədimovun 2012-cı ildə "Naxçıvan bəşəriyyətin beşiyi-I" adlı beynəlxalq rəsm festivalı zamanı çəkdiyi "Naxçıvan mənzərəsi" əsərində İlan dağ fərqli görünüşdə verilmişdir. Göy, yaşıl, qəhvəyi rəngin müxtəlif çalarlarının zərif harmoniyasının üstünlük etdiyi bu mənzərədə perspektiva, işıq-kölgə kimi təsvir vasitələrindən məharətlə istifadə olunmuş gözəl bir İlan dağ mənzərəsi canlandırılmışdır. İnsanda xoş hisslərin yaranmasına dəlalət edən bu mənzərədə İlan dağın ətəyində göz işlədikcə

uzanan əkin sahələri, becərilmiş tarlalar Naxçıvan torpağının bolluq və zənginliyinin ifadəsidir.

Realist rəssam R.Qədimovun yaratdığı mənzərə əsərlərində təbiətin və gözəlliyin estetikası və fəlsəfi dərki təməl təşkil edir. Rəssam onu əhatə edən təbiətdə təkcə görünəni yox, gizli məğzi görür, onu özünəməxsus, adi baxışa zidd qavrayır. Seçdiyi təbiət lövhəsinin gözəllik nüanslarını hiss edib, onu sanki öz daxili dünyasında, duyduğu kimi kətan üzərində çox incəliklə əks etdirir. R.Qədimovun "Etüd" əsəri bu baxımdan maraqlıdır. Mənzərədə möhkəm gövdəli, qol-budaqlı ağac, ətrafda isə o qədərdə çox nəzərə çarpmayan kol təsvir olunmuşdur. Əsər qış fəslində çəkilmişdir. Əsərin koloritindən, kompozisiyasından hiss olunur ki, rəssam boş yerə etüd üçün belə bir mənzərəni seçməyib. Etüddə təbiət gözəlliyindən başqa dərin bir məna, fəlsəfi ideya var. Bu əsərdə iki rəngin təzadı ilk baxışdan diqqəti çəlb edir. Sanki əsər iki hissəyə ayrılıb. Əsərin bir hissəsini – yuxarı hissəsini göy, qara, bənövşəyi rənglərin ahəngindən yaranan tutqun səma, aşağını isə ağ örtüyə bürünmüş geniş bir sahə tutur. Sanki göylərə meydan oxuyan ağacın qarlı budaqları tutqun səmaya ağ cizgilər salır. Qara rəngdə ağ cizgilər. Qara bürünmüş torpaqda isə əksinə ağ rəngin üzərində qara cizgilər – qarın üzərinə düşən qara kölgələrdir. Bu rəng təzadlarından ibarət olan mənzərədə rəssam sanki həyatın hər iki üzünü – "ağ və qara rəngini" tamaşaçılara çatdırmaq istəyir. Bəlkə də, insanların talelərindəki təzadları R.Qədimov "Tək ağac" əsərində də rəng və işıq-kölgə nüanslarının maraqlı həllinə nail olub. Əsərdə günəş şüaları elə məharətlə təsvir olunub ki, sanki ətraf həqiqətən parlaq işıq selinə bürünüb.

Rəssam parlaqlığa, işıq effektlərinə, həyatın dolğunluğunun təcəssümü olan yay fəslinə aid təsvir olunduğu ot biçininin isti atmosferini verə bilmişdi. Ot biçən adamın kiçik təsviri, ağacın nə qədər böyük olduğundan xəbər verir. Tamaşaçı onun hər bir əsərinə baxanda təbiətin gözəlliyini, əzəmətli gücünü hiss edir. Onun digər bir mənzərə əsərində – "Payız etüdü"ndə də bu hiss açıq-aydın duyulur. Payız fəslində təsvir etdiyi mənzərədə istifadə etdiyi rənglər, ağacın əyilmiş budaqları, çatlaqlarla örtülmüş köhnə ağac qabıqları tamaşaçının diqqətini özünə cəlb edir. Ağac böyük planda verilmişdir. R.Qədimov həcmi, ağacın qabarıqlığını verməklə, sahənin aydınlığının hiss olunmasında möhtəşəm gücə nail olur. Onun başqa əsərlərində – sujetli tematik tablolarında, natürmortlarında olduğu kimi mənzərələrində də kompozisiyanın sabitliyi və monumentallığına baxmayaraq, onda daxili dinamika hiss olunur. Bu əsərdə də ağacın budaqlarında hərəkət sezilir ki, bu da rəssamın fırçasının qüdrətini göstərir. Onun başqa əsərlərində olduğu kimi bu əsərində də rəssamın ruhu duyulur. Bu əsərdə günəş şüaları əsərə nə qədər istilik gətirsə də payız hüznünü, payızın soyuq nəfəsini hiss etmək mümkündür. Seçilmiş rənglərdə, fırça izlərində sanki təbiətin ağrısı duyulur. Kölgələrdə, gövdədə rənglərin kütləsi qatılaşır, tündləşir. Təhlil olunan hər iki əsərdə Naxçıvan iqliminin sərtliyi hiss olunur.

R.Qədimovun "Dahilər diyarı" əsəri tarixilik, bədilik, bitkin kompozisiya, obrazların xarakterikliyi, məzmun vəhdəti baxımından dəyərli sənət əsəridir. Böyük ölçüyə, isti rəng koloritinə malik bu əsər M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının foyesində sərgilənir. Rəssamın digər əsərlərində olduğu kimi bu janrda da milli kolorit üstünlük təşkil edir. Onun tablolarında,

istifadə etdiyi rənglərdə doğma torpağa xas rənglərin eyni tonlarını görürük.



Şəkil 44. Rafael Qədimov. "Dahilər diyarı"

Tarixi janrda obrazların xarakter həlli ilə yaratdığı çoxfiqurlu kompozisiyalarına daha bir nümunə "Ümidimiz sizədir" tablosudur. Naxçıvanın tarixi şəxsiyyətlərinin xarakter həllinin, rəng koloritinin dolğunluğu, təbiiliyi, obrazların realist həlli baxımından "Möminə xatunun portreti", "Qonçabəyimin portreti", "İsmayıl xan Naxçıvanskinin portreti" yaddaqalan tarixi portret seriyasına aid dəyərli nümunələrdir.

Mənzərələrində kompozisiyanın, rəsmin, rənglərin bütünlüklə ansamblı Azərbaycan təbiətinin gücü haqqında düşüncə oyadır, hər bir ağac, dağ gözəllik və gücü simvolizə edir. Lakin bu rəngləri elə duyğularla, elə bir koloritdə kətan üzərində özünəməxsus işləmişdir ki, onu digər bir rəssamın yaradıcılığında görmək mümkün deyildir. O, yalnız bir güşəni deyil, panoram

açılışı, fəza genişliyini realist formada təsvir edir. Onun real təsvir etdiyi Naxçıvan təbiətinin mənzərələrinə xas olan dəqiqliklə naturalizmə qapılmır, əksinə mənzərələrdə təbiətin tipik təsvirini verməyə çalışırdı. Rafael Qədimovun Naxçıvan təbiət gözəlliklərini bütün çılpaqlığı ilə əks etdirən, möhtəşəmliyi və qeyri-adi koloriti ilə fərqlənən mənzərə əsərləri, onun torpağına, yurduna olan sevgisinin möhkəmliyini göstərir. Mənzərələrinin rəngarəngliyi romantizmə həvəsləndirir, insanın hiss və emosiyalarına güclü təsir edir. Parlaq rəng palitrası onun yaratdığı mənzərələrin xarakterik xüsusiyyətlərindən biridir.

Onun yaradıcılığında İntibah dövr İtalya rəssamlarının bədii üslubu xüsusiyyətlərini də sezmək mümkündür. Bundan əlavə o, rus rəssamı məhşur İ.Repinin, Şişkinin rəng qammaları və üslub xüsusiyyətləri arasında az da olmuş olsa bənzəyiş hiss olunur. Lakin onun rəngkarlıq əsərlərində, söhbət açdığımız mənzərələrində dolğun rəng koloritindəki millilik, özünəməxsusluq onu digər rəssamlardan fərqli, bənzərsiz, sözün yaxşı və həqiqi mənasında seçilən edir. Rəssam heç bir əsərinin başdansovdu, tələsik işləməmişdir. Onun işinə məsuliyyətlə yanaşmağı, verdiyi dəyər və diqqət yaratdığı hər bir əsərin mükəmməl alınması ilə nəticələnir.

Rafael Qədimovun əsərləri Naxçıvan Dövlət Şəkil Qalareyasında, XVIII əsrin tarixi-memarlıq abidəsi olan Naxçıvan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində, müxtəlif muzeylərdə, şəxsi kolleksiyalarda saxlanılır. Onun əsərləri tamaşaçılar tərəfindən hər zaman sevilir və yüksək qiymətləndirilir.

Əliyev İsmayıl Həsən oğlunun (1958-2007) rəngkarlıq yaradıcılığında bu mövzu mənzərə və portret janrında öz əksini tapmışdır. Naxçıvanın müxtəlif guşələrini, kənd mənzərələrini realist üslub xüsusiyyətləri ilə təsvir edən rəssam, eyni zamanda Naxçıvanın tanınmış simalarının portret obrazlarını – "C.Məmmədquluzadə, Ə.Naxçıvanı, B.Kəngərli" və başqa portretləri ilə bu mövzuya müraciət etmişdir.

Yaradıcılığının geniş sahəsini dekorativ tətbiqi sənət sahəsinə həsr edən rəssamlardan Tapdıq Həmzəyev, Ələsgər Əsgərli qrafika və rəngkarlıq sahəsində də Naxçıvan mövzulu əsərlər yaratmışlar. Metal üzərində döymə sənəti sahəsində bir-birindən gözəl əsərlər yaradan Tapdıq Həmzəyev (1956) "İslam Mədəniyyətinin paytaxtı" loqotipinin müəllifidir (2018)" [70, s.56]. Bu. Onun yaradıcılığında Naxçıvan mövzusuna aid maraqlı qrafik nümunədir. "Naxçıvan-95. Yurdumun rəngləri" festival-müsabiqədə iştirak etmiş və 3-cü yerin qalıbi olmuşdur.

Qrafika sahəsində Kərimov Hafiz Qasım oğlununun (1967) doğma yurdun mənzərələrini akvarel texnikası ilə dolğun rəng ahəngi ilə təsvir etmişdir. Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş rəssamlardan Xəlilov Mahir Xanlar oğlunun (1960-2024) yaratdığı əsərlər içərisində Naxçıvan mövzusu yer almışdır. O, 1960-cı ildə qədim tarixə, milli mədəniyyətə malik Qərbi Azərbaycanın Göycə mahalının, Basarkeçər rayonunun Kərkibaş kəndində dünyaya göz açmışdır. 1982-1987-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Bədii qrafika" fakültəsində təhsil almışdır. Təhsilini bitirdiyi ildə Təhsil Nazirliyinin təyinatı ilə Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna (indi Naxçıvan Dövlət Universiteti) göndərilmiş və burada pedaqoji fəaliyyətə

başlamışdır. 2006-cı ildə təsviri sənətin tədrisilə bağlı dissertasiya müdafiə etmiş, pedaqoji elmlər namizədi alimlik dərəcəsini almağa müvəffəq olmuşdur. M.Xəlilov 2010-cu ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunmuşdur. O, ömrünün sonuna kimi Naxçıvan Dövlət Universitetinin "Təsviri incəsənət" kafedrasının dosenti və Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi kimi fəaliyyət göstərmişdir.



Şəkil 45. Mahir Xəlilov. "Naxçıvan mənzərəsi"

Yaradıcılığında təbiət mövzusu əsas yer tutur. O, Naxçıvan təbiətinin, Naxçıvan dağlarının vurğunu idi. Çəkdiyi təbiət təsvirləri isə daha çox qış fəslinə aid olmuşdur. Yəqin ki, burada rəssam Naxçıvanda qışın sərtliyinin, onun dağlarının əzəməti və sərtliyi ilə uyğunluğunu verməyə çalışmışdır. O, Naxçıvan dağlarından daha çox müraciət etdiyi Əshabi-Kəhf dağını soyuq rəng tonları ilə ifadə etmişdir. Əlvan rənglərlə zəngin palitrası ilə

Naxçıvan təbiət gözəlliklərinin bədii əksini yaradan rəssamlardan biri də Natiq İsmayılovdur (1976). Bu mövzunu naxçıvanlı rəssam Natiq İsmayılın ən müxtəlif janrlı əsərində izləmək mümkündür. Onun yaradıcılığında daha çox yer alan mənzərələrindən "Aylı gecə", "Xatirələr", "İthaf. Bəhruz keçib bu yerlərdən...", "Bahar", "Batabat lalələri", "Kənd motivi", "Güllər", "Məscid", "Düşüncələr" və s. əsərləri vurğuladığımız bədii-estetik məziyyətlərə malikdir. Onun rəngkarlıq yaradıcılığında "Haça dağ", "Batabat", "Naxçıvan çayı", "Laləli çəmən" və s. əsərləri xüsusilə yaddaqalandır.



Şəkil 46. Həsən Qurbanov. "Batabat"

Əlvan rənglərlə zəngin palitrası ilə Naxçıvan təbiət gözəlliklərinin bədii əksini yaradan rəssamlardan biri də Natiq İsmayılovdur (1976). Bu mövzunu naxçıvanlı rəssam Natiq İsmayılın ən müxtəlif janrlı əsərində izləmək mümkündür. Onun

yaradıcılığında daha çox yer alan mənzərələrindən “Aylı gecə”, “Xatirələr”, “İthaf. Bəhruz keçib bu yerlərdən...”, “Bahar”, “Batabat laləleri”, “Kənd motivi”, “Güllər”, “Məscid”, “Düşüncələr” və s. əsərləri vurğuladığımız bədii-estetik məziyyətlərə malikdir. Onun rəngkarlıq yaradıcılığında “Haça dağ”, “Batabat”, “Naxçıvan çayı”, “Laləli çəmən” və s. əsərləri xüsusilə yaddaqalandır.

Naxçıvan torpağını gəzib dolaşmaqdan usanmayan rəssamın onun təbiətini sevə-sevə vəsf etməsini yaratdığı çoxsaylı mənzərələr də təsdiqləyir. “İthaf. Bəhruz keçib bu yerlərdən...” və “Batabat lalələri” əsərlərində bunun əyani təsdiqini görmək mümkündür. Natiq İsmayılın rəng palitrası kifayət qədər nikbin ovqata köklendiyindən, yağlı boya ilə bədiiləşmiş bu mənzərələr sonsuz gözəllik qaynağı kimi qəbul olunurlar. Rəssam bütün yaradıcılığı boyu məhdud çərçivə daxilində qalmayıb müxtəlif janrlara müraciət etsə də, onun öz yaşantılarını mənzərələrində daha təsirli və yaddaqalan ifadə etmişdir.

Yaradıcılığında mənzərələrinə geniş yer vermiş rəssamlardan biri də Həsən Bulud Qurbanovdur. O, 1966-cı ildə iyulun 14-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra rəssamlığa olan qabiliyyət və yüksək həvəs onu 1983-cü ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə gətirir. 1989-cu ildə bu məktəbi bitirib Naxçıvana qayıtmış və burada yaradıcılığına davam etmişdir. 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqına üzv seçilmişdir. Həsən Qurbanov bir çox beynəlxalq və yerli sərgilərdə iştirak etmişdir. O, İranda, Türkiyədə keçirilən qarışıq sərgilərdə əsərlərini nümayiş etdirmişdir. Rəssamın

natürmort, portret, kompozisiya və mənzərə janrında yaratdığı bir-birindən gözəl əsərlər şəxsi kolleksiyalarda saxlanılır.

Rəssamın yaradıcılığının böyük hissəsi mənzərə janrına aiddir. Rəssamın əsərləri əsasən Naxçıvanın müxtəlif guşələrinə etdiyi səfərləri ilə bağlıdır. Respublikanı qarış-qarış gəzən rəssam müxtəlif etüdlər edərək doğma torpağın təbiət mənzərələrini tablolara köçürürdü. Həsən Qurbanovun "İlan dağ", "Batabat", "Ax-şam", "Üfüq", "Əshabi-Kəhf", "Payız" və s. tablolarında təbiətin lirikası, həzin melodiyası hiss olunur. Bu əsərlərdə lirik təsvir elementləri rənglərin əlvanlığı, nikbinliyi ilə səciyyəvidir. Bu onun mənzərələri ilə yanaşı, kompozisiyalarında da rast gəlinən xüsusiyyətdir.





Şəkil 47. Həsən Qurbanov. "Naxçıvan şəhərindən bir görnüş"

Qəlbinin, ruhunun bir hissəsini əsərlərinə sığdıran rəssamın Naxçıvan təbiətini təsvir etdiyi mənzərə əsərləri tamaşaçıda lirik ruh yaradır. Başqa bir dünyanın sehrinə salan əlvan rənglərin zəngin çalarlarından ibarət əsərlərinindəki bu ruh, rəssamın istifadə etdiyi yaxma manerası, üslub xüsusiyyəti yox, həm də, optimizmin, nikbinliyin, ümidin gücündən yaranır. Onun müstəqilik dövründə

işlədiyi "Dağlar", "Yaz", "Çiçəklənən düzənlik", "Batabat gölü, "Etüd" kimi mənzərələri də bu baxımdan yaddaqalandır. Naxçıvanın səfalı yerlərindən olan Şahbuz rayonunda yerləşən gözəlliyi ilə məhşurluq qazanan Batabatın təsviri olan eyniadlı mənzərə əsərində yaşıllıq, ön planda olan xırda çiçəklər, günəşli hava, otların üzərində xəfif küləyin yaratdığı dalğalar əsərə baxanı sanki bu əsrarəngiz məkana aparır. Ön plandakı çiçəklərin rəng və formasının kiçik hissəsi təbiətin ümumi görünüşünü tamaşaçıya çatdırır. Dağlardakı meşələrin göy, yaşıl və çiçəklərin çəhrayı rənginin harmoniyası əsərə xüsusi gözəllik verir. Əsasən isti tonlara üstünlük verilən əsərdə gün işığının təsiri ilə daha da xoş təəssürat yaranır.

Müəllif bütünlükdə əsərinin həm diqqətçəkənliyinə, həm də təsvirin estetik qaynağa çevrilməsinə nail olub. Əsərin incə keçidlərlə yaradılmış rəng çalarlarının ümumi ahəngi çox cəlbedicidir. Realist ifadə vasitələrindən bəhrələnən Həsən Qurbanov nümayiş etdirdiyi yüksək sənətkarlıq "Payız" əsərinin bu janrda yaradılan ən yaxşı nümunələrdən biri olmasını şərtləndirib. İlıq-nikbin rənglərin zərif çalarları insanda şairanə hisslər oyadır.

"Dağlar" əsərində rənglərin gözoxşayan estetik qaynağa çevrilməsi bilavasitə H.Qurbanovun nümayiş etdirdiyi yüksək professionallıq sayəsində baş tutub. Lirik tutumlu bu əsərdə mavi-zümrüdü rənglərin müxtəlif çalarlarının şəkəri tonda verilmiş yer və dağlarda yaratdığı ovqat cəlbedici və təsirlidir.

Qızılı, sarı, narıncı rənglərin üstünlük təşkil etdiyi əsərlərindən "Naxçıvan mənzərəsi", "Axşam", "Qürüb", "Naxçıvan şəhərindən bir görnüş" adlı lövhələri maraqlıdır. Nikbin ovqat

yaradan boyalarla işlənmiş həmin tablolarda təbiətin gözəlliyi qabarıq və yaddaqalan bədii görkəm alıb. Oxşar rənglərdən ibarət olan "Axşam" əsəri kompozisiya baxımdan fərqlidir. Lirik boyalarla işlənmiş payız mənzərəsində ön planda olan çılpaq ağaclar, sonsuzluğa uzanan yol və günəşin batışı əsərə hüzn gətirir. Əsərə baxdıqda sanki, səmada çoxlu sayda uçuşan quşların səsi duyulur.

Onun "Qürub" lövhəsində də mənzərənin inandırıcılığı və ovqat daşıyıcılığı kifayət qədər qabarıq görkəm alıb. Axan çayı iri planda verən müəllif arxada dağları, ağacları təsvir etməklə çayın sahilindəki otların, kolların üzərindəki günəş işığında rəng müxtəlifliyi ilə diqqətçəkənliyinə nail olub. Qırmızı-narıncı rənglərin zərif çalarları bütünlükdə tablonun lirik xarakterini şərtləndirib. Rəssamın təbiət gözəlliyinin təntənəsinə həsr olunmuş lövhələri onun özünəməxsus rəssamlıq texnikası, istifadə etdiyi lirik rəng çalarları ilə yaddaqalandır.




Şəkil 48. Sabir Məmmədov. 1. "Naxçıvan Saat meydanı" 2. "Müasir yollar"

Əsərlərinin incə rənglərdən "hörülmüş" nikbin koloriti gözoxşayan və duyğulandırıcıdır. Bu tabloya lirik əhval-ruhiyyə

qatmaqla düşündürücü, fəlsəfi məzmunlu estetik görünüş qazandırıb. Təbiət və gözəllik anlayışlarının qarşılaşdırıldığı tablo obrazlaşdırılmış ilham qaynağına çevrilir. Sonsuz narıncı və qırmızı rəngin arasında, batmasına baxmayaraq hələ də öz işığını ətrafa səpələyən günəşin yaratdığı gözəllikləri rəssam lirik boyalarla duyduğu kimi təsvir etmişdir. H.Qurbanov kətan üzərində yağlı boyalarla əks etdirdiyi Naxçıvanın müasir şəhər mənzərələri XXI əsr Naxçıvanın ümumi görünüşünə işıq tutur.

Naxçıvan təbiətinin rəngarəngliyi ebru texnikası ilə çəkilmiş əsərlərdə də rast gəlinir. Ebru üzərində Naxçıvan lövhələrinin müxtəlif koloritli təsviri maraq doğurur. Naxçıvan flora və faunasını, müxtəlif nadir bitkilərinin təsvirini Naxçıvanda fəaliyyət göstərən sənətşünas Nizami Alıyev ebru əsərlərində təsvir etmişdir. O, 1958-ci ildə Kəlbəcər rayonunun Qaracanlı (Uluxan) kəndində dünyaya göz açmışdır. 1981-1986-ci illərdə indiki Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Bədii qrafika fakültəsinin “Rəsm, rəsmxət və əmək müəllimi” ixtisasını bitirib, 1986-cı ildən başlayaraq Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim kimi işləmiş, sonrakı illərdən isə Naxçıvan Müəllimlər İnstitutunda dosent kimi fəaliyyətini davam etdirmişdir.

Yaradıcılığında Naxçıvanın müasir görünüşü, təbiət və şəhər mənzərələri, tarixi-memarlıq abidələri daha geniş yer vermiş rəssamlardan biri də Sabir Məmmədovdur. 1954-cü il sentyabr ayının 9-da Naxçıvan MR Babək rayonunun Nəzərabad kəndində anadan olmuşdur.

Naxçıvan rəssamlıq məktəbinin əvəzsiz sənətkarlarından olan Sabir Məmmədov həm güclü kolorist, həm heykəltəraş, həm

də Naxçıvanda metal üzərində döymə sənəti sahəsində gözəl əsərlər yaratmış sənətkarlardandır. Sabir Duman oğlu Məmmədovun çoxsəpkili əsərlərinin içərisində doğma yurdu Naxçıvana aid olan silsilə əsərlər mövcuddur. Sabir Məmmədov Rusiya, Ukrayna, İran, Türkiyə və başqa ölkələrdəki sərgilərdə fəal iştirak etmiş, xarici ölkələrdə, eləcə də Naxçıvan MR Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına sərgi salonunda fərdi sərgiləri təşkil olunmuşdur. O, "Rəşadətli əməyə görə" nişanı və Əməkdar rəssam fəxri adı ilə təltif olunub. Akvarel texnikasına üstünlük verən rəssamın Naxçıvan şəhər mənzərələrinin müxtəlif görünüşlü etüdləri tamaşaçılar tərəfindən maraqla qarşılanır.



Şəkil 49. Həmzə Sadiqov. "Bayram axşamı"

Rəssam yaradıcılığında rəng koloritinin zənginliyi, isti və soyuq rənglərin harmoniyası və özünəməxsus işləmə texnikası ilə fərqlənir. Belə ki, mənzərələrində Naxçıvanın gözəl təbiətinin, tarixi yerlərinin, tarixi-memarlıq abidələrinin təsviri öz estetik əksini tapmışdır. Onun "Qazançı körpüsü, "İlan dağ qış fəslində, "Saat meydanı", "Müasir yollar", "Qarabağlar türbəsi", "Naxçıvan. Təbriz küçəsi", "Çiçəklənən Naxçıvan" əsərləri rəng və kompozisiya bitkinliyi baxımından maraqlıdır.
Naxçıvanın müasir şəhər görnüşünün, müxtəlif guşələrinin təsviri, tarixi memarlıq abidələri Həmzə Həsən oğlu Sadiqovun (1949) yaradıcılığında geniş yer tutur. Rəssam realist təsvir boyaları ilə yaratdığı mənzərələrdə doğma yurda xas rənglərlə milli koloritlə ifadə etmişdir. Rəssamın "Bayram axşamı" (şəkil 49), "Naxçıvan abidələri", "Batabat", "Haçadağ", "Nuh Peyğəmbərin məqbərəsi", "Qarabağlar türbəsi", "Aza körpüsü", "Əlincə qalası" adlı əsərləri qədim torpağın əsrarəngiz gözəlliklərinin, zəngin mədəniyyətinin realist ifadəsidir.

Fikrət Babayevin (1952) yaradıcılığında doğma yurda həsr etdiyi əsərlər çoxluq təşkil edir. "Nalbənd ağacları", "Arpaçay", "Qarabağlar türbəsi", "Şərur dağları" və s. yağlı boya ilə çəkdiyi əsərləri bu zəmindəndir.

Müasir şəhər mənzərələri Qəhrəman Tağıyevin də yaradıcılığında tez-tez rast gəlinən mövzulardandır. Hüseyn Cavidin türbəsinin təsviri bu mövzuya yaxşı nümunədir. Havanın yağışdan sonrakı vəziyyəti əks olunmuş türbə təsvirində rəng təzadı diqqəti daha çox cəlb edir.

Musayev Nəsrulla Əyyub oğlunun (1965) yaradıcılığında Naxçıvan kəndlərinin təbiəti, müasir dövr şəhər mənzərələri

xüsusilə geniş yer tutur. Realist üslubda yaratdığı əsərlərdə təsvir etdiyi hər bir detal təbii görünüşü, xoş məziyyəti ilə yaddaqalandır.

Naxçıvan mövzulu əsərlər ümumiyyətlə Naxçıvanda yaşayıb-yaratmış bütün rəssamların yaradıcılığında – Mustafayev Şamil Murtuz oğlunun (1929), Mehdiyev Sabir Nağı oğlunun (1952), Əsgərli Mənsur Nurəli oğlunun (1973), Əlizadə Tariel Həsən oğlunun (1960) Əlizadə Yusif Ənvər oğlunun (1964), Əliyev Şəmsəddin Yusif oğlunun (1961), Hüseynov Nadir Məmməd oğlunun (1965), Məmmədov Nizami İmamqulu oğlunun (1966) yaradıcılığında realist üslubla yer almışdır.

Hal-hazırda Naxçıvanda yaşayıb-yaradan müasir dövr rəssamların yaradıcılığında Naxçıvan mövzusuna daha çox toxunulmuşdur. Ülviyyə Həmzəyevanın, Anar Əliyevin, Hökümə Məmmədlinin, Ləman Məmmədovanın, Ülviyyə Məmmədovanın, Səriyyə Hüseynovanın, Həbibə Allahverdiyevanın, Şahin Rəsulovun, Cavid İsmayılovun, Leyla Əzimbəyovanın, Fizzə Quliyevanın, Həbib Allahverdiyevin, Murad Babayevin, Şəmsiyyə Zalovanın, Tural Həsənovun, Bəhruz Quliyevin, Vüqar Mehdiyevin, Arzu Novruzovun, Araz Xudiyevin, Mirilqar Seyidovun, Turac Seyidbəylinin, Aliyə Həmzəyevanın, Ruslan Zamanovun, Ələkbər Ələkbərovun, Cəlal Rzayevin, Nəsirov Nəsibin və başqa rəssamların yaradıcılığında Naxçıvanın təbiət lövhələrinin, tarixi abidələrinin, müasir Naxçıvanın təsvirinə tez-tez rast gəlinir. Adlarını sadaladığımız Azərbaycan Rəssamlar İttifaqının üzvü olan, əsərləri ilə bir çox ölkələrdə sərgi və beynəlxalq rəsm festivallarının iştirakçısı olan gənclərimiz Naxçıvanın təbiətini, tarixini, mədəniyyətini layiqincə təmsil edirlər.

# III FƏSİL

# XX ƏSR VƏ XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN RƏNGKARLIQ, QRAFİKA VƏ TEATR-DEKORASİYA SƏNƏTİNDƏ NAXÇIVAN TƏSVİRLƏRİ



## III.1.Azərbaycanın tanınmış rəssamlarının yaradıcılığında Naxçıvan təbiəti və tarixi-mədəniyyət abidələri

Azərbaycanın gözəl güşələrindən olan qədim tarixi, mədəniyyət abidələri ilə zəngin “Naxışlar diyarı”, “Bəşəriyyətin beşiyi”, “Şərqin qapısı” adlanan Naxçıvan hər zaman rəssamların yaradıcılığında rəngarəng tema təşkil etmişdir. Naxçıvanın təbiət gözəllikləri rəssamların palitrasına müxtəlif rəng qammaları və üslub dəsti-xətti ilə fərqli bir ahənglə təsviri sənət tarixi səhifələrinə yeni rəng qatmışdır. Belə mövzuda olan rəngkarlıq və qrafika əsərlərini Azərbaycanın təsviri incəsənət tarixinə öz imzasını həkk etmiş rəssamlarından Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Tahir Salahov, Cəmil Müfidzadə və başqa rəssamların yaradıcılığında gör-mək mümkündür. Onların yaradıcılığında bəhs olunan mövzu janr müxtəlifliyində olduğu kimi texnika və üslub baxımından da müxtəlif olması bu temalı əsərləri daha yaddaqalan etmişdir.

Təbiət vurğunu olan rəssamlardan Azərbaycan təsviri sənətində özünəməxsus dəst-xətti olan Səttar Bəhlulzadə (1909-1974) yaradıcılıq irsində Naxçıvan təbiəti yer almaya bilməzdi. Naxçıvana tez-tez səfər edən rəssam bu torpağın gözəlliyindən ilham almış onu öz əsərlərində rəngarəngliyini, təbiət zənginliyini dərin poetik ahənglə tərənnüm etmişdir.

Rəssamlıq təhsilini əvvəl Bakıda Əzim Əzimzadə adına Rəssamlıq Texnikumunda, sonra Moskvada V.İ.Surikov adına Rəssamlıq İnstitutunda alan S.Bəhlulzadə müstəqil yaradıcılığında mənzərə janrına üstünlük vermişdir. Təbiətin rənglərindən vəcdə gələn rəssam onları hiss edib öz təxəyyül süzgəcindən keçirərək

bir-birindən gözəl əsərlərə çevirmişdir. Öz rəng palitrası ilə, üslub texnikası ilə seçilən rəssam mütəmadi olaraq təbiətlə "ünsiyyətdə" olmuş, müxtəlif etüdlər etmiş, onlara əbədi ruh vermiş, ölməzlik qazandırmışdır.



Şəkil1. Səttar Bəhlulzadə. "Naxçıvan. Batabat"

"Bu əsərlərin hər birini seyr edən tamaşaçı Azərbaycan torpağının al-əlvan təbiəti, sadə, istedadlı və qonaqpərvər insanları ilə yaxından tanış ola, rənglərin qüdrəti ilə tablolarda əks olunan möcüzəli simfoniyaların, milli musiqimizin, adət-ənənələri-mizin, duyğu və düşüncələrimizin sədasını eşidə bilər" [80].

Sənətşünaslıq doktoru, professor İlham Rəhimli "Səttar dünyası" adlı kitabında onun haqqında bu fikri qeyd etmişdi: "Tabloların ümumi ovqatından aydın görünür ki, Səttar əbədiyyətlə öz həyat həqiqətləri arasında çox sərbəstliklə gəzişir.

Elə buradan da onun sənətkar ilahiliyinin qüdrəti başlayır. [71,s.27].”



Şəkil 2. Səttar Bəhlulzadə. “Mənzərə.Naxçıvan”

Bu sənətkar ilahiliyi onun tablolarının naturalizmə əsaslanan, lakin naturalizmdən daha fərqli, dərin bir duyğu ilə təbiətin dərin rəng melodyasının ən incə lirizmlə ifadə edərək, əlvan rəng qammaları ilə göstərə bilmişdir. Naturalizmə əsaslanan belə nikbin melodiyalı rənglərin ahəngindən yaranan silsilə

mənzərələrdən bir qismi də Naxçıvan tərənnümlü əsərlərdir. Rəssamın belə əsərləri 60-70-ci illəri əhatə edir. O, Naxçıvana səfərlər edir, naxçıvanlı sənət dostları ilə görüşür, bir-birindən maraqlı müxtəlif etüdlər edirdi.



Şəkil 3. Səttar Bəhlulzadə. "Naxçıvan dağları"

Sənətşünas Telman İbrahimovun şəxsi kolleksiyasında Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin Naxçıvana həsr etdiyi əsəri saxlanılır. Qrafik nümunənin üzərində 1966-cı il 12 yanvar tarixi qeyd olunub. 13x10 sm ölçüdə olan kağız üzərində qara mürəkkəblə çəkilmiş rəsmdə Naxçıvanın Şahbuz rayonunun ucqar ərazisi olan, səfalı, gözəl təbiəti ilə seçilən Batabat yaylağının təsviri verilmişdir. Burada dağların vüqarlı, məğrur təsviri daha çox diqqəti cəlb edir. Etüddə Naxçıvanın sərt təbiətinin

naxış vurduğu dağların möhkəmliyi rəssamın iti cizgilərləri və kəskin manevlərilə daha da qabardılmışdır.

“Rəssam doğma torpağı onun gözəl təbiətini gəzərək hər bir bölgəyə xas tərzdə tablolarında fərqləndirməyi bacarmışdır. Onun Abşeron motivləri, Quba, Şamaxı təbiətinə, Naxçıvan torpağına həsr etdiyi tablolar bir-birindən xeyli dərəcədə fərqlənir, özünəməxsusluğu ilə seçilir” [79, s.15]. Onun yaradıcılığındakı Naxçıvan təbiətinin tərənnümünə həsr etdiyi əsərlər digər təbiət mənzərələrindən fərqlidir. Bu daha çox rəng koloritində özünü qabarıq göstərir. Rəssam 1968-ci ildə daha bir Naxçıvan təbiətini yağlı boya ilə kətan üzərində yaratmışdır. 160 x 194 sm ölçülü bu əsər hal-hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır. İsti rənglərin üstünlük təşkil etdiyi bu əsərdə Naxçıvanın dumana bürünmüş uca dağlarının fonunda əlvan rəngli təpələr və yaşıl qovaq ağacları diqqəti cəlb edir. Öz lirizmi ilə fərqlənən əsərdə Naxçıvan dağlarına məxsus narıncı və qırmızı rənglərin vəhdəti tabloya ayrı bir gözəllik bəxş edir.

Narıncı, qırmızı rənglərin üstünlük təşkil etdiyi digər bir əsəri “Naxçıvan dağları” əsəridir. Bu əsərində rəssam yalnız dağların silsilə təsvirini vermişdir. Bir-biri ilə növbələşən rəng və forma ahəngi, kontrast təşkil edən soyuq və isti rənglər əsərə dinamika bəxş etmişdir. Bu əsərində də dağların rəngində digər əsərləri kimi qırmızı rəngdən səxavətlə istifadə edib. Naxçıvana həsr etdiyi tablolarında yer verdiyi bütün dağların rəngində qırmızı üstünlük təşkil edir. Hiss olunur ki, rəssamın bu torpağa səfəri zamanı dağlardakı isti rənglərin harmonik çaları onu valeh etmişdir. Onun bu əsərində xoş ovqat, rəng əlvanlığı yox, daha çox təzad və sərtlik ön plandadır. O, sanki isti rəng – narıncı,

qırmızının, soyuq rəng – göy, mavinin müxtəlif çalarlarından ibarət səmaya yüksələn dağların və sıldırım qayalıqların təsviri ilə Naxçıvan dağlarına xas ümumi xarakterik formanı vurğulayıb.



Şəkil 4. Səttar Bəhlulzadə. “Naxçıvan motivi”

70-ci illərdə isə rəng zənginliyi ilə seçilən Naxçıvan təbiəti Səttar yaradıcılığında “İlan dağ”, “Naxçıvan mənzərəsi”, “Naxçıvan dağları” (1973), “Naxçıvan. Axşamçağı Ordubad

bağlarında" (1974), "Naxçıvan" (1974) adlı əsərlərində öz əksini tapmışdır.

Səttar Bəhlulzadənin 1971-ci ildə işlədiyi "Naxçıvan motivi" əsərində Naxçıvanın simvoluna çevirilmiş İlandağın təsvirini görürük. Burada göy dağların fonunda İlandağın qırmızı rəngi xüsusilə diqqəti cəlb edir. Soyuq və isti rəng kontrastında verilmiş dağ silsilələrinin mərkəzində yerləşən İlan dağ rəng koloritinə görə daha diqqətçəkəndir.

1974-cü ildə kətan üzərində yağlı boyalarla canlandırılmış "Naxçıvan mənzərəsi" adlı təbiət mənzərəsində bu torpağa həsr etdiyi əsərlərdən fərqli bir koloritlə verilmişdir. Qırmızı rəngin az vurğulandığı, sakit rəng tonlarının üstünlük təşkil etdiyi bu əsər insanda xoş ovqat yaradan sənət nümunəsi kimi yaddaqalandı. Bu təsvirdə qırmızı rəngə boyanmış günəşin sudakı əksi, yaşılın müxtəlif çalarında verilmiş ağacların təsvirini görürük. Günəşin şəfəqlərindən süzülən qırmızı, sarı, çəhrayı rənglər dağlarda, ağaclarda, suyun üzərində əks olunaraq əsəri daha da aydınlatmış, ona xoş bir ab-hava qatmışdır. Bu təbiət lövhəsi təbiətin rəng və təsvir üsuluna görə sanki bolluq və bərəkət təsiri bağışlayır. Bu bir tərəfdən meyvələrin ağırlığı ilə ağacların budaqlarının torpağa dəyməyi ilə əlaqədar idisə, digər tərəfdən rəng əlvanlığının zənginliyi ilə seçilən Səttarın bədii üslub xüsusiyyətinin sehridən idi. Belə açıq rəng akkordlarının vurğulandığı bu qədim torpağa həsr olunan digər əsəri rəssamın Naxçıvanda olarkən Əməkdar incəsənət xadımi Sabir Qədimova hədiyyə etdiyi tablosudur.

Rəssamın bütün mənzərələrində onun doğma torpağı nə dərəcədə sevdiyini, ona necə dərin bağlarla bağlı olduğunu hiss etmək mümkündür. Ulu öndər Heydər Əliyev Səttar Bəhlulzadə

yaradıcılığını yüksək qiymətləndirərək belə demişdir: “Səttar Bəhlulzadə Azərbaycan deməkdir. Onun əsərləri Azərbaycanı təsvir edir, göstərir, əks etdirir. Bu rəssamın öz torpağına, öz Vətəninə və xalqına nə qədər bağlı olduğunu göstərir” [5, s. 42].



Şəkil 5. Səttar Bəhlulzadə. “Naxçıvan”

Səttar Bəhlulzadə yaradıcılığında Naxçıvan mövzusunda yaradılmış rəngkarlıq nümunələrində rəngarəng, çox da qalın olmayan incə formada impasto yaxmalarının Şərq dünyasına məxsus lirizmi səciyyəvilik daşıyır. Onun bu mövzuda yaratdığı əsərlər Naxçıvan torpağının gözəlliklərini, təbiət zənginliyini, hətta coğrafiyasını özündə əks etdirir. Naxçıvan dağlarının uzaq məsafələrə perspektivlənmiş görünüşü, ardıcıl məğrur duruşu ilə bir növ mənfur qonşularla həmsərhəd ərazidə yerləşdiyini əks etdirir. İlin bütün fəsillərində başıqarlı olan, düşmənə sipər

dayanmış bu dağların əzəmətli görünüşü sanki müdafiə ehtikamları təəssüratı yaradır. Səttar Bəhlulzadə yaradıcılığında yer alan Naxçıvan rənglərinin zənginliyi, əlvanlığı, coşğusu məhz elə təbiət sevdalısı olan rəssamın yaradıcılığında özünü tamlığı ilə əks etdirə bilərdi. Onun özünəməxsus yaradıcılıq üslubu, rəng, kolorit, ritm kimi ifadə meyarları buna imkan verərdi. Bu Səttar Bəhlulzadə yaradıcılığında Naxçıvan rənglərinə realist yanaşma idi. Rəssam öz gördüyü rəngləri, duyduğu harmoniyanı öz "palitrasının" üslub ahəngində yaratmışdı. Rəssam təxəyyülündən palitraya axan rəng bolluğu məhz Naxçıvan təbiətindən alınmış real təəssüratın, sevginin, heyrətin təcəssümü idi. Naxçıvan təbiətinə məxsus rəngləri əlvanlığını, soyuq-isti rəng təzadlarını, əsərlərində real şəkildə ritmik ifadəsinə nail olan, onu əbədiləşdirən, onu özünəməxsus tərzdə "informasiyalaşdıran" rəssam "...Səttar Bəhlulzadənin əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində və Azərbaycan Dövlət Şəkil Qalereyasında, eləcə də Moskva və s. şəhərlərin muzeylərində və çox böyük hissəsi şəxsi kolleksiyalarda saxlanılır" [5,s.32]. Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadə yaradıcılığının səsi təkcə Azərbaycanla məhdudlaşmır, o, ölkədən kənarda da tanınır və sevilir. "S.Bəhlulzadənin YUNESKO kimi nüfuzlu beynəlxalq təşkilat tərəfindən 100 illik yubileyinin keçirilməsi də Azərbaycan mədəniyyətinə verilən yüksək qiymətdir. Rəngkar və qrafik Səttar Bəhlulzadə Azərbaycan təsviri incəsənətində lirik mənzərə janrının banisidir" [10].

Naxçıvan mövzusu Xalq rəssamı İsmayıl Axundovun (1907-1969) yaradıcılığında da öz əksini tapmışdır. Onun 1950-ci ildə yaratdığı "Atabəyin məqbərəsi" adlı əsəri onun yaradıcılığında

qrafika sahəsində yaratdığı ən gözəl əsərlər sırasındadır. Bu rəssamın kağız üzərində sulu boyalarla yaratdığı Yüsif Küseyr oğlu türbəsinin təsviridir.



Şəkil 6. İsmayıl Axundovun “Atabəyin məqbərəsi”

Əsərdə türbənin örtük hissəsində leylək yuvası təsvir olunmuşdur. Bunu Bəhruz Kəngərlinin çəkdiyi “Atababa günbəzi” adlı əsərində də görürük. İsmayıl Axundovun çəkdiyi bu əsərdə işıq-kölgə nüanslarına daha çox diqqət yetirmişdir. Əsərin çəkilmə

vaxtı günün ikinci yarısına təsadüf etdiyi aydın hiss olunur. Bunu soyuq rəngli uzanmış kölgələrdən, türbənin üzərindəki sarımtıl-qırmızı rənglərdən bilmək mümkündür.



Şəkil 7.Hüseyn Əliyev. "Naxçıvan dağları"

Bir-birindən gözəl sulu boya mənzərələri ilə təsviri incəsənətimizə yeni nəfəs gətirmiş Əliyev Hüseyn Əlirza oğlunun (1911-1991) yaradıcılığında Naxçıvan teması aktual olmuşdur. O, 1911-ci il aprelin 22-də anadan olmuşdur. Hələ 12 yaşında ilk təbiət mənzərəsini çəkən rəssam 1927-1932-ci illərdə Bakıda Rəssamlıq Texnikumunda, daha sonra (1932-1935) Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu təhsil almışdır.

Hüseyn Əliyevin qrafika yaradıcılığında karikaturalar da yer alır. O, çəkdiyi karikaturaları 1922-1931-ci illərdə əməkdaşlıq etdiyi "Molla Nəsrəddin" jurnalında çap etdirmişdir. Rəssamın yaradıcılığının böyük bir hissəsini mənzərə janrı tutmuşdur. Onun özünəməxsus akvarel texnikası ilə işlədiyi mənzərələri xüsusilə seçilir. Monotipya texnikası ilə müxtəlif rənglərin harmoniyası, forma ahəngi ilə birlikdə səsləşən əsərləri xüsusilə yaddaqalandır. Lakin onun realist üslubda çəkdiyi mənzərə əsərləri, tematik kompozisiyaları da çoxluq təşkil edir.



Şəkil 8. Hüseyn Əliyev. 1. "Naxçıvanda qış"

Hüseyn Əliyev yaradıcılığında doğulduğu Zəngəzur torpağının, ömrünün müəyyən hissəsini keçirdiyi Naxçıvan torpağını, ümumiyyətlə, Azərbaycanın digər yerlərini öz əsərlərində əks etdirməsi onun torpağa, Vətənə bağlılığını özündə əks etdirir. Rəssamın “Əbrəqunus kəndi”, “Payız”, “İlanlı dağ”, “Naxçıvan dağları”, “Naxçıvanda qış” və s. kimi əsərləri Naxçıvan təbiətini özündə əks etdirən realist əsərlərindəndir. Torpaq, yurd sevgisi əsərlərində aydın əks olunan rəssam 1977-ci ildə Naxçıvan təbiətinin də yer aldığı “Sülhsevər torpaq” adlı triptix əsərini yaratmışdır. “Nəğməli torpaq”, “Zəhmli torpaq”, “Sülhsevər torpaq” adlı hissələrdən ibarət triptixin bir hissəsini iri planda verilmiş çoban və keçi təsviri təşkil edir.



Şəkil 9. Hüseyn Əliyev.
Triptix- 1.“Sülhsevər torpaq”; 2.“Zəhmli torpaq”; 3.“Nəğməli torpaq

“Rəssam bu hissəni “Sülhsevər torpaq” adlandırmaqla insan və heyvanlar aləminin sülh və dostluq şəraitində keçindiyini vurğulamağa çalışmışdır. Buna zidd olaraq rəssam həyatın, təbiətin amansız üzünün də olduğunu “Zəhmli torpaq” adlı birinci hissədə göstərmişdir” [77, s.31]. Bəhs olunan hissədə ilanla mübarizə aparan qoca təsvir olunmuşdur. Əsərdə rəng koloriti, dinamiklik,

bitkin kompozisiya diqqəti cəlb edir. “Triptixin süjeti insanlarla təbiətin başqa canlı üzvləri olan heyvanların münasibətinə həsr olunub. Əsərin ideyasına görə insan və heyvanlar nə qədər sülh şəraitində yaşasalar da, bəzən sağ qalmaq uğrunda mübarizədə öldürmək zərurəti də qaçılmazdır” [77, s.31]. Əsərdə uzaq planda təsvir olunmuş İlanlıdağ məkanın Naxçıvan olduğunu göstərir (şəkil 9). Mərkəzdə İlandağ, ondan aşağıda təsvir olunmuş ot tayaları, ön planda qoca təsviri və bütün fiqurlarda istifadə olunan rəng tonları kompozisiya ağırlığını tarazlayır. “Triptixin son üçüncü hissəsində yenə də sakit və gündəlik həyat tərzi hökm sürür. “Nəğməli torpaq” adlanan bu hissədə mal-qaranı otlağa aparmış gənc çoban təsvir edilmişdir. Heyvanlar çoban tütəyinin sədaları altında bir yerə toplanmışlar. Uzaqdan bir-birinin ardında yerləşən dağlar, təpələr vasitəsilə əsərin kompozisiyasını müstəvi üzərində qurmağa nail olan Hüseyn Əliyev bir-birinə uyumlu yumşaq rəng çalarlarından istifadə etməklə tamaşaçının əhval-ruhiyyəsinə sakitlik gətirən bu əsərin xoş təsir gücünü daha da artırmışdır” [77, s.31].

Əslində əsər böyük bir fəlsəfi düşüncəni özündə əks etdirir. Bu əsərdə Naxçıvanın təbiətinin timsalında Azərbaycanın necə “Sülhsevər torpaq” olduğunu, eləcə də köçürmə siyasəti ilə torpaqlarımızda məskunlaşmış eyni təbiəti paylaşdığı, ilana bənzəyən düşmənləri yeri gəldikdə məhv etməyi bacaran “Zəhmli tarpağa” dönüşən, mübariz ruhlu “Nəğməli torpağa” malik olduğunu çatdırmaq istəmişdi.

“Hüseyn Əliyev öz sələfi Bəhruz bəy Kəngərli kimi İlanlı dağın orjinal, təkrarsız gözəlliyinin vurğunu olmuş və tez-tez onu təsvir etmişdir. Hər bir təsvir İlanlı dağı tamaşaçı qarşısında gah

əzəmətli dərəcədə sərt, gah da şairanə lirik obrazda canlandırır" [78, s.63].

Azərbaycan, onun ayrılmaz hissəsi olan qədim Nuh yurdu Naxçıvan gözəlliklər diyarıdır. Hər bir dövrdə Naxçıvan torpağının qədim tarixi ilə yanaşı, onun ecazkar gözəlliyini, rəngarəngliyini yaradıcılıq mövzusuna çevrilən Azərbaycanın digər bölgələrində yaşayan sənət ustalarından biri də Maral Rəhmanzadədir (1916-2008). Rəssam hər zaman bu torpağın rəngarəngliyi, ecazkar təbiətinin yaratdığı emosional təsiri ilə ilhamlanıb öz yaradıcılığında bu gözəlliyi əks etdirməyə çalışmışdır. Azərbaycanın görkəmli rəssamlarından olan, yaradıcılığında neft, sənaye və mənzərə janrına geniş yer verən rəssam kimi tanınan Maral Rəhmanzadə eləcə də "...Vətənimizin ayrı-ayrı guşələrinin, o cümlədən Naxçıvan və Lənkəran, Şamaxı və Qubanın qədim tarix və təbiət abidələrini, əsrarəngiz mənzərələrini əks etdirən milli koloritli əsərləri qrafik elementlərin lakonikliyi və səmimiyyəti ilə seçilir" [83].

Azərbaycan təsviri incəsənətində öz professonal yaradıcılıq izi qoymuş Maral Rəhmanzadə yaradıcılığında Naxçıvan mövzusuna geniş yer vermişdir. Bu mövzunu o, həm mənzərə janrı, həm çoxfiqurlu kompozisiyalar, həm də portret janrı vasitəsilə əks etdirmişdir. Xalq rəssamı, Dövlət mükafatı laureatı, "Şöhrət" ordeni ilə təltif olunmuş Maral Rəhmanzadə qadın qəlbinin incə duyğularının rəngli ifadəsini ilə yaratdığı "Naxçıvan" mövzusunda silsilə əsərlərindən onun bu torpağa necə bağlı olduğunu görmək mümkündür. O, tez-tez Naxçıvana səfərlər edir, orada Naxçıvanın qədim abidələrinin, Araz çayının, ucqar kəndlərdəki gözəl

mənzərələrin sehrilə bir-birindən maraqlı, bitkin kompozisiyalı tablolar yaradırdı.





Şəkil 10. Maral Rəhmanzadə 1.“Naxçıvan dağları”
2.“Cuğa körpüsü. Gülüstan”

Bu gözəllikləri Naxçıvanda yaşayan sənət dostları ilə birlikdə təsvir edirdi. O, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Sabir Qədimovla, onun bacısı ilə Naxçıvanı qarış-qarış gəzmiş, birlikdə etüdlərdə olmuşdular. “Sabir Qədimovun bacısı Ləzifə xanım qardaşı haqqında müsahibəsində deyir ki, onun sənət dostları Maral Rəhmanzadə, Səttar Bəhlulzadə kimi böyük fırça ustaları idi: “Onlar nə zaman Naxçıvana gəlsə idilər, bizim evdə qonaq olardılar. Birlikdə Naxçıvanın hər yerinə etüdə çıxar, ölməz əsərlər yaradar və bir-birilərinə sənət əsərlərini hədiyyə edərdilər” [98]. O, “Naxçıvan” silsiləsinə aid olan əsərlərini rəngkarlıq və qrafika janrında işləmişdir. Lakin Naxçıvan mənzərələri bu silsilədə əksəriyyət təşkil edirdi. Rəssam bu mənzərələrində əsasən Naxçıvan dağlarının təsvirinə geniş yer vermişdir.

Bunların içərisində rəngkarlıq və qrafika janrında “Naxçıvan. Cihan qalası” (1971), “Vətənim. Naxçıvan” (1967), “Naxçıvan dağları” (1963), “Əshabi-Kəhf ziyarətgahı” (1962, 1963), “Təbiətin əfsanəsi” (1963), “Dağlar” (1973), “Naxçıvan, duzlu dağlar” (1979). “Günorta. Naxçıvan” (1971), “Ordubad. Göy göl”, “İlan dağ” (1971), “Cuğa körpüsü. Gülüstan” (1972), “Culfa” (1970), “Dağlar” (1973), “Sevimli Araz” (1971), “Böyük Araz”, “Körpü.Culfa”, “Atlı” əsərləri Naxçıvan təbiətinin rəngarəngliyi, gözəlliyi, çayların, dağların möhtəşəm görüntüsünu özündə əks etdirir, hər bir tamaşaçıda gözəl duyğular yaradır, bu kimi təbiət mənzərələrindən estetik həzz alır, gözəllik duyumu, onu hiss etmək, qiymətləndirmək kimi nəcib, ülvi hisslər baş qaldırır. Onun rəngkalıq əsərləri içərisində geniş yer tutan mənzərələrində Naxçıvan gözəlliklərini, daha çox isti rəng tonlarının üstünlüyünü, başqa bölgələrdən fərqlənən rəngarəngliyini əks etdirmişdir. Rəngkarlıq nümunələrindən “İlan dağ”, “Naxçıvan dağları”, “Culfa, Gülüstan qayaları”, “Cuğa körpüsü. Gülüstan”, “Günorta. Naxçıvan”, “Sevimli Araz” adlı əsərlərində istifadə olunmuş rənglər digər əsərlərindən seçilir. Belə ki, bu əsərlərdə əlvan rəng koloriti ilə yanaşı daha çox sarı, narıncı, qırmızı və qəhvəyi rənglərin müxtəllif tonlarının üstünlük təşkil edir. Bu da öz növbəsində əsərlərə isti bir nəfəs bəxş edir. Onun Naxçıvana həsr etdiyi mənzərələrində Araz çayına həsr etdiyi mövzular üstünlük təşkil edir. Onun “Cuğa körpüsü. Gülüstan”, “Sevimli Araz”, “Böyük Araz”, “Körpü. Culfa” və başqa rəngkarlıq nümunələri bu səpkidədir.

“M.Rəhmanzadə “Bizim sərhəddə” (1973) seriyası ilə nisgilli Araz çayının sahilindən qərib-qərib baxan dağların, bir

milləti ikiyə bölən Xan Arazın “qan” axan sularının bədii ifadə gücü ilə öz yurddaşlarının ağrılarına şərikliyini bölüşüb” [54].

Qırmızı rəngin üstünlük təşkil etdiyi bu əsərləri Gülüstan qayalıqlarının əsrarəngiz görünüşü, düşmənə sinə gərmiş mübariz xarakteri, müdafiyə istehkamlarına bənzər düzülüşü sərhəd bölgəsinin qorunması təəssüratını yaradır. Ön planda göstərilmiş qırmızı, sarımtıl, qızılı rəngli sahədə tarixin ağır mübarizəsindən çıxmış sakit axıb gedən Araz çayı təsvir olunub. Tək bir təbiət lövhəsini əks etdirən mənzərədə təsvir olunan hər bir detal realist vurğularla sanki əsərin ideya ruhunu hiss etdirir.




Şəkil 11. Maral Rəhmanzadə 1.“Ordubad. Nüsnüs kəndi” 2. “İlan dağ”

Qadın rəssamın bu mövzuya təkrar-təkrar müraciət etməsi təkcə təbiətin gözəllik estetikası deyil, həm də o taylı-bu taylı Azərbaycanın çeşməkeşli tarixinin şahidi olan bu torpaqla mənəvi yaxınlıq, ünsiyyət, dərdləşmək ehtiyacı idi. Bu silsilə əsərlər

içərisində Naxçıvanın İlanlı dağ mənzərələri, Araz çayının, Gülüstan qayalarının, Culfa rayonunun müxtəlif görnüşləri, Ordubadın qədim məhəllələri, Naxçıvan bağlarının təsviri kompozisiya bitkinliyi baxımında xüsusilə maraqlıdır.

Naxçıvan mənzərələri silsiləsindən qrafika janrında işlədiyi "Əshabi-Kəhf ziyarətgahı" əsərində ziyarətgahın o zamankı görünüşü təsvir olunmuşdur. 1963-cü ildə işlədiyi bu əsər müasir tamaşaçı üçün böyük maraq doğurur. Ziyarətgahın əzəmətli görünüşü ilə yanaşı, həmin illərdə fərqli mənzərəsi, insanların geyim tərzi, nəqliyyat vasitələri əsəri baxımlı edib. Onun yaratdığı bu kimi təbiət lövhələri təkcə Naxçıvan təbiətinin gözəl rəng çalarlarının, iqlim təbəddülatı, dağ və çayların gözəlliyinin ifadəsi deyil, həm də bu lövhələrdə "nəqş etdiyi" tarixin ifadəsidir. Onun "Əshabi-Kəhf ziyarətgahı", "Qonşu Arifin həyəti", "Yolda", "Ordubad. Nüsnüs kəndi", "Culfa, Gülüstan qayaları" və başqa mənzərələri bu səpkidəndir. Bu mənzərələrdə çəkilmiş təbiət motivləri təbiət fonunda təsvir edilmiş insan fiqurları özündə həmin illərin izlərini əks etdirir.

O zamanın etnoqrafiyasını, məişətini, adət-ənənələrini tamaşaçılara çatdırır. Təsvir olunmuş bütün bunlar Naxçıvanın bu günkü müasir, abad görünüşü ilə müqayisədə təzad təşkil edir.

Ümumiyyətlə, Maral Rəhmanzadə yaratdığı tablolarında rənglərin harmoniyasında, cizgilərin yaratdığı lirizmi qadın rəssamın duyğularının zərifliyi hiss olunsa da, onun yaratdığı Naxçıvan dağlarının, qayalarının təsvirində bu dəsti-xətt bir az sərtləşir. Onun yaratdığı belə tablolarda Naxçıvan dağlarının təsvirini daha da əzmkarlıq, əyilməzlik, sərtlik kimi ifadə olunduğunu görürük. Belə bir xarakterizə M.Rəhmanzadə



firçasının Naxçıvan dağ və qaya təsvirinin rənglərlə, cizgilərlə nəqş etdiyi poetik möhrüdür. Belə bir təbiət təsvirli əsərlərilə "ünsiyyət" torpağın gözəlliklərindən duyulan saf duyğular, Vətənə, torpağa bağlılıq, sevgi hissi yaradır.



Şəkil12. Maral Rəhmanzadə.1."Yol"
2. "Əshabi-Kəhf ziyarətgahı"

Rəssamın yaratdığı əsərlər tamaşaçının hisslərini oxşayan, lirik duyğular, vətənpərvərlik, hümanist hisslər oyadır. O, təbiət gözəlliklərini rənglərin vasitəsilə verərkən təbiətdən aldığı enerjiyə, şəxsi hiss və həyəcana əsaslanır. Əsərlərdə əks olunan

təbiət gözəlliyi hər bir tamaşaçının bədii hissiyatını tərbiyə edən, bu hissiyatı saflaşdırıb kamilləşdirən və inkişaf etdirən başlıca mənbəyə çevrilir.

Naxçıvan təbiətini əks etdirən mənzərə "...əsərləri təkcə təbiətə – vüqarlı dağlara, başı göylərə ucalan sıldırım qayalara həsr edilməyib, bu əsərlər içərisində sujet xəttində insan, qadın obrazları canlanan "Qonşu Arifin həyəti" (1963), "Bulaqdan qayıdanda" (1964), "Bacılar" (1973) kimi kağız üzərində qrafit və linoqravür üsulu ilə işlənmiş dəyərli işlər də mövcuddur [55,s.39].



Şəkil 13. Maral Rəhmanzadə."Ordubad.Göy göl"

Yaratdığı bu kimi portretlər sadə, xoş simalı, əməksevər qadın obrazını xarakterizə edən cizgilərin, rənglərin təcəssümü ilə

verilmişdir. “Azərbaycan qadınına xas olan ülvi bir gözəlliyin, zərifliyin və zəngin mənəvi aləmin rənglərin əlvan dili ilə parlaq ifadəsi Maral xanımın yaradıcılığında başlıca xüsusiyyətlərdən biri kimi diqqət mərkəzində dayanır. Çünki o, özü də məhz belə bir Azərbaycan qadını kimi simvol olmuşdur” [99].

“Rəssamın 1967-ci ildə yaratdığı “Naxçıvan gözəlləri” əsəri olduqca diqqətçəkəndir. Kompozisiyanı üç xanım fiquru təşkil edir. Onların biri kəlağayıda, digər ikisi isə zəngin ornamentli çadrada təsvir edilib. Rəssam surətlərin fərdi xarakterik xüsusiyyətlərini qələmə almasa da, onların siluetlərindən, əllərinin və üz cizgilərinin jestlərindən onlara məxsus fərdi xüsusiyyətlər “oxunur”. Ümumiyyətlə, qeyd etmək olar ki, rəssam obrazlar qalereyası yaratmaqda daha çox qadınlara müraciət edirdi. Bunu bir tərəfdən rəssamın qadınların gərgin zəhmətinə olan simpatiyasından, digər tərəfdən isə qadının cəmiyyətdə tutduğu fəal mövqeyindən irəli gəldiyi ilə izah etmək olar” [54].

Onun 1978-ci ildə yaratdığı “Ana Naxçıvan” portreti psixoloji xarakter və rənglərin harmoniyası baxımından maraqlıdır. Kağız üzərində sulu boyalarla çəkilən portret zəhmətkeş qadın obrazını əks etdirir. Maral Rəhmanzadə üslubunda olan qadın fiqurlarına məxsus ucaboylu, məğrur qadın obrazlı bu portretdə də zərifliklə yanaşı güclü qadın xarakterini görmək mümkündür. Buta naxışlı örtük, ağ yaşmaqlı naxçıvanlı ana obrazında illərin “naxış” saldığı buğdabəniz siması, çökəyə düşmüş gözlərində həsrət rəngi əsərə məna qatmışdır.

Onun naxçıvanlı əməksevər qadınları təsvir edən tablolarından “Günəşin şirəsi” adlı rəngli linoqravürü komozisiya baxı-mından yaddaqalan əsərlərindəndir. Bu dəyərli qrafika

nümunəsinin fonunda İlandağın təsviri, ikinci və üçüncü planda üzümyığan qızlar təsvir olunmuşdur. Əsərin koloritində detallardakı rəng seçmindəki uyğunluq, qızların geyimindəki ornamentlər, hərəkət dinamikası, kompozisiya tamlığı ilə estetik gözəllik bəxş edir. Burada səmadakı "günəş istiliyi" torpaqda və uzum tənəklərində öz əksini tapmışdır. Üzümlərdə və geyimlərdəki qırmızı rəng əsərə başqa estetik görünüş, gözəl bir kompozisiya tarazlığı qatmışdır.

Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında rəngkarlıq və qrafika janrında geniş yer tutan Naxçıvan mövzulu silsilə əsərləri – Naxçıvan mənzərələri, Naxçıvan etüdləri və naxçıvanlıların portretləri Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvanın təbiət gözəllikləri, iqlimi, qədim tarixi və mədəniyyəti, məişəti, etnoqrafiyası haqqında ifadə zənginliyi ilə bitkinləşmiş bədii tutumulu estetik, emosional hisslər aşılamaqla bərabər, həm də bütün bu səpkilərdə informativ xarakter daşıyır.

Azərbaycan təsviri sənətinin inkişafında böyük xidmətləri olan Mikayıl Abdullayevin (1921-2002) yaradıcılığında Naxçıvan "izlərinə" rast gəlinir. Onun yaradıcılığında tanınmış şəxsiyyət-lərin portret silsiləsində Əcəmi Əbubəkir oğlu Naxçıvaninin portreti də yer alır. Rəssam Əcəmi Naxçıvanini düşüncəli bir tərzdə, sol əli ilə Yusif Küseyir oğlu türbəsinin maketini tutmuş və bu türbənin lahiyəsi üzərində işlədiyi vəziyyətdə təsvir edib. Kətan üzərində yağlı boya ilə işlənmiş əsər Naxçıvana həsr olunmuş maraqlı nümunələrdəndir. Azərbaycan memarlığının parlayan günəşi adlandırılan Əcəmi obrazına, onun fəaliyyətinə olan dərin məhəbbətin ifadəsi olan bu əsər hazırda Naxçıvan Dövlət Rəsm Qalereyasında nümayiş olunur və çox diqqətçəkən eksponatlar

sırasındadır. Yaratdığı obrazın xarakterini, xarici görnüşdəki cizgilərlə daxili aləmini yüksək peşəkarlıqla təcəssüm etdirməsi, obrazın daxilinə nüfuz etməsini göstərən nüanslardandır.



Şəkil 14.Mikayıl Abdullayev. "Əcəmi Naxçıvani"

Naxçıvan təbiətinin, tarixinin, etnoqrafiyasının əks olunduğu əsərlər sırasında Xalq rəssamı Toğrul Nərimanbəyovun (1930-2013) da əsərləri yer tutur. Bu kompozisiyalardakı təbiət motivləri məkanın təsvirinin daha aydın hiss olunması baxımından daha aydın şəkildə təssəvvür yaratmış olur. T.Nərimanbə-yovun mənzərə rəsmləri demək olar ki, təsvir olunan məkanın bir elementi yaxud bir hissəsi kimi onun kompozisiyalarında yer tutur. "Onun təsvir etdiyi ağaclar sanki atlantlar kimi canlanır, təxəyyülün gücü ilə dağlar mifik varlıqlar kimi plastik canlı formaya transformasiya olunur, gövdə və budaqlar, ev və küçələr, dalğa və çaylar öz həyatını yaşayır, hərəkət edir, dəyişir, mövcud olur" [84, s.38]. Naxçıvan mövzusuna rəssamın kompozisiya və mənzərə janrında işlədiyi üç əsərində yer vermişdir. Bu mövzulara onun "Əlincə qalasının müdafiyəsi", "Naxçıvan bazarı", "Naxçıvan orta

əsrlərdə" adlı tabloları aiddir. Bu əsərlər Naxçıvanın təbiəti, tarixi, adət-ənənəsi, naxçıvanlıların məişət həyatı haqqında geniş təsəvvür yaradır.



Şəkil 15.Toğrul Nərimanbəyov "Naxçıvan orta əsrlərdə"



Şəkil 16. Toğrul Nərimanbəyov "Əlincə qalasının müdafiəsi"

Yuxarıda adları sadalanan bu möhtəşəm tablolar "...1983-cü ildə Naxçıvan Dövlət Tarix Muzeyinin əsas fondunda qeydiyyata alınıb" [75].

Rəssamın "Naxçıvan orta əsrlərdə" əsəri doğma diyarın qədim tarixini ortaya qoyulub. İlanlı dağın əzəmətli görünüşü fonunda qızılı rəngli torpaqda asta yerişli dəvə karvanının təsviri, qədim şəhər qalası ilə yanaşı İmamzadə kompleksinin görünüşü əsəri daha maraqlı etmişdir. Əsərin Toğrul fırçasına məxsus zəngin koloriti insanı fantastik aləmə aparır. Əsər sanki iki rəngə soyuq və isti tonların vəhdətindən ibarətdir – mavi rəngin çalarlarından ibarət silsilə dağlar və isti rəng qammaları ilə işlənmiş qədim şəhər mənzərəsi. Ön planda isə orta əsr geyimini özündə əks etdirən iki gənc təsvir olunmuşdur. Bu əsər də Naxçıvanın tarixi və etnoqrafiyasının bədii ifadəsi kimi dəyərlidir.

Toğrul Nərimanbəyovun "Əlincə qalasının müdafiyəsi" adlı əsərində xalqımızın 14 il Əmir Teymurun qoşunlarının hücumlarından mərdliklə müdafiyə olunmaları təsvir olunub. Mavi çalarların üstünlük təşkil etdiyi bu tabloda qalanın əzəmətli təsviri ilk öncə diqqəti cəlb edir. Qalanın ön tərəfində təsvir olunan döyüş səhnəsində dinamika özünü qabarıq şəkildə göstərir.

Öz üslubuna hər zaman sadiq qalan rəssamın bu əsərin də də zəngin rəng çalarlarının hormoniyası, qalın rəng yaxmalarının yaratdığı zövqoxşayan texnikası insanı nağıllar aləminə aparır. Bu əsər Azərbaycan xalqının qəhrəmanlıqla dolu şanlı tarixinin bədii ifadəsidir.



Şəkil 17. Toğrul Nərimanbəyov "Naxçıvan bazarı"

Rəssamın "Naxçıvan bazarı" əsəri kompozisiya bitkinliyi, zəngin koloriti ilə diqqəti cəlb edir. Naxçıvanın təbiətinə uyğun

olaraq isti rənglərin müxtəlif çalarlarına üstünlük verən rəssam bu kompozisiyasında təbiətin təsviri ilə yanaşı, xalqımızın məişətinə, etnoqrafiyasına da geniş yer vermişdir.

Ön planda Naxçıvanda toxunan xalçalarımızın təsviri, misgərlik, dulusçuluq məmulatlarının, Naxçıvan nemətlərinin satışı təsvir olunub. Əsərdə həmin dövrə uyğun milli geyim xüsusiyyətlərini də görmək olur. Fiqurlardan arxada görünən qədim tikililərin, ağacların təsviri, uzaq yerlərdən şəhərə gəlmək üçün nəqiliyyat vasitəsi kimi istifadə edilən heyvanların təsviri də kompozisiyanı daha maraqlı edib.



Şəkil 18. Davud Kazımov "Naxçıvan XII əsrdə"

Naxçıvan Dövlət Tarix Muzeyində Xalq rəssamı Davud Kazımovun (1926-2015) Naxçıvanın orta əsrlər dövrdəki

görünüşünü əks etdirən əsəri saxlanılır. “Naxçıvan XII əsrdə” adlı bu əsərdə dövrümüzə qədər gəlib çatmayan Əcəmi Naxçıvaninin memarlıq incilərindən olan Came məscidi və Qoşaminarəli baştağ Möminə xatun türbəsinin sağ və sol tərəfində əks olunub. Arxa fonda isə İlandağ və ətrafda isə kiçik ölçülü evlər, ön planda isə dəvələr təsvir olunub. Naxçıvan təbiətinə uyğun rəng koloritində işlənən tabloda qədim yurdun o dövrkü vəziyyətini hiss etmək mümkündür. Lakin İlandağın təsvir olunduğu rakurs, abidələrin, şəhər mənzərəsinin ümumi görünüşü ilə fərqlidir.



Şəkil 19. Tahir Salahov. “Naxçıvan dağları”

Xalq Rəssamı Tahir Salahovun (1928-2021) yaradıcılığında da Naxçıvan təbiəti yer almışdır. Onun 1970-1971-ci illərdə yağlı boya ilə kətan üzərində yaratdığı "Naxçıvan dağları" bu qədim yurdun təbiətinin sərt üslub texnikası ilə yaradılan ən gözəl nümunəsidir. Bu texnika ilə Naxçıvan dağlarının sərtliyi, möhkəmliyi, məğrurluğu daha uyğun şəkildə uzlaşır. Bu üslubla təbiətin bu xarakteri eyni dildə öz ifadəsini tapmışdır. Əsər İlan dağın təsvir olunduğu görünüşünə görə onun Culfa tərəfdən Əlincə dağının arxasından "baxıldığını" müəyyən etmək olur.



Şəkil 20. Elmira Şaxtaxtinskaya.
"Əcəmi Əbubəkr oğlu Naxçıvani"

Azərbaycanın milli incəsənətinin inkişafında böyük xidmətləri olan rəssamlardan biri də Elmira Şaxtaxtinskayadır (1930-1996). Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitunun qrafika şöbəsində təhsil almış rəssamın yaradıcılığında plakat, kitab illistrasiyası və s. sahəsində çoxlu əsərlər yaratsa da onun yaradıcılığında mənzərə janrının gözəl nümunələrə rast gəlinir.

Təbiət vurğunu olan E.Şaxtaxtinskaya "Əncir ağacı", "Qoca tut", "İlan dağ", "Sınıqqala", "Azıx mağarası" adlı əsərləri ilə Vətənimizin qədim tarixini, təbiət gözəlliklərini özünəməxsus tərzdə əks etdirmişdir. Rəssamın "Azərbaycan qədim mədəniyyət ölkəsidir" əsərinin birinci hissəsində Qobustan qayaları arasında qədim abidələrimizin fraqmentlərini göstərmişdir.

Belə fərqli ifadə vasitəsi ilə rəssam müxtəlif dövrlərdə Azərbaycan mədəniyyətini maraqlı bir formada əks etdirmişdir. Rəssamın yaradıcılığındakı portret obrazlar silsiləsinin ən gözəl nümunələrindən sayılan Əcəmi Əbubəkr oğlu Naxçıvaninin kompozisiyalı qrafik portreti Naxçıvan mövzulu əsərlərin ən dəyərli nümunələrindən sayıla bilər.

E.Şaxtaxtinskaya bu əsəri ilə həm də Azərbaycanın qədim tarixini, mədəniyyətini əsrarəngiz boyalarla gözlər önünə sərir. Çünki əsərdə təkcə obraza deyil, həm də memarın yaradıcılığına da işıq tutulmuş, plakat janrının ifadə üslubları ilə qadın zərifliyi ilə Əcəmi Naxçıvaninin yaratdığı abidələrinin təsvirləri incə nüanslarla təsvir olunmuşdur. Obraz tünd göy rəng üzərində ağ rəngə yaxaın açıq mavili cizgilərlə çəkilmiş Naxçıvan Cümə məscidi, Yüsif Küseyir oğlu türbəsi, qoşaminarəli baştağ ilə təsvir olunmuş Möminə xatun məqbərəsi fonunda, əlində memarlıq eskizi tutmuş formada təsvir olunmuşdur. Əcəmi xarakteri isə daha çox müasirlərinin təsvirindən və minatür rəsmlərdə milli obraz xüsusiyyətləri əsasında yaradılmışdır. Əsər Əcəmi Naxçıvaninin 850 illik yubileyinə həsr olunmuşdur. Elmira Şaxtaxtinskaya yaradıcılığının incilərindən olan bu əsər hazırda Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.



Şəkil 21. Ağəli İbrahimov "Haça dağ"

Yaradıcılığında Naxçıvana aid rəsmlərin yer tutduğu naxçıvanlı rəssamlardan biri də qrafika ustası Cəmil Müfidzadədir (1934-2019). O, realist üslubda bir-birindən gözəl əsərlər yaratmışdır. 1955-ci ildə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbini, 1952-ci ildə Xarkov Dövlət Rəssamlıq Akademiyasını bitirmişdir. Azərbaycanın böyük ustadlarından olan C.Müfidzadənin Bakıda, Moskvada, Fransada Polşada, İstanbulda fərdi sərgiləri təşkil olunub, qrafika sahəsində yaratdığı əsərlər muzey və şəxsi kolleksiyalarda saxlanılır.

Naxçıvan mənzərəsi Xalq rəssamı, professor Ağəli İbrahimovun da yaradıcılığında yer almışdır. Onu 2012-ci ildə "Nax-çıvan Bəşəriyyətin Beşiyi" adlı Beynəlxalq Rəsm festivalı zamanı çəkdiyi "Haça dağ" əsəridir. Onun bu əsərində İlan dağ

digər təsvirlərdən fərqli olaraq sərt boya izləri ilə deyil yüngül rəng keçidləri ilə fərqlənir. Lakin buna baxmayaraq əsərdə Haça dağın əzəməti, möhtəşəmliyi hiss olunur.



Şəkil 22. Nailə Əhmədova. "Əshabi-Kəhf ziyarətgahı"

Geniş boş sahədə, açıq rəng koloriti ilə çəkilmiş bu mənzərədə dağın zirvəsinin qırmızı çalarlı rəngi, sinəsində düşən bulud kölgəsinin və dağın ətəyindəki gölün tünd rəngi əsərin yüngül tonuna başqa bir çalar qatır.

Tanınmış rəngkar Nailə Əhmədovanın Naxçıvana həsr etdiyi iki əsəri “Mömünə Xatun”, “Əshabi-Kəhf ziyarətgahı”, “İlan dağ” adlı əsəri digər rəssamların əsərləri kimi fərqli kompozisiya və rəng həllinə malikdir. Nailə Əhmədovanın kətan üzərində yağlı boya ilə 60 x 80 sm ölçülü “Əshabi-Kəhf ziyarətgahı” (şəkil 22) adlı rəngkarlıq nümunəsini 2022-ci ildə yaratmışdır. Bu mövzu hər bir rəssamın yaradıcılığında müxtəlif texnika və müxtəlif koloritdə yaradılmışdır. Kolorit xüsusiyyətlərinə görə yaddaqalan əsərlərdən olan bu tabloda tamaşaçı sanki baharın təzəliyini hiss edir.



Şəkil 23. Nadejda İbrahimova “Naxçıvan dağları”

Çəhrayı rəngin üstünlük təşkil etməsi əsərə xoş ovqat bəxş edib. Qayaların möhkəm daşlarının forma xarakterinin realist üslubla təsviri bu məkanın real mühitini tamaşaçıya aydın surətdə böyük ustalıqla çatdırır.

Yaradıcılığında Naxçıvan mənzərəsini əks etdirən rəssamlardan biri də Nadejda İbrahimovadır (1951). Onun “Naxçıvan dağları” (2016) adlı əsərində İlan dağı təsvir etmişdir.

Qalın rəng yaxmaları və zəngin koloriti ilə diqqəti cəlb edən bu əsər həm kompozisiya bitkinliyi, həm də məna etibarı ilə maraqlıdır. Naxçıvan təbiətinin rənglərini rəssamın palitrasına bənzədən Nadejda İbrahimova palitranın ortasında parçalanmış nar təsviri vermişdir. N.İbrahimova tarixən müxtəlif hiyləli planlar nəticəsində ikiyə parçalanmış Azərbaycanı bu təsvirlə simvolizə etmişdi.







Şəkil 24. Arif Hüseynov. 1.“Haça dağ” 2. “Nuh torpağı”

Azərbaycan Respublikasının Xalq rəssamı (2006), Azərbaycan Respublikasının əməkdar rəssamı (1992) Arif Hüseynovun yaradıcılığında da Naxçıvanı görmək mümkündür. Onun çəkdiyi B.Kəngərlinin portreti fonunda Naxçıvanın simvolu olan İlan

dağın təsvirini görürük. Milli dəyərlərimizi özünəməxsus tərzdə əks etdirən rəssam bu əsərini qrafika janrında yaratmışdır. Əsər hal-hazırda Naxçıvanda Bəhruz Kəngərlinin ev müzeyində saxlanılır.



Şəkil 25. Arif Əziz. “Naxçıvan mənzərəsi”

Onun Naxçıvanın əzəmətli dağların təsviri olan “Haça dağ” əsəri və Nuh əfsanəsinə aid Nəhəcir dağı, onun ön planda Gəmiqaya təsvirləri olan “Nuh torpağı” adlı qrafiki təsvirləri kompozisiya biçimi ilə yaddaqalandır.

Naxçıvanın simvoluna çevirilmiş Naxçıvan təsvirləri bir neçə tanınmış rəssamların yaradıcılığında yer aldığı kimi Xalq rəssamı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Dünya Rəssamlıq Akademiyasının Bakı nüma-yəndəliyinin rəhbəri Arif Möhübəli oğlu Əzizovun (1943) yaradıcılığında da yer almışdır. Rəssam bu əsəri 1992-ci ildə özünə-məxsus texnikası ilə, müxtəlif formalı cizgilərin harmoniyası ilə yaratmışdır.

Cəlil Hüseynov yaradıcılığında Naxçıvan mövzusu geniş yer almışdır. Fərqli üslub "Rəssamın ona doğma olan Naxçıvan təbiətinə bədii münasibətində ("Nehrəm kəndi", 1979; "Köhnə Naxçıvan", 1978; "Nehrəm motivi", 1978) özünəməxsusluq həm motiv seçimində, həm də onların bədii şərhində hiss olunur. Çox-larından fərqli olaraq görkəmini dəyişməz saxlayan İlandağ əvəzinə, Əcəmi–Bəhruz yurdunun insan əli ilə dəyişən mən-zərəsini təsvir obyekti seçən C.Hüseynov, həmin motivlərdə daha çox inandırıcılığın əldə olunmasına səy göstərmişdir" [17]. Xalq rəssamı Cəlil Hüseynovun mənzərə əsərlərində istifadə etdiyi boyalar təbiətdə mövcud olan zövq oxşayan rənglərin realist, romantik və lirik əhval qatmış, təsvir etdiyi məkanın bədii obrazını yaratmışdır. Cəlil Hüseynovun yaradıcılığında Naxçıvan təbiə-tinə həsr olunmuş "Nehrəm kəndi" (1979), "Köhnə Naxçıvan" (1978), "Nehrəm motivi" (1978) əsərləri özünəməxsusluğu, rəng ahəngi ilə seçilir. Rəssamın "Köhnə Naxçıvan" "Naxçıvan mən-zərəsi" doğma yurda olan bağlantısının, yaşantılarının bədii ifadəsidir.



Şəkil 26. İrina Eldarova. "Nuhun sədası"

İrina Eldarovanın (1955) çəkdiyi əsərləri sırasında "Nuhun sədası", "Naxçıvan dağlarında", "Laləli Naxçıvan" əsərlərində rast gəlinir. Fərqli üslubu ilə seçilən rəssamın "Naxçıvan dağlarında" əsərində qırmızı rəng koloritinin zənginliyi ilə seçilir. Təkcə ağ rəngli fırça izləri bulud və dağın qarlı zirvəsini estetik tərzdə ifadə edib. İstifadə etdiyi qırmızı, narıncı, yaşıl rəng ləkələri ilə doğma torpağın ümumi rəngini əks etdirməklə yanaşı dağ boyu göz işlədikcə torpağa "səpələnmiş" lalələrin təsvirini ifadə etməyə

çalışıb. Rəssamın Naxçıvana gəlişi yaz fəslinə – lalələrin çiçək açdığı zamana təsadüf etmişdir. Onun Naxçıvanda lalələrin gözəlliyinə heyranlığı açıq-aşkar hiss olunur – onları yaxından seyr edir, fotolar çəkir, çoxlu sayda eskizlər edirdi. Sonrakı zamanlarda rəssam bu mövzuda müxtəlif kompozisiyada serya əsərlər yaratmışdır.



Şəkil 27. Əşrəf Heybətov. "Naxçıvan mənzərəsi. İlan dağ"

Azərbaycanın Xalq Rəssamı, Rəssamlar Federasiyasının üzvü, Avropada Azərbaycan Mədəni Xadimləri Assosiasiyasının sədri, Beynəlxalq "Sülh səfiri", Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, "Dünya xalqları incəsənəti", RDA beynəlxalq təşkilatının, YUNESKO-nun Beynəlxalq Rəssamlar Federasiyasının üzvü Əşrəf Heybətov öz yaradıcılığında Naxçıvan

mövzusuna yer vermişdir. Almaniyada yaşayan rəssamın yaratdıcılığında milli temalı əsərlərindən olan "İlan dağ" əsərində kontrast təşkil edən güclü rəng qammalarından istifadə olunmuşdur. Rəssamın 65 illik yubileyi münasibətilə 2015-ci ildə Naxçıvanda fərdi sərgisi keçirilmişdir. Naxçıvan təbiəti və qədimliyi onda böyük təəssürat yaratmış, bu torpağa aid silsilə əsərlər yaradacağını bildirmişdir. Xarici ölkədə yaşamasına baxmayaraq yaradıcılığında vətənpərvərliyə, milli dəyərlərə hər zaman geniş yer vermişdir.



Şəkil 28. Mir Teymur Məmmədov. "Keçmişdən gələn səslər"

Azərbaycan Əməkdar Rəssamı Eldar Qurbanovun (1948. Bakı) yaradıcılığında "İnan ki dağdır" əsəri ideya–məzmun

baxımından əhəmiyyətlidir. “Yeni Era” Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü olan E.Qurbanov Nuhun gəmisini təsvir etdiyi bu əsərdə açıq rəng tonları üstünlük təşkil vermişdir. Aplikasiyadan istifadə olunmuş bu kompozisiyada müxtəlif canlıların toplandığı gəminin İlandağa toxunması, Nuh peyğəmbər və səmada isə mələklər təsvir olunub. Onun “Musiqinin təsiri altında” adlanan digər bir əsərində də müasir Naxçıvanın təsviri öz əksini tapıb. Lakin bu əsərdə də Naxçıvanın qədim tarixindən “söhbət açılıb”.

1947-ci ildə Bakıda anadan olmuş rəssam–keramikaçı Mir Teymur Məmmədovun Naxçıvan haqqında yaratdığı “Keçmişdən gələn səslər” adlı kompozisiyası diqqəti cəlb edən əsərlərdəndir.

Maraqlı forma və bir-biri ilə hormoniya təşkil edən rəng keçidləri olan bu əsərdə Naxçıvanın qədim tarixi əsas tutulub. Qayaüstü təsvirlər, daş qoç abidələri, mifoloji təsvirlərlə zəngin əsər Naxçıvanın qədim tarixinə işıq tutur, tamaşaçıda dərin təssürat yaradır.

Əməkdar rəssam Məlikov Qurban Naxçıvanın əzəmətli dağını olan İlan dağını realist təsvir boyaları ilə əks etdirib. 81x 68 sm ölçüsündə kətan üzərində çəkilən əsərdə soyuq rəng tonları üstünlük təşkil edir.

Əməkdar rəssam Asif Azərelli yaradıcılığında Naxçıvan mövzusuna geniş yer vermişdir. Yağlı boya ilə çəkdiyi bu mövzularda Naxçıvan təbiətinin, tarixinin, mədəniyyətini, flora və faunasını etnoqrafiyasının bədii ifadəsini izləmək olur. “Əməkdar rəssam Asif Azərellinin “Kənd yolu”, “İlan dağ” (2003), “Naxçıvan dağları”, “Naxçıvan baharı”, “Naxçıvan. Əshabi-Kəhf” və digər əsərlərində Naxçıvanın əzəmətli təbiəti canlandırılmışdır”

[2, s.85]. Bu mənzərədə Batabatın təbiətinə məxsus gözəllik realist boyalarla təsvir olunub. Yay fəslində çəkilmiş təbiət təsvirində o yerlərin havasının sərinliyini duymaq mümkündür.



Şəkil 29. Asif Azərelli. "Batabat"

"Naxçıvan yallısı" – Memar Əcəmi tərəfindən ucaldılan "Möminə Xatun" türbəsinin qarşısında bir qrup gənc milli geyimdə yallı gedirlər. İfaçıların musiqisi təbiətin gözəlliyinə nəğmə kimi həsr edilmişdir. İfaçıların dinamikası, mimika və jestləri əsərdə diqqəti cəlb edir" [2, s.84]. Onun "Vətən" əsəri də bu əsəri kimi etnoqrafik xüsusiyyətlərin əks olunması baxımından əhəmiyyətlidir. Onun mənzərələrində insan və təbiətin qarşılıqlı əlaqədə verilməsi səciyyəvi cəhətlərdəndir.

Tanınmış rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dosenti Azərbaycanın tanınmış rəssam, qrafiki Telman Abbasovun da yaradıcılığında Naxçıvan təbiətinin realist təsvirinə rast gəlinir. Onun böyük ölçülü (120 x 90) yağlı boya ilə çəkdiyi "Dəstə kəndi, Kəmki dağı" adlı mənzərəsi diqqətəlayiq əsərlər-dəndir.



Şəkil 30. Telman Abbasov. "Dəstə kəndi, Kəmki dağı"

Geniş bir ərazini əhatə edən tabloda kompozisiya və perspektiva həlli gözoxşayandır. Nuhun gəmisi əfsanəsində adı çəki-lənən Kəmki (Kəmçi) dağı əzəmətli təsvir olunmuş, dağın sinə-sindəki buludlar dağın möhtəşəm görüntüsünə rəng qatmış olur.

Azərbaycanın tanınmış rəssamı Cəfərov Mənsur Abbasəli oğlunun (1957.Ordubad) yaradıcılığının geniş hissəsini tutan

mənzərə əsərləri iərisində Naxçıvan, Ordubad və s. yerlərin təbiət güşələri digər rəssamlardan seçilən, özünəməxsus tərzdə ifadə olunmuşdur. Bunlardan "Naxçıvan dağları", "Ordubad dağları" əsəri buna nümunədir. Rəssamın 2003-cü ildə kətan üzərində yağlı boya ilə çəkdiyi "Naxçıvan dağları" əsərinin rəng qammaları ilə bahar təravəti əks olunmuşdur. Belə əlvan rəng lirizmi incə nüanslarla "Ordubad dağları" əsərində ifadə tapmışdır. Rəssam əsərlərində ağ rəngin müxtəlif çalarlarından geniş istifadə etmişdir.



Şəkil 31. Mənsur Cəfərov. "Ordubad dağları"

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi, Azərbaycan Rəssamlar İttifaqının üzvü,

tanınmış rəssam Samir Qafarov yaradıcılığında “Nuh diyarı”, “Naxçıvan tarixi” adlı əsərləri ilə Naxçıvan mövzusuna müraciət etmişdir. “Nuh diyarı” (şəkil 32) əsərində mərkəzdə İlan dağ fonunda təsvir olunmuş Nuh peyğəmbər və digər detallar yer üzünün su alması, yenidən bəşəriyyətin bərqərar olması, bu torpağın dünya sivilzasiyasının başladığı mərkəz kimi təsvir etmişdir.



Şəkil 32. Samir Qafarov. “Nuh yurdu”

Azərbaycanın tanınmış keramika ustası və heykəltaraşı Ramiz Abbasovun (1970) yaradıcılığında Naxçıvan mövzusu bir neçə əsərində yer almışdır. Onun 2016-cı ildə yaratdığı “Naxçıvan Bəşəriyyətin beşiyi” əsəri Naxçıvanın tarixini əks etdirən gözəl

əsərlərdən biridir. Əsərdə Nuh peyğəmbərin ocağı olan Naxçıvanın qədim tarixə malik mədəniyyət mərkəzi olduğu, ilk yaranışın məskəni, keçdiyi böyük inkişaf yolu bədii ifadə dili ilə göstərilmişdir. Kompozisiyanın yuxarı hissəsində Naxçıvanın şəhər qalası və böyük bir günəş təsvir olunub. Tablonun mərkəzi hissəsində isə Naxçıvan torpağında – Gəmiqayada lövbər almış Nuh peyğəmbərin gəmisi verilmişdir. İpək yolunun Şərqin qapısı adlandırılan Naxçıvandan keçməsini əks etdirən dəvə karvanı əsərə dinamiklik qatmışdır. Əsərdə simvolik naxışlar və qayaüstü rəsmlər kompozisiyanın dərin məna qatını özündə əks etdirir. Tabloları Azərbaycanın hüdudlarından kənarda – Türkiyə, Qazaxıstan, Rusiya, İngiltərə, İtaliya, Almaniya, Danimarka, Fransa, Malayziyada və başqa ölkələrdə saxlanılan görkəmli rəssamın əsərləri mürəkkəb kompozisiyası, rəngarəngliyi, hər bir detalın dəqiq və aydın cizgilərlə işlənməsi baxımından seçilir.

Azərbaycanın görkəmli rəssamı İntiqam Ağayevin (1966. Sumqayıt şəhəri) yaradıcılığında Naxçıvan tarixi, memarlıq abidələri və təbiət təsvirlərinin xüsusi yeri var. Rəssamın vətənpərvərlik hisslərini üstünlük təşkil etdiyi yaradıcılığında mənzərə, batalya janrında çəkdiyi əsərləri çoxluq təşkil etdiyi hiss olunur. Rusiya, Gürcüstan və digər ölkələrdə sərgilənən rəssam əsərlərini "Asiman" təxəllüsü ilə yaratmışdır. Onun yaradıcılığında Naxçıvan mövzulu əsərləri də mühüm yer tutur.

İntiqam Ağayevin yaratdığı əsərlərə diqqət etdikdə görünür ki, rəssamın baxış bucağı yüksəklikdir. "Əsərlərində sanki hər bir mənzərəyə, hadisəyə ümumi prizmadan, yüksəklikdən, səmadan – asimandan baxan rəssam..." geniş təxəyyülü və rəssamlıq istedadı nəticəsində seçdiyi baxış bucağının yaratdığı mürəkkəb görünüşü

çox ustalıqla yerinə yetirmişdir. Məhz onun üçün rəssam əsərlərini "Asiman" təxəllüsü ilə imzalayır. Onun yaradıcılığının digər səciyyəvi xüsusiyyətlərindən biri də isti rənglərin müxtəlif çalarlarına daha çox üstünlük verməsidir. Onun sarı və mavinin təzadına daha çox rast gəlinən tablolarında kompozisiya quruluşu maraqlı və fərqli bir biçimdədir. Onun Naxçıvan mənzərələrindən "Əlincə qalası, quş uçuşu baxışıyla", "Nuhun yurdu", "Əshabi-Kəhf", "Naxçıvan" adlı əsəri də bu səpkidəndir. İntiqam Ağayev "Əshabi-Kəhf" adlı əsərini kətan üzərində yağlı boya ilə yaratmışdır. Əsərin kompozisiya quruluşu digər əsərləri kimi "səmadan–yüksəklikdən" baxılaraq yaradılmışdır.



Şəkil 33. İntiqam Ağayev. "Əshabi-Kəhf"

Bu əsərində digərlərindən fərqli xüsusiyyət ziyarətgahın ümumi coğrafi quruluşunda olduğu kimi onun dərinliyinin verilməsidir. Bu təəssürata rəssam daha çox soyuq rəngin

tonlarından ustalıqla istifadə edərək nail olmuşdur. Aşağıda ziyarətgahın müasir vəziyyətini özündə əks etdirən tikililər, yollar, yuxarıya doğru yüksələn pillələr kompozisiyanı maraqlı etmişdir. Rəssamın baxış bucağına daha yaxın olan qayaların günəşdən aldığı qırmızı, narıncı rəng qammaları, aşağıda dərinliyin soyuq mavisi ilə təzadı əsərə güclü ritm bəxş etmişdir. Qayalar arasındakı yaşıl ağaclar, səmada süzən quşların canlı təsvirləri əsərə gözəl ab-hava qatır. Əsər sanki rəngarəng naxışlarla ilmə-ilmə toxunmuş xalçanı xatırladır.



Şəkil 34. İntiqam Ağayev. “Naxçıvan”

İsti rənglərin zənginliyi, onların soyuq rənglərlə ahəngi bu təəssüratı yaradır. Bu da özlüyündə bu mövzuya fərqli münasibəti

göz önünə sərir. Bu müqəddəs məkana səmadan baxış, fərqli rəng tonları, maraqlı kompozisya quruluşu onu yaddaqalan edən amillərdəndir.



Şəkil 35. İntiqam Ağayev. “Batabat”

Onun Naxçıvan mənzərələrindən “Əlincə qalası, quş uçuşu baxışıyla”, “Nuhun yurdu”, “Əshabi–Kəhf”, “Naxçıvan” adlı əsəri bu səpkidəndir. Rəssamın “Nuhun yurdu” adlı tablosunda digər əsərlərində olduğu kimi ilk növbədə gözəl kompozisiyası ilə diqqəti cəlb edir. Bu əsərdə sanki keçmişlə gələcəyin vəhdətini əks olunmuşdur. Mərkəzdə verilmiş İlan dağın təsvirində dağın uca zirvəsinə düşən işıq, dağın ətəyində istifadə olunmuş dalğavarı rənglər və sol tərəfdə verilmiş quş təsviri Nuh əfsanəsini xatırladır. Ön planda verilmiş Naxçıvan qalası və Nuh türbəsinin bərpa

olunmuş vəziyyətinin təsviri Naxçıvanın müasir görünüşünü özündə əks etdirmişdir.



Şəkil 36. İntiqam Ağayev. “Nuhun yurdu”

“Naxçıvan” adlı əsərində mərkəzində Möminə xatun türbəsi, ətrafında isə Açıq səmaaltı muzeydə rast gəldiyimiz ekisponatlar – orta əsrə aid daşdan yonulmuş qoç abidələri, müxtəlif daş məişət avadanlıqları, Came məscidi, İlandağ təsviri verilmişdir. Naxçıvana həsr olunan mavi və sarı rənglərin harmoniyası üstünlük təşkil etdiyi digər tablosu Şahbuz şəhərində

yerləşən Batabat mənzərəsidir. Səmada süzən qartallardan da yuxarıdan baxılan bu mənzərədə Batabat gölündə təsvir olunmuş Üzən ada, solda qartallar, sağ tərəfdəki qayalıq təsviri ilə tarazlanan gözəl bir kompozisiya verilmişdir. Əsərdə istifadə olunmuş rəng çalarları və uzaqda görünən qarlı dağlar, Batabat təbiətinin səfasını, onun təbiətinə uyğun ab-havasını hiss etdirir.

Tanınmış rəssam İlqar Mehdiyevin yaradıcılığına geniş yer tutan illüstrasiyalarında Naxçıvan motivlərinə rast gəlirik. Ziyadxan Əliyevin və Nizami Alıyevin həmmüəllif olduqları “Bəhruz bəy Kəngərli taleyi” adlı kitabında İlqar Mehdiyevin çoxlu sayda müxtəlif illüstrasiyalarında – “Bəhruz Kəngərli – doğma yurda bağlı sənətkar” (2015), “Bəhruz Kəngərli – Naxçıvanın tərənnümçüsüdür” (2015), “Bəhruz Kəngərlinin uşaqlıq illəri” (2015), “Gözəllik aşiqinin qayğılı illəri” (2015) adlı əsərlərində onun obrazlı təsviri ilə yanaşı Naxçıvan təbəti, abidələri, tarixi və etnoqrafiyası əks olunub.

Naxçıvan mövzusu İlqar Əkbərov yaradıcılığında “Rəngli dağlar” adlı əsərlərində də yer almışdır. Bahar fəslini xatırladan al-əlvan rəngli bu əsər insanda xoş əhval-ruhiyyə yaradır.

Naxçıvan tarixi, mədəniyyəti, təbiəti müasir miniatür əsərlərdə də yer almışdır. Pərinisə Əsgərovanın yaradıcılığında batal janrına aid miniatürlər maraqla qarşılanır. Kompozisya bitkinliyi, fiqurların hərəkət dinamikası, rəng koloritinin, milli motivlərin zənginliyi bu əsərlər üçün xarakterikdir. Naxçıvana həsr etdiyi “Ömrü xəzan ulu Cavid”, “Qədim Naxçıvan”, “Dədə Qorqud” və s. qədim tarixi və milli dəyərləri özündə əks etdirən bir-birindən maraqlı kompozisiyalar bu zəmindəndir.





Şəkil 37. Pərinisə Əsgərova. 1. “Ömrü xəzan ulu Cavid” 2. “Qədim Naxçıvan”

Azərbaycan əməkdar incəsənət xadimi, professor, Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan “Karikaturaçı Rəssamlar Birliyi”nin üzvü Elturan Avalovun yaradıcılığında Naxçıvanın tarixi-memarlıq abidələrinin qrafik təsviri geniş yer tutur. O, “Qarabağlar türbəsi”, “Ordubad Cümə məscidi” əsər-ləri buna nümunədir. Rəssam 1993-cü ildə yaratdığı “Ordubad Cümə məscidi” əsərində gözəl memarlıq quruluşuna malik XVII əsr abidəsini dəqiq cizgilərlə realist təsvirini ifadə etməklə yanaşı, ətrafda yerləşən təbiət motivlərinin təsvirini də əlavə etməklə maraqlı kompozisiya həllinə nail olmuşdur.







Şəkil 38. Elturan Avalov. 1.“Qarabağlar türbəsi”
2. “Ordubad. Cümə məscidi”

Elturan Avalovun yaradıcılığında yer alan digər Naxçıvan abidəsinin – Qarabağlar türbəsinin təsvirini isə 2019-cu ildə yaratmışdır. Bu abidənin təsvirində də qrafik-rəssam tarixi-memarlıq abidəsini incə cizgilərlə realist təsvirinə nail olmuşdur.



Şəkil 39. Əbdüləmi Nadir Əliyev. “Naxçıvan. Nəhəcir dağı”

Əbdüləmi Nadir Əliyev də öz yaradıcılığında Naxçıvan təbiətinə müraciət etmişdir. Rəssam 2022-ci ildə Naxçıvana səfəri zamanı müxtəlif etüdlər etmişdir. O, 19 avqust 2022-ci il tarixdə “Batabat”, 21 avqust 2022-ci il tarixdə “Naxçıvan. Nəhəcir dağı”, 16 avqust 2022-ci il tarixdə “Naxçıvanda” adlı yağlı boya ilə qədim diyarın isti yay fəslinə aid gözəlliyini naturadan kətana köçürmüşdür.




Şəkil 40. Əbdüləmi Nadir Əliyev. “Naxçıvanda. Batabat”

İncə rəng duyumu ilə seçilən rəssam Xalidə Hicranın da yaradıcılığında Naxçıvan mövzusu əsas yerlərdən birini tutur. Uzun müddət Vətəndən uzaqda yaşasa da doğma yurdunun gözəl təbiətini unutmamış, yaradıcılığında geniş yer vermiş, çox zaman isə həmin yerləri çiçəkli, al-əlvan təsvir etmişdir. Şərur rayonundan görünən Ağrı dağın müxtəlif görünüşlərini təsvir etmişdir. “Ağrı dağ günəş batışında”, “Ağrı dağ payız fəslidə”, “Ağrı dağ yaz fəslində” adlı akrilik, yağlı boya ilə çəkdiyi mənzərələr buna misal ola bilər. İlan dağın da bir neçə görnüşdə çəkdiyi mənzərələri var. O, adətən ön planda doğma torpağın gözəl çiçəklərini təsvir etmişdir. Yuxarıda adlarını çəkilən mənzərələrin hər birində bunu görmək mümkündür. Lakin onun günəş batışını təsvir etdiyi

mənzərələrində hüzünü daha dərindən hiss etmək olur. Sanki rəssamın yaşadığı kədər, keçirdiyi hisslər onun bu əsərlərinə siyarət etmişdir. “Araz kənarında köhnə ev”, “Ağrı dağ günəş batışında” adlı əsərlərində bunu izləmək olur.




Şəkil 41. Xalidə Hicran 1.“Naxçıvan mənzərəsi”
2.“İlan dağ”

Xalidə Hicranın “Şərurda bahar” əsərində çiçəkli bağ təsvirini görürük. 1998-ci ildə kətan üzərində yağlı boya ilə çəkilmiş bu əsərdə gözəl rəng koloriti diqqəti cəlb edir. Bahar fəslinə xas olan əlvanlıq insanda xoş ovqat yaradır.




Şəkil 42. Xalidə Hicran “Şərurda bahar”

İlan dağın fərqli rəng ifadəsinə Ayaz İmanovun yaradıcılığında da rast gəlinir. O, İlan dağın qəhvəyi rəngin müxtəlif tonlarından istifadə edərək, "sərt üslub" xüsusiyyətlərini özündə əks etdirən Naxçıvan mənzərəsi yaratmışdır.



Şəkil 43. Ayaz İmanov. "İlan dağ"

Səmadakı dekorativ meyilli incə rəng yaxmaları ilə dağın əzəmətini göstərən sərt rəng yaxmalarının təzadı ilə rəssam əsərində harmonik ifadə həllinə nail olmuşdur.

Bakı şəhərində yaşasa da yaradıcılığında Naxçıvan təbiətinin üstünlük təşkil etdiyi naxçıvanlı rəssamlardan biri də Fəxrəddin Qəhrəmanovdur. Fəxrəddin Qəhrəmanov 1957-ci ildə Naxçıvan MR Şahbuz rayonu Külüs kəndində anadan olub. 1976-cı ildə Rəssamlıq Məktəbini bitirib. 1983-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun Rəssamlıq fakültəsinə da-xil olub, 1988-ci ildə başa vurmuşdu. O, 1988-cı ildə

Naxçıvan şəhərində M.S.Ordubadi adına Respublika Kitabxanasında rəssam vəzifəsində çalışıb.



Şəkil 44. Fəxrəddin Qəhrəmanov. "İlan dağ"

Həmin il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 70 illiyinə həsr olunmuş 3-cü Respublika sərgisində, Belarusiya Beynəlxalq rəsm sərgisində iştirak etmişdi. 1995-ci ildə Türkiyənin İstanbul şəhərində Azərbaycana həsr olunmuş sərgidə iştirak etmişdir. Rəssam həmin ildə Naxçıvan Muxtar Respublikasında Türkiyə Konsulluğunda 50 ədəd rəsm əsərindən ibarət fərdi sərgi keçirmişdir. Fərdi sərginin davamı Türkiyənin Qars şəhərində baş tutmuşdu. Fəxrəddin Qəhrəmanov 1996-cı ildən, 2007-ci ilə dək Türkiyənin Antaliya şəhərində

rəssamlıq fəaliyyəti göstərmişdir. Onun əsərləri Fransa, Almaniya, Hollandiya, Rusiya, Belarusiya, Ukrayna və başqa ölkələrdə şəxsi kolleksiyalarda saxlanılır. 2005-ci ildən Azərbaycan Rəssamlar İttifaqının rəngkarlıq bölməsinin üzvüdür. Rəssam həm də pedaqoji fəaliyyət göstərərək yeni rəssam kadrlarının yetişməsi sahəsində səy göstərir.




Şəkil 45. Fəxrəddin Qəhrəmanov 1.“Külüs mənzərəsi”
2. “İlan dağ”

Belə ki, rəssam 2007-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Təsviri incəsənət kafedrasının müəllimi vəzifəsində çalışır. 2014-cü ildə Azərbaycan Dövlət Mədə-niyyət və İncəsənət Universitetində 34 ədəd əsərlə fərdi sərgi keçirmişdir. 2015-ci ildə Azərbaycan Mədəniyyət Fondu və Koreya – Azərbaycan Mədəniyyət Mübadiləsi Assosiasiyasının birgə təşkil etdiyi beynəlxalq incəsənət sərgisində iştirak etmişdir. 2016-cı ildə Azərbaycan Rəssamlıq İttifaqında 60 ədəd rəsm əsəri ilə fərdi yaradıcılıq sərgisi keçirilmişdir.

Onun milli koloritli rəngkarlıq nümunəsi olan Külüs kənd mənzərəsi kompozisiya bitkinliyi, perspektiva dərinliyi, rəng hormoniyası baxımından diqqətəlayiqdir. Bu mənzərə kənd

ərazisinin güney hissəsini başdan-başa əhatə edən “Kaha piri” adlanan dağ silsiləsinin təsviri idi. Əsərdə qədim və tarixi yaşayış məskən-lərindən biri olan kəndin ümumi görünüşünün təsviri olduğu üçün perspektiva qanunlarına riyaət olunması – ölçü, işıq-kölgə, rəng məsələlərin perspektivaya uyğun verilməsi daha çox diqqəti cəlb edir. Kompozisiya bütövlüyü baxımından əhəmiyyətli olan mənzərə əsəri özünəməxsusluğu ilə yaddaqalandır. Rəssamın qra-fika sahasində də uğurlu əsərləri olmuşdu. Təmizlik, rənglərin şəffaflığı, onların su ilə harmoniyası rəssamın akvarellə çəkdiyi əsərləri üçün xarakterikdir. Fəxrəddin Qəhrəmanovun mənzərə janrında sulu boyalarla yaratdığı əsərlərdən “İlan dağ”, “Nəhəcir dağı”, “Kənd mənzərəsi” adlı tabloları bu baxımdan maraqlıdır. O yaratdığı bu kimi sulu boya əsərləri ilə 2016-cı ildə, 2018-ci ildə 2019-cu ildə Xətai Sənət Mərkəzində keçirilən sulu boya sərgisində iştirak etmişdirdir.

Qrafika sahəsində fəaliyyət göstərən rəssamlardan biri də Kirman Abdindir. 1959-cu ilin iyul ayında Şahbuz rayonunun Külüs kəndində dünyaya gəlib. 1982-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu və 1988-ci ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. “Tətbiqi qrafika mütəxəssisidir. Ona qədər beynəlxalq müsabiqədə mükafata layiq yerləri tutub” [60]. O, Azərbaycan Rəssamlar İttifaqının, Jurnalistlər Birliyinin və eləcə də 2006-cı ildən Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvüdür. FECO (Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyası) Azərbaycan qrupunda təmsil olunur.



Şəkil 46. Kirman Abdin. “Kompozisiya”

“...rəssam K.Abdin Məmməd Araz poeziyasının bənzərsiz bədii təxəyyülünə müraciət etməklə, yaratmış olduğu təsviri sənət nümunələri ilə müasir Azərbaycan qrafika sənətinə yeni nəfəs gətirməyə çalışıb”[53]. Rəssam

“Mənim yurdum
Öz baxtının xoş gününü
Öz əliylə yaradanlar diyarıdır.”

başlıqlı Xalq şairi Məmməd Arazın misraları ilə kompyuter qrafikasında işlədiyi əsər Naxçıvan abidələrinin Bakı şəhərindəki Qız qalası, Şirvanşahlar sarayı ilə eyni vəhdətdə verilməsi birlik və bütövlük kimi xarakterizə etmək olar.




Şəkil 47. İlham Mirzəyev. 1.“Ağrı dağının Naxçıvandan görnüşü”
2. “İlan dağ”

Qrafika sənətində Naxçıvan təbiət motivləri Mirişli Rəşid Mir Həsən oğlunun (1930-1975) yaradıcılığında izlənilir. “Rəşid Mirişlinin bədii estetik tutumuna görə bu gün də əhəmiyyətini qoruyub saxlayan kitab nişanları Azərbaycan qrafika sənətinin yaddaqalan uğurlarından saymaq olar” [70, s.114]. Rəssamın qrafikanın kitab nişanı – ekslibris sahəsində, görkəmli şəxsiyyətlərə – Heydər Əliyev, Hüseyn Cavid, İslam Səfərli və başqa tanınmış simalara həsr etdiyi əsərlər xüsusilə əhəmiyyətlidir. Bəhs olunan qrafik nümunələrin kompozisiyasında Naxçıvan motivi diqqət mərkəzindədir.

Naxçıvan təbiətinin təsvirlərinə müraciət etmiş naxçıvanlı rəssamlardan biri də Bakı şəhərində yaşayıb-yaradan İlham Mə-

hərrəm oğlu Mirzəyevdir. 1965-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1980-1984 Əzim Əzimzadənin adına Dövlət İncəsənət Məktəbində təhsil almış, 1989-cu ildə Rəssamlar İttifaqının üzvü olmuşdur. Rəssam realist əsərlər yaratsa da onun özünəməxsus üslub texnikası var.



Şəkil 48. Adil Talıbov. “Haça dağ”

Onun yaradıcılığında “Ağrı dağın Naxçıvandan görünüşü”, “İlan dağ” əsərləri rəng, işıq-kölgə keçidləri baxımından diqqəti cəlb edir. Hər iki əsər insanda xoş, nikbin əhval ruhiyyə yaradır.

Naxçıvan təbiəti, şəxsiyyət obrazları Adil Əhməd oğlu Talıbovun (1957) yaradıcılığında realist üslubla yer almışdır. “Adil Talıbov əsasən memar kimi tanınsa da rəssamlıq sahəsində də uğurla fəaliyyət göstərir” [70, s.154]. Bakı şəhərində fəaliyyət göstərən rəssam, memarın yaradıcılığında naxçıvanlı ziyalıların, görkəmli şəxsiyyətlərin portretləri ilə yanaşı doğma torpağın təbiət

mənzərələri də yer almışdır. Soyuq rəng tonlarının üstünlük təşkil etdiyi “Haça dağ” mənzərəsi də bu zəmindəndir.




Şəkil 49.İlhamə Qurbanova. 1.“Hüseyn Cavid məqbərəsi”
2. “Batabat” mənzərəsi”

İlhamə Qurbanovanın yaradıcılığında Naxçıvanın qədim və müasir memarlıq abidələri, şəhər mənzərələri və təbiət təsvirləri geniş yer tutur. Moskva şəhərində yaşayıb-yaradan, yaradıcılığında hər zaman Vətən gözəllikləri əvəzolunmaz tema təşkil edən İlhamə Qurbanovanın “Hüseyn Cavid məqbərəsi”, “Qarabağlar türbəsi”, “Batabat” mənzərəsi” realist üslubda ərsəyə gətirdiyi rəngkarlıq nümunələri belə əsərlərdəndir.

Fərqli ifadə tərzilə işlənmiş digər bir İlandağ təsviri naxçıvanlı rəssam Təranə Səidin (1981) yaradıcılığında da yer almışdır.




Şəkil 50. Təranə Səid.1. “Haça dağ”    2. “Qoç daşlar”

Əlvan rəng tonlarının vəhdəti ilə ifadə olunan bu əsərdən başqa rəssamın Naxçıvana həsr etdiyi digər əsərlər də kompozisiya və kolorit zənginliyi baxımından yaddaqalandır. Onun “Batabat”, “Naxçıvan abidələri”, “Qoç daşlar” və s. əsərləri bu səpkidəndir.



Şəkil 51.Mir Azər Abdullayev. “Naxçıvan gözəli”

Müasir dövr rəngkarlıq və qrafika sənətində qədim Nuh yurdunun təbiətinə, tanınmış şəxsiyyətlərinin kompozisiyalı

portret obrazlarına, tarixi abidələrinə müraciət etmiş rəssamlardan İnna Kostinanın “Aşıq mahnısı”, Ramiz Hüseynovun “Başlanğıc”, Aydın Əsgərovun “Haça dağ”, Rəna Məmmədovanın “Naxçıvanlı qız”, “Allı-güllü Naxçıvan”, Cavid Məmmədovun “Haça dağ”, Bakı şəhərində yaşayıb, orada rəssamlıq fəaliyyəti göstərən naxçıvanlı rəssam Əli Məhərrəmovun yaradıcılığında “Qədim saxsı”, Günel Ravilovanın “Kompozisiya”, Adil Yusifovun “Naxçıvan dağları”, Rəhim Həşimovun “Nəiminin türbəsi”, Vahid Novruzovun “Cavid diyarı”, Gülrəna Mirzənin “Haça dağ”, Vüsal Rəhimin “Yaranış”, Rafail Əliyevin “Nuhun göyərçini buraxdığı gün”, Tofiq Əhmədovun “Əlincə qalası” və başqa adlarını sadaladığımız məhşur rəssamların yaradıcılığında Naxçıvan mövzusu geniş yer tapmışdır. Müxtəlif üslub fərqi ilə çəkilən, özünəməxsus bədii səciyyəsi ilə seçilən bir-birindən dəyərli əsərlərdə doğma torpağın gözəlliyi ilə yanaşı, onun tarixi, adət-ənənələrini, etnoqrafiyasının bədii həlli verilmişdir.

## III.2.Naxçıvanın təbiəti, tarixi-mədəniyyət abidələri teatr-dekorasiya və kino sənətində

Ümummilli lider Heydər Əliyev demişdir: “Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərin ən yüksək, ən böyüyü mədəniyyətdir” [104]. Azərbaycan xalqı maddi və mənəvi xüsusiyyətləri özündə cəmləşdirən mədəniyyətini tarixin çətin sınaqlarından çıxardaraq bu günümüzə qədər qoruyub saxlamış, inkişaf etdirmişdir. Xalqımızın yaratdığı mədəniyyət nümunələri keçdiyi tarixi dövrlərin izini saxlamış, onların mənəvi aləmini, dini inancları əks etdirmişdir. Qədim tarixə, elmə, mədəniyyətə malik Azərbaycanın

ayrılmaz güşələrindən olan Naxçıvanda tarixi abi-dələri, mədəniyyət nümunələri, o cümlədən, məscidlər, məd-rəsələr, türbələr, imamzadələr, körpülər, qalalar tarixin canlı şahidləridir. XII əsrə aid Möminə Xatun türbəsi, Yusif Küseyr oğlu türbəsi, Gülüstan türbəsi, XVI əsrə aid İmamzadə kompleksi, XVIII əsrə aid Şərq hamamı, Came məscidi və s. bunlara nümunə ola bilər.

Adlarını çəkdiyimiz bu abidələr özlərində tarixi əks etdirdikləri kimi realist rəssamlar həmin abidələrin təsvirlərini yaratmaqla bir növ onları əbədiləşdirilməsinə, tarixi boyu yaşamasına, təbliğ olunmasına şərait yaratmış olur. Bu abidələrin bədii, estetik təsvirinə rəssamlığın geniş bir qolu olan səhnəqrafiyada da rast gəlinir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tamaşalara verilən səhnə tərtibatlarında Naxçıvan tarixi-mədəniyyət abidələrinin, eləcə də onun təbiətinin lövhələrinin təsvirinə çox müraciət olunmuşdur.

Naxçıvan teatr rəssamlığı sahəsində ilk olaraq peşəkar fəaliyyət göstərmiş Bəhruz bəy Kəngərlinin qeyd etdiyi kimi, realizm onun yaradıcılığında istər sulu boyalarla, istərsə də yağlı boya texnikası ilə işlədiyi əsərlərlə bərabər həm də tamaşalara çəkdiyi səhnə tərtibatında öz əksini tapmışdır. Onun bədii tərtibat sahəsindəki yaradıcılığı tamaşaya qoyulan əsərin ideyası, bütövlükdə mühit haqqında tamaşaçıda dolğun təəssürat yaradırdı. Bu da yaradıcı insan kimi onun realist tendensiyalarının həm forma, həm də rəng "məkan"ında özünü qabarıq şəkildə büruzə ver-məsinə nail olması ilə bağlıdır. Naxçıvan teatrında ilkin professional səhnə tərtibatı onun adı ilə bağlıdır. Rəssam Naxçıvan teatrında 1912-ci ildən 1918-ci ilə qədər nümayiş etdirilən tamaşaların səhnə tərtibatını böyük ustalıqla yaratmış, səhnəyə

lazım olan dekor və pərdələr hazırlamış, aktyorların obraza uyğun qrimlənməsinə köməklik göstərmişdir. “Bəhruz Kəngərli Naxçıvan səhnəsi üçün elə gözəl bir dağ mənzərəsi çəkmişdir ki, bu şəkil son zamanlara kimi Naxçıvan teatrının səhnəsində istifadə edilmişdir” [47, s.101]. Bəhruz bəy Kəngərlinin özünəməxsus realist rəng çaları, işləmə texnikası asma pərdələrdə, ümumilikdə teatr dekorasiyasında da özünü göstərirdi. Yüksək səviyyəli bədii quruluş ilə yaddaqalan səhnə əsərləri sırasında yer alan “Ölülər” tamaşasının dekorları və geyim eskizlərini işləyən rəssam iş prosesində demişdi: “Bu əsər Naxçıvan şəraitində yaradılmışdır və Mirzə Cəlilin bu əsərdə təsvir etdiyi surətlərin çoxu naxçıvanlıdır. Hadisə Naxçıvan şəraitində baş verir. Ona görə də tamaşanın real olması üçün aktyorların geyimlərini (çuxa, arxalıq, ayaqqabı və s.) Naxçıvanda olduğu kimi yaratmaq istəyirəm. Təsvir edilən hadisələrin yerlərini, evləri, qəbirstanlığı Naxçıvanda olduğu kimi vermək niyyətindəyəm” [15, s.190].

Lakin Naxçıvanda teatr rəssamlığının təməlini qoyan Bəhruz Kəngərlinin hazırladığı tərtibatlarda bu mövzuya yer versə də bu tərtibatlardan heç biri günümüzə qədər gəlib çatmamışdır.

Azərbaycanın təsviri sənətində əsası ilk professional təhsil görmüş naxçıvanlı rəssam Bəhruz bəy Kəngərli tərəfindən teatr-dekorasiya sənətində qoyulan realizm sonrakı dövrlərdə də teatr rəssamların yaradıcılığında əsaslı yerlərdən birini tutmuşdur. Naxçıvan Teatrının da ilk peşəkar rəssamı kimi teatr tamaşalarına verdiyi tərtibatlarda da o, realizm prinsiplərindən məharətlə, yerində istifadə etmişdir. B.Kəngərlidən sonra Naxçıvan Teatrında fəaliyyət göstərmiş rəssamlar da bu ənənəyə sadiq qalmış, dolğun, məzmunlu səhnə tərtibatları, geyim eskizləri hazırlamışlar. Nax-

çıvan teatrında 1920-40-cı illərdə Adil Qazıyevin, Şamil Qaziyevin rəssamlıq fəaliyyətindən sonra, 1940-cı illərin əvvəlindən bu ənənəni Məmməd Qasımovun yaradıcılığında izləmək mümkündür.

Adil Qazıyevin Naxçıvan teatr tamaşasına verdiyi tərtibat eskizində Naxçıvan abidəsinin təsvirinə rast gəlinir. İmamzadə türbəsi Adil Qazıyevin yaratdığı səhnə tərtibatında təsvirlər realist boyalarla öz ifadəsini tapmışdır. Teatırın rəssam A.Qazıyev türbənin o dövrkü görünüşünü, Naxçıvan qəbiristanlığını realist tərzdə təsvir etmişdir.



Şəkil 52. Adil Qazıyevin səhnə eskizi

Kağız üzərində akvarellə çəkilmiş eskizdə Naxçıvan qəbiristanlığını təsvir etmişdir. Uzaqdan isə İmamzadə türbəsinin görnüşü diqqəti cəlb edir. Eskizdə perspektiva qanunları ön plandadır. Eskiz 1926-cı ildə çəkilmişdir və indi Rüstəm

Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

Teatra yeni bir rəssamın gəlişi orada səhnələşdirilən əsərin tərtibatında yeni bir yaradıcılıq üslubunun, yeni bir dəsti-xəttin gəlməsi, yeni bir ruhun səhnəqrafiya sənətinə yansımasıdır. Məhz belə rəssamlardan biri də Naxçıvan Teatrının səhnəqrafiyasında realizmi daha qabarıq şəkildə əks etdirən peşəkar teatr rəssamı Məmməd Ələkbər oğlu Qasımov olmuşdur. Naxçıvan abidələrinin təsvirinə teatr rəssamı Məmməd Qasımovun teatr-dekorasiya sahəsindəki yaradıcılığında da rast gəlinir.

Məmməd Qasımov 5 yanvar 1925-ci ildə Tiflis şəhərində, əslən Naxçıvandan olan ailədə doğulub, uşaqlıq illərini Tiflisdə keçirən M.Qasımov burada orta təhsil almış, rəssamlığa, həmçini teatra böyük maraq göstərmişdir. O, 1943-cü ildə Naxçıvan Teatrına icraçı rəssam götrülüb. 1947-1952-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində mükəmməl təhsil alıb yenidən doğma teatrına qayıdaraq bu qədim sənət ocağının baş rəssamı təyin olunan M.Qasımov həmin vəzifədə ömrünün son günlərinədək – tam 35 il səmərəli və məhsuldar fəaliy-yət göstərib.

Naxçıvan Teatrında M.Qasımov "Ölülər", "Fərhad və Şirin", "Solğun çiçəklər", "Pəri cadu", "Sevilya ulduzu", "Şeyx Sənan", "Vaqif", "Lənkəran xanının vəzirinin sərgüzəşti", "Odlu diyar", "Məhsəti", "Ezop", "Anamın kitabı", "İtirilən sağlıq", "Kor padşah", "Mehmanxana sahibəsi", "Əlincə qalası" və başqa teatr tamaşalarına mükəmməl bədii tərtibat vermişdir. SSRİ Rəssamlar İttifaqının üzvü M.Qasımov 1971-ci ildə yaradılan Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatının ilk sədri olmuşdur.

Rəssam 1967-ci ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür .

Tamaşalardakı işlədiyi bədii tərtibatlarını nəzərdən keçirdikdə M.Qasımovun bir sənətkar kimi bu sahədə pərdələrin, dekorların istər rəng, istərsə də kompozisiya bitkinliyi, hadisələrin baş verdiyi məkanların realist təsviri, işləmə texnikasına görə özünəməxsusluğu aydın nəzərə çarpır.



Şəkil 53. Məmməd Qasımovun "Ölülər" əsərinə çəkilmiş tərtibat eskizi

Naxçıvan Dövlət Milli Dram Teatrında 45 illik yaradıcılığı ərzində məhsuldar, geniş diapazonlu, hərtərəfli, çoxşaxəli, səmərəli fəaliyyət göstərmiş Azərbaycanın görkəmli teatr rəssamlarından biri olan Məmməd Qasımov nəinki bu qədim sənət ocağının, həmçinin milli teatrımızın salnaməsinə əbədi daxil

olmuş, bundan başqa orjinal səhnəqrafiya ustası və pedaqoq kimi, yeni nəsil rəssamların, o cümlədən teatr rəssamlarının yetişməsində əvəzsiz xidmətilə yadda qalmışdır.

M.Qasımovun da ilk səhnəqrafiya işi olan "Ölülər" tamaşasında xüsusilə, dəqiq cizgilərlə işlədiyi İmamzadə türbəsinin təsviri bu baxımdan diqqətəlayiqdir. 1943-cü ilin yazında teatra gələn M.Qasımov ilk dəfə olaraq "Ölülər" pyesinin bədii tərtibatını hazırlamaq tapşırığını almışdır (şəkil 53). Naxçıvan mənzə-rələrinin realist təsvirinə rast gəlinən bu tərtibat çox uğurlu alınmış, teatrsevərlər tərəfindən razılıqla qarşılanmışdır. Naxçıvan təbiətini, onun gözəl güşələrini, daha çox isti rənglərlə zəngin, başqa regionlardan seçilən rəngarəngliyini tərtibatlarında da əks etdirən M.Qasımov həm də bu şəhərdə yerləşən abidələri də olduğu kimi tərtibata uyğun, yerli-yerində əks etdirmişdir.

Görkəmli yazıçı-dramaturq C.Məmmədquluzadənin bəhs olunan əsərinə çəkilmiş bədii tərtibatda perspektiv xüsusiyyətlər daha çox yaddaqalandır. Arxa planda perspektiva dərinliyi ilə verilmiş qarlı dağların, ikinci planda Naxçıvan qəbirstanlığının, ön planda isə Naxçıvanda qəbirstanlığın yaxınlığında yerləşən İmamzadə türbəsinin təsviri bu zəmindəndir.

İsti rəng koloritindən – daha çox sarı, qəhvəyinin açıq tonlardan istifadə edilərək hazırlanmış tərtibatda həm Naxçıvanın, həm də turbənin o zamankı görnüşünü ilə yanaşı, eyni zamanda bu torpağın iqlim şəraitini, təbiət amilləri də özündə göstərir. İstifadə olunmuş rənglər, ön planda göstərilmiş boş qumlu sahə və təsvir olunan seyrək otlar sanki Naxçıvanın sərt iqlimini özündə əks etdirir. Bu eyni zamanda əsərin ideya ruhunu da açır. Bu tamaşanın

başqa bir səhnəsində interyerin təsviri də dövrə uyğun dekorasiyaları ilə realist səpkidə işlənmişdi. Tamaşanın digər bir səhnəsində sadə və yığcam şəkildə verilmiş interyer təsvirində şəbəkələrlə işlənmiş pəncərələr, döşəmədəki xalça və s. dekorasiyalar qədim mədəniyyət nümünələrinin göstəricisi kimi əhəmiyyət daşıyır.

Realist rəssam Məmməd Qasımovun yaradıcılığında əsas yer tutan teatr-dekor sənətində tarixi-mədəniyyəti abidələri sırasında Naxçıvan tarixi müdafiə qalalarının təsviri də maraqlıdır.



Şəkil 54. Əbülfəz Axundovun tərtibat verdiyi "Atabəylər" tamaşasından səhnə

Bunlardan biri də "Əlincə qalası" tamaşasının bədii tərtibatıdır. Bu tərtibat Naxçıvanın gözəl guşələrindən olan Culfa rayonunun Xanağa kəndində yerləşən, qəhrəmanlıq tarixi və əzəmətli görnüşü ilə rəssamların, yazıçı və şairlərin yaradıcılığında yer almış,

mübarizlik simvolu olan Əlincə qalasının bədi-estetik nümunəsidir.

Yazıçı-dramaturq Həmid Arzulunun Naxçıvan Teatrında səhnələşdirilən "Əlincə qalası" əsəri bu səpkidəndir. Bu tarixi dramda hadisələr XIV əsrin 80-90-cı illərində xalqımızın yadelli işğalçılara qarşı mübarizəsində əsas yer alan Əlincə qalasında cərəyan edir. Rəssam tamaşanın bədii tərtibatında qalanın təsvirində istifadə etdiyi rənglərlə, müdafiyə ehkamının fərqli və maraqlı bir görüntüsünün alınmasına nail olmuşdur. 1983-cü ildə tamaşaçılara təqdim olunan bu tamaşada rəssam və rejissor işinin vəhdətində tamaşanın əsas ideyası, onun bədii-estetik təcəssümü aydın şəkildə görünür. Tamaşaçıda vətənpərvərlik hisslərini aşılayan, Əlincə qalasının qəhrəmanlıq xatirəsini bədii ifadələrlə əbədiləşdirən "Əlincə qalası" tamaşası qədim mədəniyyət ocağı olan Naxçıvan teatrının uğurlu və repertuarlardan düşməyən tamaşalarındandır.

Naxçıvan Dövlət Milli Dram Teatrında səhnələşdirilən digər bir tamaşanın bədii tərtibatında tarixi mədəniyyət abidələrinin təsvirinə rastlanır. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 illiyi münasibəti ilə 1999-cu il 10 may tarixində Nəriman Həsənzadənin "Atabəylər" əsəri tamaşaya qoyulur (şəkil 54).

"Tamaşanın quruluşçu rejissoru Azərbaycan Milli Akademik Dram Teatrının rejissoru Mərahim Fərzəlibəyov, rejissoru Kamran Quliyev, quruluşuçu rəssamı Əbülfəz Axundov olmuşdur. Bu monumental tarixi pyesdə xalqımızın qəhrəmanlıq salnaməsi, yadellilərə qarşı mübarizəsi, yüksək dərəcədə tərənnüm olunurdu. Məhz bu ideyalar tamaşanın bədii tərtibatında Əbülfəz Axundovun

özünəməxsus üslub xüsusiyyətləri, texnikası, rəng tempri ilə daha güclü səsləşməsinə nail olmuşdur" [3, s.129]. Tamaşanın rəssamı əsas ifadə vasitələrindən olan perspektiva dərinliyi ilə təsvir etdiyi Atabəylər türbəsi və onun giriş qapılarının forma həlli tamaşanın mövzusu, ideyası haqqında artıq öz sözünü deyir. Yuxarıdan asılmış ox ucluqları, türbə ətrafında yerə bərkidilmiş nizələr əsərin ideyasında simvolik mənanı ifadə edir. Tamaşanın geyim eskizlərində dövrə, obraza, xarakterə və ideyaya uyğunluğunu istər onların formalarında, istərsə də rənglərindəki əksindən görmək olur ki, bu da rəssamın təxəyyülündən, tarixi dövrə aid geniş məlumatından xəbər verir.




Şəkil 55. Əbülfəz Axundovun tərtibat verdiyi "Əlincə qalası" tamaşasından səhnə

Geyimlərdə, eləcə də dekorlarda qırmızı rəng koloritinin üstünlük təşkil etməsi tamaşanın əsas ideyası olan mübarizliyin, qəhrəmanlığın, əyilməzliyin simvolu kimi xararakterizə olunur və tamaşada bu ideyaların daha təsirli olmasına dəlalət edir. Tamaşanın tərtibatı onun ideyasını, bədii vüsətini, ictimai-siyasi mahiyyətini daha da qabardılmasına dəlalət edib. Tamaşanın ideya fəlsəfəsi haqqında akademik İsa Həbibbəyli belə qeyd etmişdir: "Şair-

dramaturq Nəriman Həsənzadənin tanınmış rejissor, Əmək-dar incəsənət xadimi, Xalq artisti Mərahim Fərzəlibəyov tərəfin-dən son illərdə Naxçıvan teatrında tamaşaya qoyulan "Atabəylər" tamaşası milli-tarixi özündərk prosesinin dərinləşməsinə kömək edir, mənlik və müstəqillik düşüncəsini daha da qüvvətləndirir" [25,s.8].



Şəkil 56. Əbülfəz Axundovun tərtibat verdiyi "Araz sahilində doğan günəş" tamaşasından səhnə

Əbülfəz Axundovun yaradıcılığında hələ 1983-cü ildə Məmməd Qasımovun tərtibatı ilə Naxçıvan teatrında tamaşaya

qoyulmuş mədəniyyət abidələri sırasında yer alan Əlincə qalasının təsviri də maraqlıdır.

Həmid Arzulunun bu əsəri yeni quruluşda Naxçıvan Dövlət Milli Dram Teatrında 2007-ci ilin may ayının 4-də Ulu öndər Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə səhnəyə qoyulmuşdur. Tamaşada qüdrətli sərkərdə Əmir Teymurun 14 il ərzində mühasirədə saxladığı Əlincə qalasında müdafiə olunan naxçıvanlıların mərdliyi, qəhrəmanlığıi, xalqın birliyi, azadlıq və müstəqillik uğurunda mübarizəsi poetik və dramatik lövhələrlə əks olunmuşdur (şəkil 55). Yüksək vətənpərvərlik hissini aşılayan bu tamaşanın quruluşçu rejissoru Kamran Quliyev, rəssamı isə Əbülfəz Axundov olmuşdur. Teatr rəssamı tarixi faktlara əsaslanaraq qalanın real görnüşə uyğun qalanın əzəmətli təsvirini vermişdir. Bədii tərtibatda qalanın rəngini seçimi də realist boyalarla, sakit rəng qammaları ilə verilsə də, müəyyən məqamlara uyğun işıq effektləri ilə rəngin ustalıqla dəyişməsi qalanın ecazkar görnüşünü, daha da alınmaz, qüdrətli, möhkəm qala təsirini artırmış olur. Əbülfəz Axundov tamaşanın bədii tərtibatını hazırlayarkən ona bədii tərəfindən əlavə, texniki baxımdan da uyğun quruluş hazırlamışdır. Belə ki, tamaşada aktyorların ifası, onların sujetə uyğun olaraq qalanın üstündə sərbəst hərəkəti baxımından heç bir çətinlik hiss olunmurdu.

“Əlincə qalası” tamaşası Naxçıvan Dövlət Milli Dram Teatrının repertuarında tez-tez rast gəlinir. Belə ki, tamaşa 2016-cı ildə yenidən səhnəyə qoyulmuşdur.

Naxçıvanda tarixi mədəniyyətinin nümunələrinin incilərindən biri olan Möminə Xatun türbəsinin təsviri daha bir tamaşada əksini tapmışdır (şəkil 56). Tarixi reallığı özündə əks etdirən

tamaşalardan olan Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" tamaşası 2008-ci ildə aprel ayının 10-da Cəlil Məmməd-quluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Azərbaycan dövlətinin qurucusu, dahi şəxsiyyət H.Əliyev 1997-ci ilin oktyabr ayının 10-da Dövlət Müstəqilliyi Günü münasibəti ilə demişdir: "Azərbaycan dövlət müstəqilliyi xalqımızın tarixi nailiyyətidir. Hər birimizin müqəddəs borcu müstəqil dövlətimizin qədrini bilmək, onu qorumaq, inkişaf etdirmək, dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaqdan ibarətdir". 1918-ci ildə qazanılan müstəqillikdın fərqli olaraq, 1991-ci ildə əldə edilən müstəqilliyimiz qorunub saxlanıldı. Buna Ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin xalqı arxasınca apara biləcək müdrik ideyaları, böyük siyasi iradəsi sayəsində nail olunmuşdur. Məhz bundan sonra Naxçıvana olan erməni iddialarının qarşısı alındı. "Araz sahilində doğan günəş" tamaşasının əsas sujet xətti də bundan ibarətdir. Tamaşanın tərtibatında bu kimi əsas ideyaları oxumaq mümkündür.

Tamaşanın bədii tərtibatını Əməkdar rəssam Əbülfəz Axundov hazırlamışdır. Tərtibatda ön planda Möminə xatun türbəsinin əzəmətli görünüşü, türbədən arxa fonda isə qədim Naxçıvanın binaları və Came məscidinin minarəsinin təsviri verilmişdir. Rəssam tərtibatda perspektiva məsələsinə diqqət göstərmiş, türbənin qabarıq və əzəmətli təsvirinə, şəhər mənzərəsinin uzaqdan görünməsinə rəng və texniki vasitələrdən düzgün istifadə ilə nail olmuşdur. Ulu Öndərin yuxarıdan göstərilməsi əsərin ideyasının açılması baxımında diqqətəlayiqdir. Digər səhnələrdə sujetə uyğun olaraq türbənin işıq effektləri ilə rənginin dəyişilməsi uzaqdan görünməsi maraqlı alınmışdır.

Bundan əlavə tərtibatda ən çox üstünlük verilən qəhvəyi rəngin müxtəlif çalarları tamaşaçını yormur və tamaşanın baxılmasına şərait yaradır. Tamaşa üçün hazırlanmış dekorlar, geyimlər, onlarda istifadə olunan rənglər 1921-1992-ci illərdə baş verən siyasi hadisələrin real mənzərəsini duymağa imkan verir.

Sonuncu dəfə Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" tamaşası 2024-ci ildə Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə yeni tərtibatla Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tamaşaçıların ixtiyarına verilmişdir. Tamaşanın quruluşçu rəssamı Səyyad Bayramov olmuşdur. Tamaşanın tərtibatında Möminə xatun türbəsinin realist təsviri yer almışdır.

Müasir tarixi-memarlıq abidələrin təsviri teatr-dekor sənətində realist üslubla yanaşı müxtəlif üslub xəttilə də ifadə olunmuşdur. 2018-ci ildə Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində yer alan "Xəyyam" tamaşasının tərtibatı buna nümunədir. Xalq rəssamı, professor Hüseynqulu Əliyevin bədii tərtibatında yer alan bu tamaşada əsərin müəllifi olan böyük şair, dramaturq Hüseyn Cavidin məqbərəsinin böyük ölçülü təsviri tamaşanın ümumi ideyası, estetik görünüşü və aktyorların səhnədə sərbəst hərəkəti baxımından əsas yer tutan dekorlardan idi. "Fırlanan səhnə üzərində sadə və yığcam formalı bu quruluşda Hüseyn Cavid məqbərəsinin ümumi görünüşü diqqəti cəlb edir" [88,s.79]. Tamaşanın rəssamı öz təxəyyülü və rəssamlıq istedadı ilə rənglərin, formaların bədii qüvvəsi və kompozisiya, işıq-kölgə, perspektiva, ritm kimi müxtəlif ifadə vasitələrinin köməyi ilə tamaşanın ümumi obrazını yaradır, onun ümumi ruhunu ortaya qoyaraq əsərin tam mahiyyətini açır. "Tamaşanın quruluşçu

rejissoru Mir Qabil Əkbərov, quruluşcu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovdur" [96].

Səhnə əsərindəki əsas fəlsəfi fikrin, ideyanın bədii dillə ifadəsinin daha sadə, anlaşılan olmasında, tamaşaçıya tez çatdırılmasında, eləcə də hadisələrin təsvir olunmuş mühitin, tarixi dövrün, məkanın aydın təsəvvürün yaranmasında, tamaşaçının estetik duyumuna, əhval-ruhiyyəsinə təsiri baxımından böyük rolu olan teatr rəssamlığında bu kimi təsvirlərin qabardılması təqdirəlayiqdir.



Şəkil 57. Mayis Ağabəyov. "Nəsimi" filmi üçün Əlincə qalasının eskizi

Teatr rəssamı düşüncəsi və fırçasının gücü ilə cizgilərin, formaların və rənglərin dili ilə, kompozisiya, işıq-kölgə, perspektiva, ritm kimi təsvir vasitələri ilə tamaşanın ümumi obrazını mükəmməl səviyyədə yaradaraq, əsərin tam mahiyyətini,

onun ruhunu ortaya qoyur. Nəzərdən keçirdiyimiz bu tərtibatlarda tarixi-memarlıq abidələrinin, Naxçıvanın ecazkar gözəlliklərinin təsvirinin aydın, realist boyalarla, üslub müxtəlifliyi ilə səhnə estetikasında yer alması Naxçıvanın tarixi, mühiti, təbiəti, mədəniyyəti haqqında aydın təsəvvürün yaranması, abidələrimizin tanınması, öyrənilməsi, təbliği sahəsində böyük rola malikdir.

Azərbaycanın kino sənətində Naxçıvan mühiti, tarixi, təbiəti yer almışdır. "Hürufiliyin təbliğatçılarından biri, bu ideyaların yayılmasında əvəzsiz rolu olan, Azərbaycan xalqının görkəmli şair və filosofu Nəsiminin 600 illik yubileyi ilə əlaqədar olaraq çəkilmiş "Nəsimi", eyni zamanda, Ərəb Xilafətinə qarşı Azərbaycandakı azadlıq müharibəsinə rəhbərlik etmiş böyük sərkərdə Xürrəmilər hərəkatının rəhbəri Babəkin həyatı və apardığı azadlıq mübarizəsinə həsr olunmuş "Babək", uşaqlar üçün xalq nağılının motivləri əsasında çəkilən "Əzablı yollarla", "Doğma sahillər", "Gümüş gölün əfsanəsi" filmlərinin bir çox hissələrinin çəkilişləri Naxçıvanın müxtəlif yerlərində aparılıb" [97].

1973-ci ildə Həsən Seyidbəylinin rejissorluq etdiyi Azərbaycanın dahi şəxsiyyəti İmaməddin Nəsiminin 600 illik yubileyi münasibətilə çəkilən "Nəsimi" filminin quruluşçu rəssamı Mayis Ağabəyov olmuşdur. XIV əsrin ab-havasını özündə əks etdirən bu filmdə Naxçıvan səhnəsi də yer almışdır. Tarixi əsərləri sevən rəssam bu filmə çox böyük həvəslə eskizlər yaratmışdır. "Filmdə toplu səhnələrdən birinə edilmiş eskizlərdə sərt yaxılar, kəskin və təzadlı rəng keçidləri, dinamik çalarlar, eləcə də seçilmiş məkan və orada qurulmuş dekorasıyaların eskiz variantı dövrün ağır siyası mühitini canlandırır. Çoxfiqurlu tabloda insanların çoxluğuna baxmayaraq uyğun bir nizam kompozisiyanın bütövlük

anlayışından xəbər verir. Ümumiyə tabe rəssamın filmdə səhnə yaratma prinsipallığından irəli gələrək bütün detalların tarixi dəqiqliyini təsdiqləyir" [234, s.198].



Şəkil 58.Mayis Ağabəyov. "Babək" filminin eskizi

"Nəsimi" fimində Əlincə qalasının əzəmətli görünüşü diqqəti cəlb edir. Filmə çəkilmiş eskizdə qalanı 14 il mühasirədə saxlayan Teymuriləngin çadırı və qoşunların ümumiliyi fonunda yaradılmış qala təsviri əzəməti ilə sanki xalqımızın qəhrəman və mübarizdiyinin simvolu kimi əks olunmuşdur. Canlandırılmış bu eskizdən o dövrün ümumi vəziyyətin hiss etmək olur. Bundan sonrakı dövrdə – 1979-cu ildə çəkilən "Babək" filminin də bir hissəsi Naxçıvanda çəkilir.

"Nəsimi" fimində Əlincə qalasının əzəmətli görünüşü diqqəti cəlb edir. Filmə çəkilmiş eskizdə qalanı 14 il mühasirədə saxlayan Teymuriləngin çadırı və qoşunların ümumiliyi fonunda

yaradılmış qala təsviri əzəməti ilə sanki xalqımızın qəhrəman və mübarizdiyinin simvolu kimi əks olunmuşdur. Canlandırılmış bu eskizdən o dövrün ümumi vəziyyətin hiss etmək olur.

Bundan sonrakı dövrdə – 1979-cu ildə çəkilən “Babək” filminin də bir hissəsi Naxçıvanda çəkilir. Naxçıvan tarixinin, təbiətinin, dağlarının gözəlliyinin, əzəmətinin vurğunu olan filmin rəssamı Mayis Ağabəyov eskizlərini bir hissəsini bu torpaqda yaradıb. “Xürrəmlilər hərəkatının Cavidandan sonrakı sərkərdəsi olan Babək, onun dövrü, bu dövrün ziddiyyətləri, mübarizələr və bu mübarizə meydanının təsviri və s. bütün bunlar naturadan aparılmalı idi. Ona görə məşhur kinooperator R.İsmayılovla birlikdə Naxçıvana, Culfaya yaxın yerdə yer seçilir” [1, s.37]. Mayis Ağabəyov Babək qəsrinin dekorasiyasın Dərbənddə hazırlayır. Lakin “Bəzz qalasının dekorunu hazırlamaq üçün isə bir ay yarım Naxçıvanda işləyib” [1, s .38].

Mayis Ağabəyov Naxçıvanı sevmiş, hər zaman bu torpağın gözəlliyindən, xüsusilə dağların əzəmətindən danışmışdır. İlan dağın, Əlincə qalasının vüqarlı möhtəşəm görüntüsü, günün müxtəlif vaxtlarında dəyişən sehrli gözoxşayan rənglərindən ilham almamağın mümkünsüz olduğunu qeyd edirdi.

Filmdə hadisələrin baş verdiyi mühit, tarixi dövr, məkan haqqında daha aydın təsəvvürün yaranmasında, tamaşaçının estetik duyumuna, əhval-ruhiyyəsinə təsiri baxımından böyük rolu olmasını nəzərə alaraq bu kimi təsvirlərə yer verilməsi onu daha əhəmiyyətli və yaddaqalan edir. Filmlərdə yer alan tarixi-mədəniyyət abidələri, təbiət gözəllikləri onun qədim tarixi, mühiti, təbiəti, mədəniyyəti, etnoqrafiyası haqqında aydın və geniş təsəvvürün yaranması, onların

tanınması, öyrənilməsi, təbliği, gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır.

# NƏTİCƏ

Təsviri incəsənətin geniş sahəsi olan rəngkarlıq və qrafikanın müxtəlif janrlarında Naxçıvan mövzusuna geniş yer verilmişdir. Bir-birindən dəyərli bədii, estetik, fəlsəfi tutumlu rəngkarlıq və qrafiki əsərlərində araşdırılan bu mövzu geniş bir zamanı əhatə edir. Araşdırılan mövzuda Azərbaycan təsviri incəsənətinin qədim köklərinə qısa nəzər salınsa da Naxçıvan haqqında əsrlərin təhlili 1554-cü ildə miniatür təsvirlə, realist ifadə forması isə 1812-ci ildən, müasir dövrümüzə qədərdir. Bu vaxtadək bəhs olunan mövzuya nəzərən təsviri sənətin nə qədər qədim və uzun bir inkişaf yolu keçdiyi özünü aydın şəkildə göstərir.

–Bu mövzuya bədii münasibət təkcə milli təsviri incəsənətin deyil, dünya təsviri incəsənətini də əhatə edir. Milli təsviri incəsənətdə belə təsvirlər realizmin cərəyanının yaranmasından– Bəhruz bəy Kəngərlinin yaradıcılığından başlamışdırsa, dünya təsviri incəsənətində hazırkı tədqiqatlara görə qədim yurd yeri olan Naxçıvanın realist təsviri 1812-ci ildə rast gəlinir.

–Yaradıcılığını təşkil edən realist üslubli əsərləri bu gün "tarixi sənəd" kimi çıxış edən, Azərbaycanda realizmin əsasını qoyan, onu inkişaf etdirən, ilk rəssamlıq təhsili almış naxçıvanlı rəssam Bəhruz bəy Kəngərlinin əsərlərində Naxçıvan mövzusu – tarixi-memarlıq abidələri, təbiəti, tarixi, mədəniyyəti geniş yer almışdır. Rəssam çoxlu sayda, müxtəlif görünüşdə, günün müxtəlif vaxtlarını əks etdirdiyi bu təsvirləri "Naxçıvan yadığarı" albomunda toplamışdır. Onun yaratdığı Nuh türbəsinin çox saylı təsvirləri Nuh Peyğəmbərin qəbrinin Naxçıvanda yerləşməsi

fikrinin sübutuna, Nuh türbəsinin yenidən bərpasına, onun yenidən yaradılması imkanını vermişdir.

– Sonrakı dövrlərdə Naxçıvan rəssamları Bəhruz bəy Kəngərlinin yaradıcılığında rast gəlinən realizm xüsusiyyətlərinə sadiq qalmış, bütün dövrlərdə bu ənənələri mövzu və üslub olaraq öz yaradıcılıqlarında davam etdirmişdilər.

– Müasir dövrdə müstəqil, suveren, multikultural dövlət olan Azərbaycanın xarici siyasətinin düzgün istiqaməti, xarici ölkələrlə iqtisadi, mədəni əlaqələrin möhkəmliyi nəticəsində dünya təsviri incəsənətində bu mövzuya daha çox müraciət olunmuşdur.

–Yaradılan əsərlərdə Naxçıvanın coğrafiyası, etnoqrafiyası, tarixi və mədəniyyəti realizmlə yanaşı müxtəlif üslub və texnikalarla öz ifadəsini tapmışdır. XX əsrin sonlarında təsviri sənətdə yeni üslub rəngarəngliyi Naxçıvan rəssamlarının çəkdiyi əsərlərdə öz əksini tapmışdır. Üslub müxtəlifliyi Yuran Məmmədovun, Hüseynqulu Əliyevin, Məmmədəli Ələkbərovun, Əli Səfərovun, Telman Abdinovun və başqa rəssamların yaradıcılığında mühüm yer tutur.

–Ebru əsərlərində yerli və xarici ölkə rəssamlarının yaradıcılığında bu qədim diyarın tarixi, mədəniyyəti, təbiət təsvirləri müxtəlif kompozisiyalarla yer alır.

–Azərbaycanın tanınmış rəssamlarının – S.Bəhlulzadənin, M.Rəhmanzadənin, E.Şaxtaxtınskayanın, T.Nərimanbəyovun, T.Salahovun, M.Abdullayevin, İ.Axundovun və başqa rəssamların yaradıcılığında bu mövzu realist və müxtəlif üslublarla öz ifadəsini tapmışdır.

–Milli təsviri sənətimizin miniatür ənənələrinin müasir dövr "izlərində" Naxçıvan təsvirləri geniş yer tutur.

–Naxçıvanda teatrının səhnəqrafiyasında həm realist, həm də avanqard üslubda Naxçıvan təbiət lövhələri, memarlıq abidələrinin təsviri geniş yer tutur. Əsərdə məkanın təsviri, ideyasının açılması, bədii ruhun bu təsvirlərlə tamaşaçıya çatdırılması tamaşanın təsirli və yaddaqalan olması ilə bərabər bu qədim torpağın tanıdılması və təbliği baxımından əhəmiyyətlidir. Naxçıvan təs-virli belə tərtibatlar Bəhruz bəy Kəngərlidən başlayaraq Adil Qazıyev, Şamil Qazıyev, Məmməd Qasımov, Hüseynqulu Əliyev, Əbülfəz Axundovun, Səyyad Bayramovun yaradıcılığında daha çox rast gəlinir.

–Azərbaycan kino rəssamları öz yaradıcılıqlarında Naxçıvan təbiəti, tarixi-memarlıq abidələrinin təsvirinə yer vermişdir.

–Müasir dövr Naxçıvan mövzulu təsvirlər xarici ölkə və yerli rəssamların yaradıcılığında daha çox qədimlik və müasirliyin vəhdətində əks olunmuşdur. Gənc rəssamların yaradıcılıqlarında bu mövzuya realist və müxtəlif təsvir üslublarında yanaşmışdırlar.

Dünya rəssamlarının, Azərbaycan rəssamlarının eləcə də Azərbaycanın təsviri sənətinə böyük töhvələr vermiş Naxçıvanda rəssamlarının yaradıcılığında Naxçıvanın təbiət gözəlliklərinin, coğrafiyasının, etnoqrafiyasının, tarixi və mədəniyyətinin təsviri, bu qədim torpaq haqqında aydın təsəvvürün yaranması, tarixi və mədəniyyətinin tanınması, öyrənilməsi, dünyada təbliği baxımından böyük rola malikdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1.Abdullayev V. Mayıs Ağabəyov. Xəyali rənglər işığında. Bakı: Aspoliqraf, 2011, 140 s.
2.Ağayev E. Asif Azərelli yaradıcılığında mənzərə janrı. // AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, İncəsənət və mədəniyyət problemləri. №3 (69) 2019 s.80-85
3.Allahverdiyeva H.R. Naxçıvan Teatrının səhnəqrafiyası. Naxçıvan: Əcəmi NPB, 2022, 236 s.
4.Allahverdiyeva H. Rəngkarlığın əsasları. Naxçıvan: Əcəmi NPB, 2022,168 s.
5.Azərbaycanın görkəmli şəxsiyyətləri. Səttar Bəhlulzadə biblioqrafiya. Bakı: 2009,181 s.
6. Bəhruz Kəngərli. Azərbaycan Turizm və Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Bakı: 2012, 69 s.
7. Bəhruz Kəngərli. Albom-kataloq. Naxçıvan: Əcəmi NPB, 2012, 202 s.
8.Baxşəliyev V, Seyidov A. Qədim Culfa. Naxçıvan: 2020, Əcəmi NPB, 176 s.
9.Cəfərli M, Qəhrəmanov Ə. Rənglər dünyasını yaşadan sənətkar. Bakı, “Nəbz qəzeti”, 2012, 1 oktyabr
10.Daşdəmirli Ədalət. Rənglər dünyasının sultanı. Bakı, “Azərbaycan müəllimi” qəzeti, 2011,14 yanvar
11. Elmira Şaxtaxtınskaya “Sərvət” albomlar silsiləsi. Bakı: 2013,104 s.
12.Əhmədov S. Rus rəssamı İ.P.Şeblıkinin əsərlərində Naxçıvan. Naxçıvan , “Şərq qapısı” qəzeti, 2014, 21 may
13.Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2017,397s.
14. Əfəndiyev T. Çağdaş teatr prosesləri: zaman müstəvisində baxış (teatr və rəssamlıq). “525-ci” qəzet. Bakı, 2014, 10 mart

15. Əliyev Z. və Alıyev N. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan: Əcəmi NPB, 2017, 512 s.
16. Əliyev Z. Günahlı dünyanın günahsız adamı və yaxud Səttar Bəhlulzadə romantizmi. Bakı: "Kitab TimePrint", 2014, 232 s.
17.Əliyev Z. "Sakit"liyin poetikası. Xalq rəssamı Cəlil Hüseynovun yaradıcılığının estetikası haqqında. "Kaspi" qəzeti, Bakı, 2018, 27-29 oktyabr, s.24.
18. Əliyev H.Ə., Məmmədova L.A. Təsviri incəsənət nəzəriyyəsi. Naxçıvan: Əcəmi NPB, 2007. 245 s.
19.Əliyev H.Ə., Məmmədova L.A..Heykəltaraşlıq və rəngkarlıqda insan gözəlliyinin təcəssümü. Naxçıvan: Əcəmi NPB, 2017, 301s.
20. Əlincə qalası. Naxçıvan: "Əcəmi" NPB, 2016, 160s.
21. Əkbər M ."Səyavuş"."Şərq qapısı" qəzeti, Naxçıvan, 1962, 21 mart
22. Əsgərova N. Rənglər dünyasına bağlanan ömür. "Şərq qapısı" qəzeti. Naxçıvan, 2017,11avqust
23. Fərzəliyev Ç.Ə. Natürmort janrı haqqında. Bakı: 2003, 118 s.
24. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2010) Naxçıvan: Əcəmi NPB,2011, 272 s.
25. Həbibbəyli İ.Ə. Naxçıvan ədəbi-ictimai mühitdə Şərq və Qərb. //AMEA-nın Xəbərləri, Hümanitar elmlər seryası. 2004, №3,s.5-10
26. Heydər Əliyev: Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar. Bakı: Azərnəşr, 2004, 354s.
27.Həsənəliyeva Ş. "Əli Səfərlinin rənglər dünyası". "Şərq qapısı" qəzeti. Naxçıvan, 2006, 07 dekabr
28. Həsənli Ü. "Rənglərə boyanmış ömür". "Nuh yurdu" qəzeti. Naxçıvan, 2005, 30 iyun
29. Xəlilov.Ə.T. Naxçıvan Teatrının tarixi. Bakı: Azərbaycan Teatr Cəmiyyəti, 1964, 93s.

30. Xəlilov Y. Möminə Xatun türbəsi ilə bağlı yeni tapıntı . "525-ci qəzet". Bakı, 2021, 25 aprel
31.İncəsənət almanaxı, III cild. Bakı: AMEA-nın nəşri. 1950, 205s.
32. İbrahim Safi, albom-kataloq. Naxçıvan: Əcəmi NPB, 2020, 367s.
33. İsmayılova N. Dünənin məktəbi bu günün abidəsidir. "Şərq qapısı" qəzeti, Naxçıvan, 2017, 3 fevral
34. Kazımzadə Aydın. "Bizim Azərbaycanfilm", Bakı: "Mütərcim", 2004, 356 s.
35. Kərimov K.M. Bəhruz Kəngərli. Bakı: AMEA-nın nəşri, 1962, 103 s.
36. Kərimov İ. S. "Məhsəti". "Azərbaycan müəllimi" qəzeti, Bakı, 1965, 20 iyun
37. Kəlbizadə E. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı). Naxçıvan: Əcəmi NPB, 2016, 200 s.
38. Qasımov Ə.M. Milli teatrımızın yaranma günü, yaxud Naxçıvan teatrının neçə yaşı var ?!. Bakı: "Qobustan" jurnalı, №2. 2007, s.62-66.
39. Qasımov Ə. M."Ölülərin" ilk səhnə həyatı, yaxud məşhur tragikomedya birinci dəfə nə vaxt və harada tamaşaya qoyulmuşdur. // "Qobustan" . Bakı: 2008, №1, s.54
40. Qasımov Ə. M. Bir rəssam vardı. "Şərq qapısı"qəzeti, Naxçıvan, 2005, 5 aprel.
41. Qazıyev Ş. "Günəş doğur" tamaşası. "Şərq qapısı" qəzeti, Naxçıvan, 1946, 20 noyabr.
42. Qədirzadə Hacı Qadir. Əshabi-Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi. Bakı: "Elm", 2002, 112 s.
43. Qəhrəmanov Ə. K. Səməd Vurğunun əsərlərinə rəssam Məmməd Qasımovun verdiyi tərtibat haqqında. "Şərq qapısı" qəzeti, Naxçıvan, 2003, 21 may.
44. Qəhrəmanov Ə. K. Görkəmli və fədakar teatr rəssamı. "Nuh yurdu" qəzeti, Naxçıvan, 2009, 5 avqust.

45. Qəhrəmov Ə.K., İbrahimov S.,Cəfərov F. Naxçıvan teatrının salnaməsi (1883-2008). Naxçıvan: 2010, 736s.
46. Qəhrəmanov Ə.K. Azərbaycanın ilk peşəkar rəssamı: Bəhruz Kəngərli. // AMEA Naxçıvan bölməsinin Xəbərləri, Naxçıvan, Tusi, 2012, №3,s. 234-241.
47. Qəhrəmanov Ə.K. Naxçıvan teatrı intibah yollarında (1883-1920), Bakı: MBM, 2008, 160s.
48. Qəhrəmov Ə.K. Naxçıvan teatrı intibah yollarında (1991-2008), Bakı: MBM, 2008, 91s.
49. Qəhrəmanov Ə.K. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: Nurlan, 2004, 414 s.
50. Qəhrəmov Ə.K. Cəfərli M. Naxçıvan rəssamlıq məktəbinin yetirməsi. // AMEA Naxçıvan bölməsi, "Xəbərlər", Hümanitar elmlər seriyası. Naxçıvan: Tusi 2013, №1(№7) s.82-87.
51. Qənimət Əlisaoğlu. Ömrün zirvəsi. Bakı, Araz, 2000. 192 s.
52.Qəzənfər Xalıqov, Salam Salamzadə, İsmayıl Axundov. "Sərvət" albomlar silsiləsi. Bakı: 2013.104s.
53. Quliyev Əsəd. Kirman Abdin Yaradıcılığının daha bir uğurlu səhifəsi rəssamın "İsinsin azacıq bu daş duyğular" sərgisi ilə bağlı qeydlər. "525-ci qəzet", Bakı, 2016, 14 may
54. Quliyev Əsəd. Azərbaycan rəssamlığında uca bir ünvan. "525-ci qəzet". Bakı, 2016, 27 iyul
55. Maral Rəhmanzadə "Sərvət" albomlar silsiləsi. Bakı: 2013, 104 s.
56. Mehdiyev N. Teatrın semiotikası. // "Qobustan" jurnalı, Bakı:1987, № 2, s. 2-4.
57. Mehdiyeva T. Mircəlil Seyidovun rənglər dünyası, Naxçıvan: Əcəmi, 2011, 79s.
58. Mehdiyeva T.Ə. Qəribə taleli insan. "Şərq qapısı" qəzeti. Naxçıvan, 2004.
59. Məmmədova L.A. Təsviri sənət məbədi muzeylər. Naxçıvan: Əcəmi, 2022, 224s.

60. Mirzəbəyli İttifaq. “Xalq” qəzeti. Bakı, 2009, 29 iyul, s.6.
61.Mirzəzadə Ofelya. “Biz inanırıq ki...”.Qobustan, Bakı, 2000
62. Naxçıvan Ensiklopediyası, AMEA-nın Naxçıvan Bölməsi; Bakı: 2002, 365 s.
63. Naxçıvan abidələri Ensiklopediyası, AMEA-nın Naxçıvan Bölməsi; Bakı: 2008, 520 s.
64. Naxçıvan bəşəriyyətin beşiyi. I-beynəlxalq rəsm festivalı. Kataloq. Naxçıvan: Əcəmi NPB, 2012, 32s.
65. “Naxçıvan-bəşəriyyətin beşiyi” II Beynəlxalq Rəsm Festivalı. Kataloq. Naxçıvan: Əcəmi NPB, 2014. 48s.
66. “Naxçıvan –Bəşəriyyətin beşiyi” III-beynəlxalq rəsm festivalı. Albom-kataloq. Naxçıvan: Əcəmi NPB, 2016, 80 s.
67. “Naxçıvan – Bəşəriyyətin beşiyi” V-beynəlxalq rəsm festivalı. Albom-kataloq. Naxçıvan: Əcəmi NPB, 2021,80s.
68. “Naxçıvan-bəşəriyyətin beşiyi”. VI beynəlxalq rəsm festivalı Kataloq. Naxçıvan. 2023. Əcəmi, 82s
69. Naxçıvan. Naxçıvan: Əcəmi NPB, 2010. 64s.
70.Naxçıvan rəssamlarının ensklopediyası. Naxçıvan: Əcəmi NPB, 2022,157s.
71.Rəhimli İlham. Səttar dünyası. Bakı: İşıq, 1990, 176 s.
72. Rəssam Telman Abdinov, Palitraya sığmayan rənglər. Albom-kataloq.32s.
73.Razi H.“Ölülər”lə görüş. “Şərq qapısı” qəzeti, Naxçıvan, 1977, 15 iyun
74. Rəhimli İ.Ə., Vəzirov C.H. Naxçıvan teatrı. Bakı: Aspoliqraf, 2008, 350 s.
75.Rəhimov Nizami Azərbaycan Xalq Rəssamı Toğrul Nərimanbəyovun Tarix Muzeyindəki əsərləri haqqında. “Şərq qapısı” qəzeti, Naxçıvan, 2017, 8 fevral
76. Sadıqoğlu A. Naxçıvan təbiətinin ecazkarlığını sənətdə yaşadan rəssam. “Xalq” qəzeti, Bakı, 2014, 16 may.

77.Sadıxova S. Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı. Sənətşünasliq ü.f.dok.dissertasiyası. Bakı, 2018, s.
78.Sadıxova Səyyarə. Xalq rəssamı Hüseynqulu Əliyevin sənət dünyası. Naxçıvan: Əcəmi, 2019, 176 s.
79.Səttar Bəhlulzadə. “Sərvət” albomlar silsiləsi. Bakı: 2013.104s
80.Sərdarqızı Təranə. Azərbaycan təbiəti–bənzərsiz rənglər aləmi. “Mədəniyyət” qəzeti. Bakı, 2010, 28 aprel
81.Səfərov Əli. Kataloq.Bakı: 1967. 28 s.
82. Şamil Qazıyev, Naxçıvan: Əcəmi NPB, 2010, 63s.
83. Şıxəliyeva S. Azərbaycan təsviri sənətində qadın rəssamlar. “Mədəniyyət” qəzeti. Bakı, 2017, 10 mart
84. Toğrul Nərimanbəyovn “Sərvət” albomlar silsiləsi. Bakı, 2013, 104s.
85. Vəzirov C. və Həbibbəyli İ. Tarixi mövzu və müasirlik. “Şərq qapısı”, Naxçıvan, 1983, 26 oktyabr

**Rus dilində**

86. Аллахвердиева Х.Р. Творчество Юрана Мамедова в Нахчыванском театраьном художничестве. Успехи современной Науки и образования. №4.Т.6. Москва:2017, с.112-116.
87. Аллахвердиева Х.Р. Древний и современный Нахчыван в творчестве художников мира. Проблемы науки. № 2(61). Российский импакт-фактор: 0,17 Научно-методический журнал. Москва: 2021 год,с.52-58
88.Аллахвердиева Х.Р. Artistic reflection of historical and architectural monuments in theatrial decorative art. Науковий журнал, “Молодий вчений”. № 3(103) Украина: Херсон. 2022, с.75-79.
89.Тахир Салахов. Ленинград: Аврора. 1980 год, 216с.
90.Памятники азербайджанского зодчества эпохи Низами (материалы) Щеблыкин И.П. АзФАН. Баку. 1943, 95с

**Fransız dilində**

91.Eduard Şarton. Le Tour de Monde. Paris: “Lahur”, 1891,423s.
92. Jane Dieulafoy. La Perse, la Chaldée et la Susiane. 1887

**İnternet resursları**

93.az.wikipedia.org/wiki/Ordubad
94.az.wikipedia.org/wiki/Malik_%C4%B0brahim_piri
95.https://nuhcixan.az/news/medeniyyet-turizm/-gemiqaya-abidesi-qedim-naxcivanin-minillik-tarixinin-yasadildigimekandan
96.https://naxcivanxeberleri.com/public/index.php/bloq/araz-sahilinde-dogan-gunes-tamasasi-ictimaiyyete-teqdim-olunub
97.https://nuhcixan.az/news/medeniyyet-turizm/18612-azerbaycan-kinosu-venaxcivan
98.https://ntv.az/news/medeniyyet-turizm/50270-torpagi-gunesi-semani-ceken-ressam-sabir-qedimov
99.https://etikxeber.az/r-dunyasinin-ilahsi-maral-rhmanza-pasayeva-yazir/
100.https://525.az/news/14438-ehsan-xan-kengerli-naxcivanski-herbi-ressam-maskovun-resm-eserinde.
101.nrb.nakhchivan.az
102. senet.az./Telman Abdinovun fərdi sərgisi keçiriləcək/.
103.https://azertag.az/xeber/Gorkemli_ressam_Ayyub_Huseynovun_yubiley_sergisi_
104. heydaraliyev-centers.az
105. az.newmediator.org
106. https://www.testbook.az/proverb/aphorism
107.https://medeniyyet.az/page/news/50431/Naxcivan-tarixi-renglerin-isiginda.html
108.nuhcixan.az/news/resmi-xronika/1555-naxci

109.https://medeniyyet.az/page/news/44369/Islam-medeniyyetinin-paytaxtinda-beynelxalq-resm-festivali.html
110.https://azertag.az/xeber/naxchivan_beseriyyetin_besiyi_v_beynelxalq_resm_festivalinda_40_dan_chox_taninmis_ressam_istirak_edir-1788885
111.https://manera.az/
112. https://inlibris.com/item/bn53767/
113. https://jamesfitzjames.com/euphrates-expedition-drawings
114.https://de.wikisource.org/wiki/Vom_Kaukasus_zum_Persischen_Meerbusen/Nakhitschewan.

# MÜNDƏRİCAT

**ÖN SÖZ**..........................................................................................5
**GİRİŞ**.............................................................................................10

**I FƏSİL**

**Xarici ölkə rəssamlarının yaradıcılığında Naxçıvan mövzusu** **……………………………………………………………….**15

**I.1**.Xarici ölkə rəssamlarının yaradıcılığında Naxçıvan təbiəti, tarixi və mədəniyyəti miniatür və realizm işığında…...…………..16

**I.2**. Müasir dövr xarici ölkə rəssamlarının yaradıcılığında Naxçıvan janr və üslub müxtəlifliyi aspektində....................................65

**II FƏSİL**

**Naxçıvanlı rəssamların yaradıcılığının janr və üslub müxtəlifliyində doğma diyar**...............................................................87

**II.1**.Bəhruz bəy Kəngərli yaradıcılığında Naxçıvan əsas mövzu kimi................................................................................... 88

**II.2**. Bəhruz bəy Kəngərlidən sonra naxçıvanlı rəssamların yaradıcılığında realist ənənələrin inkişafı. Naxçıvan mövzusu tematik tabo janrında (1920-1950)........................................................95

**II.3**. Naxçıvan rəssamlarının üslub müxtəlifliyində doğma yurdun təbiəti, tarixi-memarlıq abidələri və portret obrazları. Naxçıvan qədim və müasirliyin vəhdətində...............................................108

**III FƏSİL**

**XX əsr və XXI əsrin əvvəllərində Azərbaycanın rəngkarlıq, qrafika və teatr-dekorasiya sənətində Naxçıvan**...........…..185

**III.1.**Azərbaycanın tanınmış rəssamlarının yaradıcılığında Naxçıvan təbiəti və tarixi-mədəniyyət abidələri ..................................186
**III.2.**Naxçıvanın təbiəti, tarixi-mədəniyyət abidələri teatr-dekorasiya və kino sənətində ..........................................................250
**NƏTİCƏ** ........................................................................... 268
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ...................................271

**HƏBİBƏ ALLAHVERDİYEVA**

# NAXÇIVAN MÖVZUSU RƏNGKARLIQ VƏ QRAFİKADA

Çapa imzalanmış 27.05.2025.
Formatı 70X50 1/6. “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 17,5 ç.v.

Sifariş № 143 Tiraj 30 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.

HƏBİBƏ ALLAHVERDİYEVA

# NAXÇIVAN

MÖVZUSU RƏNGKARLIQ VƏ QRAFİKADA

